# AZƏRBAYCAN DİLİ

## 4

*tədris dili*

*metodik vəsait*






LAYİHƏ

2019-011

AZƏRBAYCAN DİLİ *tədris dili*

4

METODİK VƏSAİT

*Rafiq İsmayılov*
*Solmaz Abdullayeva*
*Xanım Qasımova*

Ümumtəhsil məktəblərinin

# Azərbaycan dili 4

-cü sinfi üçün

(tədris dili kimi) fənni üzrə dərsliyinin

# Metodik vəsaiti

LAYİHƏ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
altunkitab2004@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

altun kitab

*Rafiq İsmayılov*
*Solmaz Abdullayeva*
*Xanım Qasımova*

**AZƏRBAYCAN DİLİ (4-cü sinif). Müəllim üçün metodik vəsait**
Bakı: "Altun kitab", 2019. 240 səh.

Redaktor: *Nigar Həbibova*

Bədii tərtibat: *Rəşad Nəbiyev*

Korrektor: *Aqşin Məsimov*

LAYİHƏ

# İÇİNDƏKİLƏR

## GİRİŞ

1. “Azərbaycan dili” dərslik komplekti ......................................4-5

2. Məzmun standartları ...........................................................5
2.1. Dinləmə bacarığı üzrə məzmun standartları və təlim məqsədləri....5-6
2.2. Danışma bacarığı üzrə məzmun standartları və təlim məqsədləri...6-7
2.3. Oxu bacarığı üzrə məzmun standartları və təlim məqsədləri .........7-10
2.4. Yazı bacarığı üzrə məzmun standartları və təlim məqsədləri .........10-11
2.5. Dil qaydaları üzrə məzmun standartları və təlim məqsədləri ..........11-13

3. Qiymətləndirmə.....................................................................13-14

4. Müəllim üçün əlavə resurslar ................................................ 15

## DƏRSLƏRİN SAATLAR ÜZRƏ BÖLGÜSÜ

*(bu hissədə hər bölmənin əvvəlində dərslik komplekti üzrə ümumi mündəricat əks olunur)*

I bölmə. **Ailə və məktəb** ..................................................................16-43
II bölmə. **Niyə belə deyirik** .............................................................. 44-70
III bölmə. **Əməksevərlik** ................................................................... 71-95
IV bölmə. **Yüz min niyə** .................................................................... 96-130
V bölmə. **Dostluq** ............................................................................. 131-153
VI bölmə. **Ana təbiət** ....................................................................... 154-181
VII bölmə. **Əxlaqi dəyərlər** .............................................................. 182-209
VIII bölmə. **Kainatın sirləri** .............................................................. 210-239

LAYİHƏ

# GİRİŞ

## "AZƏRBAYCAN DİLİ" DƏRSLİK KOMPLEKTİ

Təqdim olunan dərslik komplekti mövzuların tədrisi və qiymətləndirilməsi baxımından bir-birini tamamlayan iki kitabdan ibarətdir: 1) dərslik, 2) müəllim üçün metodik vəsait (MMV).

4-cü sinifdə Azərbaycan dilinin tədrisinin 8 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr şəklində təqdim olunmuşdur. Hər bölmə 10-16 dərs, hər dərs 2-8 saat üçün nəzərdə tutulmuşdur. Beləliklə, dərslik komplekti 340 saat üçün nəzərdə tutulmuş 104 dərsdən ibarətdir.

| Dərs ayı | Bölmələr | Dərs həftəsi | Dərs sayı | Saat sayı |
|---|---|---|---|---|
| I | Ailə və məktəb | 4 | 10 | 40 |
| II | Niyə belə deyirik | 4,6 | 14 | 46 |
| III | Əməksevərlik | 4,4 | 13 | 44 |
| IV | Yüz min niyə | 4,6 | 16 | 46 |
| V | Dostluq | 4,4 | 13 | 44 |
| VI | Ana təbiət | 4 | 14 | 40 |
| VII | Əxlaqi dəyərlər | 4 | 13 | 40 |
| VIII | Kainatın sirləri | 4 | 10 | 40 |
| **Cəmi** | | **34** | **103** | **340** |

Bölmələrdə təqdim olunan oxu və dinləmə mətnləri, eləcə də danışma və yazı fəaliyyətləri müvafiq bölmənin mövzusu ilə bağlıdır. Hər bir dərs dərslikdə verilmiş müəyyən mətnlə bağlı olduğundan dərslərin mövzusu həmin mətnin adı ilə eynidir.

Hər bir dərs bir deyil, bir neçə məzmun xətti (dinləyib anlama və danışma, oxu, yazı, dil qaydaları) üzrə fəaliyyəti əhatə edə bilər. Dərs vaxtının həmin fəaliyyət istiqamətləri üzrə bölüşdürülməsi, təqdim edilən sual və çalışmaların sinifdə yerinə yetirilməsi, yoxsa evə tapşırılması müəllimin öhdəsinə buraxılır. Dərslik komplektinin əsas vəzifəsi "Ana dili kurikulumu"nda təsbit olunmuş məzmun standartlarının tədrisdə reallaşdırılması üçün yetərincə material təqdim etməkdir. Bununla yanaşı, müəlliflərin fikrincə, ev tapşırığı kimi araşdırma və layihələr üzrə işlərin verilməsi daha məqsədəuyğundur.

Hər həftənin sonunda sinifdənxaric oxu dərslərinin keçirilməsi nəzərdə tutulur. Sinifdənxaric oxu dərslərinin təşkili forması da müəllimlərin öz öhdəsinə buraxılır. Dərslikdə verilmiş istənilən mətni və ya məktəb kitabxanasında şagirdlərin yaş səviyyəsinə uyğun olan hər hansı bədii kitabı bu məqsədlə istifadə etmək olar. Bu halda həmin mətn evdə oxumaq üçün tapşırıla bilər. Mətn üzrə iş isə sinifdə müəllimin tərtib etdiyi sual və tapşırıqlar əsasında yerinə yetirilə bilər.

Yazıçı və şairlərin bəzi əsərləri dərslikdə müvafiq yaş qrupu üçün uyğunlaşdırılmışdır. Dərs zamanı şagirdlərdə müəyyən psixoloji narahatlıq, sarsıntı, lazımsız reaksiya yarada biləcək məqamlar ixtisar edilmiş və ya dəyişdirilmişdir. Bundan başqa, əsərlərin adaptasiyası zamanı şagirdlərin söz ehtiyatı, intellektual səviyyəsi və nəhayət, məzmun standartından doğan təlim məqsədi nəzərə alınmışdır.

Dərslikdə bir sıra mətnlərin müəllifi göstərilmir. Bunlar, əsasən, şifahi xalq ədəbiyyatı nümunələridir.

LAYİHƏ

Dərslik komplektində təqdim olunmuş tədris materialları komponentlər üzrə aşağıdakı kimi bölüşdürülmüşdür:

## MƏZMUN STANDARTLARI

| **Dərslik** | **Müəllim üçün metodik vəsait** |
|---|---|
| 1. Oxu üçün nəzərdə tutulmuş mətnlər.<br>2. Dil qaydaları üzrə sadə nəzəri materiallar.<br>3. Sual və tapşırıqlar. | 1. Dərslikdə verilmiş materialların dərslər üzrə bölgüsü və hər bir dərs üçün nəzərdə tutulmuş təlim məqsədləri.<br>2. Dinləmə mətnləri.<br>3. Materialların müasir təlim texnologiyalarına uyğun tədrisi üzrə metodik tövsiyələr.<br>4. Dərsin səmərəli təşkili üçün əlavə sual və tapşırıqlar.<br>5. Dərslik və iş dəftərində verilmiş bəzi tapşırıqların cavabları.<br>6. Formativ və kiçik summativ qiymətləndirmə materialları. |

Müəllim üçün metodik vəsaitdə verilmiş sual və tapşırıqların əksəriyyəti, eləcə də qiymətləndirmə materialları tətbiqetmə fəaliyyətinin daha səmərəli qurulmasına xidmət edən iş dəftərində də öz əksini tapmışdır. Məlumdur ki, dərsliklər bir neçə il üçün nəzərdə tutulduğundan burada yazılı qeydlər etmək olmaz. Buna görə də şagirdlərin işləməsi üçün daha rahat dizaynda tərtib olunmuş iş dəftərində oxu və dinləmə mətnləri üzrə çalışmalar, yazı üzrə alt-standartların reallaşdırılması üçün tapşırıqlar, eləcə də formativ və kiçik summativ qiymətləndirmə materialları təqdim edilmişdir. Müəllim dərs prosesində buradakı tapşırıqlardan da istifadə edə bilər.

Bu vəsaitdə dərslik müəlliflərinin qarşısında duran əsas vəzifələrdən biri kurikulumda təsbit olunmuş məzmun standartlarının tədris prosesində reallaşdırılması yollarını açıqlamaqdır. Hər dərs bir neçə alt-standartın reallaşdırılmasına xidmət edir. Dərslərdə qoyulan təlim məqsədləri – gözlənilən şagird nailiyyətləri məzmun standartlarına doğru aparan addımlardır.

Aşağıdakı təsnifatda hər bir məzmun standartının tədris prosesində hansı yollarla (təlim məqsədləri ilə) açıqlandığı (reallaşdırıldığı) göstərilir.

## 1. DİNLƏYİB ANLAMA VƏ DANIŞMA

Şagird:

**1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.**

1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir.

Təlim məqsədləri:

- Debat zamanı qarşı tərəfin fikirlərini ümumiləşdirərək əks-arqumentlər gətirir.
- Dinlədiyi mətnlərdəki eyni faktlar üzrə müxtəlif fikirləri ümumiləşdirir.
- Dinlədiyi elmi məlumatları ümumiləşdirərək qrafik informasiya şəklinə salır.
- Dinlədiyi mətndəki elmi məlumatları ümumiləşdirərək cədvəl şəklində təqdim edir.
- Dinlədiyi əsərdəki obraz və hadisələr haqqında müxtəlif fikirləri ümumiləşdirərək yekun nəticəyə gəlir.
- Oxuduğu və dinlədiyi eyni mövzuda məlumatları ümumiləşdirərək təqdim edir.
- Dinlədiyi və oxuduğu mətnləri müqayisə edərək ümumi cəhətlərini müəyyənləşdirir.
- Dinlədiyi və oxuduğu mətnlər arasında ideya yaxınlığını müəyyən edir.
- Dinlədiyi mətnlərdəki eyni faktlar üzrə müxtəlif fikirləri ümumiləşdirir.

LAYİHƏ

1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir.

Təlim məqsədləri:

- Dinlədiyi elmi-kütləvi mətni topladığı məlumatlarla zənginləşdirir.
- Dinlədiyi şeirdəki obrazlı ifadələri şərh edir.
- Dinlədiyi mətndə natamam qalmış məlumatı öz versiyası ilə tamamlayır.
- Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir.
- Dinlədiyi mətni məntiqi sonluqla bitirir.
- Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir.
- Dinlədiyi mətnə öz versiya və düşüncələrini əlavə etməklə araşdırma xarakterli təqdimat edir.
- Dinlədiyi mətnə ixtisar və əlavələr etməklə məzmununu yaradıcı şəkildə şərh edir.
- Dinlədiyi mətnə öz fikirlərini əlavə etməklə genişləndirir.

Şagird:

**1.2. Şifahi nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir.**

1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir.

Təlim məqsədləri:

- Verilmiş qrafik informasiyanı (barqrafı, diaqramı) şifahi şəkildə şərh edir.
- Oxuduğu və dinlədiyi mətnlərdəki məlumatları müqayisə edir, ümumiləşdirərək məruzə ilə çıxış edir.
- Dinlədiyi və oxuduğu mətnləri ümumiləşdirərək kiçik mətn təqdim edir.
- Nəsihətamiz fikri eşitdiyi və ya müşahidə etdiyi hadisələrlə bağlayaraq mühakimə xarakterli fikirlər söyləyir.
- Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür.
- Oxuduğu mətnlər haqqında təəssüratlarını bölüşür.
- Oxuduğu və ya dinlədiyi əsərlə bağlı fikirlərini müdafiə etmək üçün arqumentlər gətirir.
- Oxuduğu mətndəki qəhrəmanları xarakterizə edir.
- Başqalarının hərəkətlərini təhlil etməklə onlara öz münasibətini bildirir.
- Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır.
- Verilmiş atalar sözünü öz düşüncələri ilə zənginləşdirərək mətn qurub danışır.
- Verilmiş kəlamı başlıq kimi seçərək mətn qurur.
- Kompozisiyalı şəkil əsasında mətn qurub danışır.
- Atalar sözünü həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək əsaslandırır.
- Oxuduğu və ya dinlədiyi mətnin ideyası ilə bağlı mühakimə xarakterli fikirlər irəli sürür.
- Eşitdiyi və oxuduğu hadisələrin səbəblərini araşdırmaq məqsədilə kiçik təqdimatlar edir.
- Müəyyən elmi məlumatları mənimsəməklə qoyulmuş suallara aydınlıq gətirir.
- Oxuduğu mətnin ideyasından bəhrələnərək eyni mövzuda mətn qurub təqdim edir.
- Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir.
- Verilmiş elmi mövzu ilə bağlı bədii mətn quraraq şifahi şəkildə təqdim edir.
- Eşitdiyi və oxuduğu inanclar haqqında mühakimə xarakterli fikirlər irəli sürür.
- Eyni mövzu ilə bağlı bədii və elmi-kütləvi mətnlərdəki məlumatları müqayisə edir, ümumiləşdirir və təqdim edir.
- Başqalarının hərəkətlərini təhlil etməklə onlara öz münasibətini bildirir.
- Aldığı məlumatları qrafik informasiya şəklində təqdim edir.
- Dinlədiklərini və oxuduqlarını ümumiləşdirərək müvafiq mövzuda məruzə hazırlayıb təqdim edir.
- Dinlədiyi əsərdəki obraz və hadisələr haqqında fikirləri ümumiləşdirərək yekun nəticəyə gəlir.

LAYİHƏ

- Problemli situasiyadan çıxış yolu ilə bağlı tədbirlər planını təqdim edir.
- Oxuduqlarını həyat haqqında düşüncələri ilə əlaqələndirərək təqdimat edir.
- Müəyyən mövzu ilə bağlı eşitdiyi, oxuduğu, araşdırdığı faktlar barədə məruzə hazırlayıb təqdim edir.

1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir.

Təlim məqsədləri:

- Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək ssenari yazır və səhnələşdirir.
- Oxuduğu mətnin davamını təxəyyülünə uyğun dialoji mətn qurmaqla təqdim edir.
- Nəsr əsərini dram əsərinə çevirərək səhnələşdirilmiş şəkildə təqdim edir.
- Oxuduğu dialoji mətni genişləndirərək ssenari qurub təqdim edir.
- Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək mətn qurur və təqdim edir.

1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədilə məzmuna müvafiq jest və mimikalardan istifadə edir.

Təlim məqsədləri:

- Rollu oyun zamanı jest və mikalardan istifadə edir.
- Mətndəki obrazların nitqini səsləndirərkən onların xarakterinə uyğun intonasiya, jest və mimikalardan istifadə edir.
- Verilmiş mövzuya uyğun mətn qurub jest və mimikalardan istifadə etməklə nəql edir.
- Verilmiş mövzu ilə bağlı mətn hazırlayaraq obrazlı və emosional şəkildə təqdim edir.
- Debat və müzakirələr zamanı nitqini təsirli etmək üçün jest və mimikalardan istifadə etməklə nəql edir.

**2. OXU**

Şagird:

**2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir.**

2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir.

Təlim məqsədləri:

- Rast gəldiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir.
- Mətndə rast gəldiyi yeni sözləri kontekstə əsasən izah edir.
- Mətndə rast gəldiyi sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir.
- Öyrəndiyi yeni sözlərin mənasını təxmin edir, lüğət vasitəsilə dəqiqləşdirir.
- Eyni cür yazılan müxtəlif mənalı sözlərlə cümlələr qurur.
- Eyni cür yazılan müxtəlif mənalı sözlərin mənasını kontekstə görə izah edir.
- Kontekstə görə sözlərin mənalarını fərqləndirir və yaxınmənalı sözlərlə əvəz edir.

2.1.2. Mətndəki terminləri fərqləndirir.

Təlim məqsədləri:

- Mətndə rast gəldiyi terminləri kontekstə əsasən izah edir.
- Terminləri cümlələrdə mənasına uyğun işlədir.
- Öyrəndiyi yeni terminlərin hansı sahəyə aid olduğunu müəyyən edir.
- Müəyyən sahəyə aid söz və terminlərin izahlı lüğətini tərtib edir.
- Elmi mətndə rast gəldiyi terminləri kontekstə əsasən izah edir.
- Öyrəndiyi yeni terminlərin mənasını təxmin edir, lüğət vasitəsilə dəqiqləşdirir.
- Oxuduğu mətndəki yeni adların və terminlərin mənasını dəqiqləşdirib təqdim edir.

LAYİHƏ

- Mətndə rast gəldiyi yeni söz və terminləri kontekstə əsasən izah edir.
- Öyrəndiyi yeni terminləri cümlələrdə işlədir.
- Rast gəldiyi yeni terminlərin kiçik izahlı lüğətini tərtib edir.

2.1.3. Mətndəki obrazlı  ifadələri fərqləndirir.
- Mətndə rast gəldiyi obrazlı ifadələri kontekstə əsasən izah edir.
- Obrazlı ifadənin mənasını izah edir.
- Mətndəki bədii ifadə vasitələrini müəyyənləşdirir və izah edir.
- Obrazlı ifadənin mətnə uyğun mənasını müəyyənləşdirir.
- İfadənin həqiqi və məcazi mənaları arasındakı fərqi müəyyənləşdirir.
- Obrazlı ifadədə məcazi mənalı sözü müəyyənləşdirir.
- Obrazlı ifadələri (frazeologizmləri) həqiqi mənalı qarşılıqları ilə əvəz edir.

Şagird:
**2.2.  Şagird oxu vərdişlərinə yiyələndiyini nümayiş etdirir.**
2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur.
Təlim məqsədləri:
- Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir.
- Şeiri qəhrəmanın emosional vəziyyətinə uyğun intonasiya ilə oxuyur.
- Şeiri ifadəli və emosional şəkildə oxuyur.
- Qəhrəmanların nitqini onların xarakterinə uyğun səsləndirməklə bədii əsəri ifadəli oxuyur.
- Şeiri oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir.

2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir.
Təlim məqsədləri:
- Oxuduğu mətndəki məlumatları mənimsəyir və gəldiyi nəticəni təqdim edir.
- Oxuduğu bədii mətnin hekayə xəritəsini qurur.
- Oxuduğu bədii mətn parçasını təfsilatı ilə nəql edir.
- Mətndəki fikirləri mənimsədiyini nümayiş etdirir.
- Mətnin məzmununu mənimsədiyini nümayiş etdirir.
- Oxuduğu elmi-kütləvi mətndən çıxan nəticəni təcrübədə tətbiq edir.
- Oxuduğu elmi-kütləvi mətndəki mübahisəli fikrə münasibət bildirir və analoji problemlə bağlı kiçik təqdimat edir.
- Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir.
- Oxuduğu elmi mətndən əldə etdiyi məlumatlara şəxsi araşdırmalarını da əlavə etməklə məruzə şəklində təqdim edir.
- Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır.
- Elmi-kütləvi mətndəki məlumatları mənimsəyib təqdim edir.
- Oxuduğu mətndəki məlumatların təsnifatını aparır (sistemləşdirir).
- Elmi-kütləvi mətndəki ən mühüm məlumatları seçərək yazılı şəkildə təqdim edir.
- Oxuduğu mətndəki hadisələri elmi cəhətdən əsaslandırılmış şəkildə təqdim edir.
- Oxuduğu bədii mətndəki məlumatları qrafik informasiya şəklində təqdim edir.
- Bədii mətndə rast gəldiyi elmi məlumatları sistemləşdirərək təqdim edir.
- Hadisələrin ardıcıllığını müəyyən etməklə mətndəki məlumatları sistemləşdirir.
- Mətndə təsvir olunmuş hadisələrin elmi  izahını verir.
- Eyni mövzu ilə bağlı bədii və elmi-kütləvi mətnlərdə olan məlumatlar arasındakı uyğunsuzluğu müəyyən edir və yekun rəyə gələrək mövzu üzrə təqdimat hazırlayır.
- Hadisələrin ardıcıllığını müəyyən etməklə oxuduğu mətnin məzmunun tam qavradlğını nümayiş etdirir.
- Mətndə verilmiş məlumatları şərh edir.

LAYİHƏ

2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədilə yaradıcı plan tutur.

Təlim məqsədləri:

- Mətnin məzmununa yeni süjet xətti əlavə etməklə yaradıcı plan tutur.
- Mətndən çıxarılmış hissəni əlavə edir.
- Mətnin bir hissəsini oxuduqdan sonra davamını təxmin edir.
- Mətnin planına yeni başlıqlar əlavə edir.
- Əsərin bir hissəsini oxuduqdan sonra davamı ilə bağlı yaradıcı plan tutur.
- Mətnə yeni epizod və obrazlar əlavə etməklə yaradıcı plan tutur.
- Təxəyyülünə uyğun davam etdirdiyi mətnin planını tutur.

2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir.

Təlim məqsədləri:

- Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir.
- Mətndəki müəyyən epizodları genişləndirməklə nəql edir.
- Oxuduğu əsərin süjet xəttini təxəyyülünə uyğun dəyişməklə yaradıcı şəkildə nəql edir.
- Giriş hissəsi verilmiş mətni genişləndirərək öz təxəyyülünə uyğun nəql edir.
- Oxuduğu əsərin məzmununa yeni süjet xətti və obrazlar əlavə etməklə mətni genişləndirir və nəql edir.
- Oxuduğu əsərin məntiqi sonluğunu düşünüb təqdim edir.
- Əsərə və oradakı obrazlara başqa prizmadan yanaşaraq yaradıcı şəkildə nəql edir.
- Mətndəki müəyyən epizodları genişləndirməklə və ya dəyişdirməklə nəql edir.
- Oxuduğu əsərdəki cansız əşya və ya heyvan obrazlarını insan obrazları ilə əvəz edərək mətni genişləndirilmiş formada yaradıcı şəkildə nəql edir.
- Mətnin müəyyən hissəsini təxəyyülünə uyğun genişləndirməklə nəql edir.
- Mətndəki məlumatları genişləndirməklə verilmiş mövzu ilə bağlı kiçik təqdimat edir.
- Əsəri başqa obrazın dilindən yaradıcı şəkildə nəql edir.

2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir.

Təlim məqsədləri:

- Mətndəki ayrı-ayrı epizodları əsas fikirlə əlaqələndirir.
- Oxuduğu mətndəki obrazların hərəkətinə münasibət bildirir.
- Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir.
- Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir.
- Mətndəki hadisələrdən çıxış edərək ideyanı müəyyənləşdirir.
- Oxuduğu mətnin ideyasını həyatla əlaqələndirir.
- Əsərdəki obrazları səciyyələndirmək üçün müvafiq keyfiyyət bildirən sözlər seçir.
- Mətnin ideyasını atalar sözü ilə ifadə edir.
- Oxuduğu mətnin ideyasını həyatla əlaqələndirir və baş qəhrəmanın hərəkətinə münasibət bildirir.
- Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür.
- Oxuduğu mətndəki obrazların hərəkətinə münasibət bildirir.
- Mətndəki əsas fikri müəyyən edir.
- Müxtəlif janrlı əsərlər arasındakı ideya və mövzu yaxınlığını müəyyən edir.
- Əsərin baş qəhrəmanının xarakterini təhlil edir.
- Oxuduğu əsərin baş qəhrəmanına münasibət bildirir.
- Mətndə rast gəldiyi dərinmənalı fikirləri mənimsədiyini nümayiş etdirir.
- Mətnlər arasında ideya yaxınlığını müəyyən edir.
- Əsərdəki qəhrəmanların hərəkətlərinə əsasən onları xarakterizə edir.
- Oxuduğu mətndəki obrazların hərəkətlərini təhlil etməklə onlara öz münasibətini bildirir.

LAYİHƏ

- Atalar sözləri və məsəlləri uyğun olaraq yerində işlədir.
- Oxuduğu əsərin ideyasını müəyyənləşdirir.
- Əsər qəhrəmanını səciyyələndirmək üçün müvafiq keyfiyyət bildirən sözlərdən istifadə edir.
- Oxuduğu mətnlərdəki obrazları müqayisə edir.
- Əsərdəki obrazların müsbət və mənfi cəhətlərini sadalayır.
- Mətnin məzmunu ilə bağlı fikir irəli sürür.

## 3. YAZI

Şagird:

**3.1. Yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.**

3.1.1. Yazısında orfoqrafiya normalarına riayət edir və əsas durğu işarələrindən yerində istifadə edir.

Təlim məqsədləri:
- Mətni müəyyən edilmiş vaxt ərzində hüsnxət və orfoqrafiya normalarına uyğun yazır.
- Cümlələrdə durğu işarələrinin yerini düzgün müəyyənləşdirir.

3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür.

Təlim məqsədləri:
- Məzmuna xələl gətirmədən ixtisar etməklə mətni köçürür.
- Mətnə əlavələr etməklə üzündən köçürür.
- Məzmuna uyğun gəlməyən hissəni ixtisar edərək və buraxılmış cümlələri yerinə qoymaqla mətni üzündən köçürür.

3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır.

Təlim məqsədləri:
- Dinlədiyi şeiri nəsrə çevirərək məzmununu yazır.
- Dinlədiyi mətnin məzmununu öz sözləri ilə yazır.
- Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirib yazır.
- Oxuduğu və dinlədiyi eyni mövzuda mətnləri ümumiləşdirib məzmununu yazır.
- Verilmiş plan əsasında oxuduğu mətnin məzmununu yazır.
- Verilmiş mövzu üzrə dialoji mətn qurur.
- Oxuduğu şeiri nəsrə çevirərək məzmununu yazır.
- Dinlədiyi və oxuduğu əsərlərdəki epizodları vahid süjet xətti altında birləşdirərək mətn qurub yazır.
- Oxuduğu mətnin məzmununu öz sözləri ilə yazır.
- Dinlədiyi dialoji mətni *təhkiyə** formasında yazır.
- Dinlədiyi mətndəki dialoji hissəni təhkiyə formasında ifadə etməklə məzmununu yazır.
- Plan qurmaqla dinlədiyi mətnin məzmununu yazır.
- Oxuduğu mətnin bir hissəsinin müfəssəl məzmununu yazır.

3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır.

Təlim məqsədləri:
- Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır.
- Verilmiş situasiyaya uyğun kiçikhəcmli esse yazır.
- Oxuduğu və dinlədiyi mətnləri ümumiləşdirərək vətənpərvərlik mövzusunda inşa yazır.
- Oxuduğu mətnin ideyasını mövzu kimi seçərək inşa yazır.

LAYİHƏ

** Hadisələrin dialoqdan (vasitəsiz nitqdən) istifadə etmədən nəql edilməsi* ***təhkiyə*** *adlanır. Dialoji mətnin təhkiyə formasına çevrilməsi həm danışma, həm də yazı bacarığını inkişaf etdirən geniş yayılmış fəaliyyət növlərindən biridir.*

- Oxuduğu əsərdəki müəyyən epizodla bağlı kiçikhəcmli esse yazır.
- İnşa yazarkən öz fikirlərini əsaslandırmaq üçün məşhur kəlamlardan yerli-yerində istifadə edir.
- Oxuduqlarını və eşitdiklərini ümumiləşdirməklə təhlil xarakterli inşa yazır.
- Oxuduğu və dinlədiyi mətnlər arasında ideya yaxınlığını müəyyən edərək eyni mövzuda inşa yazır.
- Əsərin baş qəhrəmanına münasibətini ifadə edən inşa yazır.
- Oxuduğu əsər haqqında rəy yazır.
- Oxuduqlarından və eşitdiklərindən bəhrələnərək mühakimə xarakterli inşa yazır.
- Ekoloji problemlə (meşələrin qırılması) bağlı mühakimə xarakterli inşa yazır.
- Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək fikrini yazır.
- Mətndən əldə etdiyi elmi məlumatlara əsaslanaraq öz fikirlərini yazır.
- Fəsillərlə bağlı inşa yazır.
- Oxuduğu və dinlədiyi əsərin ideyası ilə bağlı inşa yazır.
- Əxlaqi dəyərlərlə bağlı mühakimə xarakterli esse yazır.
- Oxuduğu əsərin mövzusunu şəxsi həyatı ilə əlaqələndirərək mühakimə xarakterli inşa yazır.

3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır.

Təlim məqsədləri:
- Oxuduğu əsərin ideyasına əsaslanaraq sinif yoldaşına məktub yazır.
- Verilmiş situasiyaya uyğun ərizə yazır.
- Verilmiş situasiyaya uyğun ərizə, dəvətnamə, məktub, məlumat xarakterli izahat yazır.
- Oxuduğu əsərin qəhrəmanına məktub yazır.
- Oxuduğu mətndəki obrazların dilindən məktub yazır.
- Tədbirlə bağlı elan yazır.
- Dinlədiyi əsərin qəhrəmanına məktub yazaraq onun hərəkətlərinə qiymət verir.
- Konkret hadisə ilə bağlı dostuna internet vasitəsilə məktub yazır.
- Oxuduğu əsərin müəllifinə məktub yazır.

## 4. DİL QAYDALARI

Şagird:

**4.1. Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir.**

4.1.1. Sadə fonetik təhlil aparır.

Təlim məqsədləri:
- Sözlərin səs və hərf tərkibini fərqləndirir.
- Sözün tələffüzünə əsaslanaraq onun səs tərkibi haqqında fikir yürüdür.
- Ahəng qanununa tabeliyinə görə sözləri fərqləndirir.
- Verilmiş sözlərin fonetik təhlili ilə bağlı fikirlər söyləyir.
- Fonetik təhlil zamanı bəzi şəkilçilərin deyilişi ilə yazılışını fərqləndirir.
- Deyilişi və yazılışı fərqlənən sözləri fonetik baxımdan təhlil edir.

4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun tətbiq edir.

Təlim məqsədləri:
- Mətndə yerindən asılı olmayaraq böyük hərflə yazılan sözləri müəyyən edir.
- Səma cisimləri bildirən sözlərin böyük hərflə yazılışına dair qaydanı yazılı nitqində tətbiq edir.

LAYİHƏ

4.1.3. Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir.

Təlim məqsədləri:

- Oxuduğu mətndəki yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün müvafiq lüğətlərdən istifadə edir.
- Dinlədiyi mətndəki yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün müvafiq lüğətlərdən istifadə edir.
- Rəqəmlə ifadə olunan sıra saylarının düzgün yazılışını müəyyənləşdirir.

4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir.

Təlim məqsədləri:

- Sözün leksik və qrammatik mənalarını fərqləndirir.
- Cümlədə köməkçi nitq hissələrini digər nitq hissələrindən fərqləndirir.
- Bağlayıcıların cümlədəki rolunu müəyyənləşdirir.
- Qoşmaların cümlədəki rolunu və məna çalarlarını müəyyənləşdirir.
- Bəzi sözlərin (*bax, kimi* və s.) cümlədəki yerinə görə köməkçi, yoxsa əsas nitq hissəsi olduğunu müəyyən edir.
- Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir.
- Bəzi köməkçi nitq hissələrinin cümlədəki rolunu müəyyənləşdirir.
- Cümlədəki köməkçi nitq hissələrini müəyyən edir.
- Bəzi köməkçi nitq hissələrinin cümlədəki rolunu müəyyənləşdirir.

4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir.

Təlim məqsədləri:

- Şeirlə ifadə olunmuş cümlələri nəsrə çevirərkən sözlərin ardıcıllığını düzgün müəyyən edir.
- Cümlə üzvlərini müəyyən edir.
- Sözlərin cümlədəki rolunu, sualını və ifadə vasitəsini müəyyənləşdirir.
- Cümlə qurarkən cümlə üzvlərinin ardıcıllığına riayət edir.
- Söz sırası pozulmuş nəzm nümunəsində mübtəda və xəbərin yerini müəyyən edir.
- Cümlələrdə mübtəda və xəbərin yerini müəyyən edir.
- Cümlə üzvlərinin yerini müəyyən edir.
- Söz sırası pozulmuş şeir misralarında mübtəda və xəbəri təyin etməklə cümlə üzvlərinin ardıcıllığını bərpa edir.
- Mübtəda ilə xəbərin kəmiyyətə görə uzlaşmasını düzgün müəyyən edir.
- Saydan sonra gələn isimlərdə cəm şəkilçisinin işlənməsi ilə bağlı qaydalara nitqində riayət edir.
- Toplu isimlər (xalq, əhali) işlənən cümlələrdə mübtəda ilə xəbəri düzgün uzlaşdırır.
- Cümlə üzvlərinin ifadə vasitələrini müəyyənləşdirir.
- Söz sırası pozulmuş şeir misralarında mübtəda və xəbərin yerini müəyyən edir və nəsrə çevirərək sözlərin düzgün ardıcıllığını bərpa edir.
- Cümlə qurarkən cümlə üzvlərinin ardıcıllığına riayət edir.

4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir.

Təlim məqsədləri:

- Cümlələrin quruluşuna görə növlərini müəyyən edir.
- Mətndəki cümlələri quruluşca növlərinə görə fərqləndirir.

4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir.

Təlim məqsədləri:

LAYİHƏ

- Cümlələri məqəd və intonasiyaya görə növlərə ayırır.
- Cümlənin məqsəd və intonasiyaya görə növlərinə aid cümlələr qurur.
- Verilmiş sözlərdən sual cümlələri qurur.

## QİYMƏTLƏNDİRMƏ

Dərslik komplektində təqdim olunan tədris materialları çoxpilləli mərhələlərə bölünmüşdür. Belə ki, 8 bölmədən hər biri dörd həftə üçün nəzərdə tutulmuşdur.

Məlumdur ki, formativ qiymətləndirmə dərsin hər mərhələsində aparılır. İş dəftərində verilən sual və tapşırıqlara əsasən müəllim qiymətləndirmə meyarları hazırlayıb hər dərsin sonunda aparılan qiymətləndirmədə istifadə edə bilər. Bununla yanaşı, müəllim üçün metodik vəsaitdə və iş dəftərində hər bölmədə 3 dəfə məzmun xətləri üzrə qiymətləndirmə tapşırıqları verilmişdir. Bu materiallar aralıq (summativ qiymətləndirmələrarası) qiymətləndirmə üçün də istifadə oluna bilər. Həmin dərslər iş dəftərində verilmiş oxu materialının adı ilə adlandırılsa da, burada müxtəlif məzmun xətləri üzrə materiallar da təqdim olunur. Formativ və summativ qiymətləndirmənin elementlərini özündə birləşdirən bu dərslər həm şagird nailiyyətlərinin monitorinqini aparmağa, həm də müəyyən mərhələ üzrə məzmun standartlarının nə dərəcədə reallaşdığını yoxlamağa imkan verir. Bu qiymətləndirmələri müəllim öz seçiminə uyğun olaraq həftəsonu, yaxud lazım bildiyi vaxt apara bilər.

Qeyd etmək lazımdır ki, həftənin sonunda keçirilən yoxlama və təkrar dərsləri həm qiymətləndirmə, həm də öyrədici xarakter daşıyır. Belə ki, qiymətləndirmə materialları ilə işlədikdən sonra şagirdlərin səhvləri və uğurları müəllimin iştirakı ilə kollektiv müzakirə obyekti olmalı, hamının nəzərinə çatdırılmalıdır.

Qiymətləndirmə müntəzəm aparıldıqda şagirdlər üçün imtahan prosesi adiləşir, hər bir imtahan üçün xas olan psixoloji sarsıntı, imtahan fobiyası (qorxusu) aradan qalxır. Müxtəlif qiymətləndirmə cədvəllərində əks olunan formativ qiymətləndirmələrin nəticələri summativ qiymətləndirmədə nəzərə alınsa, şagirdin səhhəti, psixoloji vəziyyəti və şagird nailiyyətlərinin qiymətləndirilməsindəki digər amillərlə bağlı təsadüfilik minimuma enər.

1. Oxu üzrə qiymətləndirmə (MMV və iş dəftərində verilir)

*Burada kiçik mətn və onunla bağlı test sualları verilir. Test suallarının məzmunu müvafiq qiymətləndirmə standartı ilə bağlı olur.*

2. Yazı üzrə qiymətləndirmə (MMV-də verilir)

2.1. İmla mətni *(müxtəlif sual və tapşırıqlarla müşayiət oluna bilər)*

2.2. İfadə və ya üzündən köçürmə üçün nəzərdə tutulmuş mətn

2.3. İnşa və ya esse mövzusu

*İnşa və esse bir-birinə yaxın yazı fəaliyyətləridir. Belə ki, hər ikisində yazılı özünüifadə bacarığı qiymətləndirilir. Bununla belə, qeyd etmək lazımdır ki, inşa ilə müqayisədə esse mövzusu daha konkret olur və burada çox zaman motivasiya xarakterli situasiya ilə verilir, məsələn:*

- *İnşa mövzusu: “Dostluq”*
- *Esse mövzusu: “Dostum mənə əzizdir, ancaq həqiqət ondan da əzizdir”. Situasiya: “Təsəvvür et ki, dostun tanımadığın bir adamla mübahisə edir və səni köməyə çağırır. Söhbətə qulaq asdıqda sənə məlum olur ki, dostun haqsızdır. Bu vəziyyətdə nə edərsən?”*

*Qeyd etmək lazımdır ki, şagirdin özünüifadə bacarığını yoxlamaq üçün esse daha münasib metoddur.*

3. Dil qaydaları üzrə qiymətləndirmə (MMV-də verilir)

*5 test sualından ibarət olur. Dil qaydaları ilə bağlı bir və ya iki qiymətləndirmə standartını əhatə edir. Suallar, əsasən, müvafiq mərhələdə keçilmiş dil qaydaları ilə bağlı olur. Müəllimlər lazım bildikləri*

LAYİHƏ

*təqdirdə analoq-testlər və əvvəlki mərhələlərdə keçilmiş qaydalarla bağlı suallar tərtib edib test blokunu zənginləşdirə bilərlər.*

**Kiçik summativ qiymətləndirmə materialları**

1. Dinləmə və yazı üzrə qiymətləndirmə (dinləmə üçün nəzərdə tutulmuş mətn MMV-də, mətnlə bağlı sual və çalışmalar həm MMV-də, həm də iş dəftərində verilir)

1. Oxu və dil qaydaları üzrə qiymətləndirmə (həm MMV-də, həm də iş dəftərində verilir)

Qeyd etmək lazımdır ki, MMV-də kiçik summativ qiymətləndirmə üçün 2 saat vaxt ayrılır. Bununla belə, müəllim jurnalda hər bir şagirdə Azərbaycan dili fənni üzrə vahid qiymət yazmalıdır. Yaxşı olardı ki, müəllim hər bir məzmun xətti (nitq bacarığı) üzrə şagirdin qiymətini (nailiyyətini) özü üçün qeyd etsin, fənn üzrə orta qiyməti jurnalda yazsın; məsələn:

- Dinləmə – 3
- Yazı – 4
- Oxu – 4
- Dil qaydaları – 5
- Beləliklə, Azərbaycan dilindən yekun qiymət – 4

Bir sıra məktəblərdə kiçik summativ qiymətləndirmə üçün materiallar rəhbərliyin təyin etdiyi xüsusi komissiya tərəfindən hazırlanır. Belə olan halda dərslik komplektində verilmiş materialları kiçik summativ qiymətləndirməyə hazırlıq üçün istifadə etmək olar.

Sinfin səviyyəsindən asılı olaraq dərslik komplektində verilmiş materiallar üzrə kiçik summativ qiymətləndirmə 2 saat deyil, daha az vaxt apara bilər. Bu halda müəllim qalan vaxtı qiymətləndirmə materiallarının müzakirəsinə həsr edə bilər.

Azərbaycan dili fənnində tədris və qiymətləndirmə materialı mətn və onunla bağlı tapşırıqlar üzərində qurulur. Mətn özündə bütün nitq vahidlərini (səs, hərf, söz, söz birləşməsi, cümlə) birləşdirdiyindən istənilən standartı reallaşdırmağa imkan verir. Dil qaydaları ilə bağlı summativ qiymətləndirmə testləri isə həm kiçik mətnlər, həm də söz və cümlə əsasında ola bilər.

Hər bir nitq bacarığının qiymətləndirilməsi üçün meyarlar müvafiq məzmun standartlarından və onunla bağlı olan təlim məqsədlərindən doğur. Qeyd etmək lazımdır ki, qiymətləndirmə yaddaşa əsaslanmamalıdır. İlboyu oxunmuş və ya dinlənilmiş mətnlərdəki informasiya summativ qiymətləndirmə obyekti olmamalıdır. Oxu və dinləmə üzrə kiçik və böyük summativ qiymətləndirmələr yeni mətn əsasında qoyulmuş sual və tapşırıqlar üzrə aparılmalıdır. Lakin bu sual və çalışmalar müvafiq tədris mərhələsində məzmun standartlarının nə dərəcədə reallaşdığını qiymətləndirməyə xidmət etməlidir. Qiymətləndirmə obyekti kimi mətni qavrama bacarığı götürülməlidir.

Yazı üzrə kiçik summativ qiymətləndirmə üçün yoxlama imla formasını da seçmək olar. Lakin ifadə yazı qiymətləndirmə forması kimi daha məqsədəuyğundur, çünki bu üsul yazı bacarıqlarının daha geniş spektrini (hüsnxət, orfoqrafiya, fikrini ifadə etmək və s.) və eyni zamanda dinləmə bacarığını əhatə edir. Bununla yanaşı, şagirdlərin yazılı özünüifadə bacarıqlarını yoxlamaq üçün inşa və esse yazılarından da istifadə etmək olar.

Danışma üzrə qiymətləndirmə tədris prosesində müşahidə yolu ilə aparılır. Bu zaman danışma bacarığı üzrə summativ qiymətləndirmə formativ qiymətləndirmələrin nəticəsi əsasında aparılır. Formativ qiymətləndirmənin nəticələri jurnalda qeyd olunmadığından müəllimlər şagird nailiyyətlərinin gündəlik monitorinqi üçün müxtəlif qiymətləndirmə cədvəllərindən istifadə etməlidirlər. Bu cür cədvəllərin nümunələri ilə müəllimlər aşağı siniflər üçün metodik vəsaitlərdən tanışdırlar. Hər bir müəllim təlim məqsədlərindən, kurikulumda verilmiş qiymətləndirmənin standartlarından və mövcud prosedur qaydalarından çıxış edərək öz qiymətləndirmə cədvəllərini yarada bilər.

LAYİHƏ

## ƏLAVƏ RESURSLAR


1. AXUNDOV A.A., ƏMİROVA G.A. **Məktəblinin orfoqrafiya lüğəti**. Bakı, "Təhsil" nəşriyyatı, 2004.
2. **Atalar sözü və məsəllər**. Bakı, "Altun kitab", 2015.
3. **Ayna uşaq ensiklopediyası**. 18 kitab. Bakı. "Ayna" mətbu evi, 2004.
4. **Azərbaycan dilinin antonimlər lüğəti**. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007.
5. **Azərbaycan dilinin izahlı lüğəti.** 4 cilddə. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2006.
6. **Azərbaycan dilinin omonimlər lüğəti.** Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007.
7. **Azərbaycan dilinin sinonimlər lüğəti**. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007.
8. ƏHMƏDOV A., BALAKİŞİYEV Ş., NAMAZOV İ. **İfadə məcmuəsi**. Bakı, 2008.
9. **İnteraktiv təlim (müəllimlər üçün tədris vəsaiti)**, "Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi", Bakı, 2010.
10. KƏRİMOV Y.Ş. **İbtidai siniflərdə yazılı inşalar.** Bakı, "Nasir" nəşriyyatı, 2005.
11. KƏRİMOV Y.Ş. **Məktəblinin orfoqrafiya-orfoepiya lüğəti** (I–IV siniflər üçün). Bakı, 2006.
12. KƏRİMOV Y.Ş. **İmla mətnləri məcmuəsi** (I–IV siniflər üçün). Bakı, 2007.
13. KƏRİMOV Y.Ş., KƏRİMOVA E.Y. **İfadə üçün mətnlər məcmuəsi** (I–IV siniflər üçün). Bakı, 2007.
14. QULİYEVA A., SOLTANOV M. **İfadə mətnləri. Metodik vəsait.** Bakı, 2009.
15. VEYSOVA Z.A. **Fəal interaktiv təlim. Müəllimlər üçün vəsait.** Bakı, 2007.


LAYİHƏ

## 1-ci bölmə

# AİLƏ VƏ MƏKTƏB

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 1 | Futbol topu | 1.1.1, 1.1.2, 1.2.1, 2.1.1, 2.1.2, 2.2.4, 2.2.5, 3.1.5 | 6 | 10-13 | 6-8 | 17 |
| 2 | Baba və nəvə | 1.2.1, 2.1.3, 2.2.1, 2.2.4, 2.2.5, 3.1.3, 4.1.1 | 4 | 14-15 | 9-10 | 21 |
| 3 | "Beş" qiyməti | 2.1.3, 2.2.1, 3.1.4, 4.1.1 | 2 | 16 | 11 | 24 |
| 4 | Kitab daha maraqlıdır | 1.2.1, 2.1.1, 2.1.2, 2.2.2, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.1 | 4 | 17-19 | 12-14 | 26 |
| 5 | Ruminin məsləhəti | 1.1.1, 1.2.1, 2.2.5, 3.1.3, 4.1.1 | 4 | 20-21 | | 29 |
| 6 | Birinci addım | 1.2.1, 1.2.2, 1.2.3, 2.1.1, 2.1.3, 2.2.2, 2.2.5, 3.1.3, 3.1.4, 4.1.1 | 6 | 22-27 | 15-17 | 33 |
| 7 | Ən qiymətli | 1.1.2, 1.2.1, 2.1.1, 2.1.3, 2.2.2, 2.2.5, 3.1.4, 4.1.1 | 4 | 28-30 | 18 | 37 |
| 8 | Tom özünü fəda edir | 1.2.1, 1.2.2, 2.1.3, 2.2.2, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.1 | 6 | 31-35 | 19-20 | 40 |
| 9 | Ümumiləşdirici təkrar | | 2 | 36 | | 42 |
| 10 | Kiçik summativ qiymətləndirmə | | 2 | | 21-23 | 42 |
| **Yekun** | | | **40 saat** | | | |

LAYİHƏ

## Dərs 1. FUTBOL TOPU (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Debat zamanı qarşı tərəfin fikirlərini ümumiləşdirərək əks-arqumentlər gətirir. |
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi elmi-kütləvi mətni topladığı məlumatlarla zənginləşdirir. |
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş qrafik informasiyanı (barqrafı, diaqramı) şifahi şəkildə şərh edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Rast gəldiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Mətndə rast gəldiyi terminləri kontekstə əsasən izah edir.<br>Terminləri cümlələrdə mənasına uyğun işlədir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki ayrı-ayrı epizodları əsas fikirlə əlaqələndirir.<br>Oxuduğu mətndəki obrazların hərəkətinə münasibət bildirir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Oxuduğu əsərin ideyasına əsaslanaraq sinif yoldaşına məktub yazır. |

**Motivasiya**

**Müəllim:** – *Bu gün yeni dərs ilinin ilk günü – Bilik bayramıdır. Yəqin ki, sizin üçün bu gün ikiqat bayramdır. Sizdə bayram əhvali-ruhiyyəsini yaradan nədir?*

Şagirdlər öz fikirlərini bildirirlər: *uzun ayrılıqdan sonra sinif yoldaşları və müəllimləri ilə görüşmək, yeni biliklərə yiyələnmək həvəsi və s.*

Müəllim uşaqların diqqətini yay ərzində məktəbdə baş vermiş dəyişikliklərə yönəldir: təzəcə təmirdən çıxmış, sinif otaqları, yeni tədris avadanlığı, məktəb həyəti, idman meydançası və s.

Qeyd olunur ki, respublikamızda xeyriyyə fondu kimi fəaliyyət göstərən Heydər Əliyev Fondu hər il yüzlərlə yeni məktəb binası tikdirir və təmir etdirir. Yeni sinif otaqları, yeni partalar, yeni dərsliklər – bütün bunlar dövlətimizin təhsilə göstərdiyi qayğının bariz nümunəsidir.

**Oxu**

Mətnin 1-ci hissəsi oxunur.

Dərsliyin 11-ci səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir. Şagirdlər əsərin davamı ilə bağlı öz variantlarını söyləyirlər (3-cü tapşırıq).

**Söz ehtiyatı**

Müəllim uşaqların diqqətini mətnin 1-ci hissəsindəki *aut, penalti* sözlərinə yönəldir və bu sözlərin mənalarını soruşur (4-cü tapşırıq).

*Aut* – idman oyunlarında topun meydançadan və ya meydandan kənara çıxması.

*Penalti* – cəza, cərimə

Söz ehtiyatı ilə bağlı 5-6-cı tapşırıqlar terinə yetirilir.

LAYİHƏ

**Dinləmə**

## İDMAN TERMİNLƏRİ

Elmin və mədəniyyətin müxtəlif sahələrində olduğu kimi, idmanda da bir çox terminlər var. Bu terminlər, əsasən, idman oyunlarının adlarını, oyun qaydalarını, müvafiq idman oyunu ilə bağlı ləvazimatları bildirir.

İdman terminlərinin əksəriyyəti beynəlxalq terminlərdir, yəni müxtəlif xalqlar eyni terminlərdən istifadə edirlər. İdman oyunu hansı ölkədə yaranırsa, bu oyunla bağlı terminlər də həmin xalqın dilindəki sözlərdən yaranır.

Futbol oyununa bənzər oyunlar bir çox xalqlarda lap qədimdən mövcud olmuşdur. Məsələn, əvvəllər Azərbaycanda bu oyuna bənzəyən çövkən oyunu geniş yayılmışdı.

Futbolun dəqiq qaydaları ilk dəfə 150 il əvvəl İngiltərədə tərtib olundu və yazılı şəkildə təsdiq edildi. Buna görə də futbol terminləri ingilis sözlərindən yaranmışdır.

“Futbol” sözü “foot” [fut], yəni *ayaq* və “ball” [bol], yəni *top* sözlərinin birləşməsindən yaranmışdır. Dilimizdə bir çox mənaları olan “qol” sözü futbol termini kimi ingilis dilindəki “goal”, yəni *məqsəd* sözündən götürülmüşdür. Bu oyunda əsas məqsəd topu rəqib qapısından keçirməkdir. Ona görə də oyunçular buna nail olanda hamı “qol” deyə qışqırır. Buna mane olan qapıçıya isə bir çox dillərdə qolkiper (ing. *goalkeeper* – [goulkipə]) deyilir. “Keep” ingilis dilində *saxlayan, qoruyan* mənasını verir.

*Müəllimin nəzərinə: Müəllim mətni oxuduqca ingilis sözlərini lövhədə yazır.*

Futbol komandasındakı hücumçuya “forvard” da deyilir. İngilis dilində “forward” [fowad] sözü *irəli, qabağa gedən* mənasını verir.

Oyun zamanı topun meydançanın yan xəttindən kənara çıxmasına “aut” deyirlər. İngilis dilində “out” sözü *kənar* (bir şeyin çöl tərəfi) deməkdir.

Futbol oyununun ən maraqlı qaydalarından biri onbirmetrlik cərimə zərbəsidir. Bir çox dillərdə buna penalti də deyilir. İngilis dilində “penalty” [penalti] – *cəza, cərimə* deməkdir.

İdmançılar beynəlxalq idman terminlərini bilməlidirlər. Bu, beynəlxalq idman yarışlarında rəqib oyunçuların və hakimlərin bir-birini başa düşməsinə imkan yaradır.

Sual və tapşırıqlar:

*1. Beynəlxalq termin nə deməkdir? Nə üçün idmançılar beynəlxalq idman terminlərini bilməlidirlər?*

*2. Futbol terminləri hansı dildə yaranmışdır? Səbəbini göstərin. Əgər idman oyunu Gürcüstanda yaransaydı, bu oyunla bağlı terminlər hansı dildə olacaqdı?*

*3. Sizcə, karate idman döyüş növü harada yaranmışdır? Bu idman növündəki terminlər hansı dildədir?*

Şagirdlər mətni dinlədikdən sonra iş dəftərinin 6-cı səhifəsindəki 2-ci tapşırığı yerinə yetirə bilərlər.

**Danışma**

***Müəllim:*** *– Məktəbdə ən çox sevdiyiniz yer (guşə) haradır?*

Hərə məktəbdə özünə maraqlı olan yerin adını çəkir. Lövhədə aşağıdakı cədvəl çəkilir. Müəllim bildirir ki, hərə yalnız bir yerə səs verə bilər. Səsvermə yolu ilə cədvəl doldurulur: boş xanalarda müvafiq saylar yazılır; məsələn:

| Sevimli guşə | Oğlanlar | Qızlar |
|---|---|---|
| Sinif otağı | 3 | 4 |
| Yeməkxana | 1 | 2 |
| Kitabxana | 2 | 5 |
| İdman zalı | 5 | 3 |

LAYİHƏ

Daha sonra səsvermənin nəticələri əsasında şagirdlər rəngli markerlərlə böyük kağız üzərində diaqram tərtib edirlər. Müəllim oğlanlara aid diaqramı özü tərtib edib qızlara aid olanı şagirdlərə tapşıra bilər.

Nümunə (diaqram)




Müəllim şagirdlərə bu statistik araşdırmanın nəticələrini şərh etməyi tapşırır. Birinci könüllü danışdıqdan sonra digərləri onun şərhinə əlavələr edirlər; məsələn: *"Diaqramdan görünür ki, sinfimizin uşaqları üçün ən maraqsız yer yeməkxanadır. Yəqin, bunun səbəbi ondadır ki, ... Oğlanların ən çox sevdiyi yer idman zalı, qızlarınkı isə kitabxanadır. Çox güman ki, bu, ... bağlıdır"* və s. Müəllim yönəldici suallarla uşaqları daha çox danışmağa, hər bir rəqəm haqqında fikir söyləməyə dəvət edir.

İş dəftərinin 6-cı səhifəsindəki 4-cü tapşırığın 1-ci hissəsi yerinə yetirilə bilər.

**Oxu**

İkinci hissəni oxumazdan əvvəl müəllim lövhədə belə bir cədvəl çəkir.

| Ətrafdakılarla münasibətdə insan üçün | | |
|---|---|---|
| vacibdir | arzuolunandır | qəbuledilməzdir |
| | | |

Müəllim şagirdlərə tapşırır ki, cəmiyyətdə davranış qaydalarını və müxtəlif insan keyfiyyətlərini sadalasınlar və onları cədvəlin müvafiq sütunlarında yazsınlar; məsələn: böyüklərə hörmət, lovğalıq, dərslərini yaxşı oxumaq və s. Müəllim çalışır ki, aşağıdakı keyfiyyətlər də cədvəldə öz əksini tapsın:

– *kollektiv qarşısındakı öhdəliyə məsuliyyətlə yanaşmaq;*

– *köməksiz, çarəsiz qalmış insana qayğı göstərmək.*

Bu qaydalar səsvermə yolu ilə "Vacibdir" və ya "Arzuolunandır" sütunlarında yazıla bilər.

*Müəllimin nəzərinə: Bu cədvəl dərsin sonunadək lövhədən silinmir.*

Mətnin 2-ci hissəsi oxunur. Dərsliyin 13-cü səhifəsində verilmiş tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 6-cı səhifəsindəki 3, 4-cü (2-ci hissə) tapşırıqlardan istifadə oluna bilər.

**Söz ehtiyatı**

Şagirdlər əvvəlcə *buterbrod, rejim, piştaxta* sözlərinin işləndiyi cümlələri oxuyur, sonra isə kontekstə əsaslanaraq təxmin etdikləri izahları deyirlər. Bu tapşırığı yerinə yetirmək üçün iş dəftərinin 7-ci səhifəsindəki 5-ci tapşırıqdan istifadə edə bilərlər. Bu zaman müəllim sinfə gətirdiyi buterbrodu və həkim reseptini nümayiş etdirir. Həkim reseptinin məzmunu (dərmanın adı və qəbul olunma qaydaları) izah olunur. Bu izahlar müzakirə olunduqdan sonra lüğətə müraciət edilir. Daha sonra dərsliyin 13-cü səhifəsindəki 10-11-ci tapşırıqlar yerinə yetirilir.

LAYİHƏ

**Danışma** (debat)

Müəllim şagirdlərin diqqətini dərsin əvvəlində lövhədə tərtib olunmuş cədvələ yönəldir və suallarla müraciət edir:

**1-ci sual:** – *Adil hansı qaydaya əməl etdi?*

**Cavab:** – *Köməksiz, çarəsiz qalmış insana qayğı göstərmək.*

**2-ci sual:** – *Adil hansı qaydaya əməl etmədi?*

**Cavab:** – *Kollektiv qarşısındakı öhdəliyə məsuliyyətlə yanaşmaq.*

Müəllim debat sualını səsləndirir:

– *Adilin futbol topu üçün yığılmış pulu başqa məqsədlə xərcləməyə haqqı var idimi?*

Şagirdlər iki qrupa ayrılırlar. Qruplardan biri *"Haqqı var idi"*, digəri *"Haqqı yox idi"* tezisini faktlar gətirməklə əsaslandırır. Müəllim də şagirdlərin çıxışlarına, gətirdikləri arqumentlərə görə qeydlər aparır.

Debatda təxminən aşağıdakı arqumentlər səslənə bilər:

I qrupun arqumentləri:

– *Xəstə ana üçün dərman almağa yığılan pulu xərcləmək mütləq idi.*

– *Balaca oğlanı sakitləşdirmək üçün dərman almaq lazım idi.*

– *Ola bilər, oğlanın anası pulqabıdakı son manatını dərman almaq üçün verib, buna görə də yığılan pulu dərman almaq üçün sərf etmək olardı.*

– *Futbol topunu hər vaxt almaq olardı, lakin anaya dərman almaq mütləq lazım idi.*

II qrupun arqumentləri:

– *Yığılan pulda hər uşağın payı olduğundan Adilin onu xərcləməyə haqqı yox idi.*

– *Uşaqlar həvəslə futbol oynamağı gözləyirdilər, Adilin belə hərəkət etməsi haqsızlıq idi.*

– *Adil oğlangilə gedib vəziyyəti anasına başa sala, dərman üçün yenidən pul ala bilərdi.*

**Yazı**

Müəllimin tapşırığı ilə şagirdlərdən hər biri öz adını göstərməmək şərti ilə sinif yoldaşlarından birinə kiçik (iki-üç cümlədən ibarət) məktub yazır. Məktubda həmin şagirdin nə vaxtsa etdiyi hərəkətə və ya onun xarakterindəki hər hansı cəhətə münasibət bildirilməlidir. Yazılar kiçik vərəqdə yazılmalı, sonra qatlanmalı və üstündə məktubun ünvanlandığı şagirdin adı yazılmalıdır. Daha sonra sinifdə iki "poçtalyon" seçilir və onlar məktubları ünvanlara çatdırırlar.

Sonrakı addımlar:

1. Vaxt verilir ki, şagirdlər aldıqları məktubları oxusunlar.
2. Ən çox məktub almış şagird müəyyən olunur.
3. Həmin şagird (əgər istəsə) öz seçimi ilə bir neçə məktubu oxuyur, ona münasibət bildirir və məktubu yazanı ehtimal edir.
4. Vaxt qalarsa, başqa bir neçə şagirdə də söz vermək olar.
5. Müəllimin sinfə sualı: – *Sizcə, nəyə görə ... (filankəs) hamıdan çox məktub aldı?*

Gözlənilən cavab: *"O bu yaxınlarda qeyri-adi hərəkət etdi"* və ya *"Onun ... (xüsusiyyətlər sadalanır) kimi bir çoxlarından fərqli xüsusiyyətləri var"*.

Şagirdlər öz seçimi ilə "Futbol topu" hekayəsinin sonluğunu və ya baş qəhrəmana məktub yazırlar (iş dəftərinin 7-ci səhifəsindəki 6-cı tapşırıqdan istifadə oluna bilər). Bir neçə şagirdin yazısı oxunur və müzakirə olunur.

Müəllim şagirdlərə tapşırır ki, yazdıqları mətndə yazılışı və deyilişi fərqli olan sözlərin altından xətt çəksinlər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 2. BABA VƏ NƏVƏ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, eşitdiyi, oxuduğu fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətnlərdəki məlumatları müqayisə edir, ümumiləşdirərək məruzə ilə çıxış edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndə rast gəldiyi obrazlı ifadələri kontekstə əsasən izah edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi şeiri nəsrə çevirərək məzmununu yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Sözlərin səs və hərf tərkibini fərqləndirir. Sözün tələffüzünə əsaslanaraq onun səs tərkibi haqqında fikir yürüdür. |

**Motivasiya** ("Əqli hücum")

– *"Hər saqqalı olana ağsaqqal deməzlər"* atalar sözünü izah edin.

Şagirdlər fikirlərini söyləyirlər. Fikirlər lövhədə yazılır. Sonda müəllim fikirləri yekunlaşdırır və *"ağsaqqal" adını qazanmaq üçün hansı əməllər sahibi olmaq gərəkdir?"* sualı ilə şaxələndirmə aparır.




Uşaqlar ağsaqqala xas keyfiyyətləri bir-bir sadalayır, müəllim həmin sözləri şaxələrdə qeyd edir.

**Oxu** (rollu oyun)

Mətnin oxunması üçün 3 şagird seçilir. Onlardan biri müəllifin, o birisi babanın, digəri isə nəvənin nitqini səsləndirir. Oyun zamanı müəllim uşaqların rollarını necə səsləndirməsinə, jestlərdən, mimikadan necə istifadə etməsinə diqqət yetirir.

Dərsliyin 15-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir. İş dəftərinin 9-cu səhifəsindəki 3-cü tapşırıqdan da istifadə oluna bilər. Bu tapşırıqlar əsərin məzmununun mənimsənilməsi və ideyanın dərk edilməsi ilə bağlıdır. Əsərin ideyası babanın son nitqində açıqlanır: *"Xətir-hörməti insana qocalıq gətirmir. Onu illər uzunu xeyirxah əməllərinlə özün qazanmalısan".*

**Söz ehtiyatı**

Dərsliyin 15-ci səhifəsindəki 3-5-ci tapşırıqlar şagirdlərin aşağıdakı bacarıqlarının inkişafına xidmət edir:

– *sözün işləndiyi kontekstə əsasən məna çalarlarını fərqləndirmək;*
– *nitqdə sözləri yerli-yerində işlətmək;*
– *mətndəki sözü yaxınmənalı sözlə əvəz etmək.*
– *mətndəki obrazlı ifadələrin mənasını müəyyənləşdirmək.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 9-cu səhifəsindəki 1, 2, 4-cü tapşırıqlardan istifadə oluna bilər.

LAYİHƏ

### Dinləmə

**QOCALAR VƏ UŞAQLAR**

Qocalar axşam-səhər
Oturub kölgəlikdə
Bir-birinə deyirlər:
“Uşaqlar ki bu qədər
Qaçırlar, oynayırlar,
Görəsən, heç yorulub
Bezirmi bundan onlar?!”
Qocaların yanından
Qaçıb qan-tər içində
Keçən zaman bir oğlan
Düşünür: “Bu qocalar
Burda belə boş-bikar
Hey oturub-durmaqdan
Yorulmurmu heç onlar?!
İşsiz dayansam əgər
Beş dəqiqə burda mən
Tamam düşərəm əldən”.

*Aqniya Barto*

**Sual:** – *Dinlədiyiniz mətnin mövzusu ilə dərslikdəki mətnin mövzusu arasında hansı oxşar və fərqli cəhətlər var?*

### Yazı

Şagirdlər dinlədikləri mətni nəsrə çevirərək yazırlar.

### Dil qaydaları

Müəllim uşaqların diqqətini aşağıdakı sxemə yönəldir:

***səs (hərf) – heca – söz – söz birləşməsi – cümlə – mətn***

“Əqli hücum”. **Sual:** – *Bu sxemlə bağlı nə deyə bilərsiniz?*
Uşaqlar fikirlərini söyləyirlər.

*Müəllimin nəzərinə: Bu sxemdə nitq vahidləri kiçikdən böyüyə qədər ardıcıllıqla sadalanır. Müəllimin yönəldici sualları ilə şagirdlər hər bir nitq vahidi, onun funksiyası haqqında məlumat verirlər. Bu prosesdə müəllim dil qaydaları ilə bağlı əvvəlki sinifdə öyrədilənləri uşaqlara xatırladır.*

6-cı tapşırıqdakı suallar cavablandırılır (1 – təbiət, 2 – ayq ). Dərsliyin 15-ci səhifəsində verilmiş qayda mənimsədilir. Şagirdlər yazılışı və tələffüzü fərqli olan bir neçə söz deyirlər. Bu sözlərin hansında səs artımı və ya səs düşümü baş verdiyi qeyd olunur (məsələn: mütaliə, camaat, radio və s.). Daha sonra elə sözlər deyilir ki, həmin sözlərin yazılışındakı hər hansı bir hərf tələffüzdə fərqli səslənsin (dəftər, palıd, qayıq və s.).

Dərsliyin 15-ci səhifəsindəki 7-ci tapşırıq yerinə yetirilir.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 9-cu səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

LAYİHƏ

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

### Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu** üzrə qiymətləndirmə (İş dəftərinin 10-cu səhifəsində də verilmişdir.)

## TOPUN QİYMƏTİ

*Şagird mağazaya girib satıcıdan soruşur:*
*– O top neçəyədir*
*Satıcı deyir:*
*– Üç manata*
*Uşağın gözləri kəlləsinə çıxır:*
*– Oy daa*
*Sonra da o biri topun qiymətini soruşur. Satıcı astaca cavab verir:*
*– İki dənə "oy daa".*

**Tapşırıqlar:**

1. Mavi boşluqların yerinə müvafiq durğu işarələrini qoy.

2. İkinci top neçəyədir?
   A) 4 manata B) 6 manata C) 8 manata

3. *"Top"* hansı cümlədə mətndəki mənasında işlənib?
   A) Hücumçu var gücü ilə topa zərbə endirdi.
   B) Sərhəd kəndlərinə toplardan atəş açırdılar.
   C) Mağazaya beş top parça gətirildi.

4. *"Göz"* sözü hansı cümlədə həqiqi mənada işlənib?
   A) O, bir göz qırpımında özünü bizə çatdırdı.
   B) Çox keçmişəm bu dağlardan, durnagözlü bulaqlardan.
   C) Onlar indi birgözlü köhnə evdə yaşayırlar.

5. *"Gözləri kəlləsinə çıxır"* ifadəsi ilə yaxınmənalı ifadələr tap və cümlədə işlət.

**Yazı** üzrə qiymətləndirmə (imla)

## BÖYÜK HƏKİM İBN SİNA
**(94 söz)**

İbn Sina böyük alim idi. O hələ on yaşında ikən həndəsə, təbabət, astronomiya elmlərini dərindən öyrənməyə başlamışdı. Öz sualları ilə bəzən müəllimlərini çətin vəziyyətə salırdı.

O illərdə vəba və çiçək xəstəlikləri hər yanı bürümüşdü. Minlərlə adam bu xəstəliklərdən məhv olurdu. İbn Sina belə qərara gəldi ki, həkim olsun. Səbirlə, təmkinlə tibb elmini öyrəndi.

Tez bir zamanda bu gənc həkim məşhurlaşdı. Hər tərəfdən xəstələr onun yanına şəfa tapmağa gəlirdilər. İbn Sina öz köməyini heç kəsdən əsirgəmirdi. Çoxları onun şagirdi olmaq istəyirdi. O, şagirdlərinə insanları müalicə etməyi öyrədirdi. Həmçinin onlarda insana mərhəmət hissi də tərbiyə edirdi.

Tapşırıqlar:

*1. "Məşhurlaşdı" sözünün səs tərkibi haqqında nə deyə bilərsiniz? ("Auksion" və ya "Əqli hücum" metodunu tətbiq etmək olar)*

*2. "O, şagirdlərinə insanları müalicə etməyi öyrədirdi" cümləsinin mübtədasını elə dəyiş ki, xəbər (öyrədirdi) -lər şəkilçisi qəbul etsin.*

LAYİHƏ

*3. "Xəstələr onun yanına şəfa tapmağa gəlirdilər" cümləsinin mübtədasını elə dəyiş ki, xəbər (gəlirdilər) -lər şəkilçisiz işlənsin.*

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Sözün səs tərkibi nəyə əsasən müəyyənləşir?
A) yazılışa B) tələffüzə C) hecalara

**2.** "Müəllim" sözündə tələffüz zamanı düşən səsi seç.
A) ü B) ə C) l

**3.** Hansı sözün tələffüzü səhv verilib?
A) [şərayit] B) [stadiyon] C) [təbiyi]

**4.** Qoşasaitli sözlərdən birinin tələffüzü doğru deyil:
A) [sa:t] B) [sual] C) [səa:dət]

**5.** "Ailə" sözünün tələffüzündə üçüncü səs hansıdır?
A) i B) l C) ə

## Dərs 3. "BEŞ" QİYMƏTİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadənin mənasını izah edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Şeiri qəhrəmanın emosional vəziyyətinə uyğun intonasiya ilə oxuyur. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Ahəng qanununa tabeliyinə görə sözləri fərqləndirir. |

**Motivasiya** (söz assosiasiyası)

**Müəllim:** – *"Beş" rəqəmi sizə hansı sözləri xatırladır?* (qiymət, əla, ən yüksək, əlaçı, dəyərləndirmə və s.).

**Tapmaca:**

*Hamı məni istəyir,*
*Bilin, yaman bahayam.*
*Əlaçılar bəsləyir,*
*Qiymətlərin şahıyam. (beş)*

**Sual:** – *Məktəbli üçün "5" qiyməti nə deməkdir?*

**Danışma**

Müzakirə: *"Bu gün aldığınız "5" qiymətinin sabah həyatınızda nə kimi rolu ola bilər?"* mövzusunda müzakirə.

**Oxu**

Dərsliyin 16-cı səhifəsindəki şeir oxunur. 1-ci tapşırıq yerinə yetirilir. Obrazlı ifadənin mənası (qürurlanmaq, fərəhlənmək) müəyyənləşdirilir. Müəllim şagirdlərin ifadəli, intonasiya ilə oxumalarına diqqət yetirir. Şeir oxunduqdan sonra iş dəftərinin 11-ci səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilə bilər.

LAYİHƏ

**Yazı**

"Yaxşı oxumağımla kimi sevindirirəm?" mövzusunda inşa yazmaq.

**Dil qaydaları**

Müəllim əlindəki topu uşaqlardan birinə atır və soruşur:

– *Qalın saitlər hansılardır?*

Topu alan şagird suala cavab verir və onu başqa yoldaşına atır. Müəllim növbəti sualı səsləndirir:

– *İncə saitlər hansılardır?*

Oyun beləcə davam edir. Müəllim *"Gəlin daha cəld işləyək!"* deməklə şagirdləri tez düşünüb cavab verməyə dəvət edir:

– *"Müəllim" sözü hansı saitlərdən ibarətdir – qalın, yoxsa incə?*

– *"Uşaq" sözü hansı saitlərdən ibarətdir?*

Sonra lövhədə cədvəl çəkilir və sinifdəki şagirdlərin adlarına görə cədvəl doldurulur.

| Yalnız incə saitlər olan | | Yalnız qalın saitlər olan | | Həm incə, həm qalın saitlər olan | |
|---|---|---|---|---|---|
| oğlan adları | qız adları | oğlan adları | qız adları | oğlan adları | qız adları |
| | | | | | |

Növbəti addımda dərsliyin 16-cı səhifəsində verilmiş ahəng qanunu haqqında nəzəri material mənimsədilir.

Müəllim şagirdlərlə birlikdə tərtib olunmuş cədvələ qayıdaraq sinfə suallar verir:

– *Sinifdə neçə qızın adı ahəng qanununa tabedir?*

– *Sinifdə neçə oğlanın adı ahəng qanununa tabedir?*

– *Hansı adlar daha çoxdur – ahəng qanununa tabe olanlar, yoxsa olmayanlar?*

<u>Qruplarla iş</u>. Şagirdlər dörd qrupa bölünürlər.

**I qrup:** dərslik, səh.16, 3-cü tapşırıq.

**II qrup:** iş dəftəri, səh.11, 4-cü tapşırıq verilə bilər.

**III qrup:** verilmiş söz sırasındakı qanunauyğunluğu müəyyənləşdirin və hər bir sıraya daha dörd söz əlavə edin:

*Albalı, qırmızı, qarpız, sulu, ...*
*Şəkər, şirin, dəniz, gömgöy, ...*
*Qızılgül, tikanlı, şagird, əlaçı, ...*

**IV qrup:** bu şeir parçasında ahəng qanununa tabe olan sözləri aşağıdakı cədvəl üzrə qruplaşdırıb yazın:

*Nə şirin, dadlı gülüşlərlə gülür,*
*Gözlərindən yenə şəfqət tökülür.*
*Çevirib laylaya "can" kəlməsini,*
*Anadır, oxşayır öz körpəsini.*

| Yalnız müxtəlif incə saitlərdən ibarət olan sözlər | Yalnız müxtəlif qalın saitlərdən ibarət olan sözlər | Yalnız eyni incə saitlərdən ibarət olan sözlər | Yalnız eyni qalın saitlərdən ibarət olan sözlər |
|---|---|---|---|
| | | | |

İş dəftərinin 11-ci səhifəsindəki dil qaydaları üzrə tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 4. KİTAB DAHA MARAQLIDIR (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu kitab haqqında təəssüratlarını bölüşür.<br>Verilmiş qrafik informasiyanı (barqrafı, diaqramı) şifahi şəkildə şərh edir.<br>Dinlədiyi və oxuduğu mətnləri ümumiləşdirərək kiçik mətn təqdim edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi yeni sözləri kontekstə əsasən izah edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Öyrəndiyi yeni terminlərin hansı sahəyə aid olduğunu müəyyən edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və gəldiyi nəticəni təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir.<br>Mətndəki hadisələrdən çıxış edərək ideyanı müəyyənləşdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Verilmiş sözlərin fonetik təhlili ilə bağlı fikirlər söyləyir. |

### Motivasiya

**Müəllim** (Venn diaqramı): – *İnformasiya əldə edilməsi baxımından kompüterin və kitabın oxşar və fərqli cəhətlərini müəyyən edin.*




**Suallar:** – *Kompüterdə hansı oyunları oynamısınız? Oyunlar sizə nə verir? Bəs hansı bədii kitabları oxumusunuz? Oxuduğunuz kitablarla bağlı təəssüratlarınızı danışın.*

### Oxu

Mətn abzaslarla oxunur. Hər abzasdan sonra həm mənimsəmə, həm də proqnozlaşdırma məqsədilə suallar verilir.

Oxudan sonra müəllim uşaqlara aşağıdakı sualları verir:

– *Sizcə, "Hörümçək adam" oyunu ilə "Hörümçək adam" kitabı arasında hansı fərqli cəhətlər var? Üstünlüyü hansına verirsiniz?*

1-ci tapşırıq. Aludəçilik – bir şeyə qapılmaq, məftun olmaq.
Yeniyetmə – çox gənc, gənclik yaşına çatmış oğlan və ya qız.

Dərsliyin 19-cu səhifəsindəki 2-3-cü tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 12-13-cü səhifəsindəki tapşırıqlardan istifadə etmək olar.

Müəllim lövhədə cədvəl çəkir:

LAYİHƏ

*– Fəridgilin sinfində kompüter oyunları üzrə yarışma keçirilirdi. Ən yüksək bal toplayan şagirdlərin göstəriciləri bu cədvəldə qeyd olunub.*

| Kompüter oyunları | Fərid | İlkin | Günel |
|---|---|---|---|
| "Mario" | 75 | 78 | 92 |
| "Hörümçək adam" | 89 | 83 | 57 |
| "Ben 10" | 68 | 71 | 65 |

*Orta balı ən yüksək olan şagird yarışmanın qalibidir. Şagirdlərin orta ballarını hesablayın və qalibi müəyyən edin.*

**Söz ehtiyatı**

Şagirdlər *"proqram təminatı", "virus", "klaviatura"* terminlərinin izahını yazır, bu terminlərin hansı elm sahəsinə aid olduğunu müəyyənləşdirirlər. Müəllim onların diqqətini *"virus"* (təbabət) və *"klaviatura"* (musiqi) sözlərinin digər mənalarına yönəldir, onların mənaları arasındakı yaxınlıq müəyyən olunur (iş dəftərinin 13-cü səhifəsindəki 6-cı tapşırıqdan istifadə etmək olar).

İş dəftərinin 13-cü səhifəsindəki mətnlə bağlı qalan tapşırıqlar yerinə yetirilə bilər.

**Danışma**

Müəllimin təklifi ilə şagirdlər oxuduqları ilk kitab, bu kitabdan aldıqları təəssüratlar haqqında danışırlar .

**"Auksion".** Şagirdlərə sual verilir: – *Hansı mənbələrdən bilik əldə etmək olar? (radio, televiziya, kitab, internet, qəzet, jurnal)*

Daha sonra şagirdlər arasında *"Kim hansı bilik mənbəyinə daha çox müraciət edir?"* mövzusunda sorğu aparılır.

*Müəllimin nəzərinə: Bu tapşırığı daha genişmiqyaslı sosioloji araşdırma layihəsi kimi də həyata keçirmək olar. Hər bir şagirdə 10 anket vermək olar ki, qohumlar və tanışlar arasında sorğu keçirsin və sorğunun nəticələrini qrafik informasiya (cədvəl, barqraf, diaqram) şəklində təqdim etsin.*

**ANKET NÜMUNƏSİ**

1. İnformasiya almaq üçün daha çox hansı mənbələrə müraciət edirsiniz? (altından xətt çəkin)

*radio, televiziya, kitab, internet, qəzet, jurnal*

2. Özünüz haqqında məlumat verin.

Yaşınız __________

Cinsiniz __________

Məşğuliyyətiniz _____________

Sonda şagirdlərin araşdırmaları ümumiləşdirilir və nəticələr hesablanaraq diaqram tərtib olunur.

Sorğunun sonunda bu nəticəyə gəlinir ki, yuxarıda adları sadalanan informasiya mənbələri məqsəddən asılı olaraq müxtəlif yerlərdə istifadə olunur.

**Dinləmə**

Ön hazırlıq. Əvvəlki dərsdə müəllim uşaqlara tapşırır ki, "Hörümçək adam" əsəri haqqında mümkün qədər çox məlumat (süjet xətti, əsərin yazılma tarixi, müəlliflər, əsər əsasında çəkilmiş filmlər, kompüter oyunları və s.) toplasınlar.

LAYİHƏ

**Müəllim:** – *Yadınıza salın: III sinifdə keçdiyiniz hansı nağıl qəhrəmanları qeyri-adi bacarığa malik idi?*

Uşaqlar “Balaca və damda yaşayan Karlson” əsərini yada salırlar.

**Sual:** – *Siz hansı qeyri-adi bacarıqlara malik olmaq istərdiniz? Arzuladığınız bacarıqlardan nə məqsədlə istifadə edərdiniz?*

Uşaqların fikirləri dinlənilir. Müəllim hər fikrə böyük hörmətlə yanaşır.

Aşağıdakı məlumat verilir.

– *Spaydermen (Spiderman) – ingiliscədən tərcümədə* **hörümçək adam** *deməkdir. Siz, yəqin ki, Hörümçək adam haqqında cizgi filmlərinə, kinolara baxmısınız. Hətta bir çoxunuz Hörümçək adamın şəkli olan çantalara, paltarlara və digər əşyalara maraq göstərirsiniz. Bəs bilirsiniz Hörümçək adam kimdir?*

## HÖRÜMÇƏK ADAM

Piter Parker əmisigildə yaşayırdı. Onun valideynləri təyyarə qəzasında həlak olmuşdular. Əmisi onu öz övladı kimi sevir, onun parlaq bir gələcəyi olmasına çalışırdı. Piter çox saf, sakit bir uşaq idi. Yoldaşları onun sakit olmasını fərsizlik kimi başa düşür, onu tez-tez ələ salırdılar.

Piter artıq 15 yaşına çatmışdı. Bir gün təsadüf nəticəsində onun həyatı tamamilə dəyişdi. Piter laboratoriyada həşəratlar üzərində təcrübə aparırdı. Birdən kolba şüşəsindən çıxan zəhərli hörümçək onu sancdı. Bu zaman Piter özündən asılı olmadan sürətlə laboratoriyadan çıxdı, küçə uzunu qaçmağa başladı. O çox sürətlə qaçırdı, hətta maşınları belə ötüb-keçirdi. Piter xüsusi çəldliklə divara dırmaşmağa başladı. Bundan sonra başa düşdü ki, bu qeyri-adi gücün səbəbi onu dişləyən zəhərli hörümçəkdir.

Piter yeni bacarıqlarını hər kəsdən gizlədirdi. Heç kimin diqqətini cəlb etmək istəmirdi. Qeyri-adi bacarıqlarından istifadə etmək istədikdə mavi-qırmızı paltar geyir, maska taxırdı ki, heç kim onu tanımasın. Beləcə, şəhərdə Hörümçək adam haqqında əfsanələr gəzib-dolaşmağa başladı.

Bir dəfə küçə ilə gedərkən Piter gördü ki, polislər bir oğrunu qovurlar. O istəsəydi, oğrunu bir göz qırpımında tuta bilərdi, ancaq: “Bu, polislərin işidir, öz işlərini özləri görsünlər”, – deyib oğruya heç fikir də vermədi.

Ertəsi gün dərsdən çıxıb evə gələndə Piter həyətdə polis maşınları gördü. O çox təəccübləndi. Axı polislər onların evində nə axtarırdı?! Heç demə, Piterin əmisini evə girən bir oğru öldürübmüş. Piter bunu eşitcək çox qəzəbləndi, tez paltarını dəyişdi, maskasını taxdı və oğrunu axtarmağa başladı. Oğrunu tutanda gördü ki, bu, dünən polislərin təqib etdiyi oğrudur. Piter əmisinin ölümündə özünü günahlandırdı. Axı keçən gün Piter oğrunu tutmaq üçün polislərə kömək etsəydi, indi bu hadisə olmazdı.

O gündən sonra başa düşdü ki, bacarıqlarından yalnız öz şəxsi mənafeyi üçün deyil, başqa insanlar üçün də istifadə etməlidir. O, insanların mənafeyi uğrunda mübarizəyə başladı və hər kəsin sevimlisi oldu. Xalqını pis adamlardan qorudu. Çətin vəziyyətə düşmüş insanların himayədarına çevrildi.

Müəllim mətni oxuduqca fasilələr verir və suallar vasitəsilə şagirdlərin diqqətinin mətndən yayınmamasına çalışır.

1. *Nə üçün yoldaşları Piteri fərsiz hesab edirdilər?*
2. *Piter qeyri-adi gücə malik olduğunu necə başa düşdü?*
3. *Şəhərdə Hörümçək adam haqqında əfsanələrin yaranmasına səbəb nə idi?*
4. *Piter nə üçün oğrunu tutmaqda polislərə kömək etmədi?*
5. *Piter niyə qəzəbləndi?*
6. *Nə üçün Piter hər kəsin sevimlisinə çevrildi?*

LAYİHƏ

**Danışma** (“Auksion”)

**Sual:** – *Hörümçək adam kimdir?*

Şagirdlər dinləmə mətnini topladıqları məlumatlarla zənginləşdirirlər.

**Yazı**

*"Mən Hörümçək adam olsaydım, nə edərdim?"* mövzusunda inşa yazılır.

**Dil qaydaları**

Dərsliyin 19-cu səhifəsindəki 5-ci tapşırığa keçməzdən əvvəl müəllim şagirdlərə bildirir ki, sözlərin səs tərkibinə görə təhlili zamanı hecaların sayı və ahəng qanunu sözün yazılışına, səslər isə tələffüzə əsasən müəyyənləşdirilir.

1-ci və 5-ci cümlələrdəki deyilənlər yanlış, qalanları isə doğrudur.

6-cı tapşırıq yerinə yetirilir.

7-ci tapşırıq qruplarla yerinə yetirilir. Hər qrup cədvəlin bir sütununa uyğun sözləri yazmaqla bərabər, daha 3 söz də özləri əlavə edir. Tapşırığın icrasından sonra qruplar bir-birinə suallarla müraciət edir:

– *Elə sözlər deyin ki, həmin sözlərin tərkibində həm dodaqlanan, həm də dodaqlanmayan saitlər olsun.*

– *Elə sözlər deyin ki, həmin sözlərin tərkibində yalnız qalın dodaqlanan saitlər olsun.*

– *Elə sözlər deyin ki, həmin sözlərin tərkibində yalnız incə dodaqlanan saitlər olsun.*

– *Elə sözlər deyin ki, həmin sözlərin tərkibində yalnız qalın dodaqlanmayan saitlər olsun.*

– *Elə sözlər deyin ki, həmin sözlərin tərkibində yalnız incə dodaqlanmayan saitlər olsun.*

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 5. RUMİNİN MƏSLƏHƏTİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi mətnlərdəki eyni faktlar üzrə müxtəlif fikirləri ümumiləşdirir. |
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Nəsihətamiz fikri eşitdiyi və ya müşahidə etdiyi hadisələrlə bağlayaraq mühakimə xarakterli fikirlər söyləyir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu mətnin ideyasını həyatla əlaqələndirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi mətnin məzmununu öz sözləri ilə yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Ahəng qanununa tabeliyinə görə sözləri fərqləndirir. |

**Motivasiya**

**Müəllim:** – *Müəllim sizə sinifdə mobil telefonla danışmağı qadağan etsə, sözünə əməl edərsiniz?* Cavablardan sonra: – *Əgər müəllim özü sinifdə mobil telefonla danışsa necə?*

Uşaqların fikirləri dinlənilir. II sinifdə "Sehrli torba" nağılında Səmədin, "İki güzgü"də Leylanın, III sinifdə "Leylək və bülbül" nağılında leyləyin, "Beş bacının qardaşı"nda Tofiqin pis vərdişləri xatırlanır.

Müəllim tapşırır ki, uşaqlar tərgitmək istədikləri bir vərdişi və onu niyə tərgitmək istədiklərini kiçik bir kağızda yazıb müəllimə versinlər. Bu zaman qeyd olunur ki, səmimi olmaq üçün uşaqlar kağızda öz adlarını yazmaya da bilərlər.

LAYİHƏ

Vərəqlər toplandıqdan sonra pis vərdişlərin siyahısı tərtib olunur və lövhədə cədvəl çəkilərək şagirdlərlə birlikdə doldurulur.

| Vərdiş | Niyə tərgitmək lazımdır? | Tərgitmək üçün nə etmək lazımdır? |
|---|---|---|
| | | |
| | | |

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 20-ci səhifəsindəki "Ruminin məsləhəti" rəvayəti *"Gedin, üç həftədən sonra gələrsiniz"* cümləsinə qədər oxunur.

**Müəllim:** – *Sizcə, Mövlana niyə belə söylədi? Mətnin davamı ilə bağlı fikirlərinizi söyləyin.*

Şagirdlərin variantları dinlənilir. Sonra mətnin davamı oxunur və deyilən variantlarla müqayisə olunur.

Mətnin nə dərəcədə qavranıldığını yoxlamaq məqsədilə suallar verilir:

– *Mövlana uşağa neçə gündən sonra məsləhət verdi?*

– *Bu mətnə görə, Rumi haqqında bunlardan hansını söyləmək olar?*

*A) böyük şair* *B) müdrik müəllim* *C) zəhmətkeş insan*

2-ci tapşırıqda söz cütlükləri müəyyənləşdirilir: 1-Ç, 2-D, 3-A, 4-C, 5-B.

3-cü tapşırıq yerinə yetirilir. Əsərin ideyası açıqlanır: "Yalnız o adamın məsləhət verməyə mənəvi haqqı çatır ki, özü həmin məsləhətə əməl etmiş olsun".

**Danışma** ("Akvarium")

Müzakirə üçün Ruminin iki kəlamı verilir:

1. İnsanlar gördüm ki, əynində libası yox,
   Libaslar gördüm ki, içində insanı yox.
2. Bülbül gözəl oxuduğuna görə qəfəsə salınar,
   Qarğanı, ya bayquşu qəfəsdə kim saxlar ki?

Qruplar həmin kəlamları izah etməli və həyatdan misal gətirməklə bu kəlamların onlarda hansı fikirlər oyatdığını söyləməlidir.

**Dil qaydaları**

4-cü tapşırıqda izahı verilmiş sözlər tapılır. Bu sözlərin sol sütundakı sözlərə müəyyən hissəcik əlavə edilməklə alındığı qeyd olunur. Motivasiya xarakterli bu tapşırığın icrasından sonra dərslikdəki qayda oxunur və izah olunur. 2-ci tapşırıqda sözlərin kökünə hansı şəkilçilər artırıldığı müəyyənləşir. Müəllim qeyd edir ki, bunlardan *-lı, -çı dörd cür, -ban, -keş* bir cür yazılan şəkilçilərdəndir.

İki və dörd cür yazılan şəkilçilərlə bağlı dərsliyin 21-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir. Şəkilçidə baş verən dəyişikliyin səbəbinin ahəng qanununa görə olduğu vurğulanır. Sözün son hecası qalın sait olarsa, ona qoşulan şəkilçi qalın saitli və əksinə olur.

*Müəllimin nəzərinə: Şəkilçilər qoşulduqları sözdəki son saitin qalın və incəliyindən asılı olaraq iki cür, qalın, incə, dodaqlanan və dodaqlanmayan olmasından asılı olaraq dörd cür yazılır.*

Müəllim "Top oyunu"ndan istifadə edərək bu mövzu ilə bağlı dil qaydasını möhkəmləndirə bilər. Oyunda iştirak edən şagirdlər elə sözlər deməlidirlər ki, eyni şəkilçi müxtəlif variantlarda işlənsin. Məsələn, müəllim "qaçır" deyib topu bir şagirdə atır, həmin şagird "gəlir" deyib topu başqa şagirdə atır, 2-ci şagird "görür" deyib topu 3-cü şagirdə atır və s. Növbəti addımda başqa şəkilçili söz deyilərək oyun davam etdirilir.

LAYİHƏ

**Dinləmə**

**ALİM VƏ CAHİL**

Bir cahil adam bir alimin evinə əmanət qoyur. Bir neçə gündən sonra əmanətə ehtiyacı olur. Alimin evinə gedir. Baxıb görür ki, alim döşəkçə üstə əyləşib, qarşısında cərgə ilə oturan uşaqlara dərs deyir.

Cahil:
– Ey ustad, əmanətə ehtiyacım var, gəlmişəm onu aparmağa.
Alim deyir:
– Gözlə, dərs qurtarsın, ondan sonra verərəm.
Cahil adam oturub gözləməyə başlayır. Fikir verib görür ki, uşaqlar nəsə danışır, alim isə elə hey başını yırğalayır. Elə bilir ki, dərs demək ancaq başını yırğalamaqdan ibarətdir, deyir:
– Ustad, sənin əvəzinə mən başımı yırğalayaram, sən get əmanətimi gətir, tələsirəm.
Alim cahilin nəyə işarə vurduğunu anlayır. Gülür və deyir:
– Məsələ ancaq baş yırğalamaqda deyil, gərək başın içində də nəsə olsun.
Cahil sözlərindən utanıb daha dinmir. Dərsin axırınadək dinməz-söyləməz gözləyir.

Sual və tapşırıqlar:
*1. Cahil niyə alimin evinə gəlir?*
*2. Alim niyə cahildən gözləməyi xahiş edir?*
*3. Mətndə gülüşdoğuran nədir?*
*4. Mətnin janrını müəyyən edin.* (lətifə)

**Yazı**
Şagirdlər plan quraraq dinlədikləri mətnin qısa məzmununu yazırlar.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu** üzrə qiymətləndirmə (İş dəftərinin 14-cü səhifəsində də verilmişdir.)

## GÖRÜNMƏZ ADAM

Herbert Uels fantastik romanları ilə tanınan ingilis yazıçısıdır. O, "Görünməz adam" romanında bir alimin insan vücudunu görünməz etməsindən yazır. Bəs, görəsən, insanı, doğrudan da, görünməz etmək mümkündürmü?

Nəzəri cəhətdən bu mümkündür, çünki insan vücudunun əsasını təşkil edən su və başqa maddələr şəffafdır. 1. Lakin insanda şəffaf olmayan maddələr də var ki, onlar qana, dəriyə, saçlara və gözə rəng verir. 2. İnsanın bədən üzvlərini öyrənən elm anatomiya adlanır. 3. Əslində, insan bədənindəki rəngli maddələri də şəffaflaşdırmaq olar, lakin bu zaman həmin orqanlar öz funksiyasını itirər. İnsanın görməsi üçün həmin rəngli maddələrin əvəzedilməz rolu var.

**Tapşırıqlar.**
1. Rəqəmlə nömrələnmiş hansı cümlənin mətnin məzmunu ilə əlaqəsi yoxdur?
A) 1-ci
B) 2-ci
C) 3-cü

2. Mətnin məzmununa uyğun gələn fikri seç.
A) İnsan vücudunun yoxa çıxması nəzəri cəhətdən mümkündür.
B) İnsanı görünməz etmək yalnız nəzəriyyədə mümkündür.
C) İnsan vücudunda şəffaf olmayan yalnız gözlərdir.

3. *"Dəri"* sözü hansı cümlədə əlamət bildirir?
A) Bəzi heyvanları məhz dərisinə görə ovlayırlar.
B) İnsanlarda dərinin rəngi müxtəlif olur.
C) Onun dəri paltosu hamının xoşuna gəldi.

LAYİHƏ

4. *“Saç”* sözünü cümlələrdə işlət.
Feil kimi: ________________________________________
İsim kimi: ________________________________________

**Yazı** (ifadə)

**QUŞATAN**

Rüstəmlə Qurban həm yaxın qonşu, həm də yaxın dost idilər. Onlar eyni sinifdə oxuyurdular. Rüstəmin bir quşatanı vardı. O, tez-tez quşları incidir, Qurban isə həmişə onu başa salmağa çalışırdı ki, quşları incitmək olmaz, günahdır.

Bir gün Rüstəm quşatanı əlində tutaraq yol qırağındakı kollara, ağaclara baxa-baxa məktəbə gedirdi. Qurbangilin evlərinə az qalmışdı. O hər gün buradan keçəndə dostunu səsləyər və məktəbə bərabər gedərdilər. İndi də onların hasarına yenicə yaxınlaşmışdı ki, qarşıdakı iydə ağacının budağında bir quş gördü. Tez çantasını yerə qoyub yavaş-yavaş iydə ağacına yaxınlaşdı. Quşatana daş qoyub atdı. Daş lap quşun yanından keçdi. Rüstəm bir dəfə də cəhd elədi, amma bu dəfə quşatan Rüstəmin əlindən çıxıb ağacın budağına ilişdi. O nə qədər çalışdısa, quşatanı ağacdan götürə bilmədi. Birdən dərsə gecikdiyini xatırlayıb məktəbə tərəf yüyürdü. Sinfə girəndə Qurbanı görmədi. Birinci dərsdən sonra məktəbə xəbər çatdı ki, Qurbanın başı yaralanıb.

Dərslər qurtaran kimi Rüstəm Qurbana baş çəkməyə getdi. Evə girəndə gördü ki, Qurban başı sarıqlı uzanıb, yanında da quşatan. Elə bu vaxt Qurbanın anası otağa gəldi və deyinməyə başladı:

– Gör oğlumu nə hala qoyublar. Bu daşı atanın əlləri qırılsın!

Rüstəm başını aşağı saldı. O nə edəcəyini bilmirdi...

Şagirdlər plan tutaraq mətnin müfəssəl məzmununu yazırlar.

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Sözlərdən birinin ilk samitini cingiltili qarşılığı ilə əvəz etdikdə yeni söz yaranır:
A) kələm B) səhər C) pətək

**2.** Cümlələrdən birində heç bir söz ahəng qanununa tabe deyil:
A) Körpü hər iki sahili birləşdirirdi.
B) Kitabın ilk səhifəsində mündəricat verilmişdi.
C) Mavi səmadakı Azərbaycan təyyarələridir.

**3.** İncə saitlərin ahənginin gözlənildiyi söz sırası hansıdır?
A) tarix, sadiq, sait
B) keçi, nəhəng, meşəlik
C) daxıl, yapıncı, durna

**4.** “Şagird” sözünün səs tərkibi haqqında deyilənlərdən biri yanlışdır:
A) 6 səsdən ibarətdir: 2-si sait, 4-ü samitdir.
B) Ahəng qanununa tabe deyil.
C) Tərkibindəki samitlərdən 1-i kar, 3-ü cingiltilidir.

**5.** Yalnız qalın saitli sözlərdən ibarət cümləni seç.
A) Leyla yaxşı piano çalır.
B) Qasım dayı atını çapıb uzaqlaşdı.
C) Komandamız yarışda medal qazandı.

LAYİHƏ

# Dərs 6. BİRİNCİ ADDIM (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və ya dinlədiyi əsərlə bağlı fikirlərini əsaslandırmaq üçün arqumentlər gətirir. Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək ssenari yazır və səhnələşdirir. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Rollu oyun zamanı jest və mikalardan istifadə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadənin mənasını izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu bədii mətnin hekayə xəritəsini qurur. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu mətnin ideyasını həyatla əlaqələndirir. Əsərdəki obrazları səciyyələndirmək üçün müvafiq keyfiyyət bildirən sözlər seçir. Mətnin ideyasını atalar sözü ilə ifadə edir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirib yazır. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş situasiyaya uyğun kiçikhəcmli esse yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Fonetik təhlil zamanı bəzi şəkilçilərin deyilişi ilə yazılışını fərqləndirir. |

**Motivasiya**

– *Müəllim dərsə gəlməyəndə və ya gecikəndə həmin vaxt nə edirsiniz?*

Uşaqlar öz fikirlərini söyləyirlər.

Müəllim şaxələndirmə apararaq deyilənləri yazı taxtasında qeyd edir.

Müəllim çalışır ki, yaxşı oxuyan şagirdlərin dediklərini dairənin bir tərəfində, zəif oxuyan və tənbəl şagirdlərin dediklərini isə digər tərəfində qeyd etsin. Sonra uşaqların dedikləri müqayisəli şəkildə şərh olunur.

**Oxu** (rollu oyun)

Mətnin 1-2-ci hissələri səssiz oxunduqdan sonra rollar üzrə səhnələşdirilir.

Mətndə əsas obrazlar təhlil edilir. Həmin obrazlar sinifdə belə şagirdlər varsa, onlarla müqayisə olunur.

Mətnin oxunmuş hissəsinin məzmunu atalar sözü ilə ifadə olunur (dərslik, səh. 23, tap. 2).

**Söz ehtiyatı**

Şagirdlər "özünü o yerə qoymamaq" ifadəsinin mənasını aydınlaşdırırlar, *"göz"*, *"udmaq"*, *"sancmaq"* sözlərinin müxtəlif mənalarını izah edib cümlələrdə işlədirlər Mətndəki ilə eyni mənada işlənən cümlələri qeyd edirlər.(dərslik, səh. 22,23, tap. 1,2).

İş dəftərinin 15-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilə bilər.

*"Çul"* sözünün izahı: "Adətən, minik heyvanının üstünə sərilən, yundan toxunmuş qalın örtük".

LAYİHƏ

**Danışma** (müzakirə)

Dərsliyin 24-cü səhifəsindəki 4-cü tapşırığa əsasən, şagirdlər *"lovğalıq"*, *"özündənrazılıq"* və *"məğrurluq"* kimi keyfiyyətlərin oxşar və fərqli cəhətləri haqqında danışırlar (Venn diaqramından istifadə etmək olar). Müəllim sual və tapşırıqlarla müzakirənin daha canlı keçməsinə çalışır:

– *Bu keyfiyyətlərdən hansı müsbət, hansı mənfidir?*
– *Özündənrazılığın hansı müsbət və mənfi tərəfləri var?*
– *"Təvazökarlıq" bu sözlərdən hansı ilə əksmənalıdır?*
– *Sizcə, hansı adam çətin məqamda başqasının qarşısında əyilə bilər: lovğa, yoxsa məğrur?*
– *Bu keyfiyyətlərlə bağlı kiçik mətnlər qurun.* (Qrup işi şəklində verilə bilər.)

**Yazı**

Müəllim şagirdlərlə birlikdə *"çulunu sudan çıxarmaq"* ifadəsinin mənasını araşdırır. Daha sonra sinif 2 qrupa bölünür və müəllim yazı tapşırıqlarını izah edir.

**I qrup:** – *Oxuduğunuz mətnin davamını öz təxəyyülünüzə uyğun yazın.*

**II qrup:** – *Elə bir hekayə yazın ki, orada baş qəhrəman çulunu sudan çıxara bilsin.*

**Danışma** (müzakirə)

**Müəllim:** – *Sizcə, qanun, qayda nə deməkdir?*
Uşaqlar öz fikirlərini söyləyirlər.

*Qanun, qayda – hamı tərəfindən qəbul olunmuş davranış normaları.*

"Əqli hücum". **Müəllim:** – *Sinifdə və məktəbdə hansı davranış qaydalarına riayət etmək lazımdır?*

Müəllim yönəldici suallar vasitəsilə sinifdə canlanma yaradır:
– *Başqası danışanda onun sözünü kəsmək olarmı?*
– *Dərsə gecikmisənsə, sinfə daxil olanda nə etmək lazımdır?*

Şagirdlərin fikirləri münasibət bildirilmədən lövhədə yazılır. Lakin fikirlər qeyri-müəyyən ifadə olunduqda müəllim dəqiqləşdirmələr apara və səslənmiş fikrin qayda şəklində ifadə olunmasına kömək edə bilər.

*Müəllimin nəzərinə: Müəllim çalışır ki, aşağıdakı qayda da siyahıda öz əksini tapsın: "Dərsə cavab verən şagird çətinlik çəkirsə, ona yerdən gizlicə kömək etmək olmaz".*

"Əqli hücum" bitdikdən sonra müəllim qaydaları bir-bir səsləndirir və səsə qoyur. Şagirdlərin sayının 50%-dən çox səs toplamış qayda sinif tərəfindən qəbul olunur. Sonra müəllim iri vatman kağızı götürüb belə bir cədvəl çəkir.

**$4^a$ sinfinin QAYDALAR TOPLUSU**

| Şagirdlər arasındakı münasibətlər | Müəllim-şagird münasibətləri | Məktəbdə davranış qaydaları |
|---|---|---|
| ______________ | ______________ | ______________ |
| ______________ | ______________ | ______________ |
| ______________ | ______________ | ______________ |

LAYİHƏ

Şagirdlərin səs çoxluğu əsasında qəbul edilmiş qaydalar cədvəlin müvafiq sütunlarında yerləşdirilir.

*Müəllimin nəzərinə:* Gələcəkdə cədvələ əlavələr etmək üçün boş yerlər saxlanılır. Bu vərəq şagirdlərin görə biləcəyi bir yerdə divardan asılır.

**Oxu**

Mətnin 3-cü hissəsi səssiz oxunur. “Suflyor” sözü izah olunur (iş dəftərinin 15-ci səhifəsindəki 3-cü tapşırıqdan istifadə oluna bilər): *“Teatr tamaşası zamanı rolun sözlərini səhnədəki aktyora xatırladan adam”.*

Dərsliyin 25-ci səhifəsində “Düşün və cavab ver” rubrikası altında verilmiş sualların cavabları tapılır.

Daha sonra 4-cü hissə oxunur və müəllim şagirdlərin diqqətini “Qaydalar toplusu”na yönəldir və sualla müraciət edir: – *Əsərin hansı qəhrəmanı qaydalara riayət etmədi?*

Əsər qəhrəmanlarının davranışlarına əsasən “Qaydalar toplusu”na əlavələr edilir.

**Danışma**

Müəllim bildirir ki, şagirdlər oxuduqları mətn parçasını səhnələşdirməlidirlər. Lakin bu dəfə müəllifin sözləri səsləndirilməyəcək. Səhnədə yalnız 3 aktyor iştirak etməlidir. Onlar Arif, Vaqif və müəllim rolunu oynamalıdırlar. Buna görə də şagirdlər oxuduqları mətn əsasında ssenari yazıb səhnə əsəri tərtib etməlidirlər.

Mətnin səhnələşdirilməsi üçün sinif 3 qrupa (teatr truppasına) da bölünə bilər. Hər qrupda ssenarist, rejissor və aktyorlar seçilməlidir. Müəllim daha bir neçə qaydanı xatırladır:

– *mətndəki qəhrəmanların nitqi təkrar olunmaya da bilər;*
– *ssenaristlər orijinal mətndə ixtisarlar və əlavələr edə bilərlər;*
– *əsas məsələ mətnin məzmununu obrazların dili ilə tamaşaçıya çatdırmaqdır.*

Qrupların səhnələşdirdiyi tamaşalar oynanıldıqdan sonra hər bir tamaşa müzakirə olunur və şagirdlər tərəfindən qiymətləndirilir.

**Müəllim:** – *“Birinci addım” hekayəsi kimin dilindən nəql olunur?*

Şagirdlərin cavablarından sonra: – *Gəlin 4-cü hissənin sonunu bir daha oxuyaq və görək Vaqifin hərəkətləri haqqında Arif nə düşünür?*

Həmin hissə oxunduqdan sonra: – *İndi elə fərz edək ki, mətn Vaqifin dilindən nəql olunur. Onun Arif haqqında düşüncələrini əks etdirən monoloq hazırlayın və təqdim edin* (müəllim *“monoloq”* sözünün mənasını izah edir).

Monoloqlar dinlənilir.

**Danışma** (konkret hadisənin araşdırılması – situativ praktikum)

Müəllim məzmunu *“Arif bundan sonra nə etməlidir?”* olan situativ praktikum hazırlayır. Müzakirə üçün problemli vəziyyətə dair suallar öncədən hazırlanır və ayrıca kartlara yazılır. Şagirdlər qruplara bölünürlər, hər qrup təklif edilən vəziyyətlərdən birini seçir və öz mühakimələri ilə əsaslandırır.

**I qrup.** Arif Vaqifin hərəkətlərini sinifdə müzakirə etmək üçün müəllimə müraciət etməlidir.

**II qrup.** Arif Vaqifə yaxınlaşmalı və onun təkəbbürlülüyünün (inadkarlığının, lovğalığının) nəyə gətirib çıxardığını başa salmalıdır.

**III qrup.** Arif Vaqifgilə getməli və olanları onun valideynlərinə anlatmalıdır.

**IV qrup.** Arif baş verənləri evdə valideynlərinə danışmalı və bundan sonrakı hərəkətləri ilə bağlı onlardan məsləhət istəməlidir.

**Oxu** (rollu oyun)

Mətnin 5-ci hissəsi səssiz oxunduqdan sonra rollar (Arif və atası) üzrə səhnələşdirilir. Müəllim obrazların daxili aləmini açmaq üçün intonasiya, jest və mimikaya diqqət yetirməyi tapşırır. Şagirdlərə paylanan qiymətləndirmə vərəqində bu göstəricilər əsas meyar kimi öz əksini tapır.

Dərsliyin 27-ci səhifəsində “Düşün və cavab ver” rubrikası altında verilmiş suallar cavablandırılır.

İş dəftərinin 15-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilə bilər. Tapşırıqda mətnin hissələrinə aşağıdakı başlıqlar verilir:

| | | | |
|---|---|---|---|
| 1-ci hissə: | “Yolda” | 4-cü hissə: | “Vaqifin küsməyi” |
| 2-ci hissə: | “Vaqifin lovğalığı” | 5-ci hissə: | “Atanın məsləhəti” |
| 3-cü hissə: | “Vaqifin biabır olması” | | |

LAYİHƏ

Hekayə xəritəsi tərtib olunduqdan sonra şagirdlər mətni hissə-hissə nəql edirlər.

**Dil qaydaları**

*Müəllimin nəzərinə:* *Əvvəlki siniflərdə cəm şəkilçisinin yazılışı və deyilişi arasındakı fərqlə bağlı tapşırıqlar verilmişdir. Bu sinifdə isə 4.1.1 standartını tam reallaşdırmaq məqsədilə digər şəkilçilərin qəbulu zamanı sözlərin tələffüzündə baş verən dəyişikliklərlə bağlı tapşırıqlar verilməsi də nəzərdə tutulmuşdur.*

Dərsliyin 27-ci səhifəsindəki 14-cü tapşırıq yerinə yetirilir. Deyilişi və yazılışı fərqlənən sözlərin transkripsiyası yazılır:

addımlarla [addımlarnan]

taxta [taxda]

Birinci sözlə bağlı qayda tapşırıqdan sonrakı nəzəri materialda verilib. 2-ci sözlə bağlı şagirdlərə xatırlatmaq olar ki, iki kar samit yanaşı gələndə 2-ci samit cingiltili tələffüz olunur.

15-ci tapşırıq.

B. üzümdən [üzümnən]

A. birləş [birrəş]

Ç. işlə [işdə]

Dərsliyin 27-ci səhifəsindəki 16-17-ci tapşırıqlar yerinə yetirilir.

İş dəftərinin 16-cı səhifəsində verilmiş dil qaydaları üzrə tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu** üzrə qiymətləndirmə (İş dəftərinin 17-ci səhifəsində də verilmişdir.)

**İKİ YUXU**

– Xədicə, ay Xədicə ▭
– Nə deyirsən, ay Eldar ▭
– Mən görmüşəm bu gecə
Çox qəribə yuxular ▭
Görürəm, barışmışıq ▭
Səninlə dostuq yenə.

Məsələnin həllini
Yazıb verirsən mənə.
– Mən də görmüşəm, Eldar,
Əsl şagird olmusan,
Öz ağlınla ilk dəfə
Yaxşı qiymət almısan.

*Cahangir Məmmədov*

1. Mavi boşluqların yerinə müvafiq durğu işarələrini qoy.

2. Şeirdə altından xətt çəkilmiş cümləni nəsrə çevirib yaz.

3 *"Yaz"* sözünü müxtəlif mənalarda cümlədə işlət.

4. Şeirə aid olan fikri seç.
   A) Xədicə imtahanda Eldara kömək etmədi.
   B) Eldar dərsə ciddi hazırlaşmışdı.
   C) Uşaqlar bu ana kimi küsülü idilər.

5. Şeiri müxtəlif başlıqlarla adlandır.

---

**Yazı** üzrə qiymətləndirmə (məktub)

Mövzu: "Qarabağ haqqında dosta məktub"

*İnternetlə yazışdığın əcnəbi dostun səndən Qarabağ müharibəsinin tarixi və səbəbləri haqqında soruşur. Sən ona necə cavab yazarsan?*

LAYİHƏ

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Qaçdı, getdi, uçdu, ...
Nöqtələrin yerinə hansı söz yazılmalıdır ki, söz sırasında "-dı[4]" şəkilçisinin bütün variantları öz əksini tapsın?
A) bildi B) düşdü C) qovdu

**2.** "Odunçuların" sözünün tərkibindəki şəkilçilərdən hansı iki cür yazılır?
A) -çu B) -lar C) -ın

**3.** Sözlərdən birində *-lar* şəkilçisi fərqli tələffüz olunur:
A) kitablar B) yazılar C) insanlar

**4.** *"Torpaqla"* sözü feil kimi işləndikdə necə tələffüz olunur?
A) [torpaqla] B) [torpaxla] C) [torpaxnan]

**5.** Hansı sözdə həm sözün kökü, həm də *-la* hissəciyi fərqli tələffüz edilir?
A) qatarla B) uşaqla C) maşınla

## Dərs 7. ƏN QİYMƏTLİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi şeirdəki obrazlı ifadələri şərh edir. |
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətnlər haqqında təəssüratlarını bölüşür.<br>Oxuduğu və ya dinlədiyi əsərlə bağlı fikirlərini müdafiə etmək üçün arqumentlər gətirir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndə rast gəldiyi obrazlı ifadələrin mənasını kontekstdən çıxış edərək müəyyənləşdirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və gəldiyi nəticəni təqdim edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu mətnin ideyasını həyatla əlaqələndirir və baş qəhrəmanın hərəkətinə münasibət bildirir.<br>Oxuduğu mətndəki obrazların hərəkətinə münasibət bildirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu və dinlədiyi mətnləri ümumiləşdirərək vətənpərvərlik mövzusunda inşa yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Sözün tələffüzünə əsaslanaraq onun səs tərkibi haqqında fikir yürüdür.<br>Ahəng qanununa tabeliyinə görə sözləri fərqləndirir. |

### Motivasiya

**I variant.** Müəllim *"Həyatda ən çox nəyi qiymətləndirirsiniz?"* soruşmaqla şaxələndirmə aparır.




LAYİHƏ

Fikirlər dinlənilir. Uşaqların cavabları *şaxələndirmə sxemində* əks olunur: *ata, ana, vətən, sevimli oyuncaq, öz otağı* və s.

**Sual:** – *Təsəvvür edin ki, işğal olunmuş torpaqlarımızdan məcburən köçürülənlər arasında siz yaşlı uşaqlar da olmuşlar. Sizcə, dədə-baba yurdlarından çıxarılarkən onlar ən qiymətli saydıqları nəyi götürmüşlər?*

**II variant.** Müəllim şagirdlərə Azərbaycan xəritəsini nümayiş etdirir. İşğal olunmuş bölgələrimiz şagirdlər tərəfindən xüsusi göstərilir, adları qeyd olunur.

**Müəllim:** – *Unutmayın ki, bu bizim torpaqlardır, gün gələcək, həmin torpaqlar geri alınacaq.*

**Sual:** – *Sizcə, işğal olunmuş torpaqlarımızdan məcburən köçürülmüş siz yaşlı uşaqlar öz dədə-baba yurdlarından çıxarılarkən ən qiymətli saydıqları nəyi götürmüşlər?*

Cavab variantları sadalanır.

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 28-29-cu səhfələrindəki "Ən qiymətli" hekayəsi *"Qızcığaz heç nə demədən qapını açıb özünü yerə atdı"* cümləsinə qədər ifadəli oxunur. "*Taxtapuş*" və "*kuzov*" sözləri araşdırılır.

**Sual:** – *Sizcə, Əhmədin qızı nəyə görə maşından yerə atıldı?*

Cavab variantları səslənir. Hekayənin ardı oxunur və cavab versiyaları ilə müqayisə olunur. Dərslikdə mətndən sonra verilmiş sual və tapşırıqlar yerinə yetirilir.

-ci tapşırıq cavablandırılarkən şagirdlər aşağı siniflərdə keçdikləri mətnlərin adlarını çəksələr, daha məqsədəuyğun olar (Z.Xəlil, "Çərpələng", H.Ziya, "Xocalı müsibəti" və s.).

*Tapşırıq*: Aşağıdakı ifadələrin izahını yaz və məcazi mənada işlənmiş sözü müəyyən et.

*Kəndin ayağında* – ............................... *Dalınca götürüldü* – ..........................

*Kəndin yuxarı başı* – .......................... *Bir göz qırpımında* – ..........................

Tətbiqi çalışmalar üçün iş dəftərinin 18-ci səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Danışma** ("Akvarium")

Müzakirə sualı: – *Qızcığazın maşını saxlatdırıb kitab-dəftərini götürmək üçün qaçması düzgün idimi?*

Sinif iki qrupa ayrılır. Bir qrup stullarda əyləşərək daxili dairə yaradır və müəllimin irəli sürdüyü problemi müzakirə edir. Müzakirə sualını təsdiq edən dəlilləri irəli sürürlər. Bu dəlillər aşağıdakılar ola bilər:

– *qızcığaz məktəbə gedənədək kitab-dəftəri onun həmyaşıdlarından geri qalmamasına yardımçı olacaq;*

– *dərsliklər dövlət tərəfindən verildiyindən onu qorumaq hər məktəblinin borcudur;*

– *məktəb ləvazimatları qızcığaz üçün ən qiymətli şeylər idi və s.*

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər. Onlar dəlilləri dinləyir, özlərində qeyd edir, öz əks-arqumentlərini hazırlayırlar. Diskussiya xarici dairədə oturanların hesabına davam edir. İkinci dairədə oturanların dəlilləri aşağıdakılar ola bilər:

– *atışma gedirdi, hər deqiqənin öz hökmü var idi;*

– *qızcığaz bir müddət kitab-dəftərsiz qalmaqla heç də həmyaşıdlarından geri qalmazdı;*

– *dövlət tərəfindən verilmiş dərsliklər üzrlü səbəbdən itərsə, məktəbli buna görə məsuliyyət daşımaz və s.*

Diskussiya dayandırılır, I və II dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. İndi onlar diskussiya apararaq əvvəlki iştirakçıların dəlillərini təkzib etməlidirlər.

**Dinləmə**

Dinləmə mətnini səsləndirməzdən əvvəl müəllim şagirdlərə sualla müraciət edir:

– *Sizcə, doğma yurdunu tərk edən yaşlı adamlar üçün ən qiymətli şey nədir?*

Müəllim uşaqların fikirlərini "*vətən*" sözünə yönəldir. Vətənin nə üçün qiymətli olduğu haqda fikirlər səsləndirilir.

LAYİHƏ

## BİR OVUC TORPAQ

Düşmənə qardaş dedik,
Başımıza daş düşdü.
Bizi qırıb-çatdılar,
Yaman qaçaqaç düşdü.

Yad tapdağı altında
Qaldı evim, eşiyim.
Qaldı qoyunum, malım,
Qaldı itim, pişiyim.

Nə nəfəs çəkə bildim,
Nə köks ötürə bildim,
Həyətdən bircə ovuc
Torpaq götürə bildim.

Dönə bilməsəm geri,
Sönsə ömür çırağı,
Gözümə atarsınız
O bir ovuc torpağı.

*Rafiq Yusifoğlu*

Dinləmə mətninə aid suallar:
*1. Biz düşmənə nə vaxt qardaş demişik? Bu, hansı dövrə təsadüf edir?*
*2. Qaçaqaç nə naxt düşdü? Buna səbəb nə idi?*
*3. Şeir kimin dilindən yazılıb?*
*4. "Nə nəfəs çəkə bildim,*
*Nə köks ötürə bildim" misraları ilə şair nə demək istəyir?*
*5. Şeirin axırıncı bəndini öz sözlərinlə izah et.*

**Yazı**

"*Onlar mütləq doğma yurdlarına qayıdacaqlar*" mövzusunda inşa yazın.

**Dil qaydaları**

8-ci tapşırıq. Mavi rənglə verilmiş cümlədə "meydan" və "texnika" sözləri seçilir və cümlə içərisində işlədilir.

9-cu tapşırıq. [ma:yinə], [sa:t], [mə:llif]

30-cu səhifədə verilmiş qayda mənimsədilir. Müəllim bir daha xatırladır ki, fonetik təhlil zamanı hecaların sayı və ahəng qanunu sözün yazılışına, səslər isə tələffüzə əsasən müəyyənləşdirilir.

10-cu tapşırıq.

*Müəllimin nəzərinə: Çalışmaq lazımdır ki, şagirdlər seçdikləri sözləri fonenik təhlil edərkən aşağıdakı ardıcıllıqla aparsınlar və bu cür təhliletmə onlarda vərdiş halına çevrilsin; məsələn: sehrli [sehirli]*
*sehr-li*
*6 hərf, 7 səsdən ibarətdir.*
*Ahəng qanununa tabe olur.*
*[s] – samit, kar, cingiltili qarşılığı [z]*
*[e] – sait, incə, dodaqlanmayan*
*[h] – samit, kar, cingiltili qarşılığı yoxdur*
*[i] – sait, incə, dodaqlanmayan*
*[r] – samit, cingiltili, kar qarşılığı yoxdur*
*[l] – samit, cingiltili, kar qarşılığı yoxdur*

11-ci tapşırıqda verilən sözlər *səs tərkibinə görə izah edilməlidir: [tüfənk], [müdafiyə], [səkgiz], [təyya:rə].*

12-ci tapşırıqda *rəhmli, müalicə, camaat, təəssüf* sözlərində hecaların sayı yazılışına və deyilişinə görə fərqlidir.

İş dəftərinin 18-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 8. TOM ÖZÜNÜ FƏDA EDİR (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki qəhrəmanları xarakterizə edir. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Oxuduğu mətnin davamını təxəyyülünə uyğun dialoji mətn qurmaqla təqdim edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndə rast gəldiyi obrazlı ifadələri kontekstə əsasən izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu bədii mətn parçasını təfsilatı ilə nəql edir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin məzmununa yeni süjet xətti əlavə etməklə yaradıcı plan tutur. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətnin süjet xəttinə əlavələr etməklə yaradıcı şəkildə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür.<br>Oxuduğu mətndəki obrazların hərəkətinə münasibət bildirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu mətnin ideyasını mövzu kimi seçərək inşa yazır.<br>Oxuduğu əsərdəki müəyyən epizodla bağlı kiçikhəcmli esse yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Ahəng qanununa tabeliyinə görə sözləri fərqləndirir.<br>Fonetik təhlil zamanı bəzi şəkilçilərin deyilişi ilə yazılışını fərqləndirir. |

**Motivasiya**

*– Təsəvvür edin ki, sinfinizə təzə qız gəlib. Oğlanlar onun rəğbətini qazanmaq üçün dəridən-qabıqdan çıxırlar. Hətta oğlanlar arasında elə rəqabət yaranıb ki, onlar bir-birinə düşmən kəsiliblər. Belə bir vəziyyətdə siz özünüzü necə aparardınız?*

Ayrıca oğlanların və qızların fikri soruşulur. Müəllim hamını səmimi cavab verməyə çağırır.

3-cü sinifdə keçilmiş sinifdənxaric oxu mətnlərindən "*Hiyləgər Tom Soyer*" hekayəsi xatırlanır. Müəllim Tom Soyer obrazını səciyyələndirməyi tapşırır.

**Oxu** ("Ziqzaq")

Şagirdlər 4 qrupa bölünürlər və "Ziqzaq" metodu ilə hər qrup üzvü nömrəsinə uyğun mətnin hissəsini oxuyur və üzvü olduğu qrupun digər üzvlərinə də həmin hissəni başa salır. Mətn bütün şagirdlərə aydın olduqdan sonra bir, yaxud iki nəfər tərəfindən nəql edilir.

Mətnin tam qavranıldığını yoxlamaq məqsədilə suallar verilir.

*– Nə üçün Alfredlə oturmaq Bekkini darıxdırdı?*

*– Nə üçün Bekki Tomun üzrxahlığını qəbul etmədi, axı o da Tomla barışmaq istəyirdi?*

*– Tom Bekkini müəllimin kitabını oxuyan zaman "tutanda" Bekki nə üçün ağlamağa başladı? Mətnin III hissəsinə görə, Bekkinin necə şagird olması haqqında nə deyə bilərsiniz?*

*– Tomun son hərəkətini necə qiymətləndirirsiniz?*

Dərsliyin 32-ci səhifəsindəki 4-5-ci tapşırıqlar yerinə yetirilir.

Müəllim uşaqlardan anatomiya elminin nədən bəhs etdiyini soruşur (dərslik, səh. 33, tap. 7) və onların fikirlərini yeni məlumatlarla zənginləşdirir.

LAYİHƏ

## Söz ehtiyatı

*“Fəda etmək”* (qurban vermək) sözünün mənası açıqlanır. Dərsliyin 31-ci səhifəsindəki 2-ci tapşırıq (cavab: “C” variantı) yerinə yetirilir. Mətnin 1-ci və 2-ci hissəsində işlənmiş ifadələrin mənaları müəyyənləşdirilir (dərslik,tap. 1,3). *“Ürəyi gedirdi”* ifadəsinin mənaları araşdırılır (çox istəmək və huşunu itirmək). “Ürək” sözünü başqa birləşmələrdə məcazi mənada işlətmək tapşırılır (ürəyinə salmaq, ürəyi düşmək, ürəyini sındırmaq, ürəyini boşaltmaq və s.).

Özünüifadə. Dərsliyin 35-ci səhifəsindəki “Şifahi nitq” rubrikasında verilmiş tapşırıqları yerinə yetirmək üçün şagirdlər qruplara bölünürlər:

**1-ci qrup** (şairlik istedadı olanlar): – *Təsəvvür edin ki, baş vermiş hadisədən sonra Bekki Toma və ya Tom Bekkiyə şeirlə barışıq məktubu yazır. Belə bir məktubu yazıb təqdim edin.*

**2-ci qrup** (aktyorluq bacarığı olanlar): – *Baş vermiş hadisədən sonra Tomla Bekkinin görüşünü səhnələşdirin.*

**3-cü qrup** (yazıçılıq və ya natiqlik istedadı olanlar): – *Baş vermiş hadisədən sonra Tomla Bekkinin barışıq səhnəsini əks etdirən mətn (nəsrlə) yazın.*

## Danışma

Müəllim lövhədə cədvəl çəkir.

| Mənfi obraz | Müsbət obraz |
|---|---|
| | |

Şagirdlər mənfi və müsbət obraza xas keyfiyyətləri sadalayırlar. Bu keyfiyyətlər cədvəlin müvafiq sütunlarında yazılır.

**Müəllim:** – *Bəs elə bir obraza rast gəlmisiniz ki, onun həm müsbət, həm də mənfi keyfiyyətləri olsun?*

Şagirdlərin fikirləri dinlənilir. Müəllim bildirir ki, belə obrazlara *ziddiyyətli obraz* deyilir. Cırtdan obrazını xatırladır, onun müsbət və mənfi keyfiyyətlərini sadalamağı tapşırır.

Mətnin 1-ci hissəsi yenidən şagirdlər tərəfindən fərdi şəkildə səssiz oxunur. Bu zaman iş dəftərinin 19-cu səhifəsindəki 1-ci tapşırıqdan istifadə oluna bilər. Cədvəllərin sol tərəfi (1-ci hissəni oxuduqdan sonra nə deyə bilərsən?) doldurulur. Daha sonra 2-ci hissə oxunur və cədvəlin sağ tərəfi doldurulur.

İş dəftərinin 19-cu səhifəsindəki 2-ci və 3-cü tapşırıqlar yerinə yetirilə bilər. Şagirdlər Tomu, Alfredi və Bekkini nə üçün müvafiq olaraq müsbət, mənfi və ziddiyyətli obraz adlandırdıqlarını (tap. 3) mətndən fraqmentlər gətirməklə öz sözləri ilə izah edirlər.

**Müəllim:** – *Tutaq ki, Tom müsbət obrazdır. Bəs onun heç mənfi keyfiyyətləri varmı?* (dəcəlliyi). *Alfredin hansı mənfi xüsusiyyətləri var? Bəs Bekkiyə niyə ziddiyyətli obraz deyirik?*

Cavablardan sonra şagirdlər Tomun Alfreddən necə qisas alacağı haqqında bir epizod düşünüb təqdim edirlər. Tomun xarakterinə uyğun daha tutarlı epizod hazırlayan şagirdlər müəllim tərəfindən daha yüksək qiymətləndirilir.

## Dil qaydaları

Dərsliyin 35-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilir. Şagirdlər 13-cü tapşırığı yerinə yetirdikdən sonra müəllim bu dil qaydasının ifadə olunmasında şagirdlərə kömək edir:

– *Şəkilçi qəbul edən bəzi sözlərin kökündəki son sait düşür.*

## Yazı

İş dəftərinin 20-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilə bilər.

Şagirdlər “*Tom özünü fəda edir*” *hekayəsindən özüm üçün çıxardığım nəticə”* mövzusunda inşa yazırlar.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 9. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 36-cı səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 10. 1-ci BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

### Dinləmə və yazı üzrə qiymətləndirmə

### Dinləmə mətni

**EYBƏCƏR ŞƏKİLLƏR**

Elmanla Akif qonşu olduqları üçün həmişə məktəbə birlikdə gedib-gəlirdilər.

Akif çox sakit oğlan idi. Elman isə dəcəllik edirdi. O, əlinə keçən kitabların içindəki şəkilləri eybəcərləşdirirdi. Elman Akifin də bir neçə kitabını bu hala salmışdı. Akif incisə də, aralarındakı dostluğu pozmamışdı.

Bir gün müəllim Akifin “Azərbaycan dili” kitabını görüb təəccüblə soruşdu:

– Kitabı bu hala kim salıb?

Akif yavaşca dedi:

– Özüm.

Müəllim narazı halda başını buladı:

– Heç səndən gözləməzdim.

Akif qıpqırmızı qızardı. Elman isə pıqqıltı ilə güldü.

Zəng bayıra vuruldu. Akif sinifdə növbətçi idi. Elmanı çağırıb dedi:

– Sən mənim əvəzimə növbə çək. Su içib gəlirəm.

Elman Akifin partasının üstündəki “Riyaziyyat” kitabını gördü. Cibindən karandaş çıxarıb şəkilləri qaraladı. Akif qayıdanda kitabı ona uzatdı:

– Gör necədir, xoşuna gəlir?

Akif kitabı vərəqlədi. Eybəcər şəkilləri görüb gülməyə başladı. Elman təəccüblə soruşdu:

– Nəyə gülürsən?

– Gülməli şeyə gülərlər də. Bu ki sənin kitabındır. Çantandan götürmüşəm.

Elman pərt oldu. Kitabı alıb çantasına qoydu. Akif isə fikirləşdi: “Görəsən, bir də o, başqasının kitabını qaralayacaqmı?”

*Elxan Əzizov*

Dinləmə mətni üzrə qiymətləndirmə (İş dəftərinin 21-ci səhifəsində də verilmişdir.)

1. Akif aralarındakı dostluğu pozmamaq üçün ...
   A) Elmanın səhvini üzünə vurmurdu.
   B) Elmana dərsdə kömək edirdi.
   C) Elmanın kitabını öz kitabı ilə dəyişdirmişdi.

2. Mətnə uyğun düzgün ardıcıllığı seç.
   1. Elman Akifə güldü.
   2. Elman “Riyaziyyat” kitabını qaraladı.
   3. Elman pərt oldu.
   4. Müəllim Akifi danladı.
   5. Elman kitabları qaralayırdı.

3. Hadisələrin səbəbini müəyyən et.
   1. ..., ona görə də müəllim Akifi danladı.
   2. ..., ona görə də Elman pərt oldu.

4. Nümunəyə əsasən boşluğu doldur.

| | |
|---|---|
| qıpqırmızı | qızardı |
| gömgöy | ________ |
| ________ | ağardı |
| qapqara | ________ |

LAYİHƏ

**Oxu və dil qaydaları** üzrə qiymətləndirmə (İş dəftərinin 22-23-cü səhifələrində də verilmişdir.)

## EY MIXI MİSMAR ELƏYƏN...

Bir padşah başqa ölkəyə hərbi yürüşə hazırlaşırmış. O, qoşundakı bütün atları nallatmaq qərarına gəlir. Lakin məlum olur ki, padşahın ambarrarında bir dənə də mıx yoxdur. Padşah şəhərdəki yeganə qoca dəmirçini yanına çağıraraq əmr edir ki, səhərə qədər on min mıx hazırlasın. Dəmirçi nə qədər yalvarır, and-aman edir ki, bir gecəyə bu qədər mıxı hazırlamaq olmaz, padşah inadınnan dönmür, onun üstünə qışqırıb deyir:

– [1] sabaha [2] on min mıxı hazırlamasan, dar ağacından asılacaqsan.

Kor-peşman evə gələn dəmirçi səhərə qədər oturub Allaha yalvarır, ondan kömək diləyir. Səhərə yaxın dəmirçinin qapısı döy...ür. Şah xidmətçisi xəbər verir ki, gecə ikən padşah ölüb, tabutu mismarramaq üçün dörd ______ mismar lazımdır. Bunu eşidən dəmirçi əllərini göyə qaldırıb deyir:

– Ey mıxı mismar eləyən Allah, kəraminə şükür!

1. Niyə padşah məhz qoca dəmirçini çağırdı?
   A) Çünki o, təcrübəli usta idi.
   B) Çünki şəhərdə ondan başqa dəmirçi yox idi.
   C) Çünki padşahın ondan xoşu gəlmirdi.

2. Mətndə hansı suala cavab yoxdur?
   A) Padşahı kim öldürdü?
   B) On min mıx padşahın nəyinə lazım idi?
   C) Padşahın xidmətçisi dəmirçidən nə istədi?

3. Mətnin məzmununa hansı atalar sözü uyğun gəlir?
   A) Adamın başına nə gəlsə, dilindəndir.
   B) Cəhənnəmə gedən özünə yoldaş axtarar.
   C) Sən saydığını say, gör fələk nə sayır.

4. Əgər bir nala 5 mismar lazım olursa, padşahın qoşununda neçə at var idi?
   A) 250 B) 500 C) 1000

5. Altından xətt çəkilmiş sözdə nöqtələrin yerinə hansı şəkilçi uyğun gəlir?
   A) -ün B) -üş C) -ül

6. Hansı sıradakı sözlərin hamısı ahəng qanununa tabe olur?
   A) dəmirçi, yeganə, fəhlə
   B) mismar, kor-peşman, yürüş
   C) xidmətçi, şəhərdəki, padşah

7. Mətndəki mavi boşluğun yerinə hansı söz uyğun gəlir?
   A) tikə B) dənə C) dəst

8. Nömrələnmiş boşluqların yerinə hansı sözlər uyğun gəlir?
   A) 1 – lakin, 2 – üçün B) 1 – məgər, 2 – yaxın C) 1 – əgər, 2 – kimi

9. Çəhrayı rənglə verilmiş sözlərdən hansında həm sözün kökü, həm də şəkilçi səhv yazılıb?
   A) ambarrarında B) inadınnan C) mismarramaq

10. *Mıx – mismar, göy – səma, qoca – ...*
    Nöqtələrin yerinə hansı söz uyğun gəlir?
    A) cavan B) müdrik C) ahıl

LAYİHƏ

## 2-ci bölmə

# NİYƏ BELƏ DEYİRİK

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 11 | Natiqlik məharəti haqqında | 1.1.2, 1.2.1, 2.2.2, 2.2.5, 3.1.4, 4.1.3 | 2 | 38 | 24 | 45 |
| 12 | Az danışmağın gözəlliyi | 1.1.2, 1.2.1, 2.2.5, 3.1.4, 4.1.4 | 2 | 39 | 25 | 46 |
| 13 | Sözün qüdrəti | 1.1.2, 2.1.3, 2.2.4, 3.1.2, 4.1.4 | 2 | 40-41 | | 48 |
| 14 | Hikmət xəzinəsi | 1.2.1, 3.1.1 | 4 | 42 | 26-27 | 50 |
| 15 | Heydər Əliyevin kəlamları | 1.2.1, 2.2.2, 3.1.4, 4.1.4 | 4 | 43-44 | 28 | 52 |
| 16 | Azərbaycan – Türkiyə | 1.1.2, 2.1.1, 2.2.1, 4.1.4 | 2 | 45 | 29 | 53 |
| 17 | Bayrağım. Əsgər marşı | 2.1.1, 2.1.3, 2.2.2, 2.2.5, 4.1.5 | 6 | 46-47 | 30-31 | 54 |
| 18 | İtə ataram, yada satmaram! | 1.2.1, 1.2.3, 2.1.1, 2.2.4, 2.2.5, 4.1.3 | 4 | 48-50 | 32 | 57 |
| 19 | Çünki oldun dəyirmançı... | 1.2.1, 1.2.2, 2.1.1, 2.2.1, 2.2.2, 2.2.3, 2.2.5, 3.1.3, 3.1.4, 3.1.5, 4.1.4 | 8 | 51-56 | 33-36 | 58 |
| 20 | Qədim yunan sözləri | 1.1.1, 1.2.1, 2.1.2, 2.2.2, 3.1.4 | 4 | 57-58 | 37-38 | 63 |
| 21 | Niyə "Siz" deyirik? | 2.1.1, 2.2.2, 3.1.5 | 2 | 59 | 39 | 65 |
| 22 | Öz arşınınla ölçmə | 1.1.1, 1.2.1, 2.2.2, 2.2.5 | 2 | 60-61 | 40 | 67 |
| 23 | Ümumiləşdirici təkrar | | 2 | 62 | | 68 |
| 24 | Kiçik summativ qiymətləndirmə | | 2 | | 41-43 | 68 |
| **Yekun** | | | **46 saat** | | | |

LAYİHƏ

# Dərs 11. NATİQLİK MƏHARƏTİ HAQQINDA (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndə natamam qalmış məlumatı öz versiyası ilə tamamlayır. |
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Başqalarının hərəkətlərini təhlil etməklə onlara öz münasibətini bildirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətnin ideyasını atalar sözü ilə ifadə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş situasiyaya uyğun kiçikhəcmli esse yazır. |
| 4.1.3. Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir. | Oxuduğu mətndəki yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün müvafiq lüğətlərdən istifadə edir. |

### Motivasiya

Müəllim uşaqlara III sinifdə keçdikləri “Yaşıl karandaş” hekayəsini xatırladır və soruşur:

– *Nə üçün Lətifə Aygüldən incidi və karandaşı ondan götürmədi?*

Uşaqlar öz fikirlərini söyləyirlər.

**Müəllim:** – *Lətifənin karandaşı götürməsi üçün Aygül nə etməli idi?*

Müəllim uşaqların *“mülayim, incə danışmalı”, “karandaşı nəzakətlə rəfiqəsinə verməli”* ifadələrini yazı taxtasına yazır. Hər kəsin danışıq mədəniyyətinə malik olmasının vacibliyi haqqında kiçik müzakirə keçirilir.

### Oxu

Dərsliyin 38-ci səhifəsindəki mətn oxunur.

Müəllim yazı taxtasında Venn diaqramı çəkir və uşaqlara təklif edir ki, hər iki yuxuyozanın fikirlərini diaqramda yerləşdirsinlər.

Birinci yuxuyozanın nitqi: kobud ifadə. İkinci yuxuyozanın nitqi: incə ifadə.

Hər ikisinə aid olan: deyilən fikrin məzmunu.

<u>2-ci tapşırıq.</u> 1) Uzun paltar sənə daha çox yaraşır. 2) Bişirdiyin xörək ağız dadıma uyğun deyil. 3) Yavaş danış, mən yaxşı eşidirəm.

Mətnlə bağlı iş dəftərinin 24-cü səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

Müəllim lövhədə atalar sözləri yaz(dır)ır və onların arasından əsərin ideyasına uyğun olanları seçməyi tapşırır.

– *“Ho-ha” var, dağa qaldırır, “ho-ha” var, dağdan endirir (“Ho-ha” sözünün mənası açıqlanır).*
– *Sözün yalanı olmaz, yanlışı olar.*
– *Haqq söz acı olar.*
– *Sözü ağzında bişir, sonra çıxar.*
– *Kişi öz sözünün ağası olar.*
– *Dil var bal gətirər, dil var bəla.*
– *Adamın başına nə gəlsə, dilindəndir.*

### Söz ehtiyatı

<u>3-cü tapşırığın</u> cavabı “B” variantıdır.

### Dil qaydaları

**Sual və tapşırıqlar:** *1. “Dil” sözünü cümlələrdə müxtəlif mənalarda işlədin.*

*2. “Dinar” sözünün mənasını araşdırın* (köhnəlmiş (arxaik) söz olduğu bildirilir).

*3. Yuxuyozanların nitqində hansı ifadələri nitq etiketi kimi qəbul etmək olar?* (“Padşahın ömrü uzun olsun”, “Hökmdar sağ olsun”) *Bu ifadələr nitq etiketinin hansı növünə aiddir?* (Arzu)

LAYİHƏ

Şagirdlərin cavablarından sonra dərslikdə verilmiş 4-cü tapşırıq yerinə yetirilir.
*Müəllimin nəzərinə: 4-cü tapşırıqla bağlı aşağıdakı nəticələr əldə olunmalıdır:*

*1. "Yuxuyozan" və "qohum-əqrəba" mürəkkəb sözlərdir.*

*2. "Yuxuyozan" iki müxtəlif mənalı sözün birləşməsindən yaranıb (müqayisə et: tozsoran), ona görə də bitişik yazılır.*

*3. "Qohum-əqrəba" iki yaxınmənalı sözün birləşməsindən yaranıb (müqayisə et: dost-tanış), ona görə də defislə yazılır.*

İş dəftərində qalan tapşırıqlar yerinə yetirilə bilər.

**Yazı**

– *Natiqlik məharətinə malik olmaq üçün nə etmək lazımdır? Düşündüklərini yaz.*

**Danışma** (cütlərlə iş)

Cütlər nömrələnir. Tək nömrəli cütlərə tapşırıq:

Rüstəmlə Camal dostdurlar. Onlar bir məhəllədə yaşayır, məktəbdə bir sinifdə oxuyurlar. Rüstəm əlaçıdır. Camal isə dərslərindən geri qalır. Buna səbəb onun tənbəlliyi, dərslərinə kifayət qədər vaxt ayırmamasıdır. Bir dəfə Rüstəm küçədə Camalın atası ilə rastlaşır. Ata soruşur:

– Çoxdandır vaxt tapıb Camalın təhsili ilə maraqlana bilmirəm. Sən bilərsən, o necə oxuyur?

**Sual:** – *Sən Rüstəmin yerində olsaydın, dostunun atasına necə cavab verərdin?*

Cüt nömrəli cütlərə tapşırıq:

Bir dəfə futbol oyunu zamanı Rüstəmin ayağı bərk zədələndi. O, ayaq üstə dura bilmirdi.

Uşaqlar cəld "təcili yardım" çağırdılar. Həkimlər gəlib Rüstəmi xəstəxanaya apardılar. Rüstəmin yaxın dostu və qapıbir qonşusu Camal bu xəbəri Rüstəmin anası Nailə xalaya çatdırmalı idi. O gəlib Rüstəmgilin qapısını döydü. Nailə xala qapını açıb gülər üzlə Camalı salamladı...

**Sual:** – *Həmin anda sən olsaydın, bu xoşagəlməz xəbəri Nailə xalaya necə çatdırardın?*

Daha orijinal cavablar verən cütlər müəllim tərəfindən qiymətləndirilir.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 12. AZ DANIŞMAĞIN GÖZƏLLİYİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Nəsihətamiz fikri (atalar sözünü, kəlamı) eşitdiyi və ya müşahidə etdiyi hadisələrlə əlaqələndirərək əsaslandırır.<br>Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır.<br>Verilmiş atalar sözünü öz düşüncələri ilə zənginləşdirərək mətn qurub danışır. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki əsas fikri müəyyən edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | İnşa yazarkən öz fikirlərini əsaslandırmaq üçün məşhur kəlamlardan yerli-yerində istifadə edir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

LAYİHƏ

### Motivasiya

**Müəllim:** – *Sizcə, atalar sözlərinin hansı xüsusiyyəti onları qiymətli edir?*
Şagirdlərin gəldiyi nəticə: – *Az sözlə dərin və müdrik fikir ifadə etmək.*

### Danışma (qruplarla iş)

Şagirdlər dörd qrupa bölünürlər. Müəllim qrupların hər birinə bağlı zərfdə bir atalar sözü yazılmış vərəq verir; məsələn:

**1-ci qrup:** "Ehtiyat igidin yaraşığıdır". **2-ci qrup:** "Yalançının evi yandı, heç kəs inanmadı".
**3-cü qrup:** "Aslanın erkəyi, dişisi olmaz". **4-cü qrup: "**Tək əldən səs çıxmaz".

Hər bir qrup aldığı atalar sözünü 8-10 cümlədən ibarət mətnlə ifadə etməli və qrup nümayəndəsi sinif qarşısında bu mətnlə çıxış etməlidir. Bu, bədii mətn və ya atalar sözünün geniş izahına həsr olunmuş düşüncələr ola bilər. Müəllim qrupların nəzərinə çatdırır ki, onların mətnində (çıxışında) verilmiş atalar sözü səslənməməlidir.

Hər bir qrupun təqdimatından sonra digər üç qrupun şagirdləri dinlədikləri mətnin hansı atalar sözünə aid olduğunu tapmalıdırlar.

(Bu fəaliyyət zamanı şagirdlərin həm danışma, həm də dinləmə bacarığı müşahidə yolu ilə qiymətləndirilir.)

Sonda müəllim şagirdlərə sualla müraciət edir:

– *Sizcə, hansı daha böyük təsir gücünə malikdir və daha yaddaqalandır: dinlədiyiniz mətnlər, yoxsa onların atalar sözü ilə ifadəsi?*

Uşaqlar öz fikirlərini söyləyirlər.

### Oxu

Dərsliyin 39-cu səhifəsindəki "Az danışmağın gözəlliyi" şeiri oxunur. (Şeirin daha dərindən mənimsənilməsi üçün iş dəftərinin 25-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilə bilər).

Söz ehtiyatı ilə bağlı 1-ci tapşırıq yerinə yetirilir: C variantı. "Oxşamaq" sözü şeirdə "xoşlandırmaq, ləzzət vermək" mənasında işədilmişdir.

Dərsliyin 39-cu səhifəsindəki 2-ci tapşırıq debat şəklində də yerinə yetirilə bilər. Müəllim sual qoymaqla sinfi iki qrupa bölə bilər:

– *Kim elə hesab edir ki, həmişə az danışmaq lazımdır?*

Bundan sonra hər qrupun nümayəndələri öz mövqelərini əsaslandırmaq üçün bir neçə dəqiqə ərzində arqumentlər düşünməlidirlər. Müəllim arqumentləri səsləndirmək üçün gah bir, gah da digər qrupun nümayəndələrinə söz verir.

### Yazı

"Sözün qüdrəti" mövzusunda inşa yazmaq tapşırılır. Müəllim aşağıdakı aforizmlər yazılmış plakatı lövhədən asır və şagirdlərə bildirir ki, öz fikirlərini əsaslandırmaq üçün yeri gəldikcə bu kəlamlardan istifadə edə bilərlər.

*İstəsən ki başın ola salamat,*
*Ağzına gələni danışma, dilim.*
*(Aşıq Musa)*

*"Yersiz söz baş ağrıdar". (atalar sözü)*

*Əgər söz olarsa incə və şirin,*
*O sözü eşidən deyər "afərin". (Sədi Şirazi)*

*Kim özündən çox bilənlə mübahisə etsə ki, biliyi meydana çıxsın, biliksizliyi ortaya çıxar. (Sədi Şirazi)*

*Az bilib çox danışmaq axmaqlıq əlamətidir. (S.Ə.Şirvani)*

*Deyirlər, adamlara iki qulaq və bir dil verilib ki, çox eşidib az danışsınlar. (Plutarx)*

*Əvvəlcə fikirləş, sonra danış. Sənə "sus" deməmiş özün sus. (Sədi Şirazi)*

LAYİHƏ

### Dinləmə

**SÖZÜN YERİ**

“Qarı nənə”yə
“Qoca xala”
Demə, bala.
Qarı qarıdır,

Qoca qocadır.
Sözlər qohumdur –
Məna haçadır.
Sözü yerində

Desən, bal dadır.
Yersiz deyilsə,
Söz səndən küsər.
Məna axsayar,

Yarımçıq olar.
Söz tikan olar,
Söz qılçıq olar.

*Fikrət Sadıq*

*1. Niyə “qarı nənə”yə “qoca xala” demək olmaz?*
*2. “Məna haçadır” nə deməkdir?*
*3. “Söz səndən küsər” ifadəsi ilə şair nə demək istəyir?*
*4. Şeirin sonuncu misralarını öz sözlərinlə ifadə et.*

### Dil qaydaları

Dərsliyin 39-cu səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir: “yüz” – say, “ulduz” və “Gün” – ad, “baş əymək”, “yansa” – hərəkət bildirən sözlərdir.

“Dil qaydaları” rubrikasındakı nəzəri material oxunduqdan sonra müəllim əlavə suallarla şagirdlərin biliyini möhkəmləndirə bilər. Möhkəmləndirmə “Topla oyun” şəklində keçirilsə, daha maraqlı və yaddaqalan olar. Müəllim hər hansı söz deyir və topu şagirdlərdən birinə atır. Şagird bu sözün hansı nitq hissəsinə aid olduğunu söyləyir və topu yenidən müəllimə qaytarır. Oyun bu şəkildə davam edir.

4-cü tapşırığı cədvəl çəkilməklə yerinə yetirmək məqsədəuyğun ola bilər:

Tətbiqi çalışmalar üçün iş dəftərinin 25-ci səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 13. SÖZÜN QÜDRƏTİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətni məntiqi sonluqla bitirir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndə rast gəldiyi obrazlı ifadələri kontekstə əsasən izah edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni öz təxəyyülünə uyğun davam etdirir. |
| 3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür. | Məzmuna xələl gətirmədən ixtisar etməklə mətni köçürür.<br>Mətnə əlavələr etməklə üzündən köçürür. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

### Motivasiya

*– Kərim bu gün riyaziyyatdan “2” alıb. Evə gedərkən bütün yolu fikirləşib: “Atama “2” aldığımı necə deyəcəyəm? Axı o demişdi ki, bir də aşağı qiymət alsam, məni cəzalandıracaq”.*

*– Kərim atasına bu xəbəri necə çatdırmalıdır?*

Uşaqlar kiçik mətn hazırlayıb öz cavab versiyalarını söyləyirlər.

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 40-cı səhifəsindəki mətn “De görüm, it necədir?” cümləsinə qədər oxunur. Müəllim *“Sizcə, müdrik qoca padşaha necə cavab verə bilər ki, cəzalandırılmasın?”* sualı ilə müraciət edir (dərslik, səh. 41, tap. 1). Şagirdlər cavab variantlarını söyləyirlər. Mətnin davamı oxunur və şagirdlərin fərziyyələri ilə müqayisə olunur.

LAYİHƏ

*<u>Müəllimin nəzərinə:</u> Təcrübə göstərir ki, müəllim şagirdlərə mətnin bir hissəsini oxutdurub hadisələrin davamını təxmin etməyi tapşıranda bəzi şagirdlər öz təxəyyülünə uyğun variant düşünmək əvəzinə tez-tələsik dərslikdən mətnin davamını oxuyub cavab verməyə çalışırlar. Bunun qarşısını, qismən də olsa, almaq üçün bəzən mətnin həmin hissəsi (davamı) tərsinə çevrilmiş şəkildə, yəni baş-ayaq verilir. Beynəlxalq təcrübədə geniş yayılmış bu priyomdan dərsliyin 41-ci, 77-ci, 139-cu və 166-cı səhifələrində istifadə olunmuşdur.*

<u>2-ci tapşırıq:</u> B variantı
<u>3-cü tapşırıq:</u> *özündən küs – təqsiri özündə gör; pişvazına çıxır – gələn adamın qarşısına çıxır.*

**Yazı**

Şagirdlərə aşağıdakı iş vərəqi paylanır.

**VƏTƏN SEVGİSİ**

Bir tayfa başçısının boya-başa çatmamış yeddi oğlu var idi. Kişi çox qocalmışdı, əli silah tutmurdu. Bundan istifadə edən yağılar fürsəti bada vermir, tez-tez basqın edib eli talayırdılar.

Günlərin bir günü yenə düşmənlər elə basqın etdilər. Yeddi qardaş qoşun yığıb onların qabağına çıxdı. Amma qardaşlar çox cavan, yağılar isə neçə ilin döyüşçüləri idilər. Qardaşların anası onlardan nigaran idi. Qardaşlar gördülər ki, düşmən qarşısında duruş gətirə bilməyəcəklər, yağılar yenə eli çapıb-talayacaqlar, üzlərini göyə tutub Allaha yalvardılar: ........................................................................................................ .

Allah onların bu dualarını eşitdi və yerinə yetirdi. Yağılar keçməyə yol tapmadılar və qayıdıb getdilər. Bir daha da o elə gəlmədilər.

*Aşağıdakı tapşırıqları yerinə yetirməklə mətni köçürün.*
*1. Mətndən elə bir cümləni ixtisar edin ki, mətnin məzmununa xələl gəlməsin.*
*2. Nöqtələrin yerinə qardaşların Allahdan diləyini öz təxəyyülünüzə uyğun yazın.*

*<u>Müəllimin nəzərinə:</u> Əfsanəyə görə, qardaşlar Allaha yalvarırlar ki, onları keçilməz dağa döndərsin, düşmənin qarşısını kəsə bilsinlər. Lakin şagirdlərin başqa variantları da ola bilər.*

**Dinləmə**

**DƏRVİŞ VƏ YOLÇU**

Qədimdə qəbul olunmuş qaydalara görə, dərviş heç vaxt yalan danışmamalı və xəbərçilik etməməliydi.

Günlərin bir günü bir dərviş çöl-biyabanda bir daş üstündə oturub dincini alırdı. Bu zaman bir adam onun yanından keçir, ayaq saxlayıb deyir:

– Ağa dərviş, mən şahın qəzəbinə gəlmişəm. Onun adamları məni axtarır. Sən Allah, hara getdiyimi soruşsalar, onlara heç nə demə.

Yolçu bu sözləri deyib yoluna davam edir.

Bir azdan şahın adamları həmin yerə gəlib çıxırlar. Onlar dərvişi görüb soruşurlar:

– Ey dərviş, buradan filan adam keçməyib?..

Müəllim mətni bu yerdə saxlayır və sual verir:
– *Sizcə, dərviş bu vəziyyətdə nə etməliydi ki, nə xəbərçilik olsun, nə yalançılıq?*

*<u>Müəllimin nəzərinə:</u> Rəvayətə görə, cavab belədir: yolçu getdikdən sonra dərviş yerini dəyişib başqa daşın üstündə oturmalı, şahın adamları gəldikdə onlara belə cavab verməli idi:*
*– Mən bu daşın üstündə oturandan bəri buradan heç kim keçməyib.*

**Dil qaydaları**

Dərsliyin 41-ci səhifəsindəki <u>4-6-cı tapşırıqlar</u> yerinə yetirilir.
<u>4-cü tapşırıq</u>. 1. sevimli it; 2. ağıllı məsləhət; 3. uzaq səfər
<u>5-ci tapşırıq</u>. “Saray” sözü isim, “razılaşmaq” – feil, “rəngarəng” – sifət, “otuz” – say, “onlar” – əvəzlikdir.

LAYİHƏ

6-cı tapşırıq. Bu tapşırıq qruplarla iş şəklində də verilə bilər. Hər qrupa müəyyən bir nitq hissəsinə aid sözləri seçmək, bir neçə söz əlavə edərək cümlələrdə işlətmək tapşırığı verilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 14. HİKMƏT XƏZİNƏSİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Nəsihətamiz fikri (atalar sözünü, kəlamı) eşitdiyi və ya müşahidə etdiyi hadisələrlə əlaqələndirərək əsaslandırır.<br>Verilmiş atalar sözünü öz düşüncələri ilə zənginləşdirərək mətn qurub danışır. |
| 3.1.1. Yazısında orfoqrafiya normalarına riayət edir və əsas durğu işarələrindən yerində istifadə edir. | Mətni müəyyən edilmiş vaxt ərzində hüsnxət və orfoqrafiya normalarına uyğun yazır. |

**Motivasiya** (söz assosiasiyası)
Müəllim yazı taxtasına "Hikmət xəzinəsi" sözlərini yazır və şagirdlər xatırladıqları kəlamları, atalar sözlərini, aforizmləri deyirlər.
**Müəllim:** – *Hikmətli sözlər (ifadələr, deyimlər) toplusu hikmət xəzinəsini təşkil edir. Sirlər xəzinəsinin açarı sayılan hikmətli sözlər nəsildən-nəslə keçərək bizə çatmışdır. Bizim də vəzifəmiz onları yaymaq və gələcək nəsillərə ötürməkdir.*
**Sual:** – *"Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar" atalar sözünü necə başa düşürsünüz?*
Şagirdlərin fikirləri dinlənildikdən sonra dərsliyin 42-ci səhifəsindəki "Hikmət xəzinəsi" mətni oxunur.

**Oxu**
Müəllim mətndə sözügedən atalar sözləri ilə bağlı şagirdlərin fikrini soruşduqdan sonra "Dost başa baxar, düşmən ayağa" atalar sözü ilə bağlı müzakirə açır. Şagirdlər bu atalar sözünü şərh etməyə çalışırlar. 1-ci tapşırıq yerinə yeirilir: 1-B, 2-C, 3-A.

*Müəllimin nəzərinə: Bir çoxları "Dost başa baxar, düşmən ayağa" ifadəsini həqiqi mənada başa düşürlər. Əslində isə bu, obrazlı ifadədir. Belə ki, ataların fikrincə, dost sənin yanında üzüağ olduğu üçün üzünə dik baxa bilir, düşmən isə arxada pislik etdiyi üçün sənin yanında başıaşağıdır.*

**Danışma**
Qruplarla iş. Qruplarla iş üçün material dərsliyin 42-ci səhifəsində verilmişdir (tap.2) .Hər bir qrup müəyyən atalar sözünün şərhi, oradakı obrazlı ifadələrin izahı ilə bağlı kiçik təqdimat edir. Dinləyən qruplar bu təqdimata münasibət bildirə və ya ona əlavələr edə bilər.
Qrupların təqdimatından sonra iş dəftərinin 26-cı səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

Fərdi iş. Müəllim masanın üstünə hər nömrədən dörd ədəd olmaqla nömrələnmiş kiçik vərəqlər düzür. Vərəqlərdə atalar sözləri yazılmışdır; məsələn:
*1) Əldən qalan əlli il qalar.*
*2) Birlik harada, dirilik orada.*
*3) Dağ yeri – duman yeri,*
*Yurd yeri – güman yeri.*
*4) Böyük tökəni kiçik yığar.*
*5) Yüz ölç, bir biç.*
*6) Torpaq deyər: "Öldür məni, dirildim səni!"*

Şagirdlər istədikləri vərəqi götürür və fərdi şəkildə müvafiq atalar sözü ilə bağlı 8-10 cümlədən ibarət mətn qururlar. Ayrılmış vaxt bitdikdən sonra müəllim eyni nömrəli dördlüyü

LAYİHƏ

qarşıya çağırır və onlardan biri öz mətnini nəql edir. Dördlüyün digər üzvləri məruzəçinin çıxışına əlavələr edə və ya onunla razılaşmaya bilərlər.

**Qiymətləndirmə.** Müşahidə, qrupların təqdimatları, danışma, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 27-ci səhifəsində də verilmişdir.)

### NEHRƏ

Nənəm qatığı
Töküb nehrəyə
Hey çalxalayır,
... olsun deyə.
Qatıq çevrilir
Yağa, ayrana.
Durub qıraqda
Baxıram ona.
Öpür üzümdən,
Söyləyir nənə:
– Yaxmac verərəm
Mən indi sənə.
– Yox, istəmirəm.
– Bəs nə verim mən?
Yoxsa küsmüsən
Sən öz nənəndən?
– Yox, küsməmişəm.
– Bəs nolub belə?
– Nehrənin üstdə
Məni də yellə.

*Mobil Quluzadə*

1. 4-cü misrada nöqtələrin yerinə hansı söz uyğun gəlir?
   A) yağ B) pendir C) şor
2. Uşaq nənəsindən inciyib, çünki nənəsi ...
   A) ona yağ yaxmacı verməyib.
   B) ona qatıq saxlamayıb.
   C) onu nehrənin üstündə yelləməyib.
3. *“Yaxmac”* nədir? Yaxmac deyəndə hansı nağıl yadınıza düşür?
4. Şeiri nəsrə çevirib nənənin dilindən nəql et.

**Yazı** üzrə qiymətləndirmə (imla)

### SÜLH GÖYƏRÇİNİ
**(106 söz)**

Göyərçin hələ çox qədim zamanlardan bərəkət, bolluq, sonralar isə sülh, əmin-amanlıq simvolu kimi tanınmışdır. Əfsanələrə görə, fəlakətin qurtarması əlaməti olaraq dimdiyində zeytun budağını Nuhun gəmisinə məhz göyərçin gətirmişdi.

Qədim romalılar sülh rəmzi kimi belə bir şəkildən istifadə edirdilər: müharibə ilahı Marsın döyüş papağı içərisində göyərçin oturub. Alimlərin fikrinə görə, göyərçinlər bütün quşlar, hətta bütün canlılar içərisində öz mehribanlığı, səmimiyyəti, sədaqəti ilə məşhurdur.

“Sülh göyərçini” ifadəsi ümumdünya sülh hərəkatının genişlənməsi ilə əlaqədar olaraq daha çox yayılmışdır. 1949-cu ildə Paris və Praqa şəhərlərində keçirilmiş ilk sülh konqresi zamanı rəssam Pablo Pikasso dimdiyində zeytun budağı tutmuş göyərçin rəsmi çəkmişdi. Həmin əsər sonralar beynəlxalq sülh hərəkatının rəmzi kimi qəbul edilmişdir.

**Dil qaydaları** üzrə qiymətləndirmə

1. Hansı sıradakı sözlər yalnız isimdir?
   A) rənglə, yolla, sula B) rəng, yol, su C) rəngli, yoldakı, susuz
2. Hansı cümlədə əlamət bildirən söz işlənməyib?
   A) Otağı ətirli güllərin ətri bürümüşdü.
   B) Mən sarı güllərdən çələng düzəltdim.
   C) Körpə əllərini babasına sarı açdı.
3. *“Bu şəhərdə bir müdrik ağsaqqal yaşayırdı”* cümləsində işlənmiş sifət hansı bənddə aid olduğu isimlə birlikdə verilmişdir?
   A) müdrik ağsaqqal B) bu şəhərdə C) bir müdrik

LAYİHƏ

4. Hansı bənddə sözün aid olduğu nitq hissəsi düzgün verilməmişdir?
A) onlar – əvəzlik B) güllük – sifət C) belləmək – feil

5. Hansı söz həm say, həm də feil kimi işlənə bilər?
A) altı B) qırx C) əlli

## Dərs 15. HEYDƏR ƏLİYEVİN KƏLAMLARI (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş kəlamı başlıq kimi seçərək mətn qurur. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətndəki fikirləri mənimsədiyini nümayiş etdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

**Motivasiya** (anlayışın çıxarılması)




Müəllim bu xüsusiyyətlərin hansı dahiyə aid olduğunu soruşur. Müzakirədən sonra ortaya “Heydər Əliyev” yazılır.

**Oxu**

Dərsliyin 43-44-cü səhifələrindəki mətn hissə-hissə oxunur. Heydər Əliyevin hər kəlamı ilə bağlı müəllim şagirdlərdən bu kəlamı necə qavradıqlarını soruşur. 1-ci tapşırıq yerinə yetirilir: sayılmaq – *hörmətə layiq olmaq*; saymaq – *hesab etmək, bilmək.*

**Danışma**

Mətn oxunub qurtardıqdan sonra dərslikdə verilmiş 2-ci tapşırıq (səh. 44) qruplarla iş şəklində yerinə yetirilir.

Qrupların təqdimatından sonra iş dəftərinin 28-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

**Əlavə sual:** – *Mətndə adı çəkilən görkəmli şəxsiyyətlərdən hansı müğənnidir?*

*A) Məmməd Araz B) Rəşid Behbudov C) Bəxtiyar Vahabzadə*

**Dil qaydaları**

Şagirdlərin diqqəti 3-cü tapşırıqdakı cümləyə yönəldilir. Sual oxunur və cavablar dinlənilir. Şagirdlər belə qənaətə gəlirlər ki, “indi” sözü isə hərəkətin nə zaman baş verdiyini bildirir.

Dərsliyin 44-cü səhifəsində verilmiş qayda mənimsədilir. 4-cü tapşırıq yerinə yetirilir.

Materialın daha dərindən mənimsənilməsi üçün iş dəftərinin 28-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə etmək olar.

**Yazı**

*“Mən fəxr edirəm ki, azərbaycanlıyam!”* mövzusunda inşa yazmaq tapşırılır.

Müəllim bu sözlərin də Heydər Əliyevə məxsus olduğunu bildirir.

**Qiymətləndirmə.** Müşahidə, qrupların təqdimatları, danışma, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

# Dərs 16. AZƏRBAYCAN – TÜRKİYƏ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Öyrəndiyi yeni sözlərin mənasını təxmin edir, lüğət vasitəsilə dəqiqləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Şeiri ifadəli və emosional şəkildə oxuyur. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

### Motivasiya

Müəllim Azərbaycan və Türkiyə bayraqlarının şəkillərini lövhədən asır.




**Müəllim:** – *Sual işarəsinin yerinə Heydər Əliyevin keçən dərsdə tanış olduğunuz hansı fikrini yaza bilərik?*

Uşaqların mülahizələri dinlənilir. “Bir millət, iki dövlət” ifadəsi deyildikdən sonra həmin ifadə sual işarəsinin yerinə yazılır. Sonra müəllim şagirdlərdən Azərbaycan və Türkiyə dövlətlərinin tarixi əlaqələri haqqında nə bildiklərini soruşur.

### Oxu

Dərsliyin 45-ci səhifəsində verilmiş “Azərbaycan – Türkiyə” şeiri ifadəli oxunur. Həmin səhifədə verilmiş “Söz ehtiyatı” rubrikasındakı 1-2-ci tapşırıqlar yerinə yetirilir.

1-ci tapşırıq. *“Cümhuriyyət” – respublika (ali hakimiyyət orqanları xalq tərəfindən müəyyən müddətə seçilən dövlət idarə forması; belə idarə üsulu olan ölkə), “hilal” – aypara (təzə çıxmış bir-iki günlük ay)* mənasını verir. “Hilal” sözünün cavabı tapıldıqdan sonra müəllim Venn diaqramının köməyi ilə Azərbaycan və Türkiyə bayraqları arasında fərqli və oxşar cəhətləri şagirdlərlə birgə araşdırır.

2-ci tapşırıq. Məntiqi ardıcıllığı “arzu” sözü tamamlaya bilər.

### Dinləmə

**QANADLI SÖZLƏR**

Söz də canlıdır: doğulur, yaşayır, dünyanı gəzir. Bəzi sözlər doğulan kimi uçub aləmi dolaşır, dildən-dilə düşür. Bunlar “qanadlı sözlər”dir. Bu sözlərin başqa canlılardan bir fərqi var: onlar heç zaman ölmür. Özü də yaşayır, onu yaradan insanı da yaşadır. Belə kəlamlar *aforizm* adlanır. Aforizmlər həcmcə kiçik, mənaca dərin olur. Lap atalar sözləri kimi. Lakin atalar sözlərinin müəllifi məlum olmur. Aforizmlər isə məşhur müdrik şəxslərin söylədikləri maraqlı, nəsihətamiz fikirlərdir. Məsələn, müdriklərimiz vətən haqqında deyiblər:

“Vətən borclu deyildir, biz borcluyuq vətənə”. *(Bəxtiyar Vahabzadə)*

“Ayrılan qüvvələr birləşməlidir,
Vətən bir torpaqda yerləşməlidir”. *(Səməd Vurğun)*

“Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim”. *(Məmməd Araz)*

Dinləmə mətni ilə bağlı tapşırıqlar yerinə yetirilir (iş dəftərinin 29-cu səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər).

LAYİHƏ

1. Atalar sözü ilə aforizmin fərqli və oxşar cəhətlərini göstər.
*(Venn diaqramı: atalar sözü, aforizmlər)*
2. *"Torpaq, uğrunda ölən varsa, vətəndir" (Midhət Camal Kuntay)* kəlamını şərh et.
3. Atalar sözləri və aforizmləri mövzularına görə uyğunlaşdır.

*Atalar sözləri*
Doğruya zaval yoxdur, çəksələr də min dara.
Halva-halva deməklə ağız şirin olmaz.
Bilməmək eyib deyil, soruşmamaq eyibdir.

*Aforizmlər*
Nöqsansız dost axtaran dostsuz qalar. *(H.Zərdabi)*
Həqiqətləri qorumaqdan çəkinməyin. *(Atatürk)*
Elm öyrənmək heç vaxt gec deyil. *(İbn Sina)*

**Dil qaydaları**
4-cü tapşırıqda verilən sözlər cümlədə işlədilir və dəftərə yazılır. Bu cür tapşırıqların kollektiv şəkildə yerinə yetirilməsi məqsədəuyğundur. Müəllim hər sözlə bağlı şagirdlərin bir neçəsindən qurduqları cümləni soruşur. Cümlələrdən bir neçəsi dəftərə yazılır. Bu cümlələr oxuduqları mətnlərdən də ola bilər. Belə seçim onlarda daha düzgün cümlə qurmaq vərdişi yarada bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir

## Dərs 17. BAYRAĞIM. ƏSGƏR MARŞI (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Rast gəldiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndə rast gəldiyi obrazlı ifadələri kontekstə əsasən izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və gəldiyi nəticəni təqdim edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Müxtəlif janrlı əsərlər arasındakı ideya və mövzu yaxınlığını müəyyən edir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Şeirlə ifadə olunmuş cümlələri nəsrə çevirərkən sözlərin ardıcıllığını düzgün müəyyən edir. |

**Motivasiya** (anlayışın çıxarılması)
Lövhədə aşağıda verilmiş sxem çəkilir:




**Müəllim:** – *Sizcə, mərkəzdəki dairədə hansı söz yazılmalıdır?*
"Dövlət atributları" cavabı səsləndikdən sonra bu sözlər dairədə yazılır. Müəllim dövlət atributları barədə şagirdlərə suallar verir.
Cavablardan sonra müəllim şagirdlərə aşağıdakı məlumatları çatdırır:
*– Dünyada elə xalqlar, millətlər var ki, öz bayraqları, himnləri, gerbləri yoxdur, çünki onlar öz müstəqil dövlətlərini qurmamışlar. Dövlət atributları hər bir xalqın dövlət müstəqilliyinin rəmzidir. Biz azərbaycanlılar xoşbəxt xalqıq ki, öz müstəqil dövlətimiz var. Bu müstəqilliyi qəhrəman oğul və qızlarımızın qanı bahasına əldə etmişik və onu qorumağa daim hazır olmalıyıq.*

LAYİHƏ

**Oxu**

*Müəllimin nəzərinə:*

*Bəzi mənbələrdə, eləcə də dərsliyin əvvəlki nəşrində "Əsgər marşı"nın sözlərinin Əhliyyət Süleymanova məxsus olduğu qeyd edilmişdi. Lakin bir sıra mətbuat materiallarından məlumdur ki, Əhliyyət Süleymanov bu marşın sözlərini bəstəkar Cavanşir Quliyevə təqdim edən Azərbaycan əsgəridir.*

*Araşdırmalar göstərir ki, həmin marş Türkiyədə Rüfət bəy (1820-1888) tərəfindən Yəmən müharibəsi dövründə (1871-1872) bəstələnmiş və "Alay marşı" adlanmışdır. Əli Kaminin imzası ilə ilk dəfə 1919-cu ildə dərc olunmuş "Alay marşı"nın mətni bir qədər fərqli olsa da, onu bu marşın sözlərinin müəllifi kimi qəbul etmək olar.*

"Bayrağım" mətni abzaslarla ayrı-ayrı şagirdlər tərəfindən oxunur. Hər abzasdan sonra müəllim suallarla uşaqlara müraciət edir.

1-ci abzasdan sonra: – *Sizcə, bu abzasda təsvir olunan hadisələr hansı illərə təsadüf edir? Həmin illərdə hekayənin müəllifi 4-cü sinifdə oxuyurdusa, indi onun təxminən neçə yaşı olar? Nəyə görə əsərin qəhrəmanı atasından məhz bayraq istədi?*

2-ci abzasdan sonra: – *Hansı günlərdə küçə və yollarımızda dövlət bayraqlarımız asılır? (Milli və rəsmi dövlət bayramlarımızda, xarici dövlət rəhbərləri ölkəmizə gələndə) Sizcə, bunun səbəbi nədir?*

3-cü abzasdan sonra: – *Bu abzası oxuduqdan sonra hekayənin qəhrəmanı haqqında nə deyə bilərsiniz?*

4-cü abzasdan sonra: – *Bu abzasda təsvir olunan hadisələr ilin hansı günü baş verir?*

Sonuncu abzasdan sonra həmin səhifədə verilmiş suallar cavablandırılır.

Müəllim "Əsgər marşı"nı səsləndirir. Şagirdlər dinlədikdən sonra dərslikdə verilmiş mətni oxumaqla marşı səsləndirir və bu zaman yerlərində addımlayırlar.

**Sual və tapşırıqlar:** – *Nəyə görə bu musiqi əsəri "marş" adlandırılır? "Bayrağım" hekayəsi ilə "Əsgər marşı" arasındakı mövzu və ideya yaxınlığını müəyyən edin. "Əsgər marşı"nın hansı misralarında "vətən" və "ana" anlayışları eyniləşdirilir? (dərslik, səh. 47, tap. 1)*

Dərsliyin 47-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir (cavab: "A" variantı).

Mətnlə bağlı iş dəftərinin 30-cu səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 31-ci səhifəsində də verilmişdir.)

## "BƏLKƏ"Nİ ƏKİBLƏR, BİTMƏYİB

Bəzi adamlar şifahi nitqdə tez-tez "bəlkə" sözü işlədir, bununla da hər şeyə şübhə ilə yanaşdıqlarını bildirirlər. Belə olduqda deyirlər: "Bəlkə"ni əkiblər, bitməyib", yəni ehtimalla iş görmək olmaz.

Bu ifadə maraqlı bir söz oyunu əsasında meydana çıxmışdır. Burada, əslində, "bəlkə" sözü "bəlgə" sözünü əvəz etmişdir. *Bəlgə* – əkinlərin arasında boş qalan, əkilməyən yer deməkdir. Bu yer daim tapdandığı … əkilsə də, heç nə bitməz. Bəlgəni əkiblər, bitməyib. Ola bilər ki, sonradan "bəlgə" sözü "bəlkə" ilə əvəzlənmişdir.

1. Nöqtələrin yerinə hansı söz uyğun gəlir?

A) üçün B) qədər C) kimi

2. Boşluqların yerinə *"bəlkə", "yalnız", "elə"* sözlərini yaz.

A) ______ mən də bunu deyirdim.
B) ______ bu işi Rüfətə tapşıraq?
C) Bu işi ______ sən bacararsan.

LAYİHƏ

3. *“Bəlkə”* sözü cümlədə nə bildirir?
A) güman, şübhə B) təsdiq, arzu C) əmr, xahiş

4. Nöqtələrin yerinə müvafiq olaraq *“bəlkə”* və ya *“bəlgə”* sözlərini yaz.
1 …………… istifadə olunmayan torpaq sahəsinə deyilir.
2 …………… heç bu sahəni əkməyəsən?
3 …………… yerinə heç nə əkmə.
4 …………… tarlanı vaxtında şumlamamısan?

**Yazı** üzrə qiymətləndirmə (ifadə)

## AYIN ƏFSANƏSİ

Oturmuşdu anam tək,
Qolunu çirməyərək,
O, xəmir yoğururdu.
Bir nağıl olsa da bu,
Həqiqət var səsində,
Anamın dövrəsində
Hoppanırdım pişik təki...
Özün yaxşı bilirsən ki,
Qız tayfası şıltaq olar;
Anam dedi: – Bəsdir, Xumar!
Gəl dolaşma əl-ayağa.
Mən anamı qoyub lağa,
Gah atıldım, gah da düşdüm.
Birdən-birə mən sürüşdüm,
Dəydim onun sağ qoluna,
Acıq gəldi bu səhv ona.
Öz yerindən anam durdu,
Üzümə bir şillə vurdu
O, xəmirli sağ əlilə.
Günahımı bilə-bilə
Söz deməyib uzaqlaşdım,
Buludlardan keçib aşdım.
Küsdüm yazıq taleyimə,
O dərdimi bu gün demə!
Ağrıdıqca üzüm dəm-dəm,
İçimdə dərd, gözümdə qəm
Çox ağladım sərin-sərin
Qucağında fələklərin.
Ah, nə deyim? O şillədən
Yaralıyam bu gün də mən.
Doğrusunu desəm əgər,
Üzümdəki bu ləkələr
Öz anamdan yadigardır,
Gör nə böyük dərdim vardır...

*Səməd Vurğun*

**Dil qaydaları** üzrə qiymətləndirmə

1. Hansı cümlədəki zərf *nə zaman?* sualına cavab verir?
A) Maşın kəndə sabah çatacaq.
B) Uşaqlar xizəklə xeyli sürüşdülər.
C) Sərçə hər yerdə yaşayır.

2. Hansı cümlədə *necə?* sualına cavab verən zərf var?
A) Dağlar, təpələr, düzlər yumşaq qarla örtülmüşdü.
B) Nüsrət yıxılmamaq üçün ağacdan bərk-bərk tutdu.
C) İçərişəhərdə yeni abidələr tapılmışdı.

3. Həm zərf, həm də say kimi işlənə bilən sözləri seç:
1. çox 2. birdən 3. bir az 4. yeddi 5. xeyli
A) 1, 3, 5 B) 2, 4, 5 C) 1, 2, 3

4. Hansı cümlədəki zərf *nə qədər?* sualına cavab verir?
A) Durnalar qatar-qatar uçub gedirdi.
B) Balaca Valeh tez-tez danışırdı.
C) Emalatxananın yanında usta Salmanı xeyli gözlədik.

5. Hansı cümlədəki zərf *haraya?* sualına cavab verir?
A) Həsən pəncərədən içəri boylandı.
B) Uşaqlar müəllimi səbirsizliklə gözləyirdilər.
C) Pambıq yığımına bu il tez başlanıldı.

LAYİHƏ

## Dərs 18. İTƏ ATARAM, YADA SATMARAM! (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Kompozisiyalı şəkil əsasında mətn qurub danışır. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Mətndəki obrazların nitqini səsləndirərkən onların xarakterinə uyğun jest və mimikalardan istifadə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi sözləri kontekstə əsasən izah edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Süjet xəttinə əlavələr etməklə mətni yaradıcı şəkildə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Əsərin baş qəhrəmanının xarakterini təhlil edir.<br>Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir. |
| 4.1.3. Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir. | Dinlədiyi mətndəki yeni sözlərin yazılış və tələffüz qaydalarını müəyyənləşdirmək üçün müvafiq lüğətlərdən istifadə edir. |

**Motivasiya**

Müəllim  dərsin mövzusunu lövhədə yazır:

*"İTƏ ATARAM, YADA SATMARAM!"*

**Suallar***: – Bu ifadə hansı hallarda işlədilir? Hansı əşya haqqında bu ifadəni işlətmək olar? Sizdə və ya evinizdə elə bir əşya varmı ki, onun haqqında bu ifadəni işlədəsiniz?*

Müəllim sinfə gətirdiyi qədim əşyanı göstərir və onun ailəsi üçün bu əşyanın çox əziz olduğunu bildirir.

**Oxu**

Şagirdlərə təklif olunur ki, dərsliyin 48-ci səhifəsində mətnə çəkilmiş illüstrasiyaya diqqətlə baxsınlar və mətndə baş verən hadisələri təxmin etsinlər. Müəllim şəkillə bağlı suallar da verə bilər:

*– Hadisə harada baş verir? Xalçaya baxan gödəktuman kişi kimdir? Onun yanında dayanan yaşıl əbalı kişi kimdir? Mərkəzdə dayanmış qadının jest və mimikasına görə nə baş verdiyini deyə bilərsinizmi?*

Bundan sonra mətnin 1-ci abzası oxunur və buradakı *sağmal, boğça, heybə, bəkməz, boğazından kəsib yığdığı, həftəbazarı* söz və ifadələri müzakirə olunur. Bu hissəni oxuduqdan sonra müəllim "Yusif və Züleyxa" əfsanəsi haqqında şagirdlərə qısa məlumat verir:

Gözəllikdə tayı-bərabəri olmayan Yusif Yaqub peyğəmbərin sevimli oğlu olmuşdur. Yusifə paxıllıq edən qardaşları onu aldadaraq quyuya salmışdılar. Yolla keçən tacirlər onu quyudan çıxarıb Misirə aparırlar və orada qul kimi hökmdarın vəzirinə satırlar. Sonradan Misirdə yüksək mənsəb sahibi olan Yusif burada Züleyxa adında qadına aşiq olur və onunla evlənir.

Mətnin qalan hissəsi bir neçə şagird tərəfindən səhnələşdirilir.

Sonda müəllim aşağıdakı sualları verir:

*– Görəsən, xalçanı yerli sakinlərdən istəyən olsaydı, Sona satardımı? "Yusif–Züleyxa" xalçasının gözəlliyini ifadə edən cümlələri oxuyun.*

Dərsliyin 50-ci səhifəsindəki 1-5-ci  tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 32-ci səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə etmək olar.

**Danışma** (qruplarla iş)Dərsliyin 50-ci səhifəsindəki 6-cı tapşırıq yerinə yetirilir.

**Dil qaydaları**

Mətndə bir çox mürəkkəb sözlər verilmişdir: *alaqaranlıq, əyri-üyrü, qoyun-quzu, başıaşağı,*

LAYİHƏ

*enlikürək, qarasaqqal, asta-asta, gödəktuman, uzunətək*. Müəllim bu mürəkkəb sözlərlə bağlı sual və tapşırıqlar verir:

– *Hansı mürəkkəb sözlər "sifət + isim" sxeminə uyğundur?*

– *Hansı mürəkkəb sözün tərkibindəki sözlərdən birinin mənası yoxdur?*

– *Bəzi mürəkkəb sözlərin niyə defislə yazıldığını izah edin* (yaxınmənalı sözlər birləşdikdə və ya sözlər təkrar olunduqda).

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 19. ÇÜNKİ OLDUN DƏYİRMANÇI... (8 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətnlərdəki məlumatları müqayisə edir, ümumiləşdirərək məruzə ilə çıxış edir.<br>Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək ssenari yazır və səhnələşdirir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi yeni söz və ifadələri kontekstə əsasən izah edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Qəhrəmanların nitqini onların xarakterinə uyğun səsləndirməklə bədii əsəri ifadəli oxuyur. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnin məzmununu mənimsədiyini nümayiş etdirir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətndən çıxarılmış hissəni əlavə edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin baş qəhrəmanına münasibət bildirir.<br>Oxuduğu mətndəki obrazların hərəkətinə münasibət bildirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Oxuduğu və dinlədiyi eyni mövzuda mətnləri ümumiləşdirib məzmununu yazır. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduqlarını və eşitdiklərini ümumiləşdirməklə təhlil xarakterli inşa yazır. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Verilmiş situasiyaya uyğun ərizə yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

**Motivasiya** (söz assosiasiyası). Lövhədə sözlər yazılır:

Misri qılınc | Qırat | Dürat | Çənlibel | Dəlilər

?

LAYİHƏ

**Sual:** – *Sizcə, sual işarəsinin yerinə nə yazılmalıdır?*

"Koroğlu" cavabı səsləndikdən sonra müəllim 3-cü sinifdə keçilmiş "Alı kişinin qisası", "Koroğlu və Dəli Həsən" mətnlərini xatırladır və suallar verir:

– *Koroğlunun əsl adı nə olub? O bu ləqəbi hansı hadisədən sonra qazanıb?*

– *Misri qılınc necə yaranıb?*

– *Qırat və Düratın tarixçəsini danışın.*

**Oxu**

Mətnin 1-ci hissəsi (dərslik, səh. 51-52) ifadəli oxunur. Müəllim şagirdlərə sual verir:

– *"Dünya malından qəni etmək" ifadəsini necə başa düşürsünüz?*

– *Koroğlunun dəliləri dedikdə kimlər nəzərdə tutulur?*

*Müəllimin nəzərinə: Dünya malından qəni etmək – varlandırmaq, zənginləşdirmək. Müəllim "dəlilər" sözünün mətndəki mənasını açıqlamaq üçün "dəlisov", "dəliqanlı" sözlərini xatırlada bilər: bu söz məcazi mənada qoçaq, igid, qəhrəman adam deməkdir.*

Dərsliyin 52-ci səhifəsindəki 1-4-cü tapşırıqlar yerinə yetirilir, kursivlə verilmiş frazeoloji birləşmələr və "urvat" sözü üzərində iş aparılır (iş dəftərinin 33-cü səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər).

**Dinləmə**

**Müəllim:** – *Sizcə, niyə Keçəl Həmzə var-dövlətdən imtina edib Hasan paşanın qızını istədi?*

Uşaqlar cavab variantlarını söylədikdən sonra dinləmə mətni oxunur və şagirdlərin variantları ilə müqayisə olunur.

## HASAN PAŞA İLƏ KEÇƏL HƏMZƏNİN DİALOQU

Hasan paşa dedi:

– Bala, Həmzə, əgər sən gedib Qıratı gətirsən, mən səni dünya malından qəni eləyərəm.

Həmzə dedi:

– Paşa, mənə tək dünya malı lazım deyil.

Paşa dedi:

– Sənə bəylik verərəm.

Həmzə dedi:

– Yox, paşa, o da mənə lazım deyil.

Hasan paşa dedi:

– Səni özümə oğulluğa götürərəm.

Həmzə dedi:

– Yox, qurbanın olum. Mənə təkbətəklikdə bunların heç biri lazım deyil. Üçünü də birdən nə sən verərsən, nə də mən istəyərəm. Gəl mən səndən elə bir şey istəyim ki, mənim üçün bunların hamısından qiymətli olsun, sənin üçün hamısından ucuz.

Hasan paşa dedi:

– İstə görüm, o nədir elə?

Həmzə dedi:

– Paşa, sən bilirsən ki, keçəl çoxbilmiş olar. Mən də gəlir-çıxarını bilən adamam. Mən bilirəm ki, sən bu üç şeyin üçünü də mənə verən deyilsən. Amma qızını versən, mən olaram sənin kürəkənin. Kürəkən ki var, elə oğula bərabər bir şeydir. Ondan sonra elə bəylik də öz-özünə gələcək, mal-dövlət də.

**Danışma**

Şagirdlər oxuduqları və dinlədikləri mətnləri ümumiləşdirərək "Hasan paşanın sarayında məclis" başlığı altında ssenari (dram əsəri) yazır və onu səhnələşdirirlər.

**Yazı**

**Müəllim:** – *Azərbaycan nağıllarında tez-tez Keçəl obrazına rast gəlmək olar. Novruz şənlikləri ilə bağlı tamaşalarda da Keçəl əsas obrazlardan biridir.*

*İndi isə siz Keçəl Həmzə obrazı ilə tanış oldunuz. Bu obrazları birləşdirərək "Ədəbiyyatımızda Keçəl obrazı" mövzusunda inşa yazın.*

LAYİHƏ

### Oxu

Mətnin davamını oxutdurmaq üçün müəllim aşağıdakı sualla şagirdlərə müraciət edir:

– *Sizcə, Keçəl Həmzə nəyə güvənib Hasan paşaya söz verirdi ki, Qıratı qaçıracaq?*

Şagirdlər cavab versiyalarını söyləyirlər.

Əsərin 2-ci hissəsi (dərslik, səh. 52-53) oxunur, kursivlə verilmiş sözlərin mənaları açıqlanır. Mətnlə bağlı suallar verilir:

– *Koroğlu dəlilərin sözlərinə məhəl qoymamaqda haqlı idimi? Fikrinizi əsaslandırın.*

– *Tanımadığın adama yazığın gələndə onu evinə gətirmək nə dərəcədə düzgündür?*

– *Koroğlu niyə Həmzəyə Dürata baxmağı tapşırdı? O niyə belə qərara gəldi ki, Həmzə ata yaxşı qulluq edər?*

– *Ata qulluq edən adamı necə adlandırırlar? (mehtər) Bəs at otaran adamı necə? (ilxıçı)*

Şagirdlərin iştirakı ilə mətndəki *tərlan, duruş gətirmək, sınıxmaq, gildir-gildir, buxov, asta qaçan namərddir, daban aldı* söz və ifadələrinin mənaları müəyyənləşdirilir.

Dərsliyin 53-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

### Dinləmə

**Müəllim:** – *Sizcə, Həmzənin Düratı qaçırması məlum olanda Çənlibeldə nə baş verəcək? Dəlilərin və Koroğlunun buna münasibəti necə olacaq?*

Şagirdlərin versiyaları dinlənildikdən sonra aşağıdakı mətn oxunur.

**DÜRAT GEDİB, QIRAT DURUR**

Sabah açıldı. Dəli Mehtər yerindən qalxıb atlara baş çəkmək üçün tövləyə gəldi. Gördü nə Dürat var, nə də Keçəl Həmzə. Başılovlu gəldi Koroğlunun yanına ki:

– Nə durubsan? Nə Dürat var, nə də Keçəl Həmzə...

Dəlilər çaxnaşıb bir-birinə dəydilər. Xanımlar da bir yandan düşdülər Koroğlunun üstünə. Başladılar məzəmmət eləməyə ki:

– Biz sənə demədikmi tanımadığın adama etibar eləyib atı tapşırma?! İgidin atını apardılar, ya arvadını, – ikisi də namusdan sayılır. Bizim qorxumuzdan quş quşluğu ilə Çənlibelin həndəvərinə gələ bilmirdi. Koroğlunun, Çənlibelin, dəlilərin adı gələndə paşalar, bəylər tir-tir əsirdilər. Gör indi iş nə yerə gəldi ki, keçəl gədənin birisi gəlib buradan at apardı. İndi bu xəbər ətrafa yayılacaq. Düşmənlər üstümüzə ayaq alacaq. Özün öz əlinlə elə iş elədin ki, aləm yığılsaydı, sənə eləyə bilməzdi. İndi de görək, Düratı haradan tapacaqsan? Necə gətirəcəksən?

Koroğlu dedi:

– Dürat gedib, Qırat durur. Minib gedib tapıb gətirrəm. Az məni məzəmmət eləyin.

Dəlilər başladılar deyinməyə ki:

– Gedərsən... gətirərsən... Sən nə bilirsən ki, o kimdir? Haradan gəlmişdi? Atı haraya apardı?

### Danışma (debat)

– *Lider qərar verərkən...*

**1-ci qrup:** *dostlarının məsləhətinə qulaq asmalıdır.*

**2-ci qrup:** *öz bildiyi kimi hərəkət etməlidir.*

### Yazı

Əsərin davamı ilə bağlı öz variantını yaz. Koroğlu Düratı qaytara biləcəkmi?

**Müəllim:** – *Sizcə, nəyə görə keçən dərslərdə oxuduğunuz mətn "Çünki oldun dəyirmançı..." adlanır. Belə bir məsəl eşitmisinizmi? Bu ifadənin davamı necədir? Bu məsəli hansı hallarda işlədirlər?*

*(Adamlar taleyin hökmü ilə adət etmədikləri, xoşagəlməz vəziyyətə düşdükdə bu ifadəni işlədirlər. İfadənin mənası ondan ibarətdir ki, çətin vəziyyətə düşmüsənsə, bununla barışmalısan.)*

### Oxu

Mətnin 3-cü hissəsi oxunur (dərslik, səh. 54-55). (Mətn hissələrə bölünüb "Ziqzaq" üsulu ilə də oxuna bilər)

LAYİHƏ

Dərsliyin 56-cı səhifəsindəki 9-cu tapşırıq yerinə yetirilir, şagirdlərin cavab variantları müqayisə və müzakirə olunur.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 34-35-ci səhifələrindəki tapşırıqlardan istifadə etmək olar.

**Danışma** (debat)

– *Keçəl Həmzəni xain adlandırmaq olarmı?*

Şagirdlər iki qrupa bölünürlər: 1) Keçəl Həmzəni xain adlandıranlar, 2) Keçəl Həmzəni xain saymayanlar. Debat keçirilir.

*Müəllimin nəzərinə:*

*I qrupun arqumentləri: – Koroğlunun çörəyini yeyir, sonra da onun atını qaçırır.*

*– Koroğlu dəyirmançı bilib ona Qıratın yüyənini verir, o, yenə də xainlik edib atı qaçırır.*

*– Keçəl Həmzə bildi ki, Koroğlunun dəliləri onun gəlişinə etiraz etdilər, Koroğlu isə onun tərəfini saxladı, amma yenə də ona xainlik etdi.*

*II qrupun arqumentləri:*

*– I hissədə öyrəndik ki, Keçəl Həmzə Hasan paşaya söz verir ki, Qıratı gətirəcək, o da sözünə əməl edib.*

*– Keçəl Həmzə də ağ günə çıxmaq istəyirdi.*

*– Keçəl Həmzə bütün olanları Koroğluya danışır, onun atı qaytaracağına inandığını bildirir, belə olan halda Həmzəyə xain demək olmaz.*

**Dinləmə**

**Müəllim:** – *Həmzə dəyirmanda Qıratı qaçırarkən Koroğluya nə söz verdi? Sizcə, o, sözünün üstündə duracaqmı?*

Şagirdlər Həmzənin xarakterindən çıxış edib fikirlərini əsaslandırırlar.

Müəllim daha bir sual verir:

– *"İgid odur atdan düşə, atlana,*
*İgid odur hər əzaba qatlana".*
*Bu atalar sözünü necə başa düşürsünüz?*

Bundan sonra müəllim belə bir izahat verir:

– *Keçən dərslərdə oxuduğunuz "Çünki oldun dəyirmançı..." mətni "Koroğlu" dastanından "Həmzənin Qıratı aparması" qolunun 1-ci hissəsidir. İndi mən sizə həmin qolun 2-ci hissəsini qısaca danışacağam.*

## SÖZ DƏYİRMANDAKIDIR

Koroğlu Çənlibelə qayıdıb başına gələnləri yoldaşlarına danışdı. Xanımlar və dəlilər bu işdə onu günahkar bildilər. Koroğlu öz təqsirini yaxşı başa düşürdü, ona görə heç nə deməyib Qıratın dalınca səfərə hazırlaşmağa başladı.

Bəli, Koroğlu aşıq paltarı geyindi, sazını götürüb Toqata yola düşdü. Şəhərə çatanda öyrəndi ki, Qırat Hasan paşanın tövləsindədir. Amma yanına bir adam da qoymur. Daha Hasan paşanın tövləsində mehtər qalmayıb, hamısını şil-küt eləyib. İndi arpa-samanını bacadan tökürlər.

Koroğlu gəlib Hasan paşanın imarətinə çatdı. Baxdı ki, böyük bir məclis qurulub. Özünü aşıq kimi qələmə verib içəri daxil oldu. Bir xeyli çalıb-oxudu. Məclisdə Qıratın dəliliyindən söhbət düşəndə dedi ki, mən onun əlacını bilirəm. İzin versəniz, sazımla-sözümlə onu sakitləşdirərəm.

Hasan paşa bunu eşidib sevindi. Əmr elədi, Koroğlunu tövləyə apardılar. O da sazını götürüb çalıb-oxumağa başladı. Qırat Koroğlunun səsini eşidib sakitləşdi. Qoç Koroğlu Qıratı havaya çıxarmaq bəhanəsi ilə onu yəhərlədi, yüyənindən tutub tövlədən bayıra çıxardı.

Hadisədən xəbər tutan Həmzə məsələni başa düşdü. Bildi ki, aşıq-zad sözdür, gələn Koroğlu özüdür. Tez özünü verdi tövlənin qabağına. Baxdı ki, bəli, qoç Koroğlu Qırat da yedəyində tövlədən çıxır. Tez yüyürüb üzəngini basdı və dedi:

– Koroğlu, söz dəyirmandakıdır.

LAYİHƏ

Bu vaxt Hasan paşa aşığın Koroğlu olduğunu bilib əmr elədi ki, onu tutsunlar. Qoşun hərəkətə gəldi. Bir tərəfdən Qırat, bir tərəfdən də Koroğlu özü Hasan paşanın qoşununda qoşunluq qoymadı. Qırıb tökdü. Sonra üz tutdu Çənlibelə. Başına gələnləri dəlilərə danışdı.

Dəlilər onu incitdiklərinə peşman oldular. Başlarını aşağı saldılar.

Koroğlu dedi:

– Utanmayın! Siz haqlı idiniz. Mən gərək etibar eləyib açarları ona verməyəydim. Ancaq bir işdi oldu. Amma siz də yadınızdan çıxarmayın ki, mən Koroğluyam.

**Sual:** – *Mətni dinlədikdən sonra Koroğlu və Həmzə xarakterləri haqqında əlavə nə deyə bilərsiniz?*

<u>Qruplarla iş</u> (sual müsabiqəsi). Şagirdlər 4 qrupa bölünürlər. Hər bir qrup dinləmə mətni ilə bağlı suallar hazırlayır. Sonra qruplar bir-bir suallarını səsləndirir. Ən çox sual və ən çox düzgün cavab verən qrup qalib elan olunur.

Müəllim izahat verir:

– *“Çünki oldun dəyirmançı...” kimi, “Söz dəyirmandakıdır” ifadəsi də dilimizdə məsəl kimi işlənir. Sizcə, bu məsəli hansı hallarda işlədirlər?*

*<u>Müəllimin nəzərinə:</u> Nə vaxtsa danışılmış şərtə və ya deyilmiş sözə eyham vurmaq məqsədilə bu məsəli işlədirlər.*

**Yazı**

Şagirdlər “Çünki oldun dəyirmançı...” və “Söz dəyirmandakıdır” mətnləri əsasında “Həmzənin Qıratı aparması” qolunun qısa məzmununu yazırlar.

**Dil qaydaları**

Dərsliyin 56-cı səhifəsindəki <u>12-ci tapşırıq</u> yerinə yetirilir: *gecə (nə zaman?), xəlvətcə (necə?), asta (nə cür?), tez (necə?).*

Motivasiya məqsədilə verilmiş bu tapşırıqda zərflərin hərəkəti hansı cəhətlərdən izah etdiyi müəyyənləşdirilir. Sonra isə 56-cı səhifədə verilmiş qayda mənimsədilir.

<u>13-cü və 14-cü tapşırıqlar</u> yerinə yetirilir.13-cü tapşırıqda 1-ci cümlədə “yaxşı” sözü sifət *(yaxşı iş)*, digərində zərfdir *(yaxşı bilir)*. 2-ci cümlədə *“az”* sözü say *(az adam)*, digərində isə zərfdir *(az danışmaq)*.

İş dəftərində qalan tapşırıqlar yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, qrupların təqdimatları, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 36-cı səhifəsində də verilmişdir.)

**DƏVƏSİ ÖLMÜŞ ƏRƏB**

Köçəri ərəblərin bütün həyatı dəvə ilə bağlıdır. Ərəbistan səhralarında dəvə uzun əsrlər boyu yeganə nəqliyyat vasitəsi olub. Onun əti, südü, dərisi məişət üçün ən yararlı məhsullardır. Bu səbəbdən dəvənin ölməsi ərəblər üçün böyük faciədir.

1. *“Dəvəsi ölmüş ərəb”* məsəli kimə aid edilir?
   A) Bədbəxt, zavallı adama
   B) Sözünün üstündə durmayan adama
   C) Lovğa, özündənrazı adama

2. Cümlələr hansı sözlərə aiddir?

| | *nəqliyyat* | *köçəri* | *məişət* |
|---|---|---|---|
| 1. Səslərin sayı hərflərin sayından çoxdur. | ☐ | ☐ | ☐ |
| 2. Yazılışı ilə tələffüzü eynidir. | ☐ | ☐ | ☐ |
| 3. Hərflərin sayı səslərin sayından çoxdur. | ☐ | ☐ | ☐ |

LAYİHƏ

3. Dəvənin ölməsini ərəblər nə üçün faciə sayırdı?
   A) nəqliyyat vasitələrini itirdikləri üçün
   B) dəvəni çox sevdikləri üçün
   C) dəvə onları məişət üçün lazım olan yararlı məhsullarla təmin etdiyi üçün

4. Hansı cümlənin xəbərinə *-lər*$^2$ şəkilçisi əlavə edilməlidir?
   A) Bir dəstə adam karvandan ayrılıb bizə sarı gəldi.
   B) Ərəblər dəvəyə müqəddəs heyvan kimi yanaşır.
   C) Mədinə əhalisi peyğəmbəri səbirsizliklə gözləyirdi.

**Yazı** üzrə qiymətləndirmə (əməli yazı)
Mövzu: “Məktəbdə açılan hər hansı bir dərnəyə üzv olmaq üçün ərizə yaz”.

**Dil qaydaları** üzrə qiymətləndirmə

1. Hansı cümlədəki zərf hərəkətin yerini bildirir?
   A) Səhər tezdən xoruzlar ucadan banlayır.
   B) Qışda gecələr uzanır, gündüzlər isə qısalır.
   C) İçəri gözəl bir qız daxil oldu.

**2.** *“Acı”* sözü hansı sözə aid ola bilməz?
   A) həqiqət B) iş C) dil

**3.** Hansı cümlədəki zərf hərəkətin zamanını bildirir?
   A) Günel soyuqdan tir-tir əsirdi.
   B) Bu gün sinfimizlə ekskursiyaya gedəcəyik.
   C) Fikrətin səsi aşağıdan eşidildi.

**4.** Hansı cümlədə zərf işlənib?
   A) Göy üzündə süzən qartal aşağı şığıdı.
   B) Kakao toxumlarından müxtəlif dərman hazırlayırlar.
   C) Kəklik bitki və həşəratlarla qidalanır.

**5.** Hansı fikir yanlışdır?
   A) Zərf hərəkətin əlamətini bildirir.
   B) Zərf hərəkəti müxtəlif cəhətlərdən izah edir.
   C) Zərf həm hərəkətin, həm də əşyanın miqdarını bildirir.

## Dərs 20. QƏDİM YUNAN SÖZLƏRİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi elmi məlumatları ümumiləşdirərək qrafik informasiya şəklinə salır. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Mətndə rast gəldiyi terminləri kontekstə əsasən izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnin məzmununu mənimsədiyini nümayiş etdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu mətnin ideyasını mövzu kimi seçərək inşa yazır. |

LAYİHƏ

**Motivasiya**

| | | | | | |
|---|---|---|---|---|---|
| Samovar → | rus | monumental → | latın | tablo → | fransız |
| təzad → | ərəb | miniatür → | italyan | ritm → | yunan |

Müəllim sxemlə bağlı şagirdlərin fikirlərini dinləyir. Fikirlər ümumiləşdirilir və şagirdlər aşağıdakı nəticəyə gəlirlər:

– *Dilimizdə işlənən sözlərin bəziləri başqa dillərdən keçib.*

**Oxu** ("Ziqzaq")

Mətn 5 hissəyə bölünərək "Ziqzaq" üsulu ilə oxunur.

I ekspert qrupu Olimpiya oyunları, II ekspert qrupu marafon qaçışı, III ekspert qrupu *"atletika"*, IV ekspert qrupu *"akademiya"*, V ekspert qrupu *"Evrika!"* sözləri haqqında yazılmış hissələri oxuyur və şagirdlər əsas qruplarına qayıdaraq oxuduqları mətnləri bir-birinə nəql edirlər. Sonda qrup nümayəndələri tərəfindən bütöv mətn nəql edilir.

İş dəftərinin 37-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

**Yazı**

Elə bir hekayə qurmağa çalış ki, sonunda qəhrəmanı "evrika" deyə qışqırsın.

**Söz ehtiyatı**

1-ci tapşırığı yerinə yetirən şagirdlər mətnin məzmunundan və lüğətdən çıxış edərək "beynəlxalq" sözünün mənasını müəyyənləşdirirlər: *xalqlar arasında olan; xalqlararası.*

Dərsliyin 58-ci səhifəsində verilmiş 2-ci tapşırıq yerinə yetirildikdən sonra omonim sözlər haqqında "**Yadda saxla!"** rubrikasındakı məlumatlar mənimsədilir.

Omonimlərin çoxmənalı sözlərdən fərqini göstərmək üçün müəllim əlavə tapşırıqlar verir (qruplarla iş şəklində də yerinə yetirmək olar):

1. "Qaz" sözünü müxtəlif mənalarda cümlələrdə işlədin. Bu sözün mənaları arasında bir yaxınlıq varmı?
2. İndi isə "baş" sözünü aşağıdakı mənalarda cümlələrdə işlədin:
   1) insanın bədən üzvü, 2) bir şeyin yuxarı tərəfi (kəndin başı), 3) rəhbər, birinci (baş həkim). Bəs bu sözün mənaları arasında yaxınlıq varmı? Hansı mənanı "baş" sözünün ilkin, həqiqi mənası kimi qəbul etmək olar? ("Göz", "boğaz", "ətək" sözlərini də misal gətirmək olar)
3. Gəlin "qol" sözünün mənalarına diqqət yetirək. Müəllim lövhədə yazır:
   A) Futbolda qol vurmaq B) İnsanın sağ qolu
   C) Ərizəyə qol çəkmək Ç) Çayın qolları

**Sual:** – *"Qol" sözünün hansı mənaları omonimlik, hansıları çoxmənalılıq təşkil edir?*

**Nəticə:** "B", "C" və "Ç" variantları çoxmənalılıq, "A" variantı isə digər variantlarla omonimlik təşkil edir.

3-cü tapşırıq kollektiv şəkildə yerinə yetirilir. Tapşırıqda verilən sözlər müxtəlif mənalarda cümlələrdə işlədilir. Deyilən cümlələr arasında ən yaxşıları dəftərə də yazıla bilər.

İş dəftərinin 38-ci səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Dinləmə**

**QƏDİM YUNAN ALİMLƏRİ**

Təbiətdə və cəmiyyətdə baş verən hadisələr hələ qədim zamanlardan insanlarda böyük maraq oyadıb. Onlar çalışırdılar ki, ətraf aləmi daha yaxından öyrənsinlər, Kainatın qanunauyğunluqlarını üzə çıxarsınlar.

Elmin bir çox sahələri Qədim Misirdə, Babildə yaranmışdır. Təxminən 2500-2600 il əvvəl isə Qədim Yunanıstan elmin mərkəzinə çevrildi; məsələn, Pifaqor adlı bir yunan alimi 2500 il əvvəl riyaziyyat sahəsinə dair dəyərli fikirlər ortaya qoymuşdur. Gənc yaşlarında o, Misiri, Babili, İranı

LAYİHƏ

gəzərək o dövrün ən böyük alimlərindən dərs almışdı. Pifaqorun çoxlu şagirdi olmuşdur. Onlar hətta “Pifaqorçular ittifaqı” adlı birlik yaratmışdılar.

“Evrika” sözü ilə məşhur olan Arximed isə 2250 il əvvəl riyazi fikirləri mühəndislik sahəsinə tətbiq edərək böyük uğurlar əldə etmişdi. Onun kəşflərindən gəmiçilikdə, hərbi sənayedə istifadə olunurdu.

2550 il əvvəl Yunanıstanın Halikarnas şəhərində Herodot adlı bir gənc yaşayırdı. Hökmdarla yola getməyən Herodot doğma şəhərini tərk edib səyahətə çıxdı. O, bir çox ölkələri gəzdi və gördüklərini, eşitdiklərini “Tarix” adlı əsərində qeyd etdi. İndi Herodota “Tarixin atası” deyirlər və qədim dövrdən yazan müasir tarixçilər tez-tez onun “Tarix” kitabına istinad edirlər.

Qədim Yunanıstanda tibb elmi də inkişaf etmişdi. Bu sahədə ən böyük alim Hippokrat idi. O, təxminən 2400 il əvvəl yaşamışdır. Hippokratın dünya tibb elmində rolu əvəzsizdir. Elə buna görədir ki, bu gün də həkim adına layiq görülmüş hər bir adam Hippokrat andı içir.

Hippokratla təxminən eyni dövrdə yaşamış qədim yunan filosofu Platon həm də indiki qaydasız döyüşlərə bənzəyən pankration döyüş növü üzrə iki dəfə Olimpiya çempionu olmuşdur. Onun şagirdi Aristotel isə Makedoniyalı İsgəndərin müəllimi idi. Platon və Aristotel Şərqdə Əflatun və Ərəstun adı ilə məşhur olmuşlar. Onlar insan həyatı və davranışı, təbiətin qanunauyğunluqları haqqında dəyərli fikirlər söyləmişlər. Aristotel Platonun şagirdi olsa da, onun bir çox fikirləri ilə razı deyildi. O belə deyirdi: “Platon mənim üçün əzizdir, lakin həqiqət ondan da əzizdir”.

Dinləmə mətni bitdikdən sonra sual müsabiqəsi keçirmək olar.
Daha sonra müəllim lövhədə belə bir cədvəl çəkir:

| Alim | Yaşadığı dövr | Elm sahəsi | Vacib qeyd |
|---|---|---|---|
| Pifaqor | | | |
| Arximed | | | |
| Herodot | | | |
| Hippokrat | | | |
| Platon | | | |
| Aristotel | | | |

Şagirdlərlə birlikdə cədvəl doldurulur. “Vacib qeyd” sütununda şagirdlər müvafiq alimlə bağlı ən yaddaqalan məlumatı yazırlar; məsələn: Platon pankration üzrə Olimpiya çempionu olmuşdur.

**Danışma** (debat)
Aristotelin Platon haqqında fikrinə münasibətinizi bildirin.
**1-ci qrup:** – *Müəllimin fikrini heç vaxt şübhə altına almaq olmaz.*
**2-ci qrup:** – *İstənilən fikrə tənqidi yanaşmaq lazımdır.*

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 21. NİYƏ “SİZ” DEYİRİK (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Eyni cür yazılan müxtəlif mənalı sözlərlə cümlələr qurur. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu elmi-kütləvi mətndən çıxan nəticəni təcrübədə tətbiq edir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Verilmiş situasiyaya uyğun ərizə, dəvətnamə, məktub, məlumat xarakterli izahat yazır. |

LAYİHƏ

**Motivasiya**

Müəllim uşaqlara aşağıdakı şeirləri oxuyur:

Yaz olanda yağar yağış,
Otlar uzanar bir qarış.
Qaranquş eylər sifariş:
– Mən **sizə** qonaq gələcəm,
– Olsun ki, sabah gələcəm.
*A.Səhhət*

Bu gözəl torpaq sənin,
Bu bağça, bu bağ sənin.
Torpaq **sənə** vətən, ev,
Bu torpağı tanı, sev.
*T.Mahmud*

Ата üzük, ana qaşdı,
O, övladcün dost-sirdaşdı,
Baxmayın ki, neçə yaşdı,
**Siz** qoruyun ananızı.

**Suallar:** – *Şeirlərdə hansı şəxs əvəzlikləri işlənmişdir? "Sən" və "siz" əvəzlikləri hansı şəxsə aiddir: 1-ci, 2-ci, yoxsa 3-cü? Biz nə zaman "sən", nə zaman "siz" deyirik? Bəs mənə müraciət edərkən niyə "siz" deyirsiniz, axı mən təkəm?!*

Şagirdlər öz fikirlərini söyləyirlər.

**Oxu**

Dərsliyin 59-cu səhifəsindəki "Niyə "Siz" deyirik" mətni oxunur.

Şagirdlər həmin səhifədəki 1-2-ci tapşırıqları yerinə yetirirlər. Eləcə də iş dəftərinin 39-cu səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər.

**Yazı** (qruplarla iş)

Şagirdlər dörd qrupa bölünürlər.

1-ci qrupa tapşırıq:

*– Sizdən biriniz uşaqlar arasında keçirilən beynəlxalq idman yarışları ilə əlaqədar bir neçə günlüyə Azərbaycanın başqa şəhərinə getməlidir. Bununla bağlı məktəb direktoruna ərizə yazıb icazə istəməlisiniz. Bu mövzuda ərizə yazın.*

*Müəllimin nəzərinə: Ərizə yazısının quruluşu şagirdlərə təqdim olunur.*

*1. Vərəqin yuxarı sağ tərəfində kimə müraciət olunduğu bildirilməlidir. Həmin şəxsin adı, soyadı, vəzifəsi göstərilməlidir.*
*2. Vərəqin orta hissəsində "ərizə" sözü yazılmalıdır.*
*3. Müraciət bildirən söz yazılmalıdır; məsələn: "Hörmətli Rəşid müəllim" və ya "Hörmətli cənab direktor".*

2-ci qrupa tapşırıq:

*– Oxuduğunuz əsərlərdən birinin müəllifinə məktub yazın. Məktubda əsərlə bağlı fikirlərinizi bildirin. Xoşunuza gələn və gəlməyən məqamları qeyd edin. "Mən sizin yerinizə olsaydım, filan epizodu belə yazardım" və ya "...əsəri belə bitirərdim" kimi fikirlərinizi şərh etməkdən çəkinməyin.*

3-cü qrupa tapşırıq:

*– Siz müəyyən bir əsər əsasında ssenari yazmış və onu səhnələşdirmisiniz. Bir neçə gündən sonra bu səhnəni məktəb kollektivi qarşısında nümayiş etdirəcəksiniz. Tamaşaya əsərin müəllifini də dəvət etmək istəyirsiniz. Bununla bağlı müəllifə dəvətnamə yazın.*

4-cü qrupa tapşırıq:

*– Məktəb yaxınlığında oynayarkən topla vurub məktəbin pəncərə şüşələrindən birini qırmısınız. Bununla bağlı məktəb direktoruna izahat yazın.*

Müəllim bildirir ki, izahat sənədinin quruluşu ərizədə olduğu kimidir, lakin burada xahiş deyil, məlumat bildirilir. Yazının sonunu üzrxahlıqla bitirmək tövsiyə olunur.

Müəllim bildirir ki, şagirdlər öz yazılarında "Siz" sözünün düzgün yazılışına diqqət yetirməlidirlər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

# Dərs 22. ÖZ ARŞININLA ÖLÇMƏ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi mətndəki elmi məlumatları ümumiləşdirərək cədvəl şəklində təqdim edir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir.. | Oxuduğu və dinlədiyi eyni mövzuda elmi məlumatları ümumiləşdirərək məruzə ilə çıxış edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu elmi-kütləvi mətndəki mübahisəli fikrə münasibət bildirir və analoji problemlə bağlı kiçik təqdimat edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndə rast gəldiyi dərinmənalı fikirləri mənimsədiyini nümayiş etdirir. |

### Motivasiya

**Müəllim:** – *Yəqin ki, "Arşın mal alan" filminə baxmısınız. Bu filmin adındakı "arşın" sözü nə bildirir?*

Şagirdlər fikirlərini bildirdikdən sonra "*Filmin baş qəhrəmanı Əsgər arşınla nə ölçürdü? Sizcə, arşının uzunluğu təxminən nə qədərdir?" sualları verilir.*

### Oxu

Dərsliyin 60-cı səhifəsindəki mətn abzaslarla oxunur. Hər abzasdan sonra məlumatların daha dərindən mənimsədilməsi məqsədilə suallar verilir.

Dərsliyin 61-ci səhifəsindəki 1-6-cı tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 40-cı səhifəsindəki 1-2-ci tapşırıqlardan da istifadə oluna bilər.

### Danışma

– *Elə bir mətn qurun ki, orada "Öz arşınınla ölçmə" məsəli istifadə olunsun.*

### Dinləmə

**Suallar:** – *İnsan bədəninin daha hansı hissələrindən uzunluq ölçmək üçün istifadə edilir?*
– *Həmin ölçü vahidləri necə adlanır və onlardan hansı hallarda istifadə oluna bilər?*
Şagirdlərin cavabları müzakirə olunduqdan sonra dinləmə mətni oxunur.

### QƏDİM ÖLÇÜ VAHİDLƏRİ

Ölçü vasitələri insanların həyatında mühüm əhəmiyyət kəsb edir. Metrik ölçü vahidləri kəşf olunmazdan əvvəl qədimdə insanlar müxtəlif uzunluq ölçü vasitələrindən istifadə ediblər. Nisbətən kiçik ölçü vahidlərindən biri *qarış* idi. İndinin özündə də çox dəqiqlik tələb olunmayan yerlərdə qarışdan istifadə edilir. Qarış əli açıq vəziyyətdə tutduqda baş barmağın ucundan çeçələ barmağın ucuna qədər olan uzunluğu bildirir. Bu da təqribən 20 sm-ə bərabərdir.

Xalq arasında geniş yayılmış digər ölçü vahidi *addım* adlanır. Bu vahid normal yerişlə gedən adamın bir addımının uzunluğunu bildirir. Bu isə təxminən 60 sm-ə bərabərdir.

Yəqin ki, *ağac* sözünün mənasını bilirsiniz. Bu söz qədimdə yalnız bitki mənasında deyil, həm də uzunluq ölçü vahidi mənasında işlənib. Nağıllarda bu sözə tez-tez rast gəlmək olar ("Şəhərin iki ağaclığında çadır qurdu"). Bir ağac dedikdə 12000 addım nəzərdə tutulurdu ki, bu da təxminən 7 kilometrə bərabər idi.

Qədim dövrdə *qulac* ("qol" və "aç" sözlərindən əmələ gəlmişdir) deyilən ölçü vahidindən də istifadə olunub. Bu sözə bədii ədəbiyyatda, xüsusilə poeziyada tez-tez rast gəlinir (Qulac qollarımı gərrəm, Meydanda hünər göstərrəm). Əsasən, uzunsaçlı qadından danışanda "bir

LAYİHƏ

qulac saçı var" ifadəsindən istifadə edirlər (Siyah zülfü dal gərdəndə bir qulac!). Qulac iki əli də çiyin bərabəri açıq tutduqda sağ əlin baş barmağının ucundan sol əlin müvafiq barmağının ucuna qədər olan məsafəyə bərabər götürülür. Bu da təxminən 150 sm hesab olunur.

Sual və tapşırıqlar:

1. *Qədim ölçü vahidlərini böyükdən kiçiyə doğru ardıcıllıqla sadala.*
2. *Məlumat aldığınız ölçü vahidlərindən hansının adı omonimdir?*
3. *Hansı ölçü vahidindən şəhərlərarası məsafəni bildirmək üçün istifadə olunurdu?*

Müəllim lövhədə cədvəl çəkir:

| Ölçü vahidi | İzahı | Metrik sistemlə təxmini ekvivalenti |
|---|---|---|
| Arşın | Açılmış qoldakı barmaqların ucun-dan buruna qədər olan məsafə | 75 sm |
| Qarış | | |
| Addım | | |
| Ağac | | |
| Qulac | | |

Şagirdlər nümunəyə əsasən cədvəli doldurur, sonra oxuduqları və dinlədikləri mətnlər əsasında "Qədimdə uzunluq ölçü vahidləri" mövzusunda məruzə hazırlayıb təqdim edirlər.

Dərsliyin 61-ci səhifəsindəki "Altıağac" mətni oxunur. Həmin səhifədəki 7-9-cu tapşırıqlar yerinə yetirilir. İş dəftərindəki qalan çalışmalar da yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 23. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 62-ci səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 24. 2-ci BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

**Dinləmə üzrə qiymətləndirmə** (İş dəftərinin 41-ci səhifəsində də verilmişdir.)

**TİMSAHIN GÖZ YAŞLARI**

Timsahlar isti bölgələrdə yaşayır. Əsasən, suda yaşasa da, tez-tez quruya da çıxır. Timsah suda gizlənir və su içməyə gələn heyvanlara suyu ləpələndirmədən asta-asta yaxınlaşır. Sonra isə qəfildən heyvanların üstünə atılır, boğazından yapışıb onu suya çəkir. Timsah bəzən özündən böyük heyvanları ovlaya bilir. Möhkəm çənə əzələləri ona ağzını geniş açmağa imkan verir.

Timsahlar bir şey yeyəndə gözlərindən yaş gəlir. Bəzi sadəlövh adamlar elə düşünürlər ki, timsah yediyi heyvanın halına acıyır. Yəni ağlaya-ağlaya deyir: "Məni bağışla, yazığım gəlsə də, səni yeməliyəm".

Təbii ki, bu, düz deyil. Sadəcə, timsah ağzını çox geniş açdıqda çənə əzələləri gücə düşdüyündən gözündən su gəlir. Bunun nə ağlamaqla, nə də rəhmdilliklə əlaqəsi var. Məhz buna görə də "timsahın göz yaşları" ifadəsi məsəl kimi işlədilir. Bir nəfər başqasına zülm edəndə, sözdə isə yalandan onun halına acıyanda deyirlər: "Filankəs timsah kimi göz yaşı tökür".

LAYİHƏ

1. Timsah haqqında məlumatlardan biri bu mətndə öz əksini tapıb:
   A) Timsahın rəng seçmək qabiliyyəti yoxdur.
   B) Timsahın möhkəm çənə əzələləri var.
   C) Timsah suyun dərin qatlarına düşmək üçün daş udur.

2. Mətndə hansı məlumat yoxdur?
   A) Timsah su içməyə gələn heyvanları ovlayır.
   B) Timsah suda-quruda yaşayan heyvandır.
   C) Timsahlar yumurta qoymaqla çoxalır.

3. *“Timsahın göz yaşları”* ifadəsi işlənir:
   A) Biri başqasının halına yalandan acıyanda
   B) Kimsə tez-tez ağlayanda
   C) Kimsə sevincdən ağlayanda

4. Timsah ovunu yeyən zaman gözündən yaş gəlir, çünki ...
   A) ov tapdığına görə sevinir.
   B) çənə əzələləri gücə düşür.
   C) yediyi heyvana yazığı gəlir.

5. Hansı cümlədə *“ləpə”* sözü qida məhsulu mənasında işlənib?
   A) Dəniz ləpələnirdi.
   B) Qidalı məhsullardan biri də qoz ləpəsidir.
   C) Ləpələr sahilə can atır.

6. Hansı cümlədə “ovlamaq” sözü mətndəki mənasında işlənməyib?
   A) Ovçu maralı ovladı.
   B) Şahzadə kraliçanın qəlbini ovlamışdı.
   C) Dövlət quş ovlamağa qadağa qoydu.

**Yazı üzrə qiymətləndirmə**

Şagirdlər “Atalar sözləri, məsəllər və aforizmlər” mövzusunda məruzə yazırlar.

**Oxu və dil qaydaları üzrə qiymətləndirmə** (İş dəftərinin 42-43-cü səhifələrində də verilmişdir.)

Əslən şotland olan Aleksander Qraham Bell 1847–1922-ci illərdə yaşamışdır. 29 yaşında ikən o, telefon icad etmişdir. Qraham Bellin Amerikanın Boston şəhərində elmi l...b...r...t...riyası var idi. O burada Tomas Vatson adlı köməkçisi ilə işləyirdi. İlk telefon xətti də Vatsonla Bellin otaqları arasında çəkilmişdi. Telefonla deyilən ilk cümlə də tarixin yaddaşında qalmışdır. Bu cümlə Qraham Bellə məxsus olmuşdur: “Tomas, mənim otağıma gəlin, siz mənə lazımsınız”.

Telefonla danışarkən çox zaman “alo” kəlməsindən istifadə edirik. Niyə məhz “alo”?

Telefonu kəşf etdikdən sonra Qraham Bell ilk xətti Alessandra Lolita Osvaldo adlı tanışının evinə çəkmişdi. Ona görə də hər dəfə telefonun dəstəyini qaldıranda "Alessandra Lolita Osvaldo" deyirdi. Lakin zaman keçdikcə tanışının adını qısaldaraq ona “Alo” deyə müraciət etməyə başladı. Sonradan bu kəlmə bütün dillərdə telefonla danışıq etiketinə çevrildi. İndi hər kəs telefonun dəstəyini qaldırarkən danışığına məhz bu ...hecalı sözlə başlayır.

LAYİHƏ

1. Mətnlərin məzmunu arasında ziddiyyət təşkil edən cümlələrin altından xətt çək.

2. 1-ci mətndə nöqtələrin yerinə *"a"* və *"o"* saitlərinin uyğun gələn ardıcıllığını seç.
   A) a, o, a, o B) o, a, o, a C) a, a, a, o

3. Mətnlərə ad qoy.
   1-ci mətn_______________________________________________
   2-ci mətn_______________________________________________

4. Nöqtələrin yerinə uyğun sözü yaz.
   A) iki B) üç C) bir

5. 2-ci mətndə mavi rənglə verilmiş sözü hansı sözlə əvəz etmək olar?
   A) sən demə B) odur ki C) nəhayət ki

6. Altından xətt çəkilmiş cümlədə hansı sözə sual vermək olmur?
   A) 29 B) ikən C) o

7. Mətndə hansı suala cavab var?
   A) Telefon neçənci ildə kəşf olunub?
   B) Bell neçənci ildə Amerikaya köçüb?
   C) İlk mobil telefonu kim icad edib?

8. Hansı fikir mətnin məzmununa uyğun deyil?
   A) Qraham Bell 75 il ömür sürüb.
   B) Qraham Bell öz köməkçisi ilə bir otaqda işləyirdi.
   C) Telefon Amerikada kəşf olunmuşdur.

9. 1-ci mətnin sonuncu cümləsindəki hansı söz müraciət bildirir?
   A) Tomas B) siz C) gəlin

10. *"Alo"* nə bildirir?
    A) müraciət B) arzu C) əmr

11. Bu zərflərdən biri hərəkətin yerini bildirir:
    A) sonradan B) burada C) indi

LAYİHƏ

## 3-cü bölmə

# ƏMƏKSEVƏRLİK

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 25 | Halal pul | 1.1.2, 1.2.1, 2.1.1, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.4 | 4 | 64-66 | 44 | 72 |
| 26 | Qurucu | 1.1.1, 2.1.3, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.4 | 4 | 67-69 | 45 | 75 |
| 27 | Təndir tikə bilməyən ev tikə bilməz | 1.2.1, 2.2.4, 2.2.5, 4.1.4 | 4 | 70-71 | 46-47 | 77 |
| 28 | Bir boşqab sıyıq | 1.2.1, 2.2.2, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.4 | 4 | 72-75 | 48-49 | 79 |
| 29 | Ən böyük xəzinə | 2.1.2, 2.2.2, 2.2.4, 2.2.5, 3.1.3, 4.1.4 | 2 | 76-77 | 50 | 81 |
| 30 | İlk dərs | 1.2.1, 2.2.1, 2.2.4, 2.2.5, 3.1.1, 3.1.3, 4.1.4 | 4 | 78-79 | 51 | 82 |
| 31 | Hədiyyə | 1.2.1, 2.2.4, 2.2.5, 3.1.4, 3.1.5, 4.1.4 | 4 | 80-81 | 53 | 85 |
| 32 | İki qardaş | 2.2.1, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.4 | 4 | 82-83 | 54 | 87 |
| 33 | Hökmdar qardaşlar | 1.2.1, 2.2.2, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.4 | 6 | 84-86 | 56 | 89 |
| 34 | Kirpinin düz sözü | 2.2.1, 3.1.3, 4.1.4, 4.1.5 | 2 | 87 | 57 | 90 |
| 35 | Hazır yuva | 1.2.1, 2.2.2, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.4 | 2 | 88-89 | 58 | 91 |
| 36 | Ümumiləşdirici təkrar | | 2 | 90 | | 93 |
| 37 | Kiçik summativ qiymətləndirmə | | 2 | | 59-61 | 93 |
| **Yekun** | | | 44 saat | | | |

LAYİHƏ

## Dərs 25. HALAL PUL (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Atalar sözünü həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək əsaslandırır. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Rast gəldiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin süjet xəttini təxəyyülünə uyğun dəyişməklə yaradıcı şəkildə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir.<br>Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür.<br>Oxuduğu mətnin ideyasını həyatla əlaqələndirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

**Motivasiya**

Müəllim uşaqlara Nizami Gəncəvinin III sinifdə keçdikləri "Kərpickəsən qocanın hekayəti"ni xatırladır və soruşur:

– *Qoca vaxtında belə ağır işlə məşğul olmasını irad tutan cavana kərpickəsən kişi nə cavab verdi?*

Şagirdlər müəllimin sualına cavab verirlər.

"Əqli hücum". *"Kərpickəsən kişi çörəkpulunu necə qazanırdı?"* sualı ilə şagirdlər cavab versiyalarını deyirlər. Onların cavabları dairənin kənarına yazılır:




– *Bu sözləri birləşdirən hansı söz ola bilər?*

"Halallıq" cavabı səsləndikdən sonra müəllim sözü dairənin içinə yazır.

**Oxu**

"Halal pul" mətninin (dərslik, səh. 64-65) oxunması üçün aşağıdakı üsullardan birinin tətbiq olunması tövsiyə edilir.

LAYİHƏ

**1-ci üsul.** Proqnozlaşdırma

Mətnin hər bir hissəsi oxunduqdan sonra müəllim hadisələrin necə davam edəcəyini soruşur və növbəti hissə oxunduqdan sonra şagird versiyaları ilə müqayisə olunur.

**2-ci üsul.** “Ziqzaq”

Şagirdlər qruplara bölünüb nömrələnirlər. Hər şagird öz payına düşən hissəni oxuyur və qrup üzvlərinə nəql edir. Bundan sonra qrup nümayəndələri mətni bütövlükdə nəql edirlər.

### Söz ehtiyatı

1-ci tapşırıq. B variantı

2-ci tapşırıq.

*əl-ayaqdan düşmək – iş görmək qabiliyyətinin zəifləməsi; alın təri ilə – zəhməti ilə; dəridən-qabıqdan çıxmaq – var gücü ilə çalışmaq*

3-cü tapşırıq.

*veyillənmək – boş-boş gəzmək; taqət – güc; soba – peç*

Sonra dərsliyin “Düşün və cavab ver” rubrikasındakı tapşırıqlar yerinə yetirilir.

6-cı tapşırıq.

Mətnin mövzusu zəhmətlə, əməklə bağlıdır. İdeyasını isə atalar sözü ilə belə ifadə etmək olar: “Ata malına göz dikən oğul ac qalar”.

7-ci tapşırıq.

*..., çünki tənbəl idi.*
*..., ona görə də hər dəfə ona bir qızıl verirdi.*
*..., çünki onu özü qazanmamışdı.*
*..., çünki onları öz zəhməti ilə qazanmışdı.*

### Danışma

Qruplarla iş (“Nağılı dəyiş” oyunu)

Şagirdlər 3 qrupa bölünür. Müəllim hər qrupa tapşırıq verir.

**I qrup:** – *Nağılı elə dəyişin ki, oğlan atasını ilk dəfədən inandırsın ki, anasının verdiyi qızılı özü qazanıb.*

**II qrup:** – *Nağılı elə dəyişin ki, oğlan atasını ikinci dəfə anasının verdiyi qızılı özü qazandığına inandıra bilsin.*

**III qrup:** – *Nağılı elə dəyişin ki, oğlan üçüncü dəfə atasını pulu özü qazandığına inandıra bilmir.*

### Dinləmə

**Müəllim:** – *Təsəvvür edin ki, sizə belə bir seçim təklif olunur: ya 3 qızılı götürməli, ya da 3 ağıllı məsləhəti eşitməlisiniz. Hansını seçərdiniz?*

Şagirdlər seçimlərini əsaslandırırlar.

## ATANIN ÜÇ MƏSLƏHƏTİ

Bir qoca kəndli ölüm yatağında oğlanlarını yanına çağırıb deyir:

– Əziz balalarım, var-dövlətimi sizə qoyub gedirəm. Amma sizə puldan qiymətli, var-dövlətdən dəyərli üç məsləhət verirəm. Onları yadınızda saxlasanız, ömrü boyu firavan, bolluq içində yaşayacaqsınız. Məsləhətlərim bunlardır: elə edin ki, başqaları sizə birinci salam versin. Elə edin ki, həmişə bal yeyin və həmişə pərqu balışda yatın.

Sual və tapşırıqlar:

*1. Atanın məsləhətlərini bir-bir sadalayın.*
*2. Ata nə üçün belə məsləhətlər verdi? Hər bir məsləhəti izah etməyə çalışın.*
*3. Bu məsləhətlərə əməl etmək üçün oğullar nə etməlidirlər?*

Bunu deyib qoca vəfat edir. Oğlanları onun məsləhətini unudur, özləri istədikləri kimi yaşayıb kef çəkirlər: yeyirlər, içirlər, bütün günü yatırlar. Tezliklə onlar atalarından qalan bütün var-dövləti xərcləyib qurtarırlar. Bu vaxt böyük qardaş deyir:

LAYİHƏ

– Axı atamız bizə var-dövlətdən əlavə üç məsləhət də vermişdi. Demişdi ki, onlarla ömrümüzün axırınacan firavan, bolluq içində yaşayacağıq.

Ortancıl qardaş deyir:

– Hə, onlar yadımdadır. Atam demişdi ki, elə edin ki, hamı sizə baş əysin. Bundan ötrü gərək varlı olasan, amma hal-hazırda bütün mahalda bizdən kasıbı yoxdur. Sonra atamız demişdi ki, həmişə bal yeyək və pərqu balışda yataq. Bizim isə heç quru çörəyimiz və köhnə keçəmiz də qalmayıb.

Kiçik qardaş dedi:

– İndi ki belədir, özümüz öz qayğımıza qalmalıyıq. Səhər tezdən duraq, tarlamıza gedək.

Qardaşlar səhər dan yeri ağarar-ağarmaz durub tarlaya yollanırlar. Hamıdan əvvəl iş yerlərinə gəlirlər. Başqa adamlar işə gələndə ilk əvvəl qardaşlara salam verirlər: “İşiniz avand olsun, yorulmayasınız, qolunuza qüvvət”, – deyirlər.

Qardaşlar bütün günü bellərini düzəltmədən işləyirlər. Axşam evə qayıdanda bir parça yuxa ilə çay onlara baldan şirin görünür. Sonra qardaşlar quru döşəmənin üstündəcə yıxılıb yatırlar. Amma elə bilirlər ki, pərqu içində yatırlar.

Bu minvalla qardaşlar hər gün işləyir, payızda da yaxşı məhsul götürürlər. Onlar yenidən bolluq içində, firavan yaşamağa başlayırlar. Qonşular da yenə onlara hörmət edirlər.

Sual və tapşırıqlar:

*1. Tarlaya gələn adamlar qardaşlara hansı nitq etiketləri ilə müraciət etdilər?*

*2. Onların dediklərinə hansı nitq etiketini əlavə etmək olar?*

*A) Həmişə ayaq üstə. B) Bəhrəsini görəsiniz. C) İşıqlığa çıxasınız.*

*Qalan iki ifadə hansı hallarda işlədilir?*

*3. Müəllim lövhədə cümlələr yazır və hər bir cümləni atanın müvafiq məsləhətinə uyğun davam etdirməyi tapşırır:*

*Çox işləyib acdılar –* ______________________________

*Tarlaya hamıdan əvvəl gəldilər –* ______________________________

*Bütün günü işləyib yoruldular –* ______________________________

**Danışma** (diskussiya)

Şagirdlər 2 qrupa ayrılırlar. Qruplara “Yaxşı oğul neylər ata malını, yaman oğul neylər ata malını” atalar sözünü izah etmək və həyatdan misallar gətirməklə bu kəlamın düzgünlüyünü əsaslandırmaq tapşırılır.

Dərslikdəki mətnlə bağlı iş dəftərinin 44-cü səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Yazı**

“Əmək xoşbəxtliyin açarıdır” mövzusunda inşa yazılır. Bir neçə şagirdin yazısı seçilir və oxunur.

**Dil qaydaları**

<u>8-11-ci tapşırıqlar</u> yerinə yetirilir.

<u>9-cu tapşırıq.</u> Verilmiş sözlərə müvafiq şəkilçilər artırılmaqla sual verilir: *mülayimcəsinə, dərindən, cəsarətlə, dostcasına, qəzəblə, ucadan, mehribancasına, astadan, maraqla10*

<u>10-cu tapşırıq.</u> Cümlələrdən hərəkətin zamanını bildirən zərflər seçilir: *çoxdan, daim, əvvəl.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 44-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlar yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 26. QURUCU (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi əsərdəki obraz və hadisələr haqqında müxtəlif fikirləri ümumiləşdirərək yekun nəticəyə gəlir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadələrin mənasını kontekstə əsasən müəyyənləşdirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndə rast gəldiyi dərinmənalı fikirləri mənimsədiyini nümayiş etdirir.<br>Mətnlər arasında ideya yaxınlığını müəyyən edir.<br>Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu və dinlədiyi mətnlər arasında ideya yaxınlığını müəyyən edərək eyni mövzuda inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

### Motivasiya

Uşaqların stolları üstündə texnologiya dərsində hazırladıqları əl işləri var: həndəsi fiqurlardan düzəldilmiş müxtəlif aplikasiyalar və kağız modullardan hazırladıqları bədii konstruksiyalar.

**Müəllim:** – *Uşaqlar, bunları siz öz əllərinizlə yaratmısınız. Hansı sizin üçün daha əzizdir: mağazadan alınmış oyuncaq, yoxsa öz əlinizlə yaratdığınız hər hansı məmulat?*

Uşaqlar cavab verib öz fikirlərini əsaslandırırlar.

Müəllim bildirir ki, qurub-yaratmaq insan həyatının mənasıdır. Ömründə heç bir şey yaratmayan insan bar verməyən ağaca bənzəyir.

### Oxu

Dərslikdəki mətn (səh. 67-68) hissə-hissə oxunur. Müəllim müəyyən hissələrdə oxunu dayandırır, suallar verir, fikirlər dinlənilir. *“Oğlum isə, həmişəki kimi, oynamaq həvəsində idi”* cümləsindən sonra oxuya fasilə verilir. **Müəllim:** – *Sizcə, ata oğlunu əyləndirəcək?*

Şagirdlərin bu sual ətrafında fikirləri dinlənilir. Oxu davam etdirilir. İkinci dəfə *“Oğlumun bunu nə vaxt uçuracağını gözləyirdim”* cümləsində dayandırılır.

**Müəllim:** – *Sizcə, oğlu atasının qurduğu “bina”nı yenə də dağıdacaq?*

Müzakirələr aparılır. Müzakirələrdən sonra müəllim *“Əkrəmin atası haqqında nə deyə bilərsiniz?”* sualı ilə müraciət edir. Cavablar dinlənib müzakirə olunduqdan sonra mətn sonadək oxunur.

**Sual:** – *Hansı cümlə mətnin ideyasını müəyyən edir?*

Dərsliyin 68-ci səhifəsindəki söz ehtiyatı və 69-cu səhifəsindəki oxuyub anlama ilə bağlı tapşırıqlar yerinə yetirilir.

<u>1-ci tapşırıq.</u> 1C, 2A, 3Ç, 4B; <u>2-ci tapşırıq.</u> B variantı; <u>3-cü tapşırıq.</u> A variantı.

<u>4-cü tapşırıq.</u> Altından xətt çəkilmiş cümlənin ifadə etdiyi fikir ayrı-ayrı şagirdlər tərəfindən şərh olunur. Müəllim deyilənləri ümumiləşdirir:

*– Hər bir işin davamlılığı, möhkəmliyi əvvəldən qoyulan bünövrədən, təməldən asılıdır. Əgər bünövrə düzgün qoyulmazsa, bu işin sonu olmaz. Baxın, indi siz 4-cü sinifdə oxuyursunuz. Gələcəkdə hansı bilik və bacarığa sahib olacağınızın təməli ibtidai sinifdə qoyulur.*

LAYİHƏ

*Təməl möhkəm, düzgün olarsa, yeni qazandıqlarınızı tam dərk edib qavrayırsınızsa, siz gələcəkdə daha bacarıqlı, cəmiyyətə lazım olan şəxsiyyət kimi yetişəcəksiniz.*

5-ci tapşırıq. Hər iki mətndə oğullar əziyyətlə nail olduqlarını itirmək istəmirlər.

İş dəftərinin 45-ci səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilə bilər.

**Dinləmə**

**ŞAİR VƏ ƏKİNÇİ**

Məşhur bir şair səyahətə çıxmışdı. Yolu bir kəndin yanından keçirdi. Baxdı ki, bir əkinçi iş görə-görə onun gözəl bir qəzəlinin qol-qıçını sındıra-sındıra oxuyur. Şair o saat atının başını döndərib əkinçinin yanına gəldi. Atdan düşüb zəmiyə girdi, təzəcə boy atan sünbülləri çıxarıb atmağa başladı.

– Ay qardaş, niyə mənim zəhmətimi zay edirsən? – deyə əkinçi həyəcanla qışqırdı.

Şair cavabında dedi:

– Əvvəl özünə bax, sonra mənə. Öz eybini görmürsən, özgədə nöqsan axtarırsan. Bəs sən niyə mənim qəzəlimin qol-qıçını sındırıb oxuyursan? Sən mənim şeirimi zay edirsən, mən də sənin zəmini.

Mətnin mənimsənilməsini iş vərəqində verilmiş suallar vasitəsilə yoxlamaq olar.

**İŞ VƏRƏQİ**

1. Kəndli harada işləyirdi?
   A) tarlada   B) zəmidə   C) bostanda

2. Kəndlinin oxuduğu əsər nə idi?
   A) qəzəl   B) layla   C) bayatı

3. *“Öz eybini görmürsən, özgədə nöqsan axtarırsan”* cümləsini hansı atalar sözü ilə əvəz etmək olar?
   A) Öz gözündə tiri görmür, özgə gözündə tük seçir.
   B) Göz gördüyündən qorxar.
   C) Göz gördüyünə inanar.

**Yazı**

“Başqasının əməyinə hörmət etməliyik” mövzusunda inşa yazılır.

**İnşanın planı:**

Giriş. Hər bir insanın öz əməyi ilə ərsəyə gətirdiyi məhsul onun üçün əziz olur. Ona görə də hər kəsin zəhmətinə həssaslıqla yanaşmaq lazımdır.

Əsas hissə. Zəhmətə hörmətlə bağlı başıma gələn və ya şahidi olduğum hadisə (məsələn, bağça uşağının plastilindən düzəltdiyi tülkü fiqurunu qardaşı lağa qoyur, atası isə tərifləyir).

Sonluq. İnsanın əməyinə düzgün münasibət bəzən onun həyatında böyük rol oynayır.

**Dil qaydaları**

Dil qaydasına motivasiya xarakterli 9-cu tapşırıq yerinə yetirildikdən sonra dərslikdəki qayda oxunur və mənimsədilir. Müəllim şagirdlərə başa salır ki, sözün leksik mənası onun birbaşa ifadə etdiyi mənadır. Sözün leksik mənasını bir neçə yolla izah etmək olar:

– *verilən sözə yaxınmənalı söz seçməklə;*
– *verilən sözə əksmənalı söz seçməklə;*
– *verilən sözün əlamətlərini izah etməklə;*
– *sözün hissələrinin mənasını açmaqla.*

10-cu tapşırıq. Bu tapşırıq yazılı şəkildə yerinə yetirilərsə, cədvəl formasında yazmaq məqsədəuyğundur.

11-ci tapşırıq. Birinci cümlədə “yaz” sözü fəslin adıdır, başqa sözlə, ona bahar da deyilir. İsimdir.

İkinci cümlədəki “yaz” sözü hərəkətdir, qələmlə dəftərə nəyi isə qeyd etməkdir. Qrammatik mənası feildir.

LAYİHƏ

İş dəftərinin 45-ci səhifəsindəki dil qaydaları üzrə tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 27. TƏNDİR TİKƏ BİLMƏYƏN EV TİKƏ BİLMƏZ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Giriş hissəsi verilmiş mətni genişləndirərək öz təxəyyülünə uyğun nəql edir. Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndə rast gəldiyi dərinmənalı fikirləri mənimsədiyini nümayiş etdirir. Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

**Motivasiya**

Müəllim *"Evin bərəkəti ocağındadır"* atalar sözünü izah etməyi tapşırır. Daha sonra *"Təndir haqqında nə bilirsiniz?"* deyə əqli hücum keçirilir.

**Oxu** (proqnozlaşdırma)

Mətn (dərslik, səh. 70-71) bir neçə yerdə fasilə verilməklə oxunur. Fasilələrarası suallar verilir, mətnin davamı ilə bağlı fikirlər dinlənilir, daha sonra mətndə yazılanlarla müqayisə olunur. Müəllim 1-ci hissədə aşağıdakı cümlədən sonra fasilə verir:

– *Qonşusunun sözündən razı qalan Mahmud kişi evə gəlib oğluna dedi...*

1-ci hissə oxunub qurtarır, hissənin sonundakı -ci tapşırıq oxunur və şagirdlərin versiyaları dinlənilir.

2-ci hissədə "Birdən atasının sözlərini xatırladı..." və " Hirsini boğub qonşunun yanına getdi" cümlələrindən sonra mətnin davamı ilə bağlı fikirlər dinlənilir.

Dərsliyin 71-ci səhifəsindəki 3-5-ci tapşırıqlar yerinə yetirilir. İş dəftərinin 46-cı səhifəsindəki tapşırıqlardan da istifadə etmək olar.

3-cü tapşırıq. Mətnin mövzusu – zəhmətkeşlik, ideyası – mətnin adı.

**Danışma** (debat)

**I qrup:** – *Xudaverdi mənfi obrazdır.*

**II qrup:** – *Xudaverdi müsbət obrazdır.*

*Debatda təxminən aşağıdakı arqumentlər səslənə bilər:*

*I qrupun arqumentləri:*

*– atasının oğlu haqqında qonşuya danışdıqları;*

*– Xudaverdinin bacarıqsızlığı (bir ay əlləşir, təndir tikə bilmir);*

*– atasının yasını verən kimi evi satmaq fikrinə düşməsi və s.*

*II qrupun arqumentləri:*

*– atasının vəsiyyətinə əməl etməsi;*

*– müdrik qocanın nəsihətinə qulaq asması;*

*– təndir tikməyə cəhd göstərməsi;*

*– evi satmaq fikrindən vaz keçməsi;*

*– son nəticədə zəhmətə alışması.*

LAYİHƏ

### Dil qaydaları

6-cı tapşırıq.

*Düz sözə zaval yoxdur.* (sifət)
*Buradan düz getsən, kitabxanaya çatarsan.* (zərf kimi)
*Nənəm yerə səpələnmiş muncuqları sapa düzdü.* (feil kimi)

**Qiymətləndirmə.** Müşahidə, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

### Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 47-ci səhifəsində də verilmişdir.)

#### STOLÜSTÜ LAMPA

Stolüstü lampanın dərdi var idi. Axı yazıçı əsərlərinin, ..., hamısını onun işığında yazırdı. **1.** Bu vaxt lampa ilə yazıçı eyni *h...y...c...n* keçirirdi. Bir dəfə işıqlar söndüyü üçün yazıçı həmin gecə işləmədi.
**2.** Elə o zaman stolüstü lampa yəqin etdi ki, yazıçı işıxsız işləyə bilməz. Ona işığı ötürən isə lampa idi. **3.** İlk lampanı Tomas Edison 1879-cu ildə ixtira etmişdir. Di gəl ki, əsərlər çap olunanda onların üstündə ancaq yazıçının adı yazılırdı. Heç kəsin ağlına belə gəlmirdi ki, bu balaca nağıllarda stolüstü lampanın gözlərinin nuru var.

1. 1-ci sətirdə nöqtələrin yerinə uyğun sözü yaz.
   A) nəhayət ki
   B) demək olar ki
   C) deyəsən

2. Mavi rənglə verilmiş sözdə nöqtələrin yerinə uyğun saitləri seç.
   A) a, ə, ə B) ə, a, a C) ə, ə, a

3. Altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz etmək olar?
   A) da, amma
   B) və, yalnız
   C) tək, lakin

4. Hansı rənglə verilmiş *“işıq”* sözü səhv yazılıb?
   A) qırmızı
   B) bənövşəyi
   C) yaşıl

5. Nömrələnmiş cümlələrdən hansı mətnin məzmunu ilə bağlı deyil?
   A) 1 B) 2 C) 3

6. Lampanın “dərdi” nə idi?
   A) Onun əziyyəti qiymətləndirilmirdi.
   B) Bütün gecəni yazıçı ilə oyaq qalırdı.
   C) Yazıçıya görə çox narahat olurdu.

**Yazı** üzrə qiymətləndirmə (imla)

#### Eyvazın yazısı
**(124 söz)**

Müəllim şagirdlərə tapşırdı ki, meyvə-tərəvəz, göyərtilər haqqında bildiklərini yazıb bazar ertəsi təqdim etsinlər. Eyvaz fikrə getdi. O, kənddə doğulmuş, doqquz yaşına qədər orada böyümüşdü. Günü meşələrdə, bağlarda keçmişdi. Babası yaxşı təsərrüfatçılardan sayılırdı. Həyətində əkib-becərdiyi meyvə-tərəvəz və göyərtilərin hamısı Eyvazın bugünkü kimi yadında idi. Nənəsi yaz girəndən payız çıxana kimi göyərti yığıb qurudar, pencərdən müxtəlif xörəklər hazırlayardı. O pencərin dadını Eyvaz hələ də xatırlayırdı.

Boş vaxtlarında kinoya getməyi xoşlayan Eyvaz bu gün sahilə çıxıb bir müddət gəzdi və xeyli fikirləşdi. Bağlarda, meşələrdə yetişən meyvələri təkrar-təkrar xəyalından keçirdi. Cır meyvələrin bir neçəsini çətinliklə xatırladı. Onların adlarını unutmamaq üçün ürəyində təkrarlayan Eyvaz evə qayıtdı. Vaxt keçirdi. Müəllimin tapşırığını yerinə yetirmək lazım idi. Eyvaz yazı masasının arxasına keçdi. Bir azdan onun “Biz nələr yeyirik” sərlövhəli yazısı hazır idi.

LAYİHƏ

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** *"Axşamüstü boran lap sakitləşdi"* cümləsində leksik mənası olmayan söz hansıdır?
A) axşamüstü B) boran C) lap

**2.** Hansı cümlədə "yay" sözü feildir?
A) Yay ilin ən isti fəslidir.
B) Oxunu atıb yayını gizlətmə.
C) Nənəm xəmiri yaydı.

**3.** *Hansı cümlədə altından xətt çəkilmiş sözün leksik mənası "iri sənaye müəssisəsi"dir?*
A) Fəhlələr mədəndə gecələdilər.
B) Zavodun fəhlələri tətil etdilər.
C) Sərdar emalatxananın qapısında durmuşdu.

**4.** Hansı bənddə "inək" sözünün qrammatik mənası verilib?
A) inək – isim
B) inək – ev heyvanı
C) inək – yöndəmsiz adam

**5.** "Cadu" sözünün leksik mənası hansı bənddə verilib?
A) kəndir, ip
B) sehr, sehrbazlıq
C) münasibət, ünsiyyət

## Dərs 28. BİR BOŞQAB SIYIQ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və ya dinlədiyi mətnin ideyası ilə bağlı mühakimə xarakterli fikirlər irəli sürür. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu bədii mətnin hekayə xəritəsini qurur.<br>Oxuduğu bədii mətn parçasını təfsilatı ilə nəql edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin məzmununa yeni süjet xətti və obrazlar əlavə etməklə mətni genişləndirir və nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür.<br>Mətnin məzmununu atalar sözü ilə ifadə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Əsərin baş qəhrəmanına münasibətini ifadə edən inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissələrini digər nitq hissələrindən fərqləndirir. |

### Motivasiya

Müəllim şagirdlərə II sinifdə keçdikləri *"Şir və siçan"* nağılını xatırladır. Nağılın ideyasını (məzmununu) yada salmalarını istəyir. *"Yaxşılıq elə, yerdə qalmaz"* atalar sözü səslənir. **Müəllim:** – *Dahi Nizaminin belə bir kəlamı var: "Yaxşılıq insanlıq sənətidir".*

### Oxu ("Ziqzaq")

Mətn (dərslik, səh. 72-75) 3 hissədən ibarət olduğundan şagirdlər də 3 qrupa bölünürlər. Hər qrupdakı üzvlər 1-dən 3-ə qədər sayır. Bütün 1 nömrəli şagirdlərə I hissəni, 2 nömrəli şagirdlərə II hissəni, 3 nömrəli şagirdlərə III hissəni oxumaq tapşırılır. Hər qrupun eyni nömrəli üzvləri birlikdə müvafiq hissəni oxuyur və özünün mənsub olduğu qrupun digər üzvlərinə də çatdırır. Hər bir şagird hekayəni tam mənimsəməlidir. Hər qrup mətnin bir hissəsinə başlıq verir. Qruplar bir-birinə suallar verməklə hekayəni necə başa düşdüklərini nümayiş etdirir.

Mətnin I hissəsi işçi qrupda oxunduqdan sonra 72-ci səhifədəki 2-ci tapşırığa əsasən hekayə xəritəsi qurulur. Birincilər hekayə xəritəsində hadisələrin harada və nə zaman baş verdiyini qeyd edir, əsərin qısa məzmununu oxuduqları hissəyə görə 1-2 cümlə ilə yazırlar. İşi tamamladıqdan

LAYİHƏ

sonra hekayə xəritəsini 2-ci işçi qrupa ötürürlər. İkincilər “Baş qəhrəman”, “Digər obrazlar”a qeydlərini edir, əsərin məzmununu oxuduqları hissəyə görə qısa yazırlar. Sonda hekayə xəritəsi 3-cü işçi qrupa ötürülür; onlar öz əlavələrini etməklə hekayə xəritəsini tamamlayırlar.

**Söz ehtiyatı**

Dərslikdəki 1-ci tapşırıq: korluq çəkmək: ehtiyac içində yaşamaq, nəyəsə çox ehtiyacı olmaq.

İş dəftərinin 48-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilə bilər. Bu zaman şagirdlərə tapşırılır ki, bu sözlərin tələffüz qaydasını da araşdırsınlar.

Müəllim suallarla müraciət edir:

– *Sözün yazılış qaydasını bilmək üçün hansı lüğətə müraciət edirik? (orfoqrafiya)*

– *Sözün tələffüz qaydasını bilmək üçün hansı lüğətə müraciət edirik? (orfoepiya)*

– *Sözün mənasını öyrənmək üçün hansı lüğətə müraciət edirik? (izahlı lüğət)*

Müəllim *“iqtisadiyyat”, “klinika”, “diaqnoz”, “pasiyent”* sözlərinin mənasını soruşur. Şagirdlər bu sözlərin mənasını əvvəlcə mətndən çıxış edərək, sonra lüğətə əsasən açıqlayır, bu sözləri düzgün tələffüz etdikdən sonra iş dəftərində onların izahını yazırlar.

**Sual:** – *Mətnin 1-ci abzasında hansı sözlər böyük hərflə yazılıb? Onlardan coğrafi ad bildirənləri lövhədə yazın.*

Şagirdlər lövhədə *“Qarabağ”, “Goranboy”, “Kəlbəcər”, “Ağdam”* sözlərini yazırlar.

**Sual:** – *Bəs bu yerlər haqqında məlumat almaq üçün hansı sorğu kitabına müraciət etməliyik? (ensiklopediya)*

*Müəllimin nəzərinə: Növbəti dərs eyni mövzuya həsr olunduğundan şagirdlərə tapşırılır ki, müxtəlif mənbələrdən Azərbaycanın bu bölgələri haqqında mümkün qədər çox məlumat toplasınlar.*

3-cü tapşırıq. Mehri xala mehriban, gülərüz, qayğıkeş, qətiyyətli insan kimi səciyyələndirilə bilər.

Şagirdlər mətnin məzmunu danışdıqdan sonra müəllim onlara aşağıdakı sualı verir: mür

– *“Bir boşqab sıyıq” əsərinin baş qəhrəmanı Mehri xalanı tanıyıb vaxtilə etdiyi yaxşılığın əvəzini çıxdı. Bəs Mehri xalanın əvəzinə tanımadığı bir adam olsaydı, sizcə, o, həmin adamı pulsuz əməliyyat edərdi?*

Şagirdlərin cavabları dinlənilir. Elxanla bağlı 4-5-ci taşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə: Bu müzakirəni debat şəklində də keçirmək olar. Sonda müəllim qeyd edir ki, əslində, özəl klinikada müalicə pulludur. Lakin hər bir həkimin borcu kimliyindən asılı olmayaraq xəstəyə yardım göstərməkdir.*

Dərsliyin 75-ci səhifəsindəki 3-4-cü tapşırıqlar yerinə yetirilir.

6-cı tapşırıq. Yaxşılıq yerdə qalmaz.

7-ci tapşırıq. “Ağır uşaqlıq həyatı”; “Mehri xalanın diqqəti”; “Xərcini qabaqcadan ödəmiş pasiyent”

Həmçinin iş dəftərinin 48-ci səhifəsindəki 2-3-cü tapşırıqlardan da istifadə oluna bilər.

**Danışma** (*“Əsəri dəyiş”* oyunu)

Şagirdlər 3 qrupa bölünürlər. Müəllim qruplara tapşırır ki, əsəri aşağıdakı kimi dəyişib yenidən nəql etsinlər.

**I qrupun tapşırığı**: – *Əsərin 3-cü hissəsini əvvələ gətirin, qalan hissələrini Elxanın öz köməkçisinə danışdığı xatirə kimi nəql edin.*

**II qrupun tapşırığı**: – *Əsərin sonluğunu dəyişin: Elxan Mehri xalanı tanımır və müalicə xərcləri ödənilmədiyinə görə əməliyyat aparmır. Yalnız xəstənin ölümündən sonra onun Mehri xala olduğunu bilir.*

**III qrupun tapşırığı**: – *Əsəri elə dəyişin ki, onun ideyası “Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir” atalar sözünə uyğun gəlsin (Elxan kömək üçün müraciət etdiyi Mehri xaladan və ya başqa birisindən heç bir yaxşılıq görmür, lakin sonda həmin adamı pulsuz müalicə edir).*

Qruplar hazırladıqları mətnləri şifahi şəkildə təqdim edir.

LAYİHƏ

**Dinləmə**

Bir padşahın zindanında müharibə zamanı ələ keçirilmiş əsirlər vardı. Padşah eşitdi ki, əsirlərdən biri digər əsirləri üsyana təhrik edir. Əmr verdi ki, onu dar ağacından assınlar. Dar ağacının altına gətirilən əsir fikirləşdi ki, ölmək ölməkdir, xırıldamaq nə deməkdir. Başladı öz dilində padşahın ünvanına ağzından çıxanı deməyə.

Padşahın iki vəziri vardı. İkisi də əsirin dilini bilirdi. Padşah onların birindən soruşdu ki, bu əsir nə söyləyir? Həmin vəzir təmizqəlbli, hamıya yaxşılıq edən bir adam idi. O dedi:

– Padşah sağ olsun, deyir ki, bir səhvdir, eləmişəm. Padşah kimi sənə yaraşan isə bağışlamaqdır. Allah da bağışlamağı və bağışlayanları sevər.

Vəzirin bu sözlərindən padşah mərhəmətə gəldi və əsiri bağışladı. Bu məqamda digər vəzir işə qarışdı:

– Şahım, bu vəzir düz demədi. Əsir Sizin haqqınızda ağzına gələni söylədi.

Padşah ikinci vəzirə müraciət edərək dedi:

– O biri vəzirimin söylədiyi yalan sənin söylədiyin doğrudan daha çox xoşuma gəldi. Ona görə də mən əfv qərarımı geri götürmürəm.

Mətni oxuduqdan sonra müəllim sualla şagirdlərə müraciət edir:

– *Bu rəvayətdən əvvəl siz üç qrupun söylədiyi müxtəlif mətnlərə qulaq asdınız. İndi mənim oxuduğum mətnin ideyası hansı qrupun nəql etdiyi mətnin ideyası ilə eynidir?* (Cavab: 3-cü qrupun)

**Yazı**

“Elxanın xarakterində məni heyran edən nə oldu?” mövzusunda inşa yazılır.

**Dil qaydaları**

Dil qaydasına motivasiya xarakterli verilmiş 8-ci tapşırıq yerinə yetirildikdən sonra dərslikdəki qayda oxunur. Müəllim köməkçi nitq hissələrinin əsas nitq hissələrindən fərqini izah edir. Qaydanı şagirdlərin necə mənimsədiyini yoxlamaq məqsədilə elə cümlələr deməyi tapşırır ki, həmin cümlələrdə köməkçi nitq hissəsi işlənsin.

9-cu tapşırıq: *axı* – cümlənin təsir gücünü qüvvətləndirir; *lakin* – cümlələri bir-birinə bağlayır; *kimi* – müəyyən məna çaları yaradır.

İş dəftərinin 49-cu səhifəsindəki qalan tapşırıqlar yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 29. ƏN BÖYÜK XƏZİNƏ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Mətndə rast gəldiyi terminləri kontekstə əsasən izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin məntiqi sonluğunu düşünüb təqdim edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Əsərdəki qəhrəmanların hərəkətlərinə əsasən onları xarakterizə edir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Verilmiş plan əsasında oxuduğu mətnin məzmununu yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Bağlayıcıların cümlədəki rolunu müəyyənləşdirir. |

LAYİHƏ

### Motivasiya

**Müəllim:** – *Hər bir insan nəyə isə nail olmaq üçün zəhmət çəkir. Siz uşaq olsanız da, zəhmət çəkir, dərs oxuyursunuz. Bu zəhmətlə siz nəyə nail olmaq istəyirsiniz?* ***"Elm dünyanın uzaq ölkəsində olsa da, ona yiyələnmək üçün yola çıxmaqdan çəkinməyin"****. Məhəmməd peyğəmbərin bu kəlamını necə başa düşürsünüz?*

Şagirdlər öz fikirlərini söyləyirlər.

### Oxu

Şagirdlər müəyyən vaxt ərzində səssiz oxuyub mətnin məzmunu ilə (dərslik, səh. 76-77) tanış olurlar. Müəllim şifahi sual-cavab yolu ilə mətnin oxunub qavranıldığına əmin olur.

Dərsliyin 77-ci səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilir.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 50-ci səhifəsindəki çalışmalardan istifadə oluna bilər.

Mətndə verilmiş *"vali"* sözünün mənası araşdırılır. (vilayət hakimi, ölkənin bir hissəsinə başçılıq edən adam)

### Yazı

Şagirdlər mətnin qısa məzmununu yazırlar. Yazıda gəncin xəzinəni əldə edənədək hansı peşələri öyrəndiyi qeyd olunmalıdır.

### Dil qaydaları

4-cü tapşırıq yerinə yetirilir.

*Müəllimin nəzərinə: Çünki – cümlələri bir-birinə bağlayır; və – cümlə üzvlərini bir-birinə bağlayır; ancaq – cümlələri bir-birinə bağlayır; isə – cümlə üzvləri arasında əlaqə yaradır;*

Bağlayıcılarla bağlı qayda mənimsədilir

5-ci tapşırıq. 1– amma, 2 – və, 3 – buna görə də, 4 – çünki.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 30. İLK DƏRS (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür. |
| 3.1.1. Yazısında orfoqrafiya normalarına riayət edir və əsas durğu işarələrindən yerində istifadə edir. | Mətni müəyyən edilmiş vaxt ərzində hüsnxət və orfoqrafiya normalarına uyğun yazır. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Verilmiş mövzu üzrə dialoji mətn qurur. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Qoşmaların cümlədəki rolunu və məna çalarlarını müəyyənləşdirir. |

LAYİHƏ

### Motivasiya

**Müəllim:** – *"Yerin nuru günəşdir, insanın nuru elm" atalar sözündən hansı nəticəni çıxarmaq olar?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

**Müəllim:** – *Elm haqqında çoxlu hikmətli kəlam olduğu halda nə üçün bəzi uşaqlar elmin sirlərinə yiyələnməyə can atır, biziləri isə bu yolda tənbəllik edirlər?*

Şagirdlər müəllimin sualını başa düşdükləri tərzdə cavablandırırlar. Cavablar içərisində *"məqsəd"* sözü səsləndikdən sonra müəllim uşaqları bu istiqamətə yönəldir. *"Məqsədə çatmağa inam və istək varsa, məqsədə doğru getməyə dəyər".*

**Oxu** (proqnozlaşdırma)

1-ci addım. "İlk dərs" mətni (dərslik, səh. 78-79) əvvəlcə *"Müdrik qoca başını aşağı salıb heç nə demir"* cümləsinə qədər oxunur.

**Sual:** – *Sizcə, nə üçün müəllim gənci şagirdliyə götürmək istəmir?* (dərslik, səh. 79, tap. 1) Şagirdlərin cavab variantları dinlənildikdən sonra müəllim təklif edir ki, mətnin davamı ilə bağlı öz versiyalarını söyləsinlər.

2-ci addım. Mətnin davamı *"Oğlan başını sudan çıxarıb dərindən nəfəs almağa başlayır"* cümləsinədək oxunur və şagirdlərin dedikləri ilə müqayisə olunur.

**Sual:** – *Sizcə, müəllim nə üçün gəncə belə əzab verirdi?*

3-cü addım. Mətndəki son dialoq (qoca və oğlan) iki şagird tərəfindən səhnələşdirilmiş oxu şəklində təqdim olunur.

Müəllim dərslikdən 2-ci sualı səsləndirir:

– *Sizcə, bundan sonra gəncin xarakterində hansı dəyişiklik ola bilər?*

Şagirdlər öz ehtimallarını söyləyirlər.

Mətnlə bağlı iş dəftərinin 51-ci səhifəsindəki sual və tapşırıqlardan istifadə oluna bilər.

**Danışma** (debat)

Dərsliyin 79-cu səhifəsindəki 2-ci tapşırıq debat şəklində yerinə yetirilir.

**1-ci qrup:** – *Müəllimin dərsindən sonra gənc bilik öyrənməyi qarşısına məqsəd qoyacaq.*

**2-ci qrup:** – *Müəllimin dərsindən sonra gənc bilikli olmaq arzusuna son qoyacaq.*

**Yazı**

3-cü tapşırıq yerinə yetirilir.

**Dil qaydaları**

4-cü tapşırıq yerinə yetirilir.

*Müəllimin nəzərinə: Üçün – özündən əvvəlki sözə qoşularaq hərəkətin məqsədini aydınlaşdırır, kimi – bənzətmə mənası yaradır, tərəf – istiqamət bildirir*

Qoşmalarla bağlı qayda mənimsədilir

5-ci tapşırıq. 1-ci cümlədə "kimi" sözü məsafə, 2-ci cümlədə zaman, 3-cü cümlədə isə bənzətmə bildirir.

6-cı tapşırıq. 1. üçün (məqsəd), 2. kimi (bənzətmə), 3. təfəf (istiqamət), 4. kimi (zaman)

İş dəftərinin 51-ci səhifəsindəki dil qaydaları üzrə tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 52-ci səhifəsində də verilmişdir.)

**PUL**

Bir zamanlar pulu çox sevən insanların yaşadığı bir ölkə varmış. Bu insanlar həmişə daha çox pul qazanmaq istəyirmişlər.

Bir gün xalqı çox sevindirən bir hadisə baş verir. Göydən pul yağmağa başlayır. İnsanlar sevinclə pulları yığıb çuvallara doldururlar. Artıq hamının çoxlu pulu olur və istədikləri kimi xərcləyirlər.

LAYİHƏ

Əvvəl hər şey yaxşı idi, ... bir müddətdən sonra insanlar işləmək istəmədilər. ... artıq pula ehtiyacları yox idi. Mağazalar, restoranlar, fabriklər bir-bir bağlandı. İnsanlar almaq istədikləri şeyi heç yerdə tapa bilmirdilər. Bununla yanaşı, həm də göydən yağış yerinə pul yağdığı ______ quraqlıq baş vermişdi, meyvə-tərəvəz, taxıl qurumuşdu.

Pulla xoşbəxt ola biləcəklərini düşünən insanlar çox peşman olmuşdular. "Pul .......", – deyirdilər. Artıq göydən pul yağanda heç kim sevinmirdi. Yağış yağsın deyə hamı dua edirdi.

1. Üçüncü abzasda nöqtələrin yerinə uyğun sözləri yaz.
   A) ancaq, çünki
   B) sən demə, yəni
   C) lakin, beləliklə

2. Sonuncu abzasda *"pul"* sözü ilə başlanan cümləni tamamla.
   A) həyatımızı mənalı edən yeganə vasitədir.
   B) sadəcə, ehtiyaclarımızı ödəmək üçün bir vasitə imiş.
   C) insanlar arasında dostluq yaradan bir vasitə imiş.

3. Mavi boşluğun yerinə uyğun gələn sözü seç.
   A) üçün
   B) qədər
   C) kimi

4. Altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək olar?
   A) üçün B) qədər C) dək

5. Hansı cümlədə *"artıq"* sözü leksik mənaya malik deyil?
   A) Artıq tamah baş yarar.
   B) Artıq sən də onun kimi fikirləşirsən?
   C) Artıq söz üz qızardar.

**Yazı** üzrə qiymətləndirmə (ifadə)

## MİSMARIN YERİ QALIB

Bir kişinin tənbəl oğlu olur. Ata görür ki, oğlu ancaq yeyir-içir, gəzir, heç kəsə qulaq asmır. Oğlunu yanına çağırıb deyir:

– Oğul, artıq belə yaşamaqdan əl çək, yaxşı bir iş görməyə çalış.

Oğul isə cavabında deyir:

– Ata, mən artıq dəyişəcəyəm.

Sonra gətirib atasına bir taxta parçası verir və deyir:

– Bu gündən etibarən mənim elədiyim hər səhvə görə taxtaya bir mismar vur.

Ata razılaşır. Bundan sonra oğlu yenə də əvvəlki kimi avaralanır, atasına verdiyi sözə əməl etmir. Atası isə oğlunun elədiyi hər səhvə görə taxtaya bir mismar vurur. Bir müddətdən sonra oğlunu yenə yanına çağırır:

– Oğlum, bax bu sənin mənə verdiyin taxta parçasıdır, artıq taxtada boş yer qalmayıb. Amma sən yenə də öz işlərinə davam edirsən.

Oğlu bir az fikirləşir və deyir:

– Ata, haqlısan, amma bundan sonra, doğrudan da, dəyişəcəyəm, sən də mənim elədiyim hər yaxşı iş üçün bir mismar çıxardacaqsan.

Atası razılaşır. Bundan sonra oğlu, həqiqətən də, dəyişir, atası da onun elədiyi hər yaxşı işin əvəzində taxtadan bir mismar çıxarır. Bir müddətdən sonra ata əlində taxta parçası oğlunun yanına gəlir. Oğlu taxta parçasına baxıb deyir:

– Ata, görürsən, taxtada mismar qalmayıb.

Ata isə cavab verir:

– Oğlum, düz deyirsən, taxtada mismar qalmayıb, amma mismarın yeri qalıb...

Şagirdlər qurduqları plan əsasında dinlədikləri mətnin müfəssəl məzmununu yazırlar.

LAYİHƏ

**Dil qaydaları** üzrə qiymətləndirmə

1. Biri köməkçi nitq hissəsinin xüsusiyyəti deyil:
   A) Suala cavab vermək
   B) Söz və cümlələri bir-birinə bağlamaq
   C) Cümlənin təsir gücünü artırmaq

2. *"Dost min isə azdır, düşmən bir isə çoxdur"* atalar sözündə leksik mənası olmayan söz hansıdır?
   A) min  B) isə  C) azdır

3. *"Onun ... böyük arzusu həkim olmaq idi"* cümləsində əlamət bildirən sözün təsir gücünü artırmaq üçün nöqtələrin yerinə yazmaq lazımdır:
   A) ən  B) axı  C) bəs

4. Nöqtələrin yerinə hansı köməkçi nitq hissəsini yazmaq olmaz?
   *Nicat ... Murad çox dəcəl uşaqlardır.*
   A) ilə  B) isə  C) və

5. *"Turqut hər gün dərslərini hazırlayır, kitab-dəftərlərini səliqəli saxlayır, ... o, yaxşı şagirddir"* cümləsində nöqtələrin yerinə hansı köməkçi nitq hissəsi yazılmalıdır?
   A) deməli  B) amma  C) sanki

## Dərs 31. HƏDİYYƏ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Əsərə və oradakı obrazlara başqa prizmadan yanaşaraq yaradıcı şəkildə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Oxuduğu əsərin qəhrəmanına məktub yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissələrini digər nitq hissələrindən fərqləndirir.<br>Bəzi sözlərin (*bax, kimi* və s.) cümlədəki yerinə görə köməkçi, yoxsa əsas nitq hissəsi olduğunu müəyyən edir. |

### Motivasiya

**Müəllim:** – *Tibb Universitetini bitirən məzunlar* ("məzun" sözünün mənası açıqlanır) *həkimlik fəaliyyətinə başlayarkən and içirlər ki, kimliyindən asılı olmayaraq, hətta düşməni olsa belə, onlara müraciət edən xəstələri müalicə etsinlər, bacardıqları yardımı göstərsinlər. Sizcə, inşaatçılar, müəllimlər nəyə and içməlidirlər?*

### Oxu

"Hədiyyə" hekayəsi (dərslik, səh. 80) oxunur.

Mətnin ideyasını atalar sözü ilə ifadə etmək üçün müəllim aşağıdakı tapşırıqdan da istifadə edə bilər:

LAYİHƏ

*– Hansı atalar sözü mətnin ideyasına uyğun gəlir?*
*A) Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar.*
*B) Quş qanadı ilə tanınar, insan adı ilə.*
*C) Sonrakı peşmançılıq fayda verməz.*

**Sual:** – *Hər bir inşaatçının tikdiyi evin kimə məxsus olacağını bilməsi vacibdirmi? Fikrinizi izah edin.*

Mətnlə bağlı iş dəftərinin 53-cü səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

1-ci tapşırıq yerinə yetirilir. Cavab: B variantı (həmin sözün kontekstə uyğun mənası – inamsızlıq, etimadsızlıq). Sonra 2-ci tapşırıq oxunur. "Mücrü" sözünün mənası açıqlanır (balaca sandıqça). Burada "mücrü" sözünün məcazi mənada yazıldığı qeyd olunur. Söz mücrüsündən götürülmüş sözlərdən mətnin ideyası formalaşdırılır:

*– Öz işinə hörmət edən insanda düzgünlük, məsuliyyət, peşə vicdanı, peşəkarlıq kimi keyfiyyətlər olur.*

**Yaxud:** – *Düzgünlük, məsuliyyət, peşə vicdanı, peşəkarlıq kimi keyfiyyətləri olmayan insan öz işinə hörmət etməz.*

**Danışma** (qruplarla iş)

3-cü tapşırıq. Oxuduğunuz hekayənin qəhrəmanı inşaatçıdır. Siz də eyni mövzuda elə bir hekayə qurun ki:

**I qrup:** Baş qəhrəman gənc həkimdir.
**II qrup:** Baş qəhrəman gənc müəllimdir.
**III qrup:** Baş qəhrəman gənc neftçidir.
**IV qrup:** Baş qəhrəman gənc memardır.

**Danışma** (debat)

Şagirdlər mətnin davamı ilə bağlı öz variantlarını hazırlayıb təqdim edirlər.

Şagirdlər dörd qrupa bölünüb iki mövzu ətrafında debat keçirirlər. Müəllim tapşırır ki, tərəflər öz fikirlərini həyatda görüb-eşitdiklərindən və oxuduqları hekayələrdən misal gətirməklə əsaslandırsınlar.

1-ci mövzu: "Əl əli yuyar, əl də üzü".

**I qrup** (yardımçı – III qrup): – *Yaxşılıq edirsənsə, əvəzini gözləməməlisən.*

**II qrup** (yardımçı – IV qrup): – *Etdiyin yaxşılığın əvəzini görmürsənsə, onu etməyə dəyməz.*

2-ci mövzu: "Ruzini verən Allahdır".

III qrup (yardımçı – I qrup): – *Ruzini verən Allahdır, ona görə də nə qədər çalışsan da, qismətdən artıq yeyə bilməzsən.*

IV qrup (yardımçı – II qrup): – *Allah deyir: "Səndən hərəkət, məndən bərəkət".*

**Yazı**

I variant: – *Hekayənin qəhrəmanına məktub yaz.*

II variant: – *"Böyüyün sözünə baxdım və xeyir tapdım" mövzusunda indiyədək başına gələn bir əhvalatı yaz.*

**Dil qaydaları**

Dil qaydasına motivasiya xarakterli 4-cü tapşırıq yerinə yetirildikdən sonra dərslikdəki qayda oxunur və mənimsədilir. Müəllim qaydanı şagirdlərin necə mənimsədiyini yoxlamaq məqsədilə elə cümlələr deməyi tapşırır ki, həmin cümlələrdə köməkçi nitq hissəsi əsas nitq hissəsi ilə omonimlik təşkil etsin.

5-6-cı tapşırıqlar yerinə yetirilir.

6-cı tapşırıq.

1. Sonra – zərf (əsas nitq hissəsi)
2. Sonra – köməkçi nitq hissəsi
3. Kimi – əvəzlik (əsas nitq hissəsi)
4. Kimi – köməkçi nitq hissəsi
5. Başqa – sifət (əsas nitq hissəsi)
6. Başqa – köməkçi nitq hissəsi

Tətbiqi çalışmalar üçün iş dəftərinin 53-cü səhifəsindəki dil qaydaları üzrə tapşırıqlardan istifadə oluna bilər.

LAYİHƏ

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 32. İKİ QARDAŞ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin məntiqi sonluğunu düşünüb təqdim edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətnin ideyasını atalar sözü ilə ifadə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |

**Motivasiya**

Müəllim şeir oxuyur:

*– Qabı kim yusun?*
*– Xalidə yusun.*
*– Kim su gətirsin?*
*– Gülərlə Dursun.*

*– Kim çay dəmləsin?*
*– Bacım Yeganə.*
*– Kimə don alım?*

*– Nənə, ay nənə,*
*Mənə al, nənə,*
*Nəvən Süsənə....*

*M.Namazov*

**Sual:** – *Süsən haqqında nə deyə bilərsiniz?*
Şagirdlər Süsəni xarakterizə edən sözlər deyirlər.

**Oxu** (rollu oyun)

"İki qardaş" mətni (dərslik, səh. 82-83) rollara bölünərək oxunur. Söz ehtiyatı ilə bağlı tapşırıq yerinə yetilir: diliqısa olmaq, utanmaq. Şagirdlər Kərimin və Cəfərin xarakterlərinin müqayisəli şəkildə təhlil edirlər. Əsərin ideyası müəyyənləşdirilir (dərslik, səh. 83, tap.2). Dərslikdəki 3-cü tapşırıq yerinə yetirilir. Eləcə də iş dəftərinin 54-cü səhifəsindəki 1-2-ci tapşırıqlardan da istifadə oluna bilər.

**Danışma**

Əsərin sonunda Kərimin keçirdiyi hisləri təsvir edin (peşmançılıq, təəssüf, xəcalət). Əgər o hər şeyin belə qurtaracağını bilsəydi, tənbəllik edərdimi?

**Yazı**

Şagirdlər "Zəhmətdən qorxan adam sonradan bu qorxunun əziyyətini çəkir" mövzusunda inşa yazırlar.

**Dil qaydaları**

Dil qaydasına motivasiya xarakterli 4-cü tapşırıq yerinə yetirildikdən sonra (cavab: doğru, sarı) dərslikdəki qayda oxunur və mənimsədilir. Müəllim qaydanı şagirdlərin necə mənimsədiyini yoxlamaq məqsədilə elə cümlələr deməyi tapşırır ki, həmin cümlələrdə köməkçi nitq hissəsini ona yaxınmənalı olan köməkçi nitq hissəsi əvəz etsin (ötrü – görə, üçün; kimi – tək; başqa – savayı və s.). 5-ci tapşırıq yerinə yetirilir.

İş dəftərinin 54-cü səhifəsindəki dil qaydaları üzrə tapşırıqlar yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 55-ci səhifəsində də verilmişdir.)

### BAL

Çiçəylənir ağaclar,
Çöllər, düzlər, yamaclar
Hər il gələndə bahar.
Uçur çəmənə, çölə,

Qonub çiçəyə, gülə,
Şirə çəkir arılar.
Çiçəklərin şirəsi,
Ləçəklərin şirəsi

Şirin bal deyil hələ.
Dönüb bal olur şirə,
Yığılır pətəklərə
Arının zəhmətilə.

*Hüseyn Abbaszadə*

1. Mətndə hansı məlumat yoxdur?
   A) Arılar ləçəklərdən şirə çəkir.
   B) Arılar mumdan şan düzəldir.
   C) Bal pətəklərə yığılır.

2. Hansı rənglə verilmiş söz səhv yazılıb?
   A) mavi B) yaşıl C) qırmızı

3. Uyğun variantı seç.
   A) gül B) düz C) bal

| | | | |
|---|---|---|---|
| 1. Ad, əlamət və hərəkət bildirən söz kimi işlənir. | A | B | C |
| 2. Ad və hərəkət bildirən söz kimi işlənir. | A | B | C |
| 3. Ad bildirən söz kimi müxtəlif mənalarda işlənir. | A | B | C |

4. Hansı cümlədə "düz" sözü leksik mənaya malik deyil?
   A) Yaşlı adam gəlib düz evin qabağında dayandı.
   B) Düz söz başucalığıdır.
   C) İlk qarın yağması ilə düzlər ağ paltara büründü.

**Yazı** üzrə qiymətləndirmə (inşa)
Mövzu: "Halva-halva deməklə ağız şirin olmaz".

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı sıra yalnız köməkçi nitq hissələrindən ibarətdir?
   A) və, axı, bəlkə B) kim, rəng, yol C) sən, sifət, sual

2. Altından xətt çəkilmiş hansı söz köməkçi nitq hissəsidir?
   A) Səhrada <u>tək</u> ağac bitmişdi.
   B) Hadisənin şahidi <u>tək</u> sənsən.
   C) Bu cür ağır işin öhdəsindən <u>tək</u> gəldi.

**3.** *"..., hamı, ... üçyaşlı Lalə bu şeiri bilir, ... sən bilmirsən"* cümləsində nöqtələrin yerində hansı sözlər yazılmalıdır?
   A) hətta, beləliklə, təkcə B) təkcə, hətta, beləliklə C) beləliklə, hətta, təkcə

**4.** "*O yalnız istirahət günlərində gəzməyə gedə bilirdi, çünki ancaq həmin günlərdə onun boş vaxtı olurdu*" cümləsində leksik mənaya malik olmayan sözləri seç.
   A) yalnız, çünki, ancaq B) yalnız, həmin, boş C) çünki, ancaq, vaxt

**5.** Hansı cümlədə *"sarı"* sözü heç bir suala cavab vermir?
   A) Tibb bacısı yaralının əlini sarıdı.
   B) Uşaq qollarını açıb anasına sarı qaçdı.
   C) Çimnaz gəlinciyin sarı saçlarını darayıb hördü.

6. "Davud əynini qalın geyindi, <u>çünki</u> bayırda hava çox soyuq idi" cümləsində altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək olar?
   A) lakin B) ona görə ki C) ancaq

LAYİHƏ

# Dərs 33. HÖKMDAR QARDAŞLAR (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin bir hissəsini oxuduqdan sonra davamını təxmin edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin məntiqi sonluğunu düşünüb təqdim edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərdəki qəhrəmanların hərəkətinə münasibət bildirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Bəzi köməkçi nitq hissələrinin cümlədəki rolunu müəyyənləşdirir. |

**Motivasiya** (“Əqli hücum”)
**Müəllim:** – *“Məsuliyyət” sözünü necə başa düşürsünüz?*
Şagirdlər həyatdan misallar gətirməklə bu sözü izah etməyə çalışırlar.
**Əlavə suallar:**
*1. Sizcə, hansı atalar sözü məsuliyyətli olmağa çağırır?*
*A) Tək əldən səs çıxmaz.* *B) Bu günün işini sabaha qoyma.*
*C) İlanın ağına da lənət, qarasına da.*
*2. Əgər dövlət başçısı məsuliyyətsiz olsa, xalqın aqibəti necə olar?*
Şagirdlər bu suallar ətrafında öz fikirlərini söyləyirlər.

**Oxu** (proqnozlaşdırma)
Dərslikdən mətnin 1-ci hissəsi (səh. 84) oxunur və müəllim soruşur:
– *Sizcə, bundan sonra hadisələr necə cərəyan edəcək?*
**Sual:** – *Atası Səmədə bütün ərazinin hansı hissəsini vəsiyyət etdi?*
Müəllim variantları lövhədə yazır: A) ½ B) ¼ C) ¾

**Danışma** (debat)
Dünyasını dəyişən padşahın vəsiyyətinə münasibətinizi bildirin.
**I qrup:** – *Padşahın vəsiyyəti düzgün və ədalətli idi.*
(Əsas arqument: padşah öz oğulları üçün bərabər imkanlar yaratmaq istəyirdi)
**II qrup: –** *Padşahın vəsiyyəti yanlış və ədalətsiz idi.*
(Əsas arqument: padşah oğullarından birinin məsuliyyətsiz olduğunu bildiyi halda ölkənin yarısını ona verməklə dövlətin taleyini zərbə altında qoydu)

**Oxu** (proqnozlaşdırma)
Mətnin 2-ci hissəsi (səh. 84-85) oxunur və şagirdlərin dedikləri ilə müqayisə olunur. Şagirdlər 3-cü hissə ilə bağlı versiyalarını irəli sürürlər.
Dərsliyin 85-ci səhifəsindəki 1-ci sual oxunur və cavab variantları dinlənilir.

**Danışma** (debat)
Teymurun qardaşına göstərdiyi “mərhəmət”ə münasibətinizi bildirin.
**I qrup:** – *Teymur qardaşına qarşı düzgün hərəkət etmədi.*
**II qrup:** – *Səməd qardaşından layiq olduğu “mərhəmət”i gördü.*

LAYİHƏ

**Oxu** (rollu oyun)

Mətnin 3-cü hissəsinə keçməzdən əvvəl müəllim aşağıdakı sualı verir:

– *Dövlət başçısı hansı xüsusiyyətlərə malik olmalıdır?*

Cavablardan sonra mətnin 3-cü hissəsi (səh. 85) oxunur və şagirdlərin keçən dərsdə bu hissə ilə bağlı söylədikləri versiyalarla müqayisə olunur.

2-3-cü tapşırıqlar yerinə yetirilir. 2-ci tapşırıq. Cavab: 150 qoyun

Şagirdlər 4-cü hissə (səh. 85-86) ilə bağlı versiyalarını irəli sürürlər. Mətnin sonuncu hissəsi rollu oyun şəklində 3 şagird tərəfindən (Səməd, Teymur, aparıcı) oxunur.

Müəllim suallarla şagirdlərə müraciət edir:

– *Mətnin sonluğu xoşunuza gəldimi? Xoşunuza gələn nə oldu?*

– *Mətnin sonunda sizin üçün gözlənilməz olan nə idi?*

– *4-cü hissədən sonra Teymur və Səməd obrazlarına münasibətinizdə bir dəyişiklik oldumu?*

– *Siz mətni hansı sonluqla bitirərdiniz?*

4-5-ci tapşırıqlar yerinə yetirilir. 4-cü tapşırıq. Cavab “B” variantıdır.

5-ci tapşırıq. Səmədə 50 qoyun qaldı (200 – 150 = 50).

İş dəftərinin 56-cı səhifəsindəki 1-3-cü tapşırıqlardan istifadə oluna bilər.

**Söz ehtiyatı**

6-cı tapşırıq. Cavab: *qardaşa müraciət olunur.*

Bu tapşırığın icrasından sonra xitab haqqında məlumat verilir və qayda oxunur.

7-ci tapşırıq.

*Qardaş, sürüyə yaxşı bax. Qardaş, mənim heç bəxtim yoxdur.*

*Hə, qardaş, indi sən gedib öz ölkəndə hökmdarlıq edə bilərsən.*

*Səməd, bil və agah ol. Sağ ol, qardaş.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 56-cı səhifəsindəki xitaba aid tapşırıq yerinə yetirilə bilər.

**Yazı** (inşa)

Şagirdlər “Mən dövlət başçısı olsaydım, xalqım üçün nə edərdim?” mövzusunda inşa yazırlar.

**Dil qaydaları**

8-ci tapşırıq. Mavi rənglə verilmiş sözlərdən “kimi” sözü öz funksiyasına görə digərlərindən fərqlidir. Çünki bu söz cümlənin təsir gücünü artırır, digərləri isə söz və cümlələri bir-birinə bağlayır.

9-cu tapşırıq. Cavab “C” variantıdır.

Qiymətləndirmə. Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 34. KİRPİNİN DÜZ SÖZÜ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətni oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Oxuduğu şeiri nəsrə çevirərək məzmununu yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissələrini digər nitq hissələrindən fərqləndirir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Şeirlə ifadə olunmuş cümləları nəsrə çevirərkən sözlərin ardıcıllığını düzgün müəyyən edir. |

**Motivasiya**

**Müəllim:** – *“İstəyirsən bal-çörək, al əlinə bel-kürək” atalar sözü hansı məqamlarda işlədilir?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

LAYİHƏ

**Müəllim:** – *Bu atalar sözünü indiyə qədər oxuduğunuz hansı mətnlərə aid edə bilərsiniz?*

Şagirdlər "Ən böyük xəzinə", "İki qardaş", "Bağban və oğulları" (II sinif) və s. mətnlərin adlarını çəkirlər.

**İfadəli oxu** (rollu oyun)

Şeir (dərslik, səh. 87) 5 şagird tərəfindən (hər şagird müvafiq olaraq aparıcının, ayının, qurdun, tülkünün, kirpinin sözlərini söyləyir) səhnələşdirilir. Hər heyvana uyğun müəyyən jest və mimikalardan istifadə edilməsi tələb olunur.

**Yazı**

Şagirdlərə belə bir tapşırıq verilir:

– *Təmsildəki heyvan obrazlarını insan obrazları ilə əvəz edərək hekayə və ya nağıl yazın.*

İş dəftərinin 57-ci səhifəsindəki 1-2-ci tapşırıqlar da yerinə yetirilə bilər.

**Dil qaydaları**

2-ci tapşırıq. *O, doyunca bal yeməkçün pətək tapa bilmədi. Alabaş məni qovdu.*

*Bayaqdan burda durub sizə qulaq asıram*

*Siz elə boy-buxunla* *Bir qarın yemək üçün*

*Zəhməti sevsəydiniz,* *Xəlvəti gəzməzdiniz.*

3-cü tapşırıq. Şeirin son misralarında verilən "elə" sözünə sual vermək olar (hansı?). Həmin söz əvəzlikdir. Digər cümlədəki (Elə həmin andaca....) "elə" sözü köməkçi nitq hissəsidir. Heç bir suala cavab vermir, cümlədəki sözün təsir gücünü artırır.

Tətbiqi çalışma kimi iş dəftərinin 57-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 35. HAZIR YUVA (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu elmi mətndən əldə etdiyi məlumatlara şəxsi araşdırmalarını da əlavə etməklə məruzə şəklində təqdim edir. Oxuduğu bədii mətnin hekayə xəritəsini qurur. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin planına yeni başlıqlar əlavə edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir. Mətnin ideyasını atalar sözü ilə ifadə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduqlarını və eşitdiklərini ümumiləşdirməklə təhlil xarakterli inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. Bəzi köməkçi nitq hissələrinin cümlədəki rolunu müəyyənləşdirir. |

LAYİHƏ

### Motivasiya

Azərbaycanın xəritəsi nümayiş etdirilir. Xəritədə ermənilərin işğal etdikləri Qarabağ ərazisi xüsusi (qara) rənglə ayrılmışdır.

**Müəllim:** – *Bu qara xətlə haşiyələnmiş torpaqlarımız ermənilər tərəfindən istila olunub. Onların bu hərəkətinə nə ad vermək olar? (işğal, qəsbkarlıq)*

– *Sizcə, bu yerlərdən məcburən çıxarılan həmvətənlərimiz uzun illər əzab-əziyyətlə qurduqları doğma ocaqlarını tərk edərkən hansı hisləri keçirirdilər?*

Şagirdlərin fikirləri dinlənilir ("Ən qiymətli" hekayəsi xatırladıla bilər).

### Oxu

Uşaqlar mətni (dərslik, səh. 88) əvvəlcə səssiz oxuyurlar. Sonra müəllim onlara sual və tapşırıqlar verir:

*1. Mətnin giriş, əsas və sonluq hissələrini müəyyənləşdirin (hər hissə ayrıca nəql edilir).*

*2. Hər hissəyə başlıq verin.*

1-5-ci tapşırıqlar yerinə yetirilir.

2-ci tapşırıq.

…., çünki dəcəl uşaqlar onların yuvalarını dağıda bilər.

…., çünki zəhmətlə qurduqları yuvanı qoruyurdu. *(-lar)*

…, çünki hər kəs öz zəhməti ilə yaşamalıdır.

3-cü tapşırıq. B variantı (Mətndə qaranquşların yuvanı həftələrlə zəhmət çəkib qurduqları qeyd edilir).

4-cü tapşırıq. A variantı *(Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım.)*

6-cı tapşırıq ev tapşırığı kimi verilə bilər.

Mətnlə bağlı iş dəftərinin 58-ci səhifəsindəki sual və tapşırıqlardan istifadə oluna bilər.

### Dinləmə

#### SEVDA

Sevda səhər tezdən eyvana çıxdı. Divarın yuxarı küncünə bir qaranquş qonmuşdu. Quş Sevdanı görcək havaya qalxıb gözdən itdi. Sevda onun dalınca baxa-baxa qaldı. Ancaq qaranquş tez geri döndü. Dimdiyindəki çöpü divara yapışdırdığı palçığın üstünə qoyub yenə getdi. Sevda nə fikirləşdisə, tələsik həyətə düşdü, bir azdan əlində uzun qarğı geri qayıtdı.

Qarğının ucuna palçıqlı saman çöpü keçirib qaranquşun tikdiyi yuvaya yapışdırdı. Sonra isə oturub qaranquşu gözlədi.

Anası da eyvana çıxdı. Sevda sevinə-sevinə yuvanı ona göstərdi. Elə bu vaxt qaranquş qanadlarını süzə-süzə eyvana girdi. Dimdiyində gətirdiyi çöpü yuvanın qırağına bərkitdi. Sevdanın qoyduğu çöpü isə dimdiyinə alıb döşəməyə atdı. Qaranquşun bu hərəkəti Sevdanın xətrinə dəydi. O, incik bir səslə anasına dedi:

– Mən ona kömək eləyirəm ki, yuvasını tez tiksin. O isə çöpü yerə tullayır.

Anası Sevdanı başa saldı:

– Qızım, qaranquş həmişə yuvasını öz zəhməti ilə tikir. Başqası kömək etmək istəyəndə ona elə gəlir ki, yuvasına göz dikən var.

Anasının dediyi bu sözlər indi də Sevdanın yadından çıxmır.

*Musa Məmmədov*

LAYİHƏ

Mətn oxunduqdan sonra müəllim suallar verir:

*1. Qaranquş yuvanı nədən tikir?*
*2. Qaranquş yuvasını harada qurur?*
*3. Sevda qaranquşdan niyə incidi?*
*4. Anası Sevdanı necə başa saldı?*

**Yazı** (ifadə)

**Müəllim:** – *Oxuduğunuz və dinlədiyiniz hər iki əsərdəki epizodları vahid süjet xətti altında*

*birləşdirməklə mətn qurub yazın.*

**Mətnin planı**:

Giriş. Sevdanın qaranquş üzərində müşahidələri

Əsas hissə:

1. Sevdanın qaranquşa kömək cəhdləri
2. Qaranquşun buna münasibəti
3. Ananın izahı
4. Sərçələrin hücumu
5. Sevdanın qaranquşa köməyi

Sonluq. Baş vermiş hadisələrlə bağlı Sevdanın düşüncələri

### Danışma

"Niyə hərənin öz yuvası onun üçün şirin və müqəddəsdir?" mövzusunda diskussiya keçirilir.

### Dil qaydaları

7-8-ci tapşırıqlar yerinə yetirilir.

8-ci tapşırıq.

1-ci cümlədəki "qədər", 4-cü cümlədəki "kimi" sözləri bənzətmə bildirir.

2-ci cümlədəki "lap", 3-cü cümlədəki "ha" sözləri cümlənin təsir gücünü artırır.

İş dəftərinin 58-ci səhifəsində verilmiş dil qaydaları üzrə  və tapşırıqdan istifadə oluna bilər.

***Qiymətləndirmə.*** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 36. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 90-cı səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 37. 3-cü BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

**Dinləmə və yazı üzrə qiymətləndirmə** (İş dəftərinin 59-cu səhifəsində də verilmişdir.)

### QUŞLARIN XATİRİNƏ

Elşənlə Novruz çəpərdən qonşu həyətə boylana-boylana qalmışdılar. Orada quşlar elə gözəl səs-səsə vermişdi ki, gəl görəsən. Uşaqlar quşlara saatlarla qulaq asmaqdan doymurdular.

– A bala, haradasınız, eh-eyyy?!

– Nənə, buradayıq, burada.

– Öz bağınız yoxdurmu, ay mənim əzizlərim?

– Nənə, o bağda quşlar oxuyur. Bizim bağa heç gəlmirlər də. Neyləyək axı?

– Görürsünüz, o bağda gül-çiçək əkiblər, quşlara yuva qurublar, tez-tez onlara dən səpirlər. Bəs siz neyləmisiniz, hə?

Nənə düz deyirdi. Elşənlə Novruz başlarını aşağı salıb susdular.

Ertəsi gün onlar hamıdan tez oyanıb işə başladılar. Biri güllük üçün yer belləyir, o biri isə quşlar üçün ağaca dənlik vururdu.

Çəpərə bir quş qonmuşdu. Onlara tərəf baxıb cikkildəyirdi.

*Xalidə Abbasova*

LAYİHƏ

1. Uşaqlar qonşu həyətə getməyə can atırdılar, çünki ...
   A) orada uşaqlarla oynamaq istəyirdilər.
   B) orada quşlar oxuyurdu.
   C) orada çoxlu meyvə ağacı var idi.

2. Elşəngilin həyətində quşlar oxumurdu, çünki ...
   A) onların həyətində gül-çiçək yox idi.
   B) onların həyətində böyük bir it var idi.
   C) uşaqlar quşlara daş atırdılar.

3. Uşaqlar güllük üçün yer belləyir, dənlik düzəldirdilər, çünki ...
   A) nənələrinin rəğbətini qazanmaq istəyirdilər.
   B) quşları öz həyətlərinə cəlb etmək istəyirdilər.
   C) qonaq gözləyirdilər.

4. *“Nənə düz deyirdi”* cümləsində *“düz”* sözü ...
   A) varlığın əlamətini bildirir.
   B) nənənin hərəkətini bildirir.
   C) hərəkətin əlamətini bildirir.

5. Plana əsasən mətnin qısa məzmununu yaz.
   1. Uşaqların qonşu həyətə can atması
   2. Nənənin öyüdü
   3. Uşaqların çıxardığı nəticə

**Oxu və dil qaydaları üzrə qiymətləndirmə** (İş dəftərinin 60-61-ci səhifələrində də verilmişdir.)

## KÖMƏK

Ata oğluna hasarı təmir etməyi tapşırmışdı. Oğlan ______ götürərək atasının tapşırığını yerinə yetirmək üçün hasara yaxınlaşdı. **1** Lakin o, sınmış taxtaları yerinə oturda bilmirdi. ... vurduğu mismarlar əyilir, ... çəkic mismara deyil, barmaqlarına dəyirdi. **2** Bir sözlə, heç nə alınmırdı. Üstəlik də, yaxınlıqda futbol oynayan yoldaşlarının şən səsləri gəlirdi. Oğlanın fikri onlarda idi. **3**

Bu vaxt yol ilə baba ilə nəvə gedirdi. Nəvə oğlanın çətinlik çəkdiyini görüb babası ilə birgə onun yanına gəldi, alətləri alıb hasarı düzəltdi. Oğlan çox sevindi və oynamaq <u>üçün</u> dostlarının yanına qaçmaq istədi. Ancaq baba yaxınlaşıb taxtaları yerindən qopartdı.

– Nə edirsən, baba? – deyə nəvə heyrətlə soruşdu. – <u>Axı</u> sən özün məni öyrətmisən ki, mərhəmətli olum, heç kəsdən kömək əlimi əsirgəməyim.

Baba cavab verdi:

– Düzdür, mən sənə bunları demişəm, <u>amma</u> sən kömək etmirsən.

Nəvə daha da təəccübləndi:

– Nə danışırsan, baba? Axı mən əlimdən gələni edirəm.

– Sən başqasına tapşırılan işi görməklə ona yaxşılıq yox, pislik edirsən. Birincisi, o, hasarı təmir etməyi öyrənməlidir. İkincisi, o başa düşməlidir ki, istəyinə səbirlə çatmaq olar və nəhayət, o bilməlidir ki, əvvəl əylənmək, sonra iş görmək lazımdır.

LAYİHƏ

1. Mavi boşluğun yerinə hansı sözlər uyğun gəlir?
   A) mala, bel və yabanı  B) qayçı, süpürgə və iynəni  C) mişar, çəkic və mismarları

2. Altından xətt çəkilmiş hansı söz cümlənin təsir gücünü artırır?
   A) üçün  B) axı  C) amma

3. Nöqtələrin yerinə bunlardan hansı uyğun gəlmir?
A) gah, gah da B) nə, nə də C) lakin, sanki

4. "Ağrıdan onun gözləri yaşarırdı" cümləsi rəqəmlə işarələnmiş hansı boşluğa uyğun gəlir?
A) 2-ci B) 3-cü C) 1-ci

5. Mavi rənglə verilmiş sözlərdən hansında cəm şəkilçisi yazıldığı kimi tələffüz olunur?
A) mismarlar B) barmaqlarına C) yoldaşlarının

6. Hansı kəlam mətnin məzmununa uyğun gəlmir?
A) Səbirli olmağı bacaran gec-tez öz istəyinə çatacaq.
B) Heç kimə möhtac olmamaq üçün işləmək lazımdır.
C) Əsl sevinc zəhmətdən sonrakı istirahətdir.

7. Nəvə, əslində, nə etməli idi?
A) Oğlana fikir verməyib öz yolu ilə getməli idi.
B) Hasar düzəltməyi ona öyrətməli idi.
C) Hasarı düzəldə bilmədiyi üçün onu danlamalı idi.

8. Hansı rənglə verilmiş "ilə" sözünü "və" sözü ilə əvəz etmək olar?
A) B) C)

9. Sonuncu abzasda verilən məsəllərdən hansında sözlərin yeri dəyişik düşüb?
A) Başqasına tapşırılan işi görməklə ona yaxşılıq yox, pislik edirsən.
B) İstəyinə səbirlə çatmaq olar.
C) Əvvəl əylənmək, sonra iş görmək lazımdır.

10. Nəvə taxtaları yerinə vurmaqla ...
A) oğlana kömək elədi.
B) gələcəkdə oğlanın zəhmətkeş kimi yetişməsinə mane oldu.
C) oğlanın gedib dostları ilə oynamasına şərait yaratdı.

LAYİHƏ

## 4-cü bölmə

# YÜZ MİN NİYƏ

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 38 | Niyə | 1.2.1, 2.1.1, 2.2.1, 3.1.4, 4.1.5 | 2 | 92 | 62 | 97 |
| 39 | Qazların uçuşu | 1.2.1, 2.2.2, 4.1.5 | 4 | 93-94 | 63 | 98 |
| 40 | Meynə niyə ağlayır | 1.2.1, 2.1.2, 2.2.2, 2.2.5, 3.1.3, 4.1.5 | 2 | 95-96 | 64 | 100 |
| 41 | Üşümürmü, görəsən | 1.2.1, 2.1.2, 2.2.1, 2.2.5, 4.1.5 | 4 | 97 | 65 | 102 |
| 42 | Niyə məhz sual işarəsi | 1.1.2, 2.2.2, 3.1.4, 4.1.7 | 2 | 98 | 66-67 | 105 |
| 43 | Lampa niyə söndü | 1.1.2, 2.2.2, 2,2,5, 3.1.4, 4.1.5 | 2 | 99-100 | 68 | 107 |
| 44 | Tülkü niyə suya girir | 1.2.1, 2.2.4, 2.2.5, 3.1.3, 4.1.4 | 2 | 101-102 | 69 | 109 |
| 45 | Yarasa nə üçün gecə ova çıxır | 1.2.1, 2.1.2, 2.2.2, 3.1.5, 4.1.4 | 4 | 103-104 | 70 | 110 |
| 46 | Yarasa | 1.1.2, 1.2.1, 2.2.2 | 4 | 105 | 70-71 | 112 |
| 47 | İlanlar niyə rəqs edir | 1.1.1, 2.1.2, 2.2.2, 2.2.4, 4.1.5 | 2 | 106-107 | 72 | 115 |
| 48 | Dünyagörmüş baba | 1.2.1, 1.2.3, 2.1.1, 4.1.4 | 4 | 108-109 | 73 | 117 |
| 49 | Möcüzələr niyə yox olur | 1.1.2, 1.2.1, 1.2.3, 2.1.3, 2.2.2, 2.2.3, 3.1.4, 4.1.5 | 6 | 110-111 | 74-76 | 119 |
| 50 | Peyvənd niyə vacibdir | 1.1.1, 1.2.1, 2.1.2, 2.2.2, 4.1.5 | 2 | 112-113 | 77 | 124 |
| 51 | Bağban sincab | 1.1.1, 1.2.1, 2.2.2, 2.2.4, 4.1.4 | 2 | 114-115 | 78 | 126 |
| 52 | Ümumiləşdirici təkrar | | 2 | 116 | | 128 |
| 53 | Kiçik summativ qiymətləndirmə | | 2 | | 79-81 | 128 |
| **Yekun** | | | **46 saat** | | | |

LAYİHƏ

## Dərs 38. NİYƏ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Eşitdiyi və oxuduğu hadisələrin səbəblərini araşdırmaq məqsədi ilə kiçik təqdimatlar edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Rast gəldiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzular ətrafında araşdırma apararaq suallarla bağlı rəyini bildirir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Şeirlə ifadə olunmuş cümlələri nəsrə çevirərkən sözlərin ardıcıllığını düzgün müəyyən edir. |

**Motivasiya**

Müəllim M.Aslanın “Hamısı mənimdir” şeirini səsləndirir:

*– Bu dağ kimindir, baba?*
*Havası nə sərindir!*
*– Sənin, bala, sənindir!*
*– Bu çay kimindir, baba?*
*Həm gurdur, həm dərindir!*

*– Qəşəng balam, sənindir!*
*– Meşə kimindir, baba?*
*Gör nə qəşəng göründü!*
*– Sənindir, ey, sənindir!*
*– Bəs bu, bəs o, bəs onlar?*

*Oh, nə gözəl yerlər var!*
*– Ay mənim göyçək balam,*
*Yanağı çiçək balam,*
*Nə görürsən sən indi,*
*Bax hamısı sənindir!*

Müəllim bildirir ki, bu şeir sual-cavab formasında yazılıb və suallar verir:
– *İki adam arasında gedən danışıq necə adlanır? (dialoq)*
– *Bu şeirdə müraciət bildirən sözləri tapın. Belə sözlər necə adlanır? (xitab)*
– *Şeirdə suallar kimin dilindən verilir? (nəvənin)*
– *Nəvəyə aid olan misralarda hansı sözlər sual bildirir? (kimin, bəs)*
– *“Kimin?” sualını verməklə biz nə soruşuruq? (əşyanın kimə məxsus olduğunu)*
– *Bəs bir şeyin səbəbini öyrənmək üçün hansı sual bildirən sözlərdən istifadə edirik? (Niyə? Nə üçün? Nəyə görə?)*

**Oxu**

Dərsliyin 92-ci səhifəsindəki “Niyə” şeiri 2 şagird tərəfindən – baba və nəvənin dilindən oxunur. Nəvənin sözlərini oxuyan şagirdin sual cümlələrini xüsusi intonasiya ilə, babanın sözlərini oxuyan şagirdin isə həlim (mülayim), səbirlə, təmkinlə oxumasına fikir verilir.

Dərslikdəki <u>2-3-cü tapşırıqlar</u> yerinə yetirilir. İş dəftərinin 62-ci səhifəsindəki 1-ci tapşırıqdan da istifadə etmək olar.

**Əlavə sual və tapşırıqlar:** *1. Şeirdəki suallardan hansılarına cavab verə bilərsiniz? 2. Şeirdəki bəndlərin hansı misraları qafiyələnir? 3. Şeirdə hansı sözlər qız adı kimi işlənə bilər? Bəs oğlan adı kimi işlənə bilən söz varmı?*

**Yazı**

Şagirdlər aşağıdakı sualları cavablandırlar (iş dəftərinin 62-ci səhifəsindəki 2-ci tapşırıqdan da istifadə etmək olar):
– *Niyə ay gah dairəvi, gah da oraqşəkilli olur?*
– *Gün çıxanda göydəki ulduzlar niyə yoxa çıxır?*
– *Nəyə görə saatı sol qola taxırlar?*

**Danışma** (qruplarla iş)

Şagirdlər sinifdəki şagirdlərin sayına görə 4 və ya 6 qrupa bölünürlər. Hər qrupa “Azərbaycan dili”, “Riyaziyyat”, “Həyat bilgisi”, “İnformatika” (qrupların sayı daha şox olarsa, “Musiqi” və “Təs-

LAYİHƏ

viri incəsənət"dən də) fənləri ilə bağlı "niyə?" sualı ilə başlanan 5 sual hazırlamaq tapşırılır. Bir qrupun qoyduğu sualı digər qruplar cavablandırmalıdır. Daha məzmunlu sual tərtib edən və digər qrupların suallarına dolğun cavab verən qrup və ya qruplar daha yüksək qiymətləndirilir.

**Dil qaydaları**

Dərsliyin 92-ci səhifəsindəki <u>3-cü tapşırıq</u> yerinə yetirilir. Eləcə də iş dəftərinin 62-ci səhifəsindəki 4-cü tapşırıqdan istifadə etmək olar.

**Dinləmə**

**CÜCƏ VƏ XORUZ**

Bir dəfə balaca cücə böyük xoruzdan soruşdu:
– Niyə leyləyin uzun dimdiyi var, mənimki isə bapbalacadır?
– Əl çək!
– Niyə dovşanın uzun qulaqları var, məndə isə heç balacası da yoxdur?
– Zəhləmi tökmə!
– Niyə pişik balasında gözəl xəzdir, məndə isə iyrənc sarı tük?
– Açıl başımdan!
– Niyə küçük quyruğunu bulaya bilir, mənim isə quyruğum yerli-dibli yoxdur?
– Səsini kəs!
– Niyə çəpişin gözəl buynuzları var, məndə isə heç pisi də yoxdur?
– Bəsdir! Əl çək! – deyə xoruz lap əsəbiləşdi.
– Elə əl çək, əl çək!.. Niyə başqa böyüklər balacaların suallarına cavab verirlər, sən isə yox? – deyə cücə cikkildədi.
– Ona görə ki, sən soruşmursan, paxıllıq edirsən, – deyə xoruz çox ciddi cavab verdi.
Bu, doğrudan da, belə idi.

*Sergey Mixalkov*

Müəllim şagirdlərin diqqətini xoruzun nitqindəki *"zəhləmi tökmə", "açıl başımdan", "səsini kəs", "əl çək"* ifadələrinə yönəldir və bu cür ifadələrə münasibət bildirməyi tapşırır:

– *Sizcə, böyüklərin kiçikyaşlı uşaqlarla belə danışmasına haqq qazandırmaq olarmı?*

Tətbiqi çalışma kimi iş dəftərinin 62-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilə bilər.

**Əlavə tapşırıq: –** *"Cücəni payızda sayarlar" məsəlini şərh edin.*

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 39. QAZLARIN UCUŞU (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Müəyyən elmi məlumatları mənimsəməklə qoyulmuş suallara aydınlıq gətirir. Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə üzvlərini müəyyən edir. |

LAYİHƏ

### Motivasiya

Lövhədə BİBÖ cədvəli çəkilir və şagirdlər birinci iki sütunu doldururlar.

| QAZLAR HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Əgər birinci sütunda çöl qazlarının köçəri quş olduğu öz əksini tapmayıbsa, müəllim sual verməklə bu məlumatı da həmin sütunda yerləşdirir.

Uşaqlara payızda isti ölkələrə uçan köçəri quşların rəsmini çəkmək tapşırılır. Çəkilən rəsmlər içərisində quşları < şəklində çəkənlər də ola bilər.

**Müəllim:** – *Nə üçün quşların uçuşunu < şəkilli çəkmisiniz?*

### Oxu

Dərslikdəki mətn (səh. 93) səssiz oxunur. 94-cü səhifədəki <u>1-3-cü tapşırıqlar</u> yerinə yetirilir.

<u>1-ci tapşırıq.</u> B variantı; "hökm sürmək" ifadəsi mətndə"mövcud olmaq" mənasında işlənib.

<u>2-ci tapşırıq.</u> *əməkdaşlıq, nizam-intizam, qayğıkeşlik, ədalət.*

<u>3-cü tapşırıq.</u> Belə ki, uçuş zamanı daim hava axınını yarmaq onları çox yorur. Buna görə qazlar < şəklində düzülürlər. Belə olduqda qarşıda qanad çalaraq hava axınını yaran qaz arxadakının işini asanlaşdırır. Beləliklə, qazlar getdikləri yerə daha az güc sərf etməklə çatırlar.

Şagirdlər iş dəftərinin 63-cü səhifəsində verilmiş mətnlə bağlı tapşırıqlardan fərdi şəkildə istifadə edə bilərlər. Sonda tapşırıqların cavabları dinlənilir, müqayisə olunur və düzgün cavablar müzakirə yolu ilə müəyyənləşdirilir.

### Dinləmə

**LEYLƏKLƏR HAVADA YATIR**

Dünyada elə qəribə hadisələr var ki, adam eşidəndə inanmağı gəlmir. Məsələn, at ayaq üstə yatır. Dovşan yatdığı yerdə ona yaxınlaşan hər şeyi görür. Hələ bu harasıdır!.. Heç düşünmüsünüzmü, günlərlə yerə enmədən uçan, meşələr, səhralar keçərək dünyanın bu başından o başına köç edən leyləklər necə dincəlirlər? Necə olur ki, təbiətin bu gözəl, zərif sakinləri bu qədər uzun yola özlərində güc tapa bilirlər? Alimlər bu sirri də açıblar. Sən demə, leyləklər havada yatırlar, özü də uça-uça. Alimlər leyləklərin döşünə xüsusi cihaz yapışdırmış və bu cihazın köməyi ilə onların ürəklərinin döyüntüsünü izləyərək nə vaxt yatdıqlarını, nə vaxt oyaq olduqlarını müəyyənləşdirə bilmişlər. Məlum olmuşdur ki, leyləklər növbə ilə, özü də yerlərini dəyişərək yatırlar. Belə ki, yatmaq növbəsi çatan leylək qatarın ortasına keçir. Dəstənin qabağında və arxasında uçan leyləklər ortada yatanları səs siqnalları ilə idarə edirlər. Yuxuda olan leyləklər bu əmrlərə uyğun olaraq qanad çalır, ayaqlarını və boyunlarını düz tuturlar. Ortada uçan leyləklər yuxudan ayıldıqdan sonra ya dəstənin qabağına, ya da arxasına keçirlər. İstirahət növbəsi çatan başqa leyləklər isə yataq otağına, yəni dəstənin ortasına keçir. Leyləklər bu minvalla mənzilbaşına çatırlar.

**Sual müsabiqəsi.** Şagirdlər 4 qrupa bölünür, oxuduqları və dinlədikləri məlumatlarla bağlı mümkün qədər çox sual hazırlayırlar. Hər qrup digər qrupların suallarına ardıcıllıqla cavab verməlidir. Müsabiqənin sonunda daha çox sual və cavab vermiş qrup qalib hesab olunur. Daha orijinal sual və cavab verənlər müəllim tərəfindən xüsusi qeyd olunur.

### Danışma (müzakirə)

"Köçəri quşlarda insanlara örnək ola biləcək xüsusiyyətlər var" mövzusunda müzakirə keçirilir. Müəllim uşaqlara tapşırır ki, öz fikirlərini indiyə kimi oxuduqları, həyatda gördükləri və eşitdikləri ilə əsaslandırsınlar.

### Dil qaydaları

Müəllim <u>4-cü tapşırıqdakı</u> nümunəni şagirdlərə izah edərək başa salır. Sonra 2-ci cümlədəki cümlə üzvləri şagirdlər tərəfindən müəyyənləşdirilir:

*nə edirdi? – qalxırdı – xəbər*

*kim qalxırdı? – Əhməd kişi – mübtəda*

LAYİHƏ

*kimlə qalxırdı? – ovçularla – ikincidərəcəli üzv*
*haraya qalxırdı? – dağa – ikincidərəcəli üzv*

Şagirdlər söz birləşməsinin bir cümlə üzvü olduğunu müəyyənləşdirməkdə çətinlik çəkə bilərlər. Burada çaşmamaq üçün müəllim söz birləşməsinin tərkibindəki sözlərin xəbərlə birbaşa əlaqəsi olub-olmadığını yoxlamaq lazım gəldiyini izah etməlidir.

94-cü səhifədəki qaydada verilən cümlə müəllim tərəfindən yazı taxtasına yazılır və sözlərin hansı nitq hissəsinə aid olduğu sual-cavab yolu ilə müəyyənləşdirilir.

5-ci tapşırıq.

Babam *(kim? – mübtəda)* bağda *(harada? – ikincidərəcəli üzv)* ağacları *(nəyi? – ikincidərəcəli üzv)* suladı *(nə etdi? – xəbər)*.

Yarpaqlar *(nə? – mübtəda)* yerə *(haraya? – ikincidərəcəli üzv)* tökülürdü *(nə edirdi? – xəbər)*.

Şiddətli *(necə? – ikincidərəcəli üzv)* külək *(nə? – mübtəda)* əsirdi *(nə edirdi? – xəbər)*.

Usta *(kim? – mübtəda)* hovuzu *(haranı? – ikincidərəcəli üzv) daşlarla (nə ilə? – ikincidərəcəli üzv)* bəzədi *(nə etdi? – xəbər)*.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 63-cü səhifəsindəki dil qaydaları üzrə tapşırıqlardan istifadə etmək olar.

**Qiymətləndirmə.** Müşahidə, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 40. MEYNƏ NİYƏ AĞLAYIR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətnin ideyasından bəhrələnərək eyni mövzuda mətn qurub təqdim edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Müəyyən sahəyə aid söz və terminlərin izahlı lüğətini tərtib edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirərək yazır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Sözlərin cümlədəki rolunu, sualını və ifadə vasitəsini müəyyənləşdirir. |

**Motivasiya**

**Müəllim:** – *Ağacların tez böyüyüb çox məhsul verməsi üçün nə etmək lazımdır?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

*Müəllimin nəzərinə: Yaxşı olardı ki, bu dərs məktəbin həyətyanı sahəsində, rayon və kənd yerlərində isə üzüm bağları sahəsində keçirilsin.*

**Oxu**

Şagirdlər təyin edilmiş vaxt ərzində səssiz oxuyub mətnin (dərslik, səh. 95) məzmunu ilə tanış olurlar. Dərsliyin 96-cı səhifəsindəki 1-7-ci tapşırıqlar yerinə yetirilir. İş dəftərinin 64-cü səhifəsindəki 1-ci tapşırıqdan da istifadə etmək olar.

2-ci tapşırıq 1. Meynə tez böyüyüb çoxlu üzüm verdi. 2. Elşən meynəni incitmişdi.

LAYİHƏ

**Danışma** (qruplarla iş)

Şagirdlər üç qrupa bölünürlər. Verilmiş situasiya ilə bağlı hekayə düşünüb şifahi şəkildə sinfə təqdim edirlər.

**I qrup:** – *Babam bağda əkdiyi körpə ağacların yanında möhkəm çubuqlar basdırıb ağacları onlara bağladı...*

**II qrup:** – *Babam alətlər qutusunu götürüb mənimlə bağa tərəf yollandı...*

**III qrup:** – *Babam bağda əkdiyi ağaclardan birinə qulluq etməyi mənə tapşırdı...*

**Dinləmə**

**ÜZÜM**

Üzüm çox faydalı və qiymətli bitkidir. Ona görə də dünyanın bir çox ölkəsində çox qədimdən becərilir. Üzümdən hazırlanan sirkə, şərbət, kişmiş çox faydalıdır. Bəkməz və ya doşab isə qanazlığı xəstəliyi üçün çox faydalı vasitədir.

Müəyyən edilmişdir ki, üzümün şirəsində müalicəvi əhəmiyyəti olan bir sıra maddələr var. Onun tərkibində vitaminlər çoxdur. Üzüm tənəyinin yarpağı da faydalıdır. Milli yeməklərimizin hazırlanmasında ondan istifadə olunur.

Şagirdlər *doşab, bəkməz, şərbət, sirkə* sözlərinin mənasını müəyyənləşdirib lüğət tərtib edirlər.

**Sual:** – *Üzüm yarpağından hansı yemək növünün hazırlanmasında istifadə olunur?*

**Yazı**

**Cütlərlə iş.** Müəllim vərəqin yuxarı hissəsində belə bir cümlə yazır: *“Yayın sonuna yaxın bağdakı meynələrimiz xeyli üzüm gətirdi”*. Bu vərəqi qarşıda əyləşən birinci cütlüyə verərək mövzunu davam etdirmək məqsədi ilə bir cümlə artırmağı tapşırır. Daha sonra digər cütlüklər mətni öz cümlələri ilə genişləndirir. Sonda mətn şagirdlər tərəfindən oxunur.

İş dəftərinin 64-cü səhifəsindəki 2-ci tapşırıq da yerinə yetirilə bilər.

**Dil qaydaları**

8-ci tapşırıq. Cavab: “B” variantıdır (Bakı şəhərində).

9-cu tapşırıq.

| Söz | Cümlədə rolu | Sualı | Nitq hissəsi |
|---|---|---|---|
| Elçin | mübtəda | kim? | isim |
| budağı | ikincidərəcəli üzv | nəyi? | isim |
| kəsdi | xəbər | nə etdi? | feil |
| Mərdan | mübtəda | kim? | isim |
| həkimlə | ikincidərəcəli üzv | kim ilə? | isim |
| danışdı | xəbər | nə etdi? | feil |
| mən | mübtəda | kim? | əvəzlik |
| dostumu | ikincidərəcəli üzv | kimi? | isim |
| vağzalda | ikincidərəcəli üzv | harada? | isim |
| qarşıladım | xəbər | nə etdim? | feil |

Tətbiqi çalışmalar üçün iş dəftərinin 64-cü səhifəsindəki dil qaydaları üzrə tapşırıqlardan istifadə etmək olar.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

# Dərs 41. ÜŞÜMÜRMÜ, GÖRƏSƏN (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və ya dinlədiyi mətnin ideyası ilə bağlı mühakimə xarakterli fikirlər irəli sürür. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Elmi mətndə rast gəldiyi terminləri kontekstə əsasən izah edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu mətnin ideyasını həyatla əlaqələndirir. |
| 4.1.5.Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə qurarkən cümlə üzvlərinin ardıcıllığına riayət edir. |

**Motivasiya**

Müəllim şagirdlərə üzərini buz bağlamış sular, ağ örtüyə bürünmüş çöl, çılpaq ağaclar təsvir olunmuş bir rəsm əsəri göstərir və qış fəslində soyuq havada üşüyərkən hansı hisləri keçirdiklərini sözlə ifadə etməyi təklif edir.

Şagirdlər cavab variantlarını söyləyirlər.

**Oxu**

Dərsliyin 97-ci səhifəsindəki şeir ifadəli oxunur, həmin səhifədəki 1-ci tapşırıq yerinə yetirilir.

**Əlavə suallar:**

– *Şeir kimin dilindən deyilir?*

– *Bəs, görəsən, qışda heyvanlar, quşlar üşümür?*

– *Şaxtada suyun üzəri də donub buz bağlayır. Bəs dənizdə, çayda yaşayan canlılar niyə donmur?*

2-ci tapşırıq: C variantı.

Mətnlə bağlı iş dəftərinin 65-ci səhifəsindəki tapşırıqlardan istifadə etmək olar.

**Dil qaydaları**

Motivasiya xarakterli 3-cü tapşırıq yerinə yetirilir: *Ağaclar hər bahar göy atlazdan paltar geyir.* Bundan sonra qayda oxunur və mənimsədilir. Şagirdlər müstəqil olaraq cümlələr söyləyir və həmin cümlələrdə mübtəda və xəbərin yeri müəyyənləşdirilir.

4-cü tapşırıq. Şagirdlər tapşırıqda söz sırasının pozulduğu cümlələri cümlə üzvlərinin yerləşməsi qaydasına görə düzgün söz sırası ilə yazırlar.

*Heyvanlar qışda yemi çətinliklə tapırlar.*

*Sərçələr səhər-səhər həyətdə civildəşirdilər.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 65-ci səhifəsindəki dil qaydalarına aid tapşırıqlardan istifadə oluna bilər.

Şagirdlərlə ***Kim daha cəld?*** oyunu keçirilir. Lövhədə *atlaz, qar, daş, bahar, şaxta, qış, yel* sözləri yazılır. Müəllim əlindəki topu şagirdlərin birinə atır və bu sözlərdən birini deyir. Həmin şagird bu sözün bir hərfini dəyişməklə yeni söz yaradıb deyir, sonra topu başqa şagirdə atıb daha bir söz deyir. Bu qayda ilə oyun davam edir. Bir sözdə bir neçə dəfə hərf dəyişdirməklə yeni söz də yaratmaq olar (qar – tar – bar – nar; yel – bel – sel).

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| atlaz – atlas | şaxta – taxta | daş – qaş | qış – xış |
| bahar – nahar | çay – yay | sarı – qarı | maşa – paşa |

**Dinləmə**

**Müəllim:** – *Qış vaxtı buz bağlamış pəncərəni görmüsünüzmü? Pəncərə şüşəsindəki buz naxışları nəyə bənzədərdiniz?*

Şagirdlər öz fikirlərini söylədikdən sonra müəllim mətni səsləndirir:

**QIŞ GÜNÜ**

Pəncərəm buz bağlayır
yarpaq-yarpaq.
Otağımda hərarət
sıfır üstü 23.
Küçədə çılpaq ağaclar
qısılıb bir-birinə.
Gətirə biləydim onları otaqcığıma –
Qızınsınlar.
– Yarpaq naxışa dəymə, qızım, sınar!
Çağır gəlsin ağacları,
qızınsınlar.

*Rəsul Rza*

**Suallar:**

*1. Pəncərə üzərindəki buz naxışla yarpaq arasında hansı oxşarlıq var?*

Müəllim yarpaq nümayiş etdirir, şagirdlər yarpaq damarcıqlarının buz naxışa bənzədiyinin şahidi olurlar.

*2. "Otağımda hərarət sıfır üstü 23" nə deməkdir?*

*3. "Otaqcığıma" sözündə -cıq şəkilçisi sözün mənasına hansı çaları gətirir?*

Oxunmuş və dinlənilmiş mətnlər arasında ideya-məzmun və janr yaxınlığı müəyyən olunur. *(Hər iki mətn uşaq dilindən yazılmış şeirdir. Hər iki şeirin qəhrəmanını şaxtada çılpaq ağacların üşüməsi narahat edir)*

**Dinləmə**

**Sual:** – *Oxuduğunuz şeirlərdə qoyulmuş suala cavab verilirmi? Bəs hansı mətnlərdə bu cür hadisələrin səbəbi və izahı əks olunur? (elmi mətnlərdə)*

**AĞACLARIN YARPAQLARI NİYƏ TÖKÜLÜR**

Doğrudan da, görəsən, niyə ilin soyuq fəsillərində və ya hava çox quraq keçəndə ağacların əksəriyyəti yarpaqlarını tökür?

Ağacın həyatında yarpaq çox vacib rol oynayır: o, ağac üçün qida hazırlayır. Bunun üçün o, ağacın kökündən su, havadan karbon qazı, Günəş işığından isə enerji alır. Günəş işığı azalmağa başlayanda yarpaqlar saralıb tökülməyə başlayır. Bununla da ağaclar işlətdikləri qidanın miqdarını kəskin surətdə azaldır. Ağac da, bir növ, ayı kimi qış yuxusuna gedir və bu dövrdə köklərdə toplanıb qalmış qidalı maddələrin hesabına yaşayıb salamat qalır. Yazda hava istiləşəndə ağac qış yuxusundan oyanır və onun budaqlarında yeni yarpaqlar cücərməyə başlayır.

*Karbon qazı, enerji, maddə* sözlərinin mənaları izah olunur. Şagirdlər dinlədikləri mətnin köməyi ilə "Üşümürmü, görəsən" şeirində qoyulmuş suala cavab tapmağa çalışırlar.

LAYİHƏ

**Qiymətləndirmə.** Müşahidə, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 66-cı səhifəsində də verilmişdir.)

**KENQURU**

Avstraliyaya ilk dəfə gələn ingilislər burada qəribə heyvan görürlər. Sən demə, onlar o vaxta qədər dünyanın heç bir yerində belə heyvana rast gəlməyiblərmiş. İngilislər bu kisəli heyvanı göstərib yerli sakinlərdən onun adını soruşurlar. ... yerlilər ingilislərin nə dediyini anlamırlar və öz dillərində “kenquru” deyirlər, yəni “mən sizi başa düşmürəm”. “Kenquru” sözünü eşidən ingilislər elə bilirlər ki, bu söz elə həmin heyvanın adıdır. Onlar bu heyvanı Avropaya “kenquru” adı ilə tanıdırlar. ..., yerlilərin dilində “mən sizi anlamıram” sözü bu qəribə heyvanın adına çevrilmişdir.

1. Nöqtələrin yerinə uyğun gələn köməkçi nitq hissələrini yaz.
   A) ancaq, beləcə  B) yəqin, əlbəttə  C) nəhayət ki, yəqin

2. İngilislərin Avstraliyada gördükləri kisəli heyvanın Avropada “kenquru” adı ilə tanınmasına səbəb ...
   A) yerli əhalinin bu heyvanı məhz belə adlandırması idi.
   B) bu heyvanın kisəli olması idi.
   C) yerli əhalinin ingilis dilini bilməməsi idi.

3. Kenquru haqqında deyilənlərdən biri yanlışdır:
   A) Kenqurunu ilk dəfə ingilislər Avropaya tanıdıblar.
   B) Kenquru ingilis dilində “mən sizi anlamıram” deməkdir.
   C) Kenquru kisəli heyvandır.

4. Mətndə hansı məlumat var?
   A) yerli əhalinin dilində “kenquru” sözünün mənası
   B) yerli əhalinin dilində kenqurunun adı
   C) ingilislərin Avstraliyaya səfərinin məqsədi

**Yazı** üzrə qiymətləndirmə (imla)

**QIZ QALASI**
**(124 söz)**

Qız qalası – Bakının, eləcə də Abşeronun ən möhtəşəm memarlıq abidəsidir. Qala İçərişəhərin cənub-şərq hissəsində, Dənizkənarı parkın yaxınlığında yerləşir. Uca qülləşəkilli bu nadir abidənin açılmamış tarixi-memarlıq sirləri çoxdur.

Qız qalası haqqında el arasında müxtəlif rəvayətlər söyləyirlər. Bu qala Bakının ən qədim hissəsi olan İçərişəhərdə yerləşir. Keçmişdə Xəzərin ləpələri onun daşlarına çırpılarmış. Suya qərq olmuş Səbayel şəhərindən Qız qalasına yeraltı yol da var imiş. Qala sonralar Bakının yadellilərdən müdafiəsində etibarlı istehkama çevrilmişdi. Qalanın başında dayanan keşikçilər uzaqdan gələn düşmən gəmisini görüb xəbər verirdilər və düşmənə qarşı hazırlıq görülürdü. Onun adının bir mənası da “alınmaz, yenilməz qala” deməkdir. Bu gözəllik abidəsi Azərbaycanın misilsiz sənətkarlar, memarlar diyarı olduğunu sübut edir.

Son illərdə Qız qalasında və onun ətrafındakı meydanda hər il Novruz bayramı şənliklərinin keçirilməsi ənənəsi yaranmışdır.

LAYİHƏ

Mətnə aşağıdakı tapşırıqlar qoyula bilər:
***1. Mürəkkəb sözlərin altından xətt çəkin.***
***2. -lar, -lı, -lıq şəkilçiləri işlənmiş sözlərin tələffüz formasını göstərin.***

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı cümlədə söz sırası düzgündür?
A) Uşaqlar baxırlar cizgi filminə böyük həvəslə.
B) Meşənin kənarında ovçu rastlaşdı yaralı ceyranla.
C) Gəmi Xəzərin sularını yara-yara sahildən uzaqlaşdı.

**2.** Hansı cümlədə mübtəda söz birləşməsi ilə ifadə olunub?
A) Dənizin sahili uşaqlarla dolu idi.
B) Qardaşım buruq ustasıdır.
C) Hekayə mənim çox xoşuma gəldi.

**3.** Hansı cümlədə ikincidərəcəli üzvlərin yeri dəyişik düşüb?
A) İstedadlı xanəndə məharətlə oxuyurdu.
B) Körpəcə sərçə balası yamanca qorxmuşdu.
C) Yaxşıca pəncərələr geniş yuyulmuşdu.

**4.** Cümlələrdən birində ikincidərəcəli üzv işlənməyib:
A) Vüsal şeiri əzbərlədi.
B) Rəşid isə yorulmuşdu.
C) O, həmişə məktəbdə nümunəvi şagird olmuşdur.

**5.** Hansı cümlədə ikincidərəcəli üzvlər *necə? nə?* suallarına cavab verir?
A) Balaca Leyla onlara tamaşa edirdi.
B) Bal arıları çiçəklərin üzərində vızıldaşırdılar.
C) Günəş zəif işıq saçır.

## Dərs 42. NİYƏ MƏHZ SUAL İŞARƏSİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Elmi-kütləvi mətndəki məlumatları mənimsəyib təqdim edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu əsər haqqında rəy yazır. |
| 4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir. | Verilmiş sözlərdən sual cümlələri qurur. |

**Motivasiya**

Müəllim şagirdlərə belə bir mətni göstərir:

*Ah meşə necə də gözəldir Quşların civiltisindən qulaq tutulur Görəsən onlar nə ilə qidalanır Deyirlər ki quşlar olmasa meşə yaşaya bilməz Bu doğrudanmı belədir Axı quşların nə xeyri ola bilər Quşları heyvanlardan fərqləndirən hansı xüsusiyyətlər var*

Şagirdlər mətni oxuyurlar.

**Sual:** – *Bu yazılı mətni oxumağa çətinlik törədən nədir? (Durğu işarələrinin olmaması cümlənin intonasiyasını təyin etməyə mane olur)*

LAYİHƏ

**Dinləmə**

Müəllim şagirdlərə belə bir şeir oxuyur:

*Sual bizim nidanın*
*Qocalığıdır, bəlkə?*
*Beli tamam bükülüb,*
*Bir gör düşüb nə kökə?*

*Duruşu salır bizi*
*Çox zaman daşa, dağa.*
*Sözləri biçəcəkmi?*
*Bənzəri var orağa.*

*Yorulmur, hey soruşur*
*Deyingən bir qarıtək.*
*Ona cavab verməyə*
*Sözlər tapasan gərək.*

**Sual:**

*1. Şeirdə nədən danışılır?(Şagirdlər şeirdə sual işarəsindən danışıldığını deyirlər)*

*2. "Sual işarəsi bizi dağa-daşa salır" cümləsini izah edin. (Cavab tapmağa, araşdırmalar aparmağa sövq edir)*

*3. Sual işarəsi nəyə görə:*

*– nida işarəsinin qocalığına bənzədilir?*

*– orağa bənzədilir?*

*– deyingən qarıya bənzədilir?*

*4. Bəs siz sual işarəsini nəyə bənzədərdiniz? Bu işarə əlifbadakı hərflərdən hansına daha çox oxşayır?*

**Oxu**

Dərsliyin 98-ci səhifəsindəki mətn abzaslarla oxunur. Hər abzasdan sonra mənimsəməni yoxlamaq məqsədilə suallar verilir. Həmin səhifədəki tapşırıqlar yerinə yetirilir.

<u>1-ci tapşırıq.</u> Cavab: 4-cü abzas

<u>2-ci tapşırıq.</u>

*..., çünki bir çox cümlələrin sual, yoxsa nəqli cümlə olduğu bilinmirdi.*

*..., buna görə də sual cümlələrinin sonunda "Q" hərfi yazmağa başladı.*

*..., çünki oxucular cümlənin sonundakı "Q" işarəsinin "kü" hərfi, yoxsa sual işarəsi olduğunu başa düşmürdülər.*

*..., ona görə də sonrakı naşirlər başqa işarə fikirləşmədilər, elə bu hərfi dəyişdirib indiki sual işarəsinə çevirdilər.*

**"Auksion"**. Şagirdlərə təklif olunur ki, mətnlə bağlı "niyə?" sözü ilə başlanan suallar hazırlasınlar. Sonuncu belə bir sualı verən şagird qalib sayılır; məsələn:

*– Niyə Manutsi sual cümlələrini işarə etmək fikrinə düşdü?*

*– Niyə Manutsi məhz "Q" işarəsindən istifadə etdi?*

*– Niyə naşirlər "Q" işarəsini "?" işarəsi ilə əvəz etdilər?*

İş dəftərinin 67-ci səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilə bilər.

**Yazı**

*– Oxuduğun mətndən nələri öyrəndin? Bunları qısa bir mətn şəklində yaz.*

*– Bu mətni oxuduqdan sonra öyrəndim ki, ...*

<u>Qruplarla iş</u>. Şagirdlər dörd qrupa bölünür və hər qrup bir durğu işarəsinin (nida, dırnaq, vergül, tire) yaranması haqqında rəvayət hazırlayır.

**Dil qaydaları**

Müəllim şagirdlərə belə tapşırıqlar da verə bilər:

1. Verilmiş sözlərdən sual cümləsi düzəldin:

*– dərslər, niyə, yaxşı, oxumamaq;*

*– sual, işarə, harada, tətbiq edilmək;*

*– iş, sən, vaxtında, niyə, görmək, qurtarmaq.*

2. Durğu işarələrinin yazılmadığı bir şeir parçası verilir və şagirdlər buraxılan işarələri qoymaqla şeiri köçürürlər.

LAYİHƏ

Ay havada uçan durna
Bizi qoyub qaçan durna
Get xoş gəldin səfa gəldin

Gələcəksən haçan durna
Getmə-getmə gözüm durna
Sənə var bir sözüm durna

Sən gedəndə necə sənin
Həsrətinə dözüm durna
*Rəşidbəy Əfəndiyev*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 66-cı səhifəsindəki 4-6-cı tapşırıqlardan istifadə etmək olar.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 43. LAMPA NİYƏ SÖNDÜ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatların təsnifatını aparır (sistemləşdirir). |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu mətndə təsvir olunan hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu əsərdəki müəyyən epizodla bağlı kiçikhəcmli esse yazır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Söz sırası pozulmuş nəzm nümunəsində mübtəda və xəbərin yerini müəyyən edir. |

### Motivasiya

**Müəllim:** – *Evinizdə elektrik cərəyanı kəsildikdə hansı çətinliklərlə üzləşirsiniz?*
(işıq olmur, televizor, kompüter və başqa elektrik cihazları işləmir, isti su gəlmir və s.)

### Oxu

Dərsliyin 99-100-cü səhifələrindəki mətn rollu oyun şəklində oxunur.

Şagirdlər mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edirlər. Əsas hissədəki məlumatlar ardıcıllıqla nəql olunur.

**Sual:** – *Bu ardıcıllıq pozulsa, mətnin məzmununa xələl gələrmi?*

Dərslikdən mətnlə bağlı sual və tapşırıqlar yerinə yetirilir. İş dəftərinin 68-ci səhifəsindəki tapşırıqlardan da istifadə etmək olar.

### Dinləmə

**KİMƏ TƏŞƏKKÜR ETMƏLİ**

Balaca Hüseyn yemək yeyirdi. Çörək çox xoşuna gəldi. Anasına dedi:
– Anacan, nə gözəl çörək bişirmisən, çox sağ ol, əlin-qolun var olsun!
Anası dedi:
– Çörəyi mən bişirməmişəm, quzum, dükandan almışam. Get dükançıya təşəkkür elə.
Hüseyn məhəllədəki çörək mağazasına getdi. Dükançıya dedi:
– Dükançı əmi, anam çörəyi buradan alıb. Çörək çox xoşuma gəldi. Bunun üçün Sizə təşəkkür edirəm.

**Sual:** – *Sizcə, dükançı Hüseynə nə cavab verəcək?*

LAYİHƏ

Dükançı cavabında dedi:

– Mən çörək bişirmirəm, çörək zavodundan alıb satıram.

Hüseyn çörək zavoduna getdi. Orada çörək bişirilirdi. Hüseyn çörək bişirənlərdən birinə yaxınlaşıb dedi:

– Çörəkçi əmi, bizim məhəllədəki dükançı çörəkləri sizdən alır. Çörəklər çox gözəl bişib. Bunun üçün Sizə təşəkkür edirəm.

**Sual:** – *Sizcə, çörəkçi Hüseynə nə cavab verəcək?*

Çörək bişirən dedi:

– Doğrudan da, çörəklər çox gözəldir. Amma dəyirmançı un verməsə, mən çörək bişirə bilmərəm. Sən dəyirmançıya təşəkkür etməlisən.

Hüseyn dəyirmana getdi. Dəyirmanın bir tərəfinə tay-tay buğda kisələri qalaqlanmışdı. Bir tərəfdə isə buğda üyüdülüb un olurdu. Hüseyn dəyirmançıya yaxınlaşdı:

– Dəyirmançı əmi, üyütdüyünüz undan çox dadlı çörək alınır. Gəldim ki, buna görə Sizə təşəkkür edim.

**Sual:** – *Sizcə, dəyirmançı Hüseynə nə cavab verəcək?*

Dəyirmançı gülümsündü:

– Bütün söylədiklərin doğrudur. Amma əkinçi buğda əkməsə, onu yetişdirib, toplayıb dəyirmana gətirməsə, mən də un üyüdə bilmərəm. Təşəkkürə daha çox o layiqdir.

Hüseyn şəhərdən çıxıb yaxınlıqdakı əkinçinin yanına getdi. Qoca, nurani bir əkinçi taxıl biçirdi. Hüseyn:

– Yorulmayasınız, əkinçi baba, – səsləndi.

Qoca əkinçi bir anlığa dayanıb qəddini düzəltdi və alnındakı tər damlalarını sildi:

– Allah razı olsun, quzum, sən haradan çıxdın belə?

Hüseyn dilləndi:

– Siz taxıl əkirsiniz, dəyirmançı buğdanı üyüdüb un edir, çörəkçi undan çörək bişirir, dükançı çörəkləri satır, anam da alıb evimizə gətirir. Çörəklər çox gözəl olur. Bunun üçün Sizə təşəkkür edirəm.

**Sual:** – *Bu hissədə hansı nitq etiketlərinə rast gəldiniz? ("Yorulmayasınız", "Allah razı olsun") Sizcə, əkinçi Hüseynə nə cavab verəcək?*

Qoca mənalı-mənalı gülümsəyib əlini Hüseynin çiyninə qoydu:

– Bax, ağıllı balam, mənə diqqətlə qulaq as. Əgər torpaq belə bərəkətli olmasaydı, buludlardan yağış yağmasaydı, Günəş hərarətini və işığını Yer üzünə göndərməsəydi, mən buğda əkə bilməzdim.

Hüseyn çaşıb-qaldı və:

– Yaxşı, əkinçi baba, indi mən kimə təşəkkür etməliyəm? – soruşdu.

Qoca əkinçi Hüseynin saçını sığalladı:

– Səni, ananı, atanı, dükançını, çörəkçini, dəyirmançını, əkinçini YARADAN, torpağı, buludu, yağmuru, Günəşi, hərarəti, işığı, gördüyün hər şeyi bizim xidmətimizə verən Uca Allaha təşəkkür etməlisən. Biz hamımız ONA şükür etməliyik.

Hüseyn xoş duyğularla evə döndü. Anası namaz qılırdı. Sakitcə onun yanında oturdu, əllərini açıb dedi:

– Allahım, hər kəsin adından və verdiyin hər şey üçün SƏNƏ şükürlər olsun!

*Fəxrəddin Bozdağ (Türkiyə)*

**Yazı**

Müəllim mətnin giriş hissəsini səsləndirir:

LAYİHƏ

*– Atası Raminə bir bədii kitab almışdı. Ramin böyük maraqla kitabı oxudu və buna görə atasına təşəkkür etdi. Atası dedi:*

*– Sən mənə yox, kitabın müəllifinə təşəkkür etməlisən...*

Tapşırıq: *– Mətni davam etdirin.*

**Dil qaydaları**

6-cı tapşırıq.

*– Yağış bərk yağırdı.*

*– Bulud bir azdan uca dağın arxasına çəkilib yox oldu.*

*– Biz gələcəyə ümidlə baxmalıyıq.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 68-ci səhifəsindəki dil qaydalarına aid tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 44. TÜLKÜ NİYƏ SUYA GİRİR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, eşitdiyi, oxuduğu hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Süjet xəttinə əlavələr etməklə mətni yaradıcı şəkildə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir.<br>Əsərdəki qəhrəmanların hərəkətlərinə əsasən onları xarakterizə edir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Oxuduğu və dinlədiyi eyni mövzuda mətnləri ümumiləşdirib məzmununu yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |

*Müəllimin nəzərinə: Keçən dərsdən şagirdlərə tapşırılır ki, müxtəlif heyvanların qeyri-adi xüsusiyyətləri haqqında məlumat toplasınlar.*

**Motivasiya**

Müəllim bir neçə heyvan şəkli nümayiş etdirir (timsah, ayı, delfin, ilan, tülkü), şagirdlərin bu heyvanların qeyri-adi xüsusiyyətləri haqqında bilikləri yoxlanılır. Müəllim bəzi heyvanların qeyri-adi xüsusiyyətləri haqqında özü məlumat verir:

*– Timsahlar daha dərinə bata bilmək üçün daş udurlar.*

*– Ayı çox yöndəmsiz və yastıdaban olsa da, at qədər sürətli qaça bilər.*

*– Delfinlər bir gözü açıq yatırlar. Onlar okeanda azmış gəmilərə yol göstərirlər.*

*– Bir ilan 3 il yata bilər. İlanların eşitmə qabiliyyəti yoxdur.*

*– Heyvanların əksəriyyəti zəlzələni qabaqcadan hiss edir.*

**Sual:** *– Bəs tülkünün qeyri-adi xüsusiyyətləri haqqında nə bilirsiniz?*

Şagirdlər tülkünün çox hiyləgər olduğunu, şələ quyruğundan izi itirmək üçün istifadə etdiyini deyə bilərlər.

LAYİHƏ

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 101-102-ci səhifələrindəki mətn *"Bir az dərinə üzdü"* cümləsinə qədər (birinci 3 abzas) oxunur və müəllim soruşur:

– *Sizcə, tülkü niyə suya girirdi? Onun ağzındakı nə idi?*

Şagirdlərin versiyaları dinlənilir.

Sonra mətnin ardı *"Dostumla nə qədər fikirləşsək də, tülkünün hərəkətini başa düşmədik..."* cümləsinə qədər oxunur və şagirdlərin dedikləri ilə müqayisə olunur.

**Müəllim:** – *Sizcə, tülkü niyə belə etdi?*

Şagirdlər öz cavab versiyalarını irəli sürürlər.

Sonra mətnin ardı oxunur və şagirdlərin dedikləri ilə müqayisə olunur.

Dərsliyin 102-ci səhifəsindəki 1-3-cü tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 69-cu səhifəsindəki 1-ci tapşırıq da yerinə yetirilə bilər.

**Danışma** (cütlərlə iş)

Cütlərə tapşırılır ki, heyvanların qeyri-adi xüsusiyyətləri haqqında əldə etdikləri məlumatları məruzə şəklində təqdim etsinlər.

**Yazı**

Şagirdlərə tapşırılır ki, bu dərsdə tülkü haqqında öyrəndiklərindən və əlavə mənbələrdən istifadə etməklə evdə həmin heyvan haqqında elmi-kütləvi mətn yazsınlar.

İş dəftərinin 69-cu səhifəsindəki digər tapşırıqlardan da istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 45. YARASA NƏ ÜÇÜN GECƏ OVA ÇIXIR (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. Verilmiş elmi mövzu ilə bağlı bədii mətn quraraq şifahi şəkildə təqdim edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Öyrəndiyi yeni terminlərin mənasını təxmin edir, lüğət vasitəsilə dəqiqləşdirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Oxuduğu mətndəki obrazların dilindən məktub yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |

LAYİHƏ

**Motivasiya**

Müəllim bir neçə tapmaca söyləyir və açmasını soruşur:

*1. Gündüz yatar yuvada,*
*Gecə gəzər obada.*

*2. Halalar, ha halalar,*
*Dağda ceyran balalar.*
*Quşlardan hansı quşdur*
*Yumurtasız balalar?*

*3. Çıxdım Qız qalasına,*
*Ox atdım yuvasına,*
*Quşlardan hansı quşdur*
*Süd verir balasına?*

*4. Bir quşum var,*
*Ziy-ziyidi.*
*Gecə uçar,*
*Gündüz yatar.*

*5. Zülmət enəndə gülər,*
*İşıq görsə, mürgülər.*

Şagirdlər tapmacaların açmasını (yarasa) tapdıqdan sonra müəllim hansı əlamətlərə görə bunun yarasa olduğunu soruşur (gündüzlər yatıb gecələr uçması, başqa quşlar kimi yumurta qoymaması).

**Oxu**

Dərsliyin 103-104-cü səhifələrindəki mətn oxunur.

Dərsliyin 104-cü səhifəsindəki 1-ci tapşırıq lövhədə aşağıdakı cədvəli çəkməklə kollektiv şəkildə yerinə yetirilə bilər:

| Yarasa quşdur | Yarasa heyvandır |
|---|---|
| | |

Dərslikdəki 2-3-cü tapşırıqlar (səh. 104) yerinə yetirilir. *"Vergi"* sözünün mənası əvvəlcə şagirdlərin öz təxmininə görə, sonra isə lüğətin köməyi ilə izah olunur.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 70-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilə bilər.

**Dinləmə**

**YARASA**

Yarasa, a yarasa,
Nimçə verim, ya kasa?
Çörək qoyum, çay qoyum,
Sənə yaxşı pay qoyum.

Gecə uçma, gündüz uç,
Əyri uçma, dümdüz uç.
Sayım, sanayım səni,
Yaxşı tanıyım səni.

Sən adamdan qaçansan,
Həm quşsan, həm siçansan?

*Nigar Rəfibəyli*

**Sual:** – *Oxuduğunuz əfsanə ilə müqayisədə bu şeirdə yarasa haqqında hansı yeni məlumatlar var? (1. Yarasa uçarkən tez-tez istiqamətini dəyişir. 2. Yarasa siçana oxşayır)*

**Yazı** (cütlərlə iş)

– *Heyvanların şahının quşların şahına və ya quşların şahının heyvanların şahına məktubunu yaz.*

Cütlüyə daxil olan şagirdlərdən biri heyvanların şahının quşların şahına, digəri quşların şahının heyvanların şahına məktubunu yazır. Bir neçə cütün məktubları oxunur və müzakirə olunur.

**Danışma** (qruplarla iş)

**Müəllim:** – *Bu dərsdə biz yarasada bəzi xüsusiyyətlərin yaranması haqqında əfsanə oxuduq. Keçən dərsdə isə heyvanların qeyri-adi xüsusiyyətləri haqqında söhbət açmışdıq. İndi siz heyvanlarda həmin xüsusiyyətlərin yaranması haqqında əfsanə düşünüb təqdim etməlisiniz.*

Səsvermə yolu ilə 4 heyvan seçilir. Şagirdlər 4 qrupa bölünürlər. Hər qrup bir heyvanda qeyri-adi xüsusiyyətlərin yaranması haqqında əfsanə janrında mətn qurub təqdim edir.

**Dil qaydaları**

Dərsliyin 104-cü səhifəsindəki 6-7-ci tapşırıqlar yerinə yetirilir. Müəllim mətndən başqa köməkçi nitq hissələri də seçib tapşırıqlar qoya bilər, məsələn:

– *Mətnin sonuncu cümləsində hansı köməkçi nitq hissəsini vergüllə əvəz etmək olar?*

*A) bəri* *B) və* *C) üçün*

7-ci tapşırıq. *Mən axı (cümlənin təsir gücünü artırır) heyvan deyiləm, quşam.*
*Heyvanların şahı qəzəbləndi və (cümlələr arasında əlaqə yaradır) quşların şahına məktub yazdı.*
*Hətta (sözün təsir gücünü artırır) quşların şahı da yarasadan vergi ala bilmədi.*

LAYİHƏ

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 46. YARASA (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətnlərdəki məlumatları ümumiləşdirərək elmi məruzə ilə çıxış edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |

### Motivasiya

Müəllim şagirdlərə krossvordu həll etmək üçün suallara cavab verməyi tapşırır:

| | |
|---|---|
| 1 | Qış yuxusu zamanı baş barmağını soran heyvan |
| 2 | Sürü şəklində yaşayan yırtıcı |
| 3 | Tikanlı heyvan, ilanların qənimi |
| 4 | Zəhərli sürünən |
| 5 | Suda-quruda yaşayan yırtıcı heyvan |
| 6 | Heyvanların ən qorxağı |



Lövhədə BİBÖ cədvəli çəkilir.

| YARASALAR HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Şagirdlər yarasa haqqında bildiklərini deyir, müəllim cədvəlin sol sütununda qeyd edir. II sütunda şagirdlərin bilmək istədikləri məlumatlar yazılır. Bu məlumatlar fikir mübadiləsi edildikdən sonra cədvələ qeyd olunur.

### Oxu

Dərsliyin 105-ci səhifəsindəki "Yarasa" mətni oxunur, həmin səhifədəki tapşırıqlar yerinə yetirilir.

Mətndən əldə olunan yeni məlumatlar cədvəlin III sütununa yazılır.

**Müəllim:** – *Bilmək istədiklərinizi mətndən oxuyub öyrəndinizmi?*

Əgər cavabsız qalan suallar varsa, müəllim şagirdlərə evdə əlavə kitablardan, ensiklopediya və ya internet vasitəsilə araşdırma aparmağı tövsiyə edir.

LAYİHƏ

Mətnin sonundakı tapşırıq yerinə yetirildikdən sonra iş dəftərinin 70-ci səhifəsindəki 3-cü tapşırıq əvvəlcə şifahi, sonra yazılı şəkildə icra oluna bilər.

**Müəllim:** – *Bədii mətnlə elmi mətn bir-birindən nə ilə fərqlənir? (III sinifdə öyrənilən biliklər təkrarlanır) Yarasalar haqqında keçən dərsdə oxuduğunuz mətnin bədii, bu dərsdə oxuduğunuz mətnin elmi mətn olduğunu əsaslandırın.*

**Dinləmə**

**HEYVANLARDA NƏSİLARTIRMA**

Yer üzündə heyvanların milyonlarla növü mövcuddur. Onların bir çox oxşar və fərqli xüsusiyyətləri var. Görmə, eşitmə, dad və iybilmə, lamisə (yəni toxunma ilə hissetmə) heyvanların əksəriyyətinə xas olan xüsusiyyətlərdir. Bu duyğu qabiliyyətlərindən hər biri müəyyən heyvanlarda daha çox, digərlərində nisbətən az inkişaf etmişdir. Məsələn, qartalda görmə, itdə isə iybilmə qabiliyyəti çox güclüdür.

Heyvanların ortaq xüsusiyyətlərindən biri də onların çoxalması, yəni nəsil verməsidir. Bu xüsusiyyətinə görə heyvanlar üç qrupa bölünür: 1) kürü qoymaqla çoxalanlar; 2) yumurta qoymaqla çoxalanlar; 3) balalamaqla nəsil artıranlar. Kürü qoymaqla çoxalmaq balıqlara aid olan xüsusiyyətdir. Quşlar və bir sıra sürünənlər yumurta qoymaqla çoxalırlar. Balalamaqla nəsil artıran heyvanlar isə məməlilər adlanır.

Bəzən elə düşünürlər ki, suda üzən bütün heyvanlar balıq, göydə uçan bütün heyvanlar quşdur. Əslində, elə deyil. Məsələn, dünyanın ən böyük heyvanı sayılan balina suda üzsə də, kürü qoymur. Balina yaxşı tanıdığımız bir çox ev və çöl heyvanları kimi balalayır.

**Sual və tapşırıqlar:**

– *Heyvanlara xas olan xüsusiyyətlər hansılardır?*
– *Nəsil verməsinə görə heyvanlar neçə qrupa bölünür və bu qruplar hansılardır?*
– *I qrupa nələr aiddir?*
– *II qrupa nələr aiddir?*
– *III qrupa nələr aiddir?*
– *Balina haqqında nə deyə bilərsiniz?*
– *Heyvanlara aid əlamətləri sadalayın,* suitinin balıq, yoxsa heyvan *olduğunu faktlarla təsdiqləyin.*
– *Quşlara aid əlamətləri sadalayın,* pinqvinin quş, yoxsa balıq *olduğunu faktlarla təsdiqləyin.*
– *Balıqlara aid əlamətləri sadalayın,* delfinin balıq, yoxsa heyvan *olduğunu faktlarla təsdiqləyin.*
– *Uça bilməyən quşlardan hansılarını tanıyırsınız? (dəvəquşu)*

Müəllim uşaqlara test vərəqi paylayır.

1. Mətndə bu sualların birinə cavab yoxdur:
   A) Yarasa nə ilə qidalanır?
   B) Yarasaya nə üçün “gecəquşu” deyirlər?
   C) Yarasa səs dalğalarını necə təyin edir?
2. Səncə, bu adlardan hansı yarasaya uyğundur?
   A) ayaqlı quş
   B) uçan siçan
   C) uzunömürlü quş

İş dəftərinin 70-ci səhifəsindəki dil qaydalarına aid tapşırıqdan istifadə oluna bilər.

**Danışma**

Son iki dərsdə yarasa haqqında oxuduqlarınızı və dinlədiklərinizi ümumiləşdirərək elmi məruzə hazırlayıb təqdim edin.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 71-ci səhifəsində də verilmişdir.)

### VAMPİRLƏR

Yəqin ki, siz qorxulu filmlərdə vampirlər görmüsünüz. Təbiətdə, doğrudan da, “vampir” adlı canlı var. ______ o heç də sizin təsəvvür etdiyiniz qədər qorxulu varlıq deyil. Vampir yarasa növüdür. “Vampir” sözünün hərfi mənası isə “qaniçən” deməkdir. Yarasanın bu növü ona görə belə adlanır ki, o, heyvanlar yatarkən onların qanını sormaqla qidalanır. Siçan boydadır, uzunluğu 5-9 sm, çəkisi isə 15-50 qramdır. Vampirin 20-26 dişi olur. Toyuq-cücənin, at, keçi və b. heyvanların, bəzən də yatmış insanların üstünə qonur, iti dişləri ilə onların dərisini cızır və axan qanı sormağa başlayır. Qan axan hissə tez sağalsa da, təhlükəlidir, çünki həmin hissədən bədənə mikrob keçə bilər.

1. Mavi boşluğun yerinə uyğun gəlmir:
   A) lakin B) sanki C) amma

2. Bu mətndə nədən bəhs edilir?
   A) Qorxulu filmlərin ziyanından
   B) Bəzi canlıların insan üçün təhlükəsindən
   C) Yarasanın bir növündən

3. Altından xətt çəkilmiş söz haqqında deyilənlərdən biri yanlışdır:
   A) Bu sözdən əvvəl gələn cümlə səbəb bildirir.
   B) Köməkçi nitq hissəsidir.
   C) Cümlənin tərkib hissələrini bir-biri ilə bağlayır.

4. Vampir haqqında deyilənlərdən biri mətnə uyğun deyil:
   A) 7 sm uzunluğunda vampirlər var.
   B) Elə vampirlər var ki, çəkisi 90 qrama çatır.
   C) Bəzi vampirlərin 22 dişi olur.

5. Vampirlə bağlı verilən fikirlərdən biri doğrudur:
   A) Dişlədiyi canlı da vampirə çevrilir.
   B) Günəş işığına çıxanda yanıb kül olur.
   C) Canlıların qanını sorur.

**Yazı** üzrə qiymətləndirmə (ifadə)

### DEMOKRATİYA NƏDİR?

Müəllim sinfə daxil oldu. Yeni mövzunu elan etdi: “Bugünkü dərsimiz demokratiyadır”. Sonra demokratiya haqqında fikirlərimizi bilmək istədi. Hərə öz fikrini bildirdi, şagirdlərin çoxu demokratiyanın azadlıq və sərbəstlik olduğunu söylədi. Müəllim söylədi ki, siz demokratiyanı sərbəstlik hesab edirsinizsə, mən sizi on beş dəqiqə sərbəst buraxmaq istəyirəm. İndi sinfi tərk edəcəyəm, siz istədiyiniz kimi hərəkət edə bilərsiniz. Biz hamımız sevindik.

Müəllim sinifdən çıxdıqdan sonra Nigar və Aqil idman çantasındakı topu götürüb bir-birinə atmağa başladılar. Selcan əlindəki təbaşirlə dayanmadan lövhədə nəsə yazdı. Elnur və Murad güclərini sınamağa başladılar. Onlar bir-biri ilə döyüşürdülər. Azər çantasındakı yeməyi çıxarıb iştahla yeməyə başladı. Aqilin atdığı top qəflətən Azərə dəydi, əlindəki yemək yerə düşdü. Qəzəblənən Azər Aqilin üzərinə hücum çəkdi. Selcan təbaşirli əli ilə Elnur və Muradı ayırmağa çalışdı. Onlar üstlərinin batdığını görüb Selcana qəzəbləndilər. Artıq sinif tanınmaz hala düşmüşdü.

Qapı açıldı və müəllim içəri daxil oldu. Hərə öz yerində əyləşdi. Müəllim şagirdlərə yaxınlaşıb demokratiyanın nə olduğunu yenidən soruşdu. Hər bir şagird demokratiyanın

LAYİHƏ

heç də özbaşınalıq və sərbəstlik olmadığını söylədi. Müəllim demokratiya haqqında dərsi davam etdirməyə başladı.

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı cümlədə *"doğru"* sözü köməkçi nitq hissəsidir?
A) Doğru sözə zaval yoxdur. B) Sən də doğru deyirsən.
C) O, qapıya doğru addımladı.

**2.** *"Səndən başqa ürəyimi heç kəsə aça bilmirəm"* cümləsində altından xətt çəkilmiş sözü hansı sözlə əvəz etmək olar?
A) artıq B) ayrı C) ötrü

**3.** Hansı cümlədə söz sırası pozulub?
A) Qorumaq təbiəti borcumuzdur bizim.
B) İçməli suyu çirkləndirmək olmaz.
C) Çoban yapıncısına bürünüb yatdı.

**4.** Hansı cümlədə altından xətt çəkilmiş söz ikincidərəcəli üzv deyil?
A) Vaqif pianino çalır.
B) Balaca uşaqlar pəncərədən boylanırdılar.
C) Konsert sabah olacaq.

**5.** *Hansı cümlədə mübtəda cümlənin əvvəlində gəlməyib*?
A) Traktor tarlanı şumladı.
B) Çöldə güclü külək əsir.
C) Onlar meşəyə tərəf qaçdılar.

## Dərs 47. İLANLAR NİYƏ RƏQS EDİR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Oxuduğu və dinlədiyi eyni mövzuda məlumatları ümumiləşdirərək təqdim edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Öyrəndiyi yeni terminlərin mənasını təxmin edir, lüğət vasitəsilə dəqiqləşdirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə və ya dəyişdirməklə nəql edir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə qurarkən cümlə üzvlərinin ardıcıllığına riayət edir. |

**Motivasiya**
**I variant**. Müəllim şagirdlərə belə bir tapmaca söyləyir və açmasını tapmağı tapşırır:

*Ağzın açar,*
*Zəhər saçar,*
*Hamı görüb*
*Geri qaçar.*

Şagirdlər tapmacanın açmasını *(ilan)* tapırlar.
Cavab alındıqdan sonra BİBÖ cədvəli çəkilir.

LAYİHƏ

| İLANLAR HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Şagirdlərin ilanlar haqqında bildikləri cədvəlin I sütununda, bilmək istədikləri II sütununda yazılır.

**II variant**. Müəllim şagirdlərə sirk tamaşaları zamanı müxtəlif heyvanların göstərdikləri qeyri-adi hərəkətlərlə bağlı şəkillər göstərir və soruşur:

– *Sirk tamaşalarında heyvanların göstərdiyi oyun nömrələrindən hansılar daha çox xoşunuza gəlir? Bu heyvanlar hansılardır?*

Şagirdlər müəllimin sualı ilə bağlı öz cavab variantlarını söyləyirlər. Cavablar içərisində tütək musiqisinin sədaları altında ilanın oynaması deyilmirsə, müəllim özü bunu xatırlada bilər:

*– Görəsən, ilan, doğrudanmı, musiqini hiss edərək oynayır?*

**Oxu**

Dərsliyin 106-107-ci səhifələrindəki mətn abzaslarla oxunur. Hər abzasdan sonra müəllim həm mənimsəməni, həm də qavramanı yoxlamaq məqsədilə suallar verir.

– *İlan insanlarda hansı hissləri doğurur?*
– *Nə üçün insanlar ilanlardan ehtiyat edir?*
– *İlanla bağlı hansı məsəl var?*
– *İlan şikarını necə "hipnoz" edir?*
– *Hind fokusçularının hansı bacarıqları var?*
– *Necə olur ki, ilanlar rəqs edir?*
– *İlanların hansı faydası var?*

Mətn oxunub qurtardıqdan sonra aşağıdakı sual verilir:

– *Mətndə hansı suala cavab yoxdur?*
*A) İlanlar nə ilə qidalanır?*
*B) Niyə ilanlarla ehtiyatlı olmaq lazımdır?*
*C) İlanlar necə çoxalır?*

Şagirdlər mətndəki *elastik, refleks* sözlərinin mənalarını kontekstə görə təyin etməyə çalışırlar (dərslik, səh. 107, tap. 1), sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

Sonra BİBÖ cədvəlinin III sütununa şagirdlərin öyrəndikləri informasiyalar yazılır.

II sütunda yazılan bəzi məlumatlar, yəqin ki, dərslikdəki mətndə tam əksini tapmamışdır. Bunu vurğulayan müəllim onları dinləmə mətni ilə tanış edir.

**Yazı**

Dərsliyin 107-ci səhifəsindəki 3-cü tapşırıq yazılı şəkildə yerinə yetirilir.

İş dəftərinin 72-ci səhifəsindəki 1-ci tapşırıqdan da istifadə oluna bilər.

*Müəllimin nəzərinə: Şagirdlər dərslikdəki 2-ci tapşırığın 1-ci hissəsini yerinə yetirməkdə çətinlik çəkə bilərlər. Müəllim şagirdlərə 2-ci sinifdə keçdikləri "Kəndli və ilan" nağılını xatırlada bilər. Nağıllarımızda ilan çox zaman müdrik, xeyirxah obraz kimi qələmə verilir. Şagirdlər* ***iş dəftərinin 72-ci*** *səhifəsindəki 1-ci tapşırığı yerinə yetirdikdən sonra verilmiş atalar sözlərindən istifadə etməklə fikirlərini tamamlaya bilərlər.*

**Dinləmə**

## İLAN ZƏHƏRİ

İlan həm ov əldə etmək, həm də özünü müdafiə üçün zəhərindən istifadə edir. O, hücum etdiyi canlını iti dişləri ilə sancaraq zəhəri yaraya buraxır. Canlının qanına keçən zəhər damarları zədələyir, qanın laxtalanmasına səbəb olur. Bir çox hallarda bu, həmin canlının ölümü ilə nəticələnir. İlanın çox olduğu Afrikanın bəzi qəbilələrində yeni doğulmuş uşağın dabanını

LAYİHƏ

çərtərək ora azacıq ilan zəhəri sürtürlər. Belə olduqda uşağın orqanizmində zəhərə qarşı immunitet yaranır və onun bədəni ilan zəhərinə qarşı dözümlü olur.

İlan zəhərinin faydası da çoxdur. Ondan təbabətdə bir sıra dərman preparatlarının hazırlanması üçün istifadə edilir. Bunun üçün ilanlar xüsusi fermalarda saxlanılır. Onların zəhər vəzilərini zəif elektrik cərəyanı vasitəsilə qıcıqlandırmaqla yığılmış zəhəri almaq mümkündür.

Mətn oxunduqdan sonra BİBÖ cədvəlinin III sütununa şagirdlərin yeni öyrəndikləri məlumatlar da qeyd olunur.

İş dəftərinin 72-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilə bilər.

Lüğətdən istifadə etməklə *laxtalanma, orqanizm, immunitet, preparat, təbabət, elektrik, cərəyan* sözlərinin düzgün yazılışını və izahını müəyyənləşdirin.

**Dil qaydaları**

4-cü tapşırıq. *Meşə, dağ, dərə donunu dəyişir. Hər təpə, hər dağ al-əlvan geyinir. Çöllərdə başqa mənzərə görünür. Bülbül bağlarda şur ilə oxuyur.*

5-ci tapşırıq. Bu tapşırıqda verilən söz birləşmələri bir cümlədə mübtəda, digər cümlədə isə xəbər rolunda iştirak etməlidir; məsələn:

*Tütəyin hərəkəti ilanın diqqətini cəlb etdi.*
*İlanın rəqs etməyinin səbəbi tütəyin hərəkətidir.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 72-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 48. DÜNYAGÖRMÜŞ BABA (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Müəyyən elmi məlumatları mənimsəməklə qoyulmuş suallara aydınlıq gətirir. Eşitdiyi və oxuduğu inanclar haqqında mühakimə xarakterli fikirlər irəli sürür. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Mətndəki obrazların nitqini səsləndirərkən onların xarakterinə uyğun intonasiya, jest və mimikalardan istifadə edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Sözün mətndəki mənasını kontekstdən çıxış edərək müəyyənləşdirir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |

**Motivasiya**

Şagirdlərə "Bəyin oğurlanması" filmindən bir kadr göstərilir. Kadr hava proqnozu ilə bağlı hissədir. Əhməd kişi səmaya baxaraq deyir: "*Sabah elə yağış yağacaq ki, tut ucundan, çıx göyə*".

**Müəllim:** – *Qoca haradan bildi ki, sabah yağış yağacaq?*

Şagirdlər öz cavab versiyalarını söyləyirlər. *"Proqnoz"* sözünün mənası araşdırılır.

**Sual:** – *Bu söz yalnız hava haqqındamı işlədilir? Siz bəzən mətnin bir hissəsini oxuyub davamını təxmin edirsiniz. Buna "proqnoz" demək olarmı?*

*Müəllim şagirdlərə aşağıdakı məlumatı çatdırır:*

LAYİHƏ

*– Müasir zamanda elektron cihazlar və kosmik müşahidə sistemləri havanın dəqiq proqnozuna imkan verir. Qədimdə isə insanlar bunu təbiət üzərində uzunmüddətli müşahidələr vasitəsilə edirdilər. Daim təbiətin qoynunda olan çobanlar və əkinçilər heyvanların, quşların, eləcə də göy cisimlərinin hərəkətlərini müşahidə etməklə nəinki bir neçə gün, hətta bir neçə ay qabaqcadan havanın necə keçəcəyi barədə məlumat verirdilər.*

**Oxu** (rollu oyun)

Dərsliyin 108-109-cu səhifələrindəki mətn şagirdlər tərəfindən əvvəlcə səssiz oxunur. Sonra mətnin 109-cu səhifədə verilmiş dialoq hissəsi 2 şagird tərəfindən səhnələşdirilir. Bu zaman aktyor şagirdlər müvafiq obraza aid nitqi səsləndirməklə yanaşı, hər bir obrazın hərəkətlərini mətndə təsvir olunduğu kimi nümayiş etdirməyə çalışırlar.

Dərsliyin 109-cu səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

2-ci tapşırıq. *Otaqdakı isti hava yüngül olduğu üçün yuxarıdan bayıra çıxır. Buna görə şamı yuxarı qaldıranda isti hava onun alovunu çölə əyir.*

*Şam aşağıda olanda onun alovu içəriyə, otağa doğru əyilir.*

3-cü tapşırıq. Arqumentlər aşağıdakılar ola bilər:

*– Yerin Günəş ətrafındakı hərəkəti 1 ilə başa çatır. Qışın və yayın dəyişməsi birdən-birə yox, tədricən baş verir. İlin ayrı-ayrı fəsillərində biz çayların donmasını, qaranquşların gəlməsini, meyvələrin yetişməsini, yarpaqların tökülməsini müşahidə edirik.*

**Dinləmə**

**OKSİGEN**

İnsan nəfəs almadan yaşaya bilməz. Nəfəs aldığımız hava hər yerdə eyni cür olmur. Təbiətin qoynunda – meşədə, çəməndə insan daha rahat nəfəs alır. Fabrik, zavod və maşınların daha çox olduğu şəhərlərdə isə nəfəs almaq daha çətin olur. Nəfəs alarkən qəbul etdiyimiz havanın tərkibində müxtəlif qazlar, o cümlədən oksigen var. Oksigen insan orqanizmi, xüsusilə qan-damar sistemi üçün vacib elementdir. Ağacların çox olduğu yerlərdə oksigen çox olur. Ona görə də belə yerlərdə insan özünü yaxşı hiss edir. Bitki örtüyünün az olduğu şəhərlərdə isə hava karbon və digər zərərli qazlarla bol olur. İnsan yemək yemədən 6 ay, su içmədən ən çoxu 7 gün, oksigen almadan yalnız bir neçə dəqiqə yaşaya bilər.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 73-cü səhifəsindəki 1-3-cü tapşırıqlardan istifadə oluna bilər.

**Danışma** (debat)

Şagirdlər iki qrupa bölünüb debat keçirirlər:

**I qrup:** – *Bilikli olmaq üçün çox oxumaq vacibdir.*

**II qrup:** – *Əsl bilik həyat təcrübəsi ilə gəlir, ona görə də çox oxumaq vacib deyil.*

Daha sonra “auksion” oyunu keçirilir. Müəllim bildirir ki, ata-babalarımızın inandığı bir çox əlamətlər olub ki, *inanc* adı altında şifahi xalq ədəbiyyatımıza daxil olmuşdur. İndi də yaşlı adamlar bu inancları tez-tez təkrar edirlər; məsələn:

*– Qarğa çox olanda qış sərt keçər.*
*– Qabağından qara pişik keçsə, getdiyin iş baş tutmaz.*
*– Duz-istiot dağılanda evdə dava düşər və s.*

Müəllim tapşırır ki, şagirdlər indiyə kimi böyüklərdən eşitdikləri inancları xatırlayıb söyləsinlər.

*Müəllimin nəzərinə: Müəllim müxtəlif suallarla şagirdlərin yaddaşını fəallaşdıra bilər:*

*– Novruzla bağlı hansı inanclar var? (Axır çərşənbə günü kiminlə küsülü olsan, yeddi il barışmazsan. Bayram axşamı evdə pis söz danışmaq olmaz.)*
*– Boşqabınızda yemək qalanda böyüklər nə deyir? (Nişanlın göyçək olmaz.)*
*– Həyətdən bayquş səsi gələndə nə deyirlər? (Evdə bədbəxtlik olar.)*

***Müzakirə***

*“İnancları ciddi qəbul etmək olarmı?” mövzusunda müzakirə keçirilir.*

LAYİHƏ

**Dil qaydaları**

Dərslikdəki mətnin 3-cü abzası dəftərə köçürülür və orada işlənmiş köməkçi nitq hissələrinin altından xətt çəkilir. İş dəftərindən 4-cü və 5-ci tapşırıqlar yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 49. MÖCÜZƏLƏR NİYƏ YOX OLUR (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətnə öz versiya və düşüncələrini əlavə etməklə araşdırma xarakterli təqdimat edir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədilə məzmuna müvafiq jest və mimikalardan istifadə edir. | Mətndəki obrazların nitqini səsləndirərkən onların xarakterinə uyğun jest və mimikalardan istifadə edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadənin mənasını kontekstdən çıxış edərək müəyyənləşdirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Elmi-kütləvi mətndəki ən mühüm məlumatları seçərək yazılı şəkildə təqdim edir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin planına yeni başlıqlar əlavə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduqlarından və eşitdiklərindən bəhrələnərək mühakimə xarakterli inşa yazır. |
| 4.1.5.Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlələrdə mübtəda və xəbərin yerini müəyyən edir. |

**Motivasiya** (şaxələndirmə)

Müəllim yazı taxtasında "Dünyanın yeddi möcüzəsi" sözlərini yazır, möcüzələrin şəkillərini nümayiş etdirir və şaxələndirmə sxemi uşaqların iştirakı ilə doldurulur.




**Sual:** – *Bu möcüzələr haqqında nə bilirsiniz?*

Şagirdlər arasında dünyanın yeddi möcüzəsi haqqında məlumatı olanların mülahizələri dinlənilir. BİBÖ cədvəli çəkilir:

| DÜNYANIN YEDDİ MÖCÜZƏSİ HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

LAYİHƏ

Şaxələndirmənin nəticələri BİBÖ cədvəlinin 1-ci sütununda qeyd olunur. Şagirdlər möcüzələr haqqında bilmək istədiklərini 2-ci sütunda qeyd edirlər.

**Dinləmə**

Mətni oxumazdan əvvəl müəllim şagirdlərə tapşırır ki, bir vərəq götürüb mətndə eşitdikləri adlar, rəqəmlər və onlarla bağlı məlumatları qeyd etsinlər. Buna görə də müəllim həmin cümlələri aramla (bəzən iki dəfə) oxuyur və bu cümlələrdən sonra fasilə verir.

### DÜNYANIN MÖCÜZƏLƏRİ

"Yeddi möcüzə" anlayışı təxminən 2200 il bundan əvvəl yaranmışdır. O dövrdə bu möcüzələrin hamısı mövcud idi. Hər bir səyyah bir neçə ay müddətində səyahət edərək bu yeddi möcüzənin yeddisini də görə bilərdi.

Bir müddətdən sonra bu abidələr müxtəlif səbəblərdən – müharibələr, zəlzələlər və s. nəticəsində bir-bir yox olmağa başladı. Bizim dövrümüzə isə onlardan yalnız biri, qəribə də olsa, ən qədimi – Misir ehramları gəlib çatmışdır. Piramida şəklində olduğu üçün onlara Misir piramidaları deyirlər. Bu tikililər Misir hökmdarlarının – fironların dəfn olunduğu yerdir. Ən böyük piramida 4800 il bundan əvvəl inşa edilən Xeops ehramıdır. Məhz bu piramida dünyanın yeddi möcüzəsindən birincisi sayılır. Xeops piramidası düz 30 ilə tikilmişdir. Təkcə birinci on il ərzində piramida tikilən yerdən daş karxanasına yol çəkilmişdir. Burada eyni zamanda on minlərlə adam işləyirdi.

**Suallar:**
– *Firon kimdir?*
– *Karxana nədir?*
– *Dünyanın ilk möcüzəsi necə adlanır?*
– *Xeops piramidası nə zaman inşa edilmişdir?*

Bir neçə şagird öz qeydlərini oxuyur. Müəllim şagirdlərə dinləmə mətni üzrə yazılı qeyd aparmaq yolunu öyrədir. Bildirir ki, vacib saydıqları cümlələri olduğu kimi yazmaq çox vaxt aparır. Ona görə də yaxşı olar ki, açar söz və söz birləşmələrini qeyd etsinlər. Bu qeydlər sonradan mətni təfərrüatı ilə yada salmağa imkan verir; məsələn:
– 2200 il əvvəl – "Yeddi möcüzə" anlayışı
– Misir ehramları – ən qədim möcüzə
– Ən böyük piramida – Xeops piramidası – 4800 il əvvəl
Ən vacib iki məlumat BİBÖ cədvəlinin 3-cü sütununda qeyd olunur.

Dünyanın ikinci möcüzəsi Babilin asma bağları sayılır. Əfsanəyə görə, bu bağları 2700 il bundan əvvəl Babil padşahı öz arvadı Semiramidanın şərəfinə saldırmışdır. Bu bağlar bir neçə mərtəbədən ibarət idi. Bura dünyanın hər yerindən gül və ağaclar gətirilmişdi. Yüzlərlə qul gecə-gündüz nəhəng çarxları fırladaraq Fərat çayından asma bağlara su qaldırırdı.

Şagirdlər öz qeydlərini oxuyurlar.
**Suallar:** – *Dünyanın ikinci möcüzəsi necə adlanır?*
– *Babil bağları kimin şərəfinə salınmışdı?*
– *Bu bağlar hansı çayın yaxınlığında yerləşirdi?*
Ən vacib iki məlumat BİBÖ cədvəlinin 3-cü sütununda qeyd olunur.

Artemis məbədi 2550 il bundan əvvəl Yunanıstanın Efes şəhərində ilahə Artemisin şərəfinə ucaldılıbmış. Məbəd təxminən 120 ilə tikilmişdir. Məbədin içində Artemisin böyük və möhtəşəm heykəli ucalırdı.

Dünyanın dördüncü möcüzəsi yunanların baş ilahı Zevsin heykəlidir. Təxminən 2450 il bundan qabaq yaradılmış bu heykəl qızıldan, fil sümüyündən və qarağacdan düzəldilmişdi. 14 metrlik bu nəhəng abidədə Zevs taxtda oturmuş vəziyyətdə təsvir edilirdi. Onun başında qızıldan düzəldilən zeytun budaqlarından hörülmüş çələng (bu, zəhmli ilahın sülhsevər olmasına işarə idi) var idi.

LAYİHƏ

Şagirdlər öz qeydlərini oxuyurlar.
**Suallar:** – *Artemis məbədi kimin şərəfinə tikilmişdi?*
– *Artemis məbədinin içində nə var idi?*
– *Dünyanın dördüncü möcüzəsinin adı nədir?*
– *Zevs kim idi?*
– *Zevsin heykəlini təsvir edin.*
Ən vacib iki məlumat BİBÖ cədvəlinin 3-cü sütununda qeyd olunur.

Beşinci möcüzə də Yunanıstanda yaranmışdı. Bu, Halikarnas şəhərində Mavsol adlı padşah üçün ucaldılan məqbərədir. Mavsolun adından *mavzoley* sözü yaranmışdır.

2300 il bundan əvvəl sərkərdə Demetri Yunanıstandakı Rodos adasına hücum edir. Lakin Demetri azadlıqsevər rodosluları məğlub edə bilmir. Adanın uğurlu müdafiəsi şərəfinə rodoslular adada dünyanın ən böyük heykəlini qoymağı qərara alırlar. Rodos nəhəngi adlanan bu heykəl dünyanın altıncı möcüzəsi sayılır. 36 metrlik tunc heykəldə gənc oğlan təsvir olunmuşdu. Ada sakinləri onu özlərinin himayədarı sanırdılar.

Təxminən Rodos nəhəngi ilə eyni vaxtda İsgəndəriyyə şəhərinin kənarında Qədim Yunanıstanın ən böyük mayakı tikilmişdi. Dünyanın yeddinci möcüzəsi sayılan bu qüllənin hündürlüyü 120 metrə çatırdı. Onun zirvəsində gəmilərə yol göstərən tonqal yanırdı.

Şagirdlər öz qeydlərini oxuyurlar.
**Suallar:** – *Dünyanın beşinci möcüzəsinin adı nədir və harada yaranmışdır?*
– *Dünyanın altıncı möcüzəsi nəyin şərəfinə qoyuldu?*
– *Rodos heykəlinin hündürlüyü nə qədər idi?*
– *Dünyanın yeddinci möcüzəsi nə vaxt tikilmişdir?*
– *İsgəndəriyyə mayakının hündürlüyü nə qədər idi?*
– *Dünyanın yeddinci möcüzəsi hansı məqsədlə tikilmişdi?*
Ən vacib iki məlumat BİBÖ cədvəlinin 3-cü sütununda qeyd olunur.

Şagirdlər iş dəftərində (səh. 74-75) verilmiş cədvəli diqqətlə nəzərdən keçirdikdən sonra 1-8-ci tapşırıqları yerinə yetirə bilərlər.
**Əlavə tapşırıqlar:**
*1. Dünyanın birinci, üçüncü və sonuncu möcüzələrinin yaranma tarixini "Milad oxu"nda qeyd edin.*
*2. "Dünyanın yeddi möcüzəsi" ifadəsi neçənci əsrdə yarana bilərdi?*
*A) M.ə. III əsrdə (doğru cavab)*
*B) M.ə. VI əsrdə*
*C) M.ə. XXVIII əsrdə*
*3. Dinlədiyiniz mətndə yadınızda qalan, lakin iş dəftərində verilmiş cədvəldə öz əksini tapmayan məlumatları dəftərdə qeyd edin.*
*4. Dünyanın yeddi möcüzəsini bildirən adların ensiklopedik lüğətini hazırlayın (şagirdlərə bildirilir ki, bu lüğətdə möcüzələrin adları əlifba sırası ilə düzülməli və qarşısında müvafiq möcüzə haqqında ətraflı məlumat verilməlidir).*
*5. Verilmiş sözləri izah edin və cümlələrdə işlədin:*
*firon, ehram, karxana, məbəd, piramida, mavzoley, mayak, məqbərə*

**Cütlərlə iş.** Şagirdlər cütlərlə işləyərək dinləmə mətni üzrə öz qeydlərini ümumiləşdirir, onları iş dəftərindəki cədvəllə müqayisə edir və mövzu üzrə məruzə hazırlayırlar. Bir neçə cütlüyün məruzəsi dinlənilir. Qalan şagirdlər məruzədəki boşluqları öz əlavələri ilə doldururlar.

**Oxu**
**Müəllim:** – *Dünyanın 7 möcüzəsindən hansı indiyədək qorunub saxlanılır?*
– *Dünyanın hansı möcüzələri indiki Türkiyənin ərazisində yerləşib? (Halikarnas mavzoleyi, Artemis məbədi)*
– *Bunlardan hansı qədim yunan ilahəsinin şərəfinə tikilib? (Artemis məbədi)*

LAYİHƏ

*– Digər 6 möcüzə hansı səbəbdən yox olub?*
Cavablar dinlənilir.
Mətn (dərslik, səh. 110-111) 3 hissəyə bölünüb "Ziqzaq" üsulu ilə oxunur.
1-ci ekspert qrupunun şagirdləri – 1, 2-ci abzaslar
2-ci ekspert qrupunun şagirdləri – 3, 4, 5-ci abzaslar
3-cü ekspert qrupunun şagirdləri – 6, 7-ci abzaslar
Şagirdlərə tapşırılır ki, hər bir ekspert qrupu oxuduğu hissəyə başlıq versin.
Mətn bütövlükdə əsas qrup nümayəndələri tərəfindən nəql olunduqdan sonra suallar verilir:
*1. Məbədin damının hündürlüyü nə qədər idi?*
*2. Tarixi abidələrin qeydinə hansı xalq daha çox qalırdı?*
*A) türklər B) yunanlar C) ingilislər*
*3. Artemis məbədinin eksponatları harada qorunub saxlanılır?*
*A) Ermitaj muzeyində B) Britaniya muzeyində C) Efes şəhərində*
*4. Herostratın hərəkətini necə qiymətləndirirsiniz?*
*5. Artemis məbədinin qalıqları Britaniyaya necə gedib çıxdı?*
*6. Makedoniyalı İsgəndər və dünyanın III möcüzəsi arasında hansı əlaqə var?*

Dərsliyin 111-ci səhifəsindəki 1-7-ci tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 75-ci səhifəsindəki 9-cu tapşırıqdan istifadə etmək olar.

**Dinləmə**

**DOĞRUDANMI, HEROSTRAT?**

Tarixin yaddaşında Herostrat məşhurlaşmaq məqsədi ilə günah işlədən bir adam kimi qalıb. Bəzi tarixçilərin fikrincə, doğrudan da, o dövrdə Efesdə belə bir adam olub, lakin Artemis məbədini heç də o yandırmayıb.

Həmin dövrdə Yunanıstanda Artemis məbədi ən müqəddəs yerlərdən biri sayılırdı. Buradakı kahinlərə – o dövrün ruhanilərinə hamı inanır və etibar edirdi. Uzaq səfərə çıxan tacirlər öz pullarını saxlamaq üçün kahinlərə verirdilər. Yanğının sirri də elə bundadır. Baş kahin ona etibar edilmiş pulları şəxsi məqsədləri üçün istifadə etmişdi. Pulu qaytarmaq məqamı çatanda isə o, izi itirmək üçün məbədi yandırdı. Kahin işi elə düzüb-qoşdu ki, hamı yanğının günahını səfeh Herostratda gördü.

**Danışma** (müttəhimlər və ittihamçılar)

**Müəllim:** – *Siz Artemis məbədinin yandırılması ilə bağlı iki versiya ilə tanış oldunuz: Herostrat və baş kahin. Mənim bununla bağlı öz versiyam var. Ancaq onu səsləndirməzdən əvvəl istərdim ki, siz cütlərlə işləyərək öz versiyanızı düşünüb təqdim edəsiniz.*

Şagirdlərə bir neçə dəqiqə vaxt verilir. Bundan sonra cütlər öz versiyalarını təqdim edir. Sonda müəllim öz versiyasını təqdim edir: – *Makedoniyalı İsgəndərin atası II Filip çox şöhrətpərəst adam idi. O, oğlunun anadan olduğu günü tarixə salmaq üçün həmin gecə öz adamlarını Efesə göndərdi ki, Artemis məbədini yandırsınlar.*

Şagirdlər səsvermə yolu ilə ən maraqlı və inandırıcı versiyanı seçirlər.

**Müəllim:** – *Təsəvvür edin ki, Artemis məbədi yandırıldıqdan sonra Efes şəhərinin hakimi məhkəmə qurub ki, günahkarı müəyyən etsin. İndi siz bu məhkəməni səhnələşdirməlisiniz. Bunun üçün aranızdan üç nəfərdən ibarət məhkəmə heyəti seçilməlidir. Qalan şagirdlər üç qrupa bölünürlər.*

**I qrup:** müttəhim Herostrat, onun vəkili və şahidləri
**II qrup:** müttəhim baş kahin, onun vəkili və şahidləri
**III qrup** (əgər müəllimin versiyası seçilibsə)**:** müttəhim II Filip, onun vəkili və şahidləri
Müəllim məhkəmə prosesinin qaydalarını izah edir və hamını bu qaydalara əməl etməyə çağırır.

*Müəllimin nəzərinə: Bu səhnənin xaotik hay-küyə çevrilməməsi üçün baş hakim vəzifəsinə liderlik xüsusiyyətlərinə malik şagird seçilməlidir. O, hamıya bir-bir söz verməli, qərarları məhkəmə heyətində səsə qoymaqla qəbul etməlidir.*

LAYİHƏ

Sonda məhkəmə heyəti səsvermə yolu ilə müttəhimi müəyyən edir və ona cəza təyin edir.

**Yazı**

"Qız qalası dünyanın 8-ci möcüzəsidir" mövzusunda inşa yazmaq. Bu yazı araşdırma xarakterli olduğundan ev tapşırığı kimi verilə bilər.

**Dil qaydaları**

8-ci tapşırıq. *Məbədin inşası üçün (ikincidərəcəli üzv) Yunanıstanın ən bacarıqlı memarları (baş üzv – mübtəda) dəvət olunmuşdu (baş üzv – xəbər).*

*– Məbədin içində Artemisin böyük və möhtəşəm heykəli ucalırdı.*
*Məbədin içində, böyük və möhtəşəm – ikincidərəcəli üzvlər*
*Artemisin heykəli – baş üzv, mübtəda*
*ucalırdı – baş üzv, xəbər*
*– Bu barədə hökumətə xəbər verdilər.*
*Bu barədə, hökumətə – ikincidərəcəli üzvlər*
*xəbər verdilər – baş üzv, xəbər*

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 76-cı səhifəsində də verilmişdir.)

## BABİL QÜLLƏSİ

Adi bir eksperiment keçirin: kimdənsə xahiş edin ki, dünyanın yeddi möcüzəsini bir-bir saysın. O adam, ____ , birinci Misir ehramlarının adını çəkəcək. Sonra, ____ , Semiramida bağları yada düşəcək. Ondan sonra da, ____ , növbə Babil qülləsinə çatar. Bununla da həmin adam səhv etmiş olacaq. Çünki Babil qülləsi mövcud olmamışdır.

Xristianların müqəddəs kitabı olan "Bibliya"da yazılmışdır ki, bir vaxtlar bütün insanlar eyni dildə danışırdılar. Bir gün onlar adlarını əbədiləşdirmək üçün göylərə çatan nəhəng bir qüllə tikmək qərarına gəlirlər. Bu vaxt Tanrı onların tikdiyi qülləyə baxmaq üçün yer üzünə enir. İnsanların təkəbbürlü niyyəti onu qəzəbləndirir. Buna görə onların dilini qarışdıraraq hərəsini bir dildə danışmağa məcbur edir. Nəticədə qüllənin inşaatçıları bir-birini başa düşə bilmir və iş dayandırılır.

1. "Eksperiment" sözünü hansı sözlə əvəz etmək olar?
   A) hiylə
   B) zarafat
   C) təcrübə

2. Hansı söz mavi boşluqların heç birinə uyğun gəlmir?
   A) yəqin B) ola bilsin ki C) belə ki Ç) çox güman ki

3. Fikirlərdən biri yanlışdır:
   A) Dünyanın yeddi möcüzəsi, həqiqətən, mövcud olmuşdur.
   B) Babil qülləsi dünyanın üçüncü möcüzəsidir.
   C) Semiramida bağları da Babildə yerləşirdi.

4. Babil qülləsi haqqında rəvayətdən çıxan əsas nəticə:
   A) Bütün insanlar bir dildə danışsalar, yaxşı olar.
   B) Bir işə başlayarkən Tanrıya dua etmək lazımdır.
   C) Birgə iş görmək üçün insanlar bir-birini başa düşməlidir.

LAYİHƏ

**Yazı** üzrə qiymətləndirmə (inşa)

Mövzu: “*Yeni ildən nə gözləyirəm?*”

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansi cümlədə altından xətt çəkilmiş söz cümlənin II dərəcəli üzvüdür?
A) Müəllim Tərlandan razıdır.
B) Kauçuk neftdən alınır.
C) Biz Leyla ilə görüşdük.

**2.** Hansı cümlədə “ilə”ni “və” ilə əvəz etmək olar?
A) Aygün ilə Ayan yaxın rəfiqədirlər.
B) Tural atası ilə kəndə getdi.
C) Aytac nağıl kitabları ilə çox maraqlanırdı.

**3.** Hansı cümlədə “kimi” köməkçi nitq hissəsidir?
A) Ad günümə kimi istəsəm, onu da çağıracağam.
B) Ad gününə kimi çağırmaq istəyirsən?
C) Ad günümə kimi xeyli iş görməliyəm.

**4.** İkincidərəcəli üzvün işlənmədiyi cümləni seç:
A) Artıq havalar isinir.
B) Artıq tamah baş yarar.
C) Çox istəyən azdan da olar.

**5.** “Axır ki, biz endik bir dərəyə” cümləsində hansı söz sonda işlənsə, söz sırası pozulmaz?
A) bir B) biz C) endik

## Dərs 50. PEYVƏND NİYƏ VACİBDİR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi və oxuduğu mətnləri müqayisə edərək ümumi cəhətlərini müəyyənləşdirir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Mətndə rast gəldiyi terminləri kontekstə əsasən izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki mılumatların təsnifatını aparır (sistemləşdirir). |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə üzvlərinin yerini müəyyən edir. |

**Motivasiya**
**Müəllim:** –
Yəqin ki, hamınız haçansa xəstələnmisiniz və bu zaman sizə müəyyən dərmanlar içirdiblər, iynə vurublar və s. Bəs elə olubmu ki, özünüzü tamamilə sağlam hiss etdiyiniz halda sizi poliklinikaya aparıb iynə vurdurublar? Sizcə, bunu nə üçün edirlər? Şagirdlərin fikirləri dinlənilir, sonra müəllim fikirləri ümumiləşdirərək peyvənd haqqında məlumat verir.

LAYİHƏ

## Oxu

Mətn (dərslik, səh. 112) hissələrlə oxunur. Şagirdlər hər bir abzasda söhbətin nədən getdiyini söyləyirlər. Sonra dərsliyin 113-cü səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir: C, A, D, B.

2-ci tapşırıq: 1 – *D, 2 – D, 3 – Y, 4 – D 5 – Y.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 77-ci səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

## Dinləmə

Müəllim aşağıdakı bayatıları səsləndirir:

Yeni gül-çiçək olsun,
Yarpağı ləçək olsun.
Bir bala göstərin ki,
Balamdan göyçək olsun.

Layla çallam ucadan.
Ünüm gələr bacadan,
Allah səni saxlasın –
Çiçəkdən, qızılcadan.

Layla gözəl, gül balam,
Saçları sünbül balam.
Güllərin açsın çiçək,
Bağçada bülbül balam.

Suallar:

– *Eşitdiyiniz laylalardan hansının məzmunu oxuduğunuz mətnlə bağlıdır?*
– *Bu laylada söhbət nədən gedir?*
– *Bu layla dərslikdə verilən mətndəki hansı məlumatı təsdiqləyir?*

*Müəllimin nəzərinə: Şagirdlər 3-cü sualı cavablandıra bilməsələr, müəllim onların diqqətəni mətnin 1-ci abzasındakı son üç cümləyə yönəldə bilər.*

## Danışma

Müəllim şagirdlərin diqqətini dərslikdə çərşivə içərisində verilmiş məlumata yönəldir. Onlara təklif edir ki, çiçək xəstəliyinin nə üçün belə adlandırılması ilə bağlı "Bu maraqlıdır" başlığı altında məruzə hazırlasınlar. Araşdırma üçün material kimi şagirdlərə aşağıdakı məlumatlar təqdim oluna bilər:

1. Çiçək xəstəliyindən sonra dəridə qalan çopura, çapıqlara. batıqlara çiçək deyilir.
2. Bu xəstəliyin adı bəzi mənbələrdə *çekek* (çökək) kimi verilib. Xəstəlikdən sonra üzdə çökəklərin yaranması ilə bağlıdır.
3. Bəzən düşünürlər ki, çiçək xəstəliyinə tutulanların üzü səpib çəmənzarı xatırlatdığı üçün bu xəstəlik belə adlanır.
4. Çiçək çıxartmaq – çiçək xəstəliyinə tutulmaq.
5. Gözəl ağa gözəl idi, bu yandan da vurub çiçək çıxartdı – onsuz da çoxlu problemləri, dərdləri olan şəxsin daha bir ciddi problemlə üzləşməsini bildirən ifadə.

## Dil qaydaları

Dil qaydasına motivasiya xarakterli verilmiş 4-cü tapşırıq yerinə yetirildikdən sonra dərslikdəki qayda oxunur və mənimsədilir. Müəllim qaydanı şagirdlərin necə mənimsədiyini yoxlamaq məqsədilə elə cümlələr deməyi tapşırır ki, həmin cümlələrdə baş üzvlərdən yalnız xəbər işlənsin.

5-ci tapşırıq.

Buna görə də o, çiçək xəstəliyinin geniş yayıldığı yerlərdə müşahidələr aparırdı.

6-cı tapşırıq.

*1. O, həyətdən yığdığı gülləri güldana qoydu.*
*2. Biz kitabxanada kitabları rəfə yığdıq.*
*3. Sabahkı gəzinti haqqında onlar məlumat verdilər.*

7-ci tapşırıq.

*Məktəbdə valideyn iclası keçirildi.*
*Dərslərini yaxşı oxumalısan.*
*Muzeyə ekskursiya təşkil edildi.*

İş dəftərinin 77-ci səhifəsindəki dil qaydaları üzrə tapşırıqlar da yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 51. BAĞBAN SİNCAB (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi elmi məlumatları ümumiləşdirərək qrafik informasiya şəklində təqdim edir. |
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Eyni mövzu ilə bağlı bədii və elmi-kütləvi mətnlərdəki məlumatları müqayisə edir, ümumiləşdirir və təqdim edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki hadisələri elmi cəhətdən əsaslandırılmış şəkildə təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |

**Motivasiya**

Müəllim dərsə kiçik bir çıxışla başlayır:

– *Meşə bizim sərvətimizdir. Meşə olmasa, çaylar quruyar. Meşələr havanı bütün canlılar üçün vacib olan oksigenlə zənginləşdirir. Oxuduğunuz kitabların kağızı da ağac oduncağından alınır. Meşə ağaclarından evlər tikilir, mebel hazırlanır. Bəzi bitkilərdən müxtəlif dərman maddələri istehsal olunur. Bəs meşələrdə ağacları kim əkir? Necə olur ki, ağaclar insan köməyi olmadan bitir?*

Şagirdlər öz versiyalarını irəli sürürlər.

**Oxu** (proqnozlaşdırma)

Dərslikdən mətn (səh. 114-115) *"Qoy qozanı yerə basdırım..."* cümləsinə qədər oxunur və mətnin davamı ilə bağlı şagirdlərin versiyaları dinlənilir. Ardı *"Qoy oturum gözləyim..."* cümləsinə qədər oxunduqdan sonra şagirdlərin dedikləri ilə müqayisə olunur. Yenə şagirdlərin versiyaları dinlənilir. Mətn sona qədər oxunur, variantlarla müqayisə olunur.

Dərslikdən (səh.115) mətnlə bağlı verilmiş sual və tapşırıqlar yerinə yetirilir.

Eləcə də iş dəftərinin 78-ci səhifəsindəki tapşırıqlardan istifadə etmək olar.

**Dinləmə**

**Sual və tapşırıqlar:**

– *Oxuduğunuz mətn bədii mətndir, yoxsa elmi? Cavabınızı əsaslandırın.*

– *Bu mətndə təsvir olunmuş hadisələrə inandınızmı? Sizcə, sincab, doğrudanmı, şam qozasını yerə basdırıb sonra yeyir?*

Şagirdlər BİBÖ cədvəlinin birinci iki sütununu doldururlar.

| SİNCAB HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Müəllim dinləmə mətnini oxuyur.

**SİNCAB**

Sincab çox maraqlı heyvandır. Qorxaqlıqda onu dovşanla müqayisə etmək olar. Bir təhlükə hiss edən kimi ayaqları üstə qalxıb əllərini sallayır və ətrafı nəzərdən keçirir. Düşmənini görən kimi qulaqbatırıcı səslə qışqırıb qaçır. Lakin o, insandan qorxmur. Bir çox şəhərlərin parklarında sincablara rast gəlmək olar. Onlar rahatca ora-bura qaçır, bu-

LAYİHƏ

daqdan-budağa tullanır, bəzən gəzişən adamlara lap yaxın gəlir, onların əlindən qoz, fındıq alıb yeyirlər. Balaca uşaqlar sincabları günəbaxan tumuna qonaq edirlər.

Sincab gəmirici heyvandır. O, demək olar ki, hər şey yeyir: meyvə, göbələk, həşərat, toxum, quş yumurtası və s. Lakin onun ən sevimli yeməyi qoz, fındıq, şam qozasıdır.

Sincabın maraqlı xüsusiyyətlərindən biri qış üçün qoza ehtiyatı görməsidir. Bunun üçün o, payızın əvvəlində tapdığı qozaların bir hissəsini torpağa basdırır. Lakin bu qozaların heç də hamısı sincaba nəsib olmur. Çünki sincab çox huşsuzdur, qış vaxtı qozanı harada basdırdığını unudur. Alimlərin fikrincə, sincabın bu xüsusiyyəti şam meşələrinin yaranmasına və genişlənməsinə səbəb olur.

**Sual və tapşırıqlar:**
– *Sincaba, doğrudan da, bağban demək olarmı?*
– *Oxuduğunuz və dinlədiyiniz mətnlərin hər ikisində sincabla bağlı hansı məlumatlar öz əksini tapıb? (qorxaq olması, şam qozasını yerə basdırması, huşsuz olması)*
– *Dinlədiyiniz mətndən əlavə hansı məlumatları öyrəndiniz?*

BİBÖ cədvəlinin üçüncü sütunu doldurulur. Şagirdlər bilmək istədiklərinin hamısına cavab tapa bilməyiblərsə, müəllim bu məlumatları evdə müxtəlif mənbələr vasitəsilə araşdırmağı və bu mövzuda məruzə hazırlamağı tapşırır.

**Danışma** (qruplarla iş)
**Müəllim:** – *Hər qrup aşağıdakı suallardan birini seçməklə öz mülahizələrini təqdim edir:*
– *Necə oldu ki, meşədə zoğal ağacı bitdi?*
– *Necə oldu ki, meşədə armud ağacı bitdi?*
– *Necə oldu ki, meşədə fındıq ağacı bitdi?*
– *Necə oldu ki, meşədə palıd ağacı bitdi?*
Dərsin sonunda “Bağban sincab” mətni şagirdlər tərəfindən rollarla səhnələşdirilə də bilər. Bu zaman sincab rolunu aparanın jest və mimikalarına xüsusi diqqət yetirilir.

**Dil qaydaları**
3-cü tapşırıq.
*Qoy – cümlənin təsir gücünü artırır.*
*Amma – cümlələr arasında əlaqə yaradır.*
*Görəsən – danışanın ifadə etdiyi fikrə münasibətini bildirir.*
*Elə – cümlənin təsir gücünü qüvvətləndirir.*
3-cü tapşırıq.
*Bala sincab qozanı dişinə aparmışdı ki, uzaqdan bir şıqqıltı eşitdi.*
*Elə yekə qoza idi ki…*
*1-ci cümlədəki “ki” sözü cümlələri bir-birinə bağlayır. 2-ci cümlədəki “ki” sözü isə cümlənin təsir gücünü artırır.*

**Qiymətləndirmə.** Müşahidə, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 52. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 116-cı səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 53. 4-cü BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

**Dinləmə və yazı üzrə qiymətləndirmə** (İş dəftərinin 79-cu səhifəsində də verilmişdir.)

**Dinləmə mətni**

### SAAT

Ən qədim saatlar günəş saatları hesab olunur. İlk günəş saatını qədim misirlilər icad edib. Bu saat meydanın yüksək bir yerində qoyulan daşdan ibarət olub. Onlar Günəşin hərəkəti əsasında bu daşın kölgəsini izləməklə vaxtı ölçüblər.

Daha sonralar su saatının kəşfi gecələr də vaxtı ölçməyə imkan yaratdı. Su saatları dibində kiçicik deşik olan qabdan ibarət idi. Qaba müəyyən miqdarda su tökülürdü və oradakı suyun azalmasına görə vaxtı hesablayırdılar.

Su saatlarından sonra qum saatları icad edildi. O da su saatı kimi ötən vaxtın miqdarını hesablamağa imkan verirdi. Lakin su saatından fərqli olaraq o, alt və üst qabdan ibarət idi. Üst qabdakı qum tökülüb alt qaba yığıldıqdan sonra onu çevirib vaxtı yenidən hesablamaq olurdu.

Mexaniki saatların kəşfi zamanın daha dəqiq ölçülməsinə şərait yaratdı. Dünyada ilk mexaniki saat 1335-ci ildə İtaliyada düzəldilib. Daha sonralar elektron saatlar peyda oldu. Mexaniki saatdan fərqli olaraq elektron saatda zaman əqrəblərlə deyil, rəqəmlərlə göstərilir.

1. Hansı saatlar funksiyasına görə bir-biri ilə oxşardır?
   A) Günəş saatı və qum saatı
   B) Su saatı və qum saatı
   C) Mexaniki saat və su saatı

2. Bu saatlardan hansı günün vaxtını təyin etməyə imkan verir?
   A) günəş saatı B) qum saatı C) su saatı

3. Müasir zamanda qum saatından hansı idman növündə istifadə etmək olar?
   A) qaçış B) boks C) üzgüçülük

4. Fikirlərdən biri doğrudur:
   A) Buludlu havada günəş saatı işə yaramırdı.
   B) Qum saatından yalnız səhralarda istifadə etmək mümkün idi.
   C) Su saatından yalnız dənizçilər istifadə edirdi.

5. Mexaniki saatla müqayisədə elektron saatın üstün cəhəti nədir?
   A) Daha dəqiq işləyir.
   B) Vaxtında oyanmaq üçün istifadə etmək olar.
   C) Gecə, yoxsa gündüz olduğunu bilmək imkanı verir.

6. Saatlar haqqında (günəş saatı, su saatı, qum saatı, mexaniki saat) yadında qalanları dəftərinə yaz.

*Müəllimin nəzərinə:* *İş dəftərinin 79-cu səhifəsində dinləmə mətninə qoyulmuş 3-cü və 5-ci test suallarının çətinlik dərəcəsi yüksək olduğundan müəyyən şərh tələb edir. Bu suallar şagirdlərdən yaş səviyyəsinə uyğun müəyyən biliklər və məntiqi təfəkkür tələb edir.*

***3-cü sual.*** *Məlumdur ki, qum saatı hərəkətləri müəyyən bir vaxtda icra etmək üçün düşünülüb. Qaçan və ya üzən adamın müəyyən məsafəni nə qədər vaxta qət edəcəyini qabaqcadan bilmək olmaz. Ona görə də bu idman növlərində qum saatı yaramır. Boksda isə hər raunda müəyyən vaxt ayrılır, ona görə də burada qum saatından istifadə etmək olar.*

LAYİHƏ

***5-ci sual.** Bu sualın cavabı "C" bəndidir. Mexaniki saat 12-nin yarısını göstərirsə, bunun gecə, yoxsa gündüz olduğunu bilmək olmur. Elektron saat isə gündüz olduqda 11:30, gecə olduqda 23:30 göstərir.*

**Oxu və dil qaydaları üzrə qiymətləndirmə** (İş dəftərinin 80-81-ci səhifələrində də verilmişdir.)

## ZƏMZƏM SUYU

Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına görə, dünyada içərisində mikr...rqanizm və bakteriya olmayan yeganə su Zəmzəm quyusundan çıxır. Bu su Ərəbistan yarımadasında yerin təxminən 2 metr dərinliyindən çıxır. Tərkibi yorğunluğu və susuzluğu aradan qaldıran, mikrobları məhv edən maddələrlə zəngindir. Digər su quyularından fərqli olaraq bu quyunun divarlarında mamır və başqa bitkilər bitmir. Bu da suyun öz təbii dadını qoruyub saxlamasında mühüm rol oynayır. Ən qəribəsi isə budur ki, quyu ______ olsa da, suyu bitib-tükənmir. Tədqiqatlar nəticəsində məlum olub ki, zəmzəm suyu heç bir yeraltı su ilə qarışmır. Yaxınlığında heç bir quyu yoxdur, dənizlə arasındakı məsafə isə 80 km-dir. İbrahim peyğəmbərin zamanından bu günədək kiçik bir quyudan çıxan su həcc ziyarəti mövsümü boyunca milyonlarla zəvvarın bütün su ehtiyacını təmin edir, ancaq ... azalır, ... quruyur.

1. Altından xətt çəkilmiş sözdə nöqtələrin yerinə hansı hərflər uyğun gəlir?
   A) o, a B) o, o C) a, a

2. Sonuncu cümlədə nöqtələrin yerinə uyğun sözü seç.
   A) gah, gah da
   B) həm, həm də
   C) nə, nə də

3. Mavi boşluğun yerinə uyğun sözü seç.
   A) dayaz B) dərin C) böyük

4. "Zəmzəm suyu heç bir yeraltı su ilə qarışmır" cümləsində mübtəda hansıdır?
   A) Zəmzəm B) suyu C) Zəmzəm suyu

5. Zəvvar kimlərə deyilir?
   A) Müqəddəs torpaqları ziyarət edənlərə
   B) Xəstəliklərdən əziyyət çəkənlərə
   C) Yerli ərəblərə

6. Sonuncu cümlədəki "ancaq" sözünü hansı sözlə əvəz etmək olmaz?
   A) lakin B) amma C) ki

7. Zəmzəm suyunun tərkibi ...
   A) mikroorqanizmlərlə zəngindir.
   B) bakteriyalarla zəngindir.
   C) mikrobları məhv edən maddələrlə zəngindir.

8. Mətndən belə bir nəticə çıxarmaq olmaz:
   A) Bu quyunun mənbəyi müəyyən edilməyib.
   B) Suyunu yeraltı sulardan alması imkansızdır.
   C) Müsəlmanların müqəddəs torpağında yerləşir.

LAYİHƏ

9. Biri yanlışdır:
A) Zəmzəm quyusunun dənizlə əlaqəsi yoxdur.
B) Quyunun bol sulu olması onun çox dərin olmasından irəli gəlir.
C) Bu su susuzluğu və yorğunluğu aradan qaldırır.

10. Suyun öz təbii dadını qoruyub saxlamasına səbəb nədir?
A) quyunun divarlarında mamır və s. bitmir.
B) yeraltı sularla qarışmır.
C) tərkibində çoxlu mikroorqanizm var.

11. “Azalır” sözünün kökü:
A) feildir B) saydır C) sifətdir

12. “Yorğunluq” sözündəki şəkilçiləri hansı sözə artırmaq olmaz?
A) vur B) dur C) qur

13. Hansı sözlər yaxınmənalıdır?
A) məsafə, mövsüm B) araşdırma, tədqiqat C) mamır, bakteriya

LAYİHƏ

## 5-ci bölmə
# DOSTLUQ

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 54 | Üç mirvari | 1.2.1, 1.2.3, 2.1.3, 2.2.4, 2.2.5, 3.1.2, 3.1.3 | 2 | 118-119 | 82 | 132 |
| 55 | Yoldaşlıq köməyi | 1.2.1, 2.2.1, 3.1.3, 3.1.4, 4.1.4, 4.1.5 | 2 | 120 | 83 | 134 |
| 56 | Qaraca qız və Ağca xanım | 1.2.1, 2.1.1, 2.2.2, 2.2.4, 2.2.5, 3.1.3, 4.1.1 | 8 | 121-125 | 84 | 135 |
| 57 | İki nar | 2.1.1, 2.2.3, 2.2.4, 3.1.4 | 2 | 126 | 86 | 138 |
| 58 | Mauqlinin dostları | 1.2.1, 1.2.2, 2.1.1, 2.1.3, 2.2.4, 2.2.5 | 8 | 127-131 | 87 | 139 |
| 59 | Unudulmuş dost | 1.2.1, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.5 | 4 | 132-134 | 89-90 | 143 |
| 60 | Şah Abbas və vəzirləri | 2.2.2, 2.2.4, 4.1.5 | 2 | 135 | 91 | 145 |
| 61 | Uşaqlıq dostu | 1.2.1, 2.1.1, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.5 | 2 | 136-137 | 93 | 146 |
| 62 | Fikrətin dostu | 1.2.1, 1.2.3, 2.2.1, 3.1.4, 4.1.5 | 4 | 138-139 | 94 | 148 |
| 63 | Səxavətli ağac | 1.2.1, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.5 | 4 | 140-142 | 95 | 150 |
| 64 | İki qonşu | 2.2.3, 2.2.4, 4.1.5 | 2 | 143 | 96 | 151 |
| 65 | Ümumiləşdirici təkrar | | 2 | 144 | | 152 |
| 66 | Kiçik summativ qiymətləndirmə | | 2 | | 97-99 | 152 |
| **Yekun** | | | **44 saat** | | | |

LAYİHƏ

# Dərs 54. ÜÇ MİRVARİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətnin ideyasından bəhrələnərək eyni mövzuda mətn qurub təqdim edir. Debat zamanı oxuduqlarından və eşitdib-gördüklərindən misallar gətirməklə fikrini əsaslandırır. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Mətndəki obrazların nitqini səsləndirərkən onların xarakterinə uyğun jest və mimikalardan istifadə edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadənin mənasını kontekstdən çıxış edərək müəyyənləşdirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür. | Məzmuna uyğun gəlməyən hissəni ixtisar edərək və buraxılmış cümlələri yerinə qoymaqla mətni üzündən köçürür. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi və oxuduğu əsərlərdəki epizodları vahid süjet xətti altında birləşdirərək mətn qurub yazır. |

**Motivasiya**

Müəllim yazı taxtasından üç vərəq asır:

1
…
ağıllının nökəridir,
axmağın ağası.

2
…
bəylik deyil, atadan
miras qalmır.

3
…
düzlükdədir.

Şagirdlər atalar sözlərində buraxılmış sözləri tapmalıdırlar. Bu sözlər (1 – var-dövlət, 2 – xoşbəxtlik, 3 – dostluq) vərəqlərin arxasında yazılmışdır. Sözlər tapıldıqca müəllim vərəqləri çevirir. Şagirdlər çətinlik çəkərsə, müəllim hər sözə aid yönəldici sual və cümlələr deyə və ya tapşırığı bu şəkildə qoya bilər:

– *“Xoşbəxtlik”, “dostluq” və “var-dövlət” sözlərini uyğun gələn nöqtələrin yerinə qoyun.*

Bütün sözlər tapıldıqdan sonra müəllim soruşur:

– *Əgər seçim qarşısında qalsaydınız, bunlardan hansını seçərdiniz?*

Şagirdlər fikirlərini bildirdikcə müəllim seçimi əsaslandırmağı tələb edir.

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 118-119-cu səhifələrindəki mətn *“Bəs sənin adın nədir? – Dostluq-doğruluq”* cümləsinə qədər oxunur. **Müəllim:** – *Sizcə, baba hansı mirvarini götürməyi məsləhət biləcək?*

Şagirdlər öz fikirlərini söyləyirlər. Mətnin ardı oxunur və şagirdlərin dedikləri ilə müqayisə olunur. Bundan sonra şagirdlər rollar üzrə bölünüb mətnin dialoji hissəsini səhnələşdirirlər.

LAYİHƏ

1-ci tapşırıq. Əsl mirvari dənizin dibində balıqqulağının içində yarandığına görə onların balıqqulağıdan çıxmaları təbiidir.

İş dəftərinin 82-ci səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər.

**Söz ehtiyatı**

3-cü tapşırıq. Qırmızı rəngdə verilmiş "ətək" sözü məcazi mənalıdır.
4-cü tapşırıq. 1–Ç, 2–*D*, *3–A*, *4–B*, *5–C*.
5-ci tapşırıq. C variantı.
6-cı tapşırıq. B variantı.

**Danışma**

*Müəllimin nəzərinə: Müəllimin və ya şagirdlərin seçimindən asılı olaraq şagirdlər 3 qrupa bölünüb 2-ci tapşırığı, yaxud da 2 qrupa bölünüb aşağıdakı tapşırığı yerinə yetirə bilərlər.*

("Nağılı dəyiş" oyunu)
Şagirdlər iki qrupa bölünürlər.
**I qrup:** – *Təsəvvür edin ki, baba nəvəsinə var-dövləti götürməyi məsləhət görür. Əfsanəni davam etdirin.*
**II qrup:** – *Təsəvvür edin ki, baba nəvəsinə xoşbəxtliyi götürməyi məsləhət görür. Əfsanəni davam etdirin.*

**Debat**

– *Təsəvvür edin ki, qarşınıza iki mirvari çıxıb: xeyirxahlıq və ağıl (elm). Hansını götürərdiniz? Seçiminizi əsaslandırın.*
**I qrup:** – *Xeyirxahlığı götürərdim.*
**II qrup:** – *Ağılı götürərdim.*

**Yazı**

– *Səncə, baba və nəvə dostluq mirvarisini götürdükdən sonra onların həyatı necə dəyişəcək? Əfsanəni necə davam etdirərdin? Fikirlərini yaz.*

Şagirdlər bu tapşırığı dəftərlərində və yaxud iş dəftərinin 82-ci səhifəsindəki 3-cü tapşırıq kimi yerinə yetirə bilərlər.

Lövhədə BİBÖ cədvəli çəkilir.

| MİRVARİ HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Şagirdlər cədvəlin birinci iki sütununu doldururlar.
Bundan sonra şagirdlərə aşağıdakı iş vərəqi paylanır.

**İŞ VƏRƏQİ**

Bu tapşırıqları yerinə yetirməklə aşağıdakı mətni köçürün.
1. Mətnin məzmununa uyğun gəlməyən hissəni ixtisar edin (köçürməyin).
2. Aşağıdakı cümlələri müvafiq abzasların sonuna əlavə edin.
– Təbiətşünas üçün isə mirvari bəzi molyusklarda xəstəlikdən əmələ gəlmiş şişdir.
– Mirvari əmələ gətirən molyusklar, əsasən, okean sularında yaşayır.
– İndiyə kimi tapılmış ən böyük mirvarinin diametri 16,5 sm, çəkisi 6,4 kiloqramdır.
– Okean sahilində yerləşən bəzi ölkələrdə mirvari pul vahidi kimi istifadə olunurdu.

LAYİHƏ

### MİRVARİLƏR

Qədim dövrdən bəri insanlar bəzi balıqqulağıların içində sədəf rəngli kiçik kürələr – mirvarilər tapırdılar. Bu daşlar zənginlik və gözəllik simvolu hesab olunurdu.

Mirvari balıqqulağının içərisinə qum dənəciyi, yaxud xırda daş düşdükdə əmələ gəlir. Bu qum dənəciyi ilə yaralanmamaq üçün zərif molyusk onun üzərini mirvari maddəsinin layları ilə örtür.

Əslində, mirvarini ancaq şərti olaraq qiymətli daşlar silsiləsinə aid etmək olar. Böyük fransız yazıçısı Aleksandr Düma yazırdı: "Şairdən ötrü mirvari – dənizin göz yaşı, qadınlar üçün – qiymətli daş, kimyaçı üçün – müəyyən kimyəvi elementlərin birləşməsidir".

Bir sıra qiymətli daş adları şəxs adlarına çevrilmişdir: Mirvari, Almaz, Brilyant, Yaqut... Maraqlıdır ki, bu adlarla, əsasən, qızları adlandırırlar. Bunun əksinə olaraq oğlanlara metal adları qoyurlar: Polad, Dəmir.

Mirvarilər, adətən, ağ rəngdə olur. Bəzən göy, çəhrayı, sarı çalarları olan və qara mirvarilərə də rast gəlinir. Onlar müxtəlif ölçüdə olur. Mirvari nə qədər böyükdürsə, onun qiyməti də bir o qədər baha olur.

**Suallar:** – *Aleksandr Dümanın mirvari haqqında dediyi sözləri izah et.*
– *Mirvari necə əmələ gəlir?*
– *Mirvarilərin hansı rəngləri var?*

Şagirdlər BİBÖ cədvəlinin 3-cü sütununda qeydlər aparırlar. Əgər cavabsız qalan suallar varsa, müəllim şagirdlərə evdə əlavə mənbələrdən istifadə etməklə araşdırma aparmağı tövsiyə edir.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 82-ci səhifəsindəki dil qaydaları üzrə tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 55. YOLDAŞLIQ KÖMƏYİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Başqalarının hərəkətlərini təhlil etməklə onlara öz münasibətini bildirir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Şeiri oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi şeiri nəsrə çevirərək məzmununu yazır. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Söz sırası pozulmuş şeir misralarında mübtəda və xəbəri təyin etməklə cümlə üzvlərinin ardıcıllığını bərpa edir. |

LAYİHƏ

### Motivasiya

Müəllim şagirdlərə II sinifdə keçdikləri "Dilarə" *(T.Mütəllibov)* şeirini xatırladır. Şeiri əzbərdən bilən varsa söyləyir. Əks halda şeirin məzmunu və ideyası xatırladılır. Dilarəyə gülən və ona kömək edən uşaqların hərəkətləri qiymətləndirilir.

**Müəllim:** – *Təsəvvür edin ki, sinif yoldaşlarınızdan biri evində olan bəzi problemlərə görə dərslərinə yaxşı hazırlaşa bilmir. Siz ona necə kömək edə bilərsiniz?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

**Oxu** (rollu oyun)

Dərsliyin 120-ci səhifəsindəki şeir bir neçə şagird (aparıcı, Ənvər və onun sinif yoldaşları) tərəfindən ifadəli oxunur. Həmin səhifədəki 2-ci tapşırıq yerinə yetirilir. Eləcə də iş dəftərinin 83-cü səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər.

**Danışma** (qruplarla iş)

**I qrup:** – *Dərslərinə həmişə hazırlıqlı gələn, lakin zəif oxuyan yoldaşlarına heç vaxt kömək etməyən sinif yoldaşınıza münasibətinizi bildirin.*

**II qrup:** – *Dərslərinə həmişə hazırlıqlı gələn, zəif oxuyan yoldaşlarına hər zaman kömək edən sinif yoldaşınıza münasibətinizi bildirin.*

**III qrup:** – *Dərslərinə həmişə hazırlıqlı gələn, lakin xəstəliyi ilə əlaqədar tez-tez dərs buraxan sinif yoldaşınıza necə kömək edirsiniz?*

**IV qrup:** – *Ailəsində sıxıntı olan sinif yoldaşınız dərslərinə yaxşı hazırlaşa bilmirsə, ona necə kömək edirsiniz?*

**Yazı**

Şagirdlər şeiri nəsrə çevirib hekayə şəklində yazırlar. Müəllim bildirir ki, hər bir şagird öz təxəyyülünə uyğun epizodlar əlavə edə bilər.

"Mən yoldaşlıq köməyini nədə görürəm" mövzusunda inşa yazılır.

**Dil qaydaları**

Cümlənin növləri, cümlə üzvləri haqqında biliklər təkrarlanır. Dərslikdəki 3-4-cü tapşırıqlar yerinə yetirilir. İş dəftərinin 83-cü səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 56. QARACA QIZ VƏ AĞCA XANIM (8 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gədiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu bədii mətndəki məlumatları qrafik informasiya şəklində təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Əsərin süjet xəttini təxəyyülünə uyğun dəyişərək yaradıcı şəkildə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Əsərdəki epizodlardan və qəhrəmanların hərəkətlərindən çıxış edərək onları xarakterizə edir. |
| 3.1.3. Verilmiş mətnin (nəzm, nəsr) müfəssəl məzmununu yazır. | Oxuduğu mətnin məzmununu öz sözləri ilə yazır. |
| 4.1.1. Sadə formada fonetik təhlil aparır. | Sözün tələffüzünə əsaslanaraq onun səs tərkibi haqqında fikir yürüdür. |

LAYİHƏ

**Motivasiya**

"Qaraca qız" filmindən kadr nümayiş olunur. 2-ci sinifdə keçilmiş "Qaraca qız" əsərindən parça xatırlanır.

**Sual:** – *Sizcə, kasıb ailədən olan adam varlı ailədən olan adamla dostluq edə bilərmi?*

## Oxu

Şagirdlər üç qrupa bölünürlər. Dərslikdən “Qaraca qız və Ağca xanım” mətni (səh. 121-124) “Ziqzaq” üsulu ilə oxunur. **1-ci işçi qrup** 122-ci səhifədəki 1-ci, **2-ci işçi qrup** 123-cü səhifədəki 3-cü, **3-cü işçi qrup** 125-ci səhifədəki 5-ci tapşırığı yerinə yetirir. Məzmun bütün şagirdlərə aydın olduqdan sonra qrup nümayəndələri tərəfindən nəql edilir. *Rəiyyət, rişxənd, tənə, qaytan* sözləri izah olunur. Həmin sözlərin əlifba sırasına uyğun lüğəti tərtib edilir.

Dərsliyin 125-ci səhifəsindəki sual və tapşırıqlar yerinə yetirilir.

6-cı tapşırıq. 1– Y, 2– D, 3– Y, 4– Y, 5– D.

7-ci tapşırıq. 1– C, 2– A, 3– B.

8-ci tapşırıq. Cavab “B” variantıdır.

Əlavə suallar: Piri baba “Öz balanı xilas etmək üçün bu atasız-anasız yetimi bəlaya salmısan” sözləri ilə Pəricahan xanıma nə demək istəyirdi?

Sizcə, Piri baba nə üçün həkimin gəlişini gözləmədən Qaraca qızı öz komasına apardı?

Pəricahan xanım haqqında nə düşünüs?

Tətbiqi çalışmalar üçün iş dəftərinin 84-cü səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər.

## Söz ehtiyatı

2-ci tapşırıq. C variantı (sözün mətnə uyğun mənası – kədərlənmək, çox məyus olmaq).

## Yazı

Şagirdlər üç qrupa bölünürlər. Hər qrupun şagirdləri (fərdi şəkildə) əsərin bir hissəsinin müfəssəl məzmununu yazırlar.

## Danışma (debat)

**Müəllim: –** *“Fədakarlıq” sözünü necə başa düşürsünüz?*

Şagirdlər fikirlərini bildirirlər. “Tom özünü fəda edir” hekayəsi xatırladılır.

**I qrup:** – *Qaraca qız bilmirdi ki, zəhəri sormaqla öz həyatını təhlükə altına atır, yoxsa bu işi etməzdi.*

**II qrup:** – *Qaraca qız bilirdi ki, zəhəri sormaqla həyatını təhlükə altına atır, amma o, dostunun yolunda canından keçməyə hazır idi.*

**“Nağılı dəyiş” oyunu.** Şagirdlər əsərin süjet xəttini dəyişməklə məzmununu nəql edirlər.

*1. Pəricahan xanımı ilan vurur...* *2. Qaraca qızı ilan vurur...*

## Dil qaydaları

10-cu tapşırıq yerinə yetirildikdən sonra 125-ci səhifədə verilmiş qayda oxunur və mənimsədilir. Müəllim əlavə olaraq bildirir ki, bəzi saylardan sonra gələn isimlər həm təkdə, həm də cəmdə ola bilər. Bu saylar *çox, onlarca, yüzlərlə, minlərcə və s.* saylardır: çox adamlar, yüzlərlə şagird və s.

11-ci tapşırıq yerinə yetirilir.

İş dəftərinin 84-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 85-ci səhifəsində də verilmişdir.)

### QARĞALARIN DOSTLUĞU

İki qara qarğa çəmənlikdə dənlənirdi. Onların yanına bir ala qarğa gəldi. Ala qarğa dedi:

– Gəlin dost olaq.

Qara qarğalar sevincdən qarıldaşdılar. Birdən çəmənliyə kimsə bir ... çörək atdı. Ala qarğa çörəyi götürüb başqa bir çəmənliyə uçdu. O, çörəyi yeyib qurtarandan sonra dostlarının yanına qayıtdı.

Qara qarğalar daha qarıldaşmadılar.

LAYİHƏ

**1.** Hekayənin son cümləsini necə başa düşmək olar?
A) Dostlarının qayıtmasına sevindilər.
B) Ala qarğanın həqiqi dost olmadığını bildilər.
C) Gec gəldiyi üçün ala qarğadan küsdülər.

**2.** Altından xətt çəkilmiş hansı söz cümlədəki fikrin təsir gücünü artırır?
A) gəldi B) dedi C) gəlin

**3.** Nöqtələrin yerinə uyğun sözü seç.
A) parça B) cüt C) dəst

**4.** Mətnin məzmununa uyğun cümləni seç.
A) Dost yolunda boran olar, qar olar.
B) Dostunun dostu sənin də dostundur.
C) Çörəyi dizinin üstündədir.

**5.** Mavi rənglə verilmiş hansı söz yazıldığı kimi deyilir?
A) çəmənlikdə B) qarğalar C) dostlarının

**Yazı** üzrə qiymətləndirmə (imla)

**Bahar**
**(106 söz)**

Bahar sevindiyindən nə edəcəyini bilmirdi, elə yerindəcə tutulub qalmışdı. Gah fikirləşirdi ki, ceyrana daş atsın, gah da düşünürdü ki, heyvanı ürkütməmək üçün onun gözünə görünməsin. Axı balaca oğlan belə bir xoşbəxtliyin ona nəsib olacağını heç ağlına da gətirməzdi. İndi bu gözəl heyvan qarşısında idi və bala ceyran nəinki ondan qaçmır, əksinə, özü Bahara yaxınlaşırdı. Nəhayət, o, oğlanın lap yaxınına gəldi, onun əlini imsiləməyə başladı. Bahar ancaq indi hiss etdi ki, körpə heyvan acdır. Əlini çantasına atıb anasının qoyduğu yavan çörəyi çıxartdı, ceyran balasının burnuna tutdu. Heyvan əvvəlcə bir qədər çörəyi iylədi, sonra yavaş-yavaş yeməyə başladı. Öz nahar yeməyini ceyrana yedirən Baharın isə sevincinin həddi-hüdudu yox idi.

*Mir Cəlaldan*

**Suallar:**
*1. Bahar nə üçün heyvana daş atmaq istədi?*
*2. Körpə ceyran nə üçün oğlandan uzaqlaşmırdı?*
*3. "Tutulub qalmaq" ifadəsini yaxınmənalı sözlə əvəz et.*
*4. Baharı xoşbəxt edən nə idi?*
*5. Cümləyə görə "imsiləmək" sözünün mənasını izah et.*

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı cümlə düzgün qurulmayıb?
A) Çəmən yaşıllaşmışdı. B) Otlar göyərmişdilər. C) Uşaqlar otluqda qaçırdılar.

**2.** "Adamlar stansiyaya getdilər, … qatar gəlmədi" cümləsində nöqtələrin yerinə hansı söz yazıla *bilməz?*
A) çünki B) lakin C) amma

**3.** Hansı birləşmədə *"kitab"* sözü təkdə işlənməlidir?
A) beş kitablar B) maraqlı kitablar C) bir çox kitablar

**4.** Hansı bənddəki ifadə düzgündür?
A) xeyli fəhlələr B) bir çox ifaçılar C) bir qədər uşaqlar

**5.** Birində cəm şəkilçisi işlənməməlidir:
A) üç dostlar B) elmi əsərlər C) uzun gecələr

LAYİHƏ

# Dərs 57. İKİ NAR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gədiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Əsərin bir hissəsini oxuduqdan sonra davamı ilə bağlı yaradıcı plan tutur. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərdəki cansız əşya və ya heyvan obrazlarını insan obrazları ilə əvəz edərək mətni genişləndirilmiş formada yaradıcı şəkildə nəql edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduqlarını və eşitdiklərini ümumiləşdirməklə təhlil xarakterli inşa yazır. |

### Motivasiya

Müəllim şagirdlərə bildirir ki, insanlara xas olan keyfiyyətləri sadalasınlar. Həmin keyfiyyətləri yazı taxtasında boş dairənin ətrafına yazır. Sonra dostluğa aid keyfiyyətləri oxla dairəyə doğru istiqamətləndirir. Təxminən belə bir mənzərə alınır:




### Oxu (proqnozlaşdırma)

Dərsliyin 126-cı səhifəsindəki "İki nar" mətnindən narların ilk fikirləri oxunur. Müəllim şagirdlərə tapşırır ki, hər bir narın düşündüklərinə əsasən onları xarakterizə etsinlər.

Şagirdlər nar obrazları haqqında öz fikirlərini söyləyirlər.

Daha sonra mətn "Narlar beləcə fikirləşirdilər" cümləsinə qədər oxunur və müəllim əsərin davamı ilə bağlı yaradıcı plan tutmağı tapşırır. Bir neçə şagirdin planı dinlənilir və şagirdlər ən yaxşı planı seçib ona uyğun əsəri davam etdirirlər.

Mətn sona qədər oxunur və şagirdlərin versiyaları ilə müqayisə olunur.

Şagirdlər mətnin sonundakı <u>2-ci sualla</u> bağlı fikirlərini söyləyirlər.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 86-cı səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

### Söz ehtiyatı

<u>1-ci tapşırıq.</u> B variantı

### Danışma

<u>Hekayə qur.</u> Şagirdlər cütlərlə işləyərək mətndə təsvir olunmuş nar obrazlarını insan obrazları ilə əvəz etməklə kiçik hekayə qurub təqdim edirlər. Şagirdlər ən maraqlı hekayəni özləri səsvermə yolu ilə seçir və bu hekayədə nəyi daha çox bəyəndiklərini söyləyirlər.

<u>Müzakirə.</u> **Müəllim:** – *Təsəvvür edin ki, sirk tamaşasına beş biletim var və mən sizə elan*

LAYİHƏ

*edirəm ki, şənbə günü sizdən beş nəfəri özümlə sirkə aparacağam. Lakin bu beş nəfəri siz özünüz seçməlisiniz. İndi siz iclas keçirib bu beş nəfəri seçməlisiniz.*

Müəllim iclasın keçirilmə qaydasını uşaqlara başa salır:

– *İclasın sədri və katibi seçilir.*

– *Katib iclasın protokolunu, yəni çıxış edənlərin nitqini (çıxışın əsas mahiyyətini) yazır.*

– *Sədr iclasın gündəliyini (nə üçün yığışdıqlarını) elan edir və çıxış etmək istəyənlərə bir-bir söz verir.*

– *Şagirdlər bir-bir çıxış edirlər və sonda səsvermə yolu ilə 5 nəfər seçilir.*

**Yazı**

3-cü tapşırıq. Mətnin janrı müəyyənləşdirildikdən sonra (hekayə) şagirdlər onun ideyasına uyğun olaraq "İki pişik" adlı mətn qurub dəftərə yazırlar. Sonra seçmə üsulu ilə bir neçə şagirdin yazısı oxunur.

*Mətnin ideyası belə ifadə oluna bilər: "Başqasının uğuruna, xoşbəxtliyinə sevinə bilən insan özü də xoşbəxt olar".*

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 58. MAUQLİNİN DOSTLARI (8 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Nəsr əsərini dram əsərinə çevirərək səhnələşdirilmiş şəkidə təqdim edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gədiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadənin mənasını kontekstdən çıxış edərək müəyyənləşdirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin məzmununa yeni süjet xətti və obrazlar əlavə etməklə mətni genişləndirir və nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir.<br>Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |

**Motivasiya**

**Müəllim**: – *Elə bir dostunuz varmı ki, dara düşəndə ona arxalana biləsiniz?*

*"Dost dar gündə tanınar" atalar sözünü necə başa düşürsünüz?*

**Oxu**

"Mauqlinin dostları" mətninin 1-ci hissəsi (dərslik, səh. 127-128) oxunur. Dərsliyin 128-ci səhifəsindəki 1-4-cü tapşırıqlar yerinə yetirilir. 2-ci tapşırıq. B variantı.

**Əlavə suallar:** *Mauqlinin dostları və düşmənləri hansı heyvanlar idi? Mauqliyə heyvanların dilini kim öyrətdi? Banderloqlar Mauqlini necə qaçırdılar? Balunun Mauqliyə öyrətdiyi müqəddəs söz nə idi?*

LAYİHƏ

*Müəllimin nəzərinə: hind dilində “bander” – meymun, “log” – xalq deməkdir.*

*Mətnin ikinci hissəsi (səh. 128-129) oxunur.*

*– Sizcə, Soyuq Kahada heyvanların başına hansı hadisə gələcək? Mauqlinin dostları onu xilas edə biləcəklərmi?*

Şagirdlər öz versiyalarını söyləyirlər. 5-9-cu tapşırıqlar yerinə yetirlir.

**Danışma**

Şagirdlərə tapşırılır ki, Balu ilə Bahirənin Kaaya müraciət etmək qərarından başlayaraq onların Kaa ilə söhbətini təxəyyülə uyğun genişləndirməklə kiçik dramatik parça hazırlasınlar və səhnələşdirilmiş şəkildə təqdim etsinlər.

Şagirdlər cütlər şəklində işləyərək dialoji mətn hazırlayırlar. Bir neçə mətn müzakirə olunur. Mətnlərdən biri əsas götürülməklə digər cütlər ona öz əlavələrini edir. Mətn tam hazır olduqdan sonra üç şagird tərəfindən səhnələşdirilir. Müəllim bildirir ki, rol ifaçıları qiymətləndirilərkən müvafiq heyvana uyğun jest və mimikaları xüsusi nəzərə alınacaq.

**Dinləmə**

**İLANLAR**

İlanlar sürünən heyvandır. Onlar yumurta qoymaqla nəsil artırır. Lakin elə ilanlar da var ki, diri bala dünyaya gətirməklə çoxalır.

Afrika və Hindistanda yaşayan pitonlar dünyada ən iri ilanlar sayılır. Onların uzunluğu 10 metrə çatır.

Pitonları bir çox digər ilanlardan fərqləndirən bir cəhət də onların zəhərsiz olmasıdır. Bu ilan, əsasən, suda, göllərin, çayların kənarında yaşayır. Onun qidasını isə su içməyə gələn heyvanlar təşkil edir. O öz şikarını tutub bədəninə sarılır və onu boğaraq udur. Böyük pitonlar hətta çaqqal və bəbirlərə hücum edib onları ovlayır. Bu ilanın ağzının qeyri-adi quruluşu ona ağzını çox geniş açmağa imkan verir. Belə ki, onun alt çənəsi elastikdir. İlan əvvəlcə ağzını geniş açaraq ovunun başından tutur, xırda dişləri vasitəsilə yavaş-yavaş onu içəri ötürür. Sonra isə həmin ov ilanın bədənində tədricən həzm olunur.

Müəllim dinləmə mətnini oxuduqdan sonra yenə şagirdlərə müraciət edir:

*– İndi deyə bilərsinizmi, Kaa ilanların hansı növünə aiddir və nə üçün Bahirə Kaadan çəkinirdi?*

*– Mətni dinlədikdən sonra ilanlar haqqında daha hansı məlumatı öyrəndiniz?*

*– Oxuduğun mətndə ilanlar haqqında hansı məlumat dinləmə mətnində öz əksini tapmayıb?*

Şagirdlər ilanlar haqqında öyrəndikləri informasiyaları ümumiləşdirərək təqdim edirlər.

Mətnin davamını oxumazdan əvvəl müəllim aşağıdakı sualı verir:

*– Təsəvvür edin ki, valideynləriniz sizi xarici ölkəyə gəzməyə aparıblar. İzdihamlı küçələrdən birində siz valideynlərinizdən ayrı düşüb bir-birinizi itirmisiniz. Yerli xalqın dilində hansı sözləri (cümlələri) öyrənməlisiniz ki, bu cür çətin vəziyyətlərdən çıxasınız?*

Şagirdlər öz fikirlərini söyləyirlər. Müəllim bildirir ki, hər bir xalqın dilində müəyyən nitq etiketləri, müraciət formaları var ki, ünsiyyət zamanı nitqinə həmin etiketlə başladıqda bu onlara çox xoş təsir bağışlayır və əllərindən gələn köməyi göstərməyə çalışırlar.

**Sual:** – *“Mauqlinin dostları” mətninə görə cəngəllik heyvanlarının dilində hansı etiketlərə rast gəldiniz?* (“Səninlə mən qan qardaşıyıq – sən və mən”, “Ovun uğurlu olsun!”)

“Mauqlinin dostları” mətninin 3-cü hissəsi (səh. 130-131) oxunur. Dərsliyin 131-ci səhifəsindəki 10-12-ci tapşırıqlar yerinə yetirilir.

*Müəllimin nəzərinə:* Bəbir pişiklər fəsiləsinə aid heyvandır. O, yüngüllük, çeviklik və zəriflik təcəssümüdür. Bəbir sıçrayışının uzunluğu (5–8 m) ilə seçilir. Elə dərslikdəki mətnin birinci hissəsində də Bahirənin ağacdan-ağaca tullanaraq banderloqları təqib etməsi qeyd edilir. Buna görə də tullanmağı Mauqliyə, təbii ki, Bahirə öyrədə bilərdi.

Eləcə də iş dəftərinin 87-ci səhifəsindəki 1-ci tapşırıqdan istifadə etmək olar.

LAYİHƏ

### Danışma

Dərslikdəki 12-ci tapşırıq (səh. 131) bu əsərin fərd və cəmiyyət mövzusu ilə bağlı əsas ideyasını açıqlamağa imkan verir.

"... bunların nə qanunu, nə müqəddəs sözü, nə də başçıları var " cümləsində banderloqların üç əsas xüsusiyyəti açıqlanır. Müəllim bu xüsusiyyətləri lövhədə yazdırıb şagirdlərin diqqətini onlara yönəldir.

1. Banderloqlar heç bir qayda-qanuna tabe olmurlar.
2. Onlar heç bir müqəddəs sözə əhəmiyyət vermirlər.
3. Banderloqların başçıları yoxdur.

Müəllim əvvəlcə *"cəmiyyət", "icma"* sözlərinin mənalarını açıqlayır (müəyyən ümumi qaydalara tabe olan fərdlər toplusu) və bildirir ki, ailə, sinif, məktəb də bir icmadır və onlar – şagirdlər bu icmanın üzvləridir. Sonra şagirdlərin diqqəti dərs ilinin əvvəlindən divarda asılmış "Davranış qaydaları" plakatına yönəldilir. **Müəllim**: – *Sizcə, bu qaydalar olmasa və ya siz onlara riayət etməsəniz, nə baş verər?* – deyə soruşur. Şagirdlərin fikirləri dinlənilir.

Daha sonra müəllim şagirdlərin diqqətini banderloqların 2-ci xüsusiyyətinə yönəldir və bir neçə şagirdə sualla müraciət edir:

– *Qarşındakını bir şeyə inandırmaq üçün nəyə and içirsən?* – Müxtəlif fikirlər ola bilər: ana, ata, çörək, Allah, Quran və s. **Müəllim:** – *Deməli, bu sözlər sizin üçün müqəddəsdir və siz heç zaman andınızı pozmazsınız. İndi elə bir adam və ya cəmiyyət təsəvvür edin ki, and içməyə heç bir müqəddəs sözləri və ya varlıqları yoxdur. Belə adamlar haqqında nə deyə bilərsiniz?* Şagirdlərin fikirləri dinlənilir.

Nəhayət, 3-cü xüsusiyyətlə bağlı müzakirə açılır.

**Müəllim:** – *Təsəvvür edin ki, siz müəyyən problemi müzakirə edib bir qərara gəlmisiniz və bu qərarınızı məktəbin direktoruna çatdırmaq istəyirsiniz. Sözsüz ki, hamınız onun otağına axışa bilməzsiniz. Odur ki bir nümayəndə seçməlisiniz. Kimi seçərdiniz?*

Lider şagirdlərdən birinin adı çəkilə bilər.

**Müəllim:** – *Sizcə, hər bir icmada ağsaqqal, başçı lazımdırmı? Belə bir adam hansı keyfiyyətlərə malik olmalıdır? Başçı olmayan icmanı necə təsəvvür edirsiniz?*

Şagirdlərin fikirləri dinlənilir. *"Hərc-mərclik", "anarxiya"* sözləri səsləndirilir və izah olunur.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 87-ci səhifəsindəki 2-ci tapşırıqdan istifadə oluna bilər.

**Qruplarla iş.** *Şagirdlər qruplarla işləyib "Səncə, Mauqlinin xilas olmasında kimin rolu daha böyük idi?" sualına cavab verirlər.*

**I qrup:** – *Bahirənin*
**II qrup:** – *Balunun*
**III qrup:** – *Çilinin*
**IV qrup:** – *Kaanın*

Nəticədə şagirdlər bu qərara gəlirlər ki, Mauqlinin xilasında onun hər bir dostunun böyük rolu oldu. Lakin Balunun rolu daha böyük idi, çünki "müqəddəs sözü" Mauqliyə məhz Balu öyrətmişdi.

**Müzakirə**. Şagirdlər "Cəngəllik heyvanları" mövzusunda müzakirə keçirirlər. 13-cü tapşırıqda verilmiş təqdimatı hazırlamaq üçün müəllim qruplara evdə məlumat toplamağı tapşırır.

İş dəftərinin 87-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, danışma, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

### Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 88-ci səhifəsində də verilmişdir.)

LAYİHƏ

## İKİ DOST

Bir dəfə dəniz sahilində gəzişən iki dost mübahisə etdi. Nəticədə biri o birinə şillə vurdu. Ağrıdan yanağını ovuşduran dost heç nə demədi, sadəcə, yerdən əlinə bir çöp götürdü və qumun üstünə yazdı: “Bu gün ən yaxın dostum mənə şillə vurdu”.

Sonra dostlar dənizdə çimməyi qərara aldılar. Şillə vurulan dost az qaldı batsın, lakin dostu onu xilas etdi. Dənizdə çimmək təhlükəlidir. Özünə gələndən sonra o, daşın üstündə yazdı: “Bu gün ən yaxın dostum mənim həyatımı xilas etdi”.

Dostu ondan soruşdu:

– Mən sənin xətrinə dəyəndə sən bunu qumun üstündə yazdın, ancaq indi isə daşın üstündə yazırsan. Niyə?

– Dostumuz bizim xətrimizə dəyəndə biz bunu qumda yazmalıyıq ki, külək onu silə bilsin. Sahildə hava həmişə çox küləkli olur. Ancaq o bizə yaxşılıq etsə, bunu daşın üzərində həkk etməliyik ki, sonra heç bir külək onu silə  bilməsin.

1. Mətnin məzmununa uyğun gəlməyən cümlələri çıxarmaqla mətni köçür.

______________________________________________________________

**Yazı** üzrə qiymətləndirmə (ifadə)

## DOSTLUQ

Üç dost meşə ilə gedirdi. Dünəndən əsən güclü külək bir neçə iri ağacı qırıb yerə salmışdı. Yolun üstünə iri bir palıd ağacı düşmüşdü. Ondan bir az aralıda yan-yana iki cavan ağac dayanmışdı. Bu, dostları çox təəccübləndirdi. Necə olub ki, güclü külək iri palıd ağacını yerə yıxmış, cavan, balaca ağaclara isə toxunmamışdı?

Dostlardan biri dedi:

– Gəlin irəli gedək, görək bunun sirri nədədir?

Hər üçü ağacların yanına gəldi. Diqqətlə onun kökünə baxdılar. Ağacların kökləri bir-birinə möhkəm bağlanmışdı. Dostlardan biri kökləri bir-biri ilə bərk bağlanmış ağacları göstərib dedi:

– Görürsən, dostluğun, mehribanlığın nə böyük mənası var?! İnsan da belədir. O nə qədər qüvvətli olsa da, tək qalanda tez məhv olur. Lakin etibarlı yoldaşı, dostu olan insan hər çətinliyə qalib gələr.

Şagirdlər plan əsasında mətnin məzmununu yazırlar:

*1. Güclü külək*
*2. Dostların təəccübü*
*3. Etibarlı dostu olan qalib gələr*

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Cümlədə işlənən isimlərdən biri *-lar²* şəkilçisi qəbul etməməlidir:
A) Bəzən göydəki ulduzları seyr edirdi.
B) Bütün insanlar yaşamaq hüququna malikdir.
C) Zalda xeyli həvəskarlar toplanmışdı.

**2.** Bu şəkilçilərdən biri miqdar sayı ilə işlənən isimdən sonra əlavə oluna bilməz:
A) *-dan²* B) *-lar²* C) *-ın⁴*

**3.** *“Ordu güc toplayıb yenidən  hücuma keçdilər”* cümləsində hansı qayda pozulub?
A) sözün yazılışı B) söz sırası C) mübtəda və xəbərin uzlaşması

**4.** Cümlələrin birində cəm şəkilçisi yerində işlənməyib:
A) Bu hadisə müharibə illərində baş vermişdir.
B) Bir neçə saatlar öncə onunla görüşmüşdüm.
C) Əlimdəki kitablar yenidir.

LAYİHƏ

**5.** *“Uşaqlardan ikisi məni qonaqlarla görüşmək üçün həyətə çağırdılar”* cümləsində hansı sözdə cəm şəkilçisi yerində işlənməyib?

A) uşaqlardan B) qonaqlarla C) çağırdılar

## Dərs 59. UNUDULMUŞ DOST (4 SAAT)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Aldığı məlumatları qrafik informasiya şəklində təqdim edir.<br>Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin planına yeni başlıqlar əlavə edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir | Oxuduğu mətndəki obrazların hərəkətlərini təhlil etməklə onlara öz münasibətini bildirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Mübtəda ilə xəbərin kəmiyyətə görə uzlaşmasını düzgün müəyyən edir. |

**Motivasiya**

**Fərdi iş.** Müəllim hər şagirdə öz ad günü üçün ssenari hazırlamağı tapşırır. Şagirdlər ssenaridə ad gününü harada keçirəcəkləri, kimləri dəvət edəcəkləri, qonaqları necə əyləndirəcəkləri barədə qısa qeydlər aparırlar.

Sonda bir neçə nəfərin təqdimatı dinlənilir. Müəllim sinfə müraciət etməklə heç bir siyahıda adı olmayan şagirdləri müəyyən edir. Onlara suallar verir:

– *Ad gününə dəvət olunmadığını bildikdə nələr hiss edərdin? Ad günü olan sinif yoldaşına münasibətin dəyişərdimi? Necə hərəkət edərdin?*

Uşaqların fikirləri dinlənilir.

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 132-ci səhifəsində verilmiş “Unudulmuş dost” mətninin 1-ci hissəsi oxunur. Müəllim 1-ci sualı səsləndirir: – *Görəsən, gələn kim idi?*

Mətnin davamı ilə bağlı şagirdlərin versiyaları dinlənilir.

Yəqin ki, şagirdlər həm mətnin adına, həm də mətnə çəkilmiş illüstrasiyaya görə düzgün cavab versiyaları irəli sürəcəklər. Onda müəllim *“Bəs o niyə gəlmişdi?”* sualı ilə müraciət edə bilər.

Mətnin 2-ci hissəsi *“Mən qapının ağzında tərəddüd içində donub-qalmışdım”* cümləsinə qədər oxunur, şagirdlərin versiyaları ilə müqayisə olunur və mətnin davamı ilə bağlı versiyalar irəli sürülür.

Mətn sona qədər oxunur, şagirdlərin versiyaları ilə müqayisə olunur.

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 89-90-cı səhifələrindəki tapşırıqlardan istifadə oluna bilər.

Dərsliyin 134-cü səhifəsindəki 3-6-cı tapşırıqlar yerinə yetirilir.

LAYİHƏ

### Söz ehtiyatı

2-ci tapşırıq. Hamı ilə ünsiyyər yarada bilmək, ünsiyyətcil olmaq.
3-cü tapşırıq.

**Ad günü sevinci**
Ad gününü yaddaqalan keçirmək planı
Maraqlı keçən ad günü
Qəfil çalınan qapı zəngi

**Təmənnasız dostluq**
Gələn sinif yoldaşım Nigar idi
Mənə tərəf uzanan hədiyyə
“Sabah məktəbdə görüşərik”
Qəlbimdə yaranan boşluq
Ad günümdə aldığım ən gözəl hədiyyə
Kəşf etdiyim dost

### Yazı

7-ci tapşırıq yerinə yetirilir.

**Müzakirə** (“akvarium”). “Akvarium” üsulunun tələblərinə uyğun olaraq şagirdlər əsas və müşahidəçi qruplara bölünürlər. Əvvəlcə daxili (kiçik) dairədə əyləşən şagirdlər (əsas qrup) *“Nigarı ad gününə dəvət etmədiyinə görə Günayı günahlandırmaq olarmı?”* mövzusunda müzakirə keçirirlər və Günay obrazına öz münasibətlərini bildirirlər.

Daha sonra müşahidəçi qrup daxili dairədə əyləşir və *“Nigar dəvət olunmadığı ad gününə gəlməkdə haqlı idimi?”* mövzusunda müzakirə keçirir və Nigar obrazına öz münasibətini bildirir.

Müzakirə bitdikdən sonra müəllim şagirdlərdən birini (onu “A” adlandıraq) göstərir və şagirdlərə belə sualla müraciət edir: – *Kim A-nın anadan olduğu günü bilir?* Cavablar səsləndikdən sonra müəllim bildirir ki, istənilən icma üzvləri (bu sözün mənası xatırladılır) bir-birinə qarşı mehriban və diqqətcil olmalıdır. Bunun üçün də onlar bir-biri haqqında mümkün qədər çox məlumata malik olmalıdır.

Şagirdlərə belə bir oyun təklif olunur:

– *Hər bir şagird özü haqqında vərəqdə aşağıdakı məlumatları yazmalıdır:*

*1. Adı, soyadı, atasının adı 2. Doğum tarixi 3. Sevimli əyləncəsi*

Hər bir şagird özü haqqında bu məlumatları yazdıqdan sonra öz qonşusuna, o isə həmin məlumatları qeyd etdikdən sonra yanında oturan digər şagirdə ötürür.

Müəllim şagirdlərə tapşırır:

– *Yoldaşlarınızdan gələn məlumatları özünüzdə sürətlə qeyd etmək üçün cədvəl tərtib edin.*

Müəyyən müddətdən sonra müəllim vaxtın bitdiyini elan edir və şagirdlərin qeydlərinə nəzər yetirir. Əgər belə bir cədvəl tərtib edən varsa, onun işini yüksək qiymətləndirir və digərlərinə nümunə göstərir.

| № | Adı, soyadı, atasının adı | Doğum tarixi | Sevimli əyləncəsi |
|---|---|---|---|
| 1 | | | |
| 2 | | | |
| 3 | | | |

Müəllim bildirir ki, alınan məlumatları cədvəl, diaqram və sair qrafik informasiya şəklinə salmaq həmin məlumatları daha tez qavramağa, yadda saxlamağa və təhlil etməyə imkan verir.

**Sual:** – *Sizcə, niyə mən məlumatlar siyahısına sevimli əyləncə haqqında məlumatı da salmışam?*

Şagirdlər öz fikirlərini bildirirlər. (Düzgün cavab: “Sinif yoldaşlarımızın ad gününə düzgün hədiyyə seçimi etmək üçün”.)

Tətbiqi çalışmalar üçün iş dəftərindəki 1-4-cü tapşırıqlardan istifadə oluna bilər.

### Dil qaydaları

Motivasiya xarakterli 8-ci tapşırıq yerinə yetirildikdən sonra qayda oxunur və mənimsədilir. Şagirdlər müstəqil olaraq cümlələr söyləyir, həmin cümlələrdə mübtəda və xəbəri tapır, mübtədaya görə xəbərin qəbul etdiyi şəkilçini müəyyənləşdirirlər. 9-cu tapşırıq yerinə yetirilir.

İş dəftərinin 90-cı səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

# Dərs 60. ŞAH ABBAS VƏ VƏZİRLƏRİ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyiş-dirir, yaradıcı şəkildə davam etdirir. | Əsərin süjet xəttini təxəyyülünə uyğun dəyişərək yaradıcı şəkildə nəql edir. Giriş hissəsi verilmiş mətni genişləndirərək öz təxəyyülünə uyğun nəql edir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Saydan sonra gələn isimlərdə cəm şəkilçisinin işlənməsi ilə bağlı qaydalara nitqində riayət edir. |

**Motivasiya**

**Müəllim:** – *Kimsə sizə dostunuz haqqında xoşagəlməz sözlər desə, nə edərsiniz?*
Şagirdlər öz fikirlərini deyirlər.

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 135-ci səhifəsindəki mətn Şah Abbasın Mir Damədə dediyi *"... bizdən irəli düşüb"* cümləsinə qədər oxunur.

**Sual:** – *Görəsən, Mir Daməd nə cavab verəcək?*

Şagirdlər öz variantlarını söyləyirlər. Mətnin davamı Şah Abbasın Şeyx Bəhaiyə söylədiyi *"...bizdən arxada qalıb"* cümləsinə qədər oxunur. Şagirdlərin fərziyyələri mətndə Mir Damədin cavabı ilə müqayisə olunur. Müəllim mətnin davamı ilə bağlı proqnozları söyləməyi təklif edir:

– *Görəsən, Şeyx Bəhai Şah Abbasa nə cavab verir?*

Şagirdlər cavab variantlarını söyləyirlər. Mətn sona qədər oxunur və şagirdlərin fərziyyələri ilə müqayisə olunur.

Şah Abbasın vəzirlərlə dialoqu rollu oyun şəklində təqdim olunur.

Mətn oxunduqdan sonra dərslikdəki tapşırıq yerinə yetirilir. Şagirdlər vəzir obrazları və əsərin ideyası ilə bağlı fikirlərini söyləyirlər.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 91-ci səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər.

**Danışma**

Müəllim şagirdlərə mətn qurmaq üçün mövzu təqdim edir:

*"Yaxın dostum Akif tanımadığım bir oğlanla mübahisə edirdi. Onlar mübahisəni həll etmək üçün mənə müraciət etdilər. Onların söhbətinə qulaq asanda gördüm ki, Akif haqsızdır. Çıxılmaz vəziyyətdə qaldım. Nə deyəcəyimi bilmirdim..."*

Tapşırıq: – *Verilmiş mətni genişləndirin və davam edib məntiqi sonluğa çatdırın.*

Şagirdlər mətn qurub şifahi şəkildə təqdim edirlər. Bu tapşırığı aşağıdakı şəkildə icra etmək olar:

– *Təsəvvür et ki, vəzirlər xaindirlər və onlar padşahın dedikləri ilə razılaşırlar. Səncə, belə olduqda Şah Abbas nə edərdi?*

**Dil qaydaları**

2-ci tapşırıq yerinə yetirilir.

İş dəftərinin 91-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 61. Uşaqlıq dostu (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətnlərdəki məlumatları müqayisə edir, ümumiləşdirərək məruzə ilə çıxış edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gədiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə və ya dəyişdirməklə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür.<br>Oxuduğu əsərin ideyasını atalar sözü ilə ifadə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Mübtəda ilə xəbərin kəmiyyətə görə uzlaşmasını düzgün müəyyən edir. |

### Motivasiya

**Müəllim:** – *Sizcə lap kiçik uşaqların, məsələn, 2-3 yaşlı körpələrin dostları ola bilərmi? Körpə uşar üçün dostu nə əvəz edə bilər? Özünüzün ən ilk dostunuzu xatırlayırsınızmı? Bu kim, və ya nə idi? Ona münasibətinizi necə idi?*

*Müəllimin nəzərinə:* Şagirdər öz körpəlik çağlalrını yaxşı xatırlamaya bilərlər. Bu zaman onlar valideynlərinin, yaxınlarının o dövr haqqında xatirələrindən yararlana bilərlər. Bundan əlavə şagirdlərə demək olar ki, hər hansı ev heyvanı və ya oyuncaq da körpənin ən sevimli uşaqlıq dostu ola bilər.

Şagidlərin xatirələri dinlənilir.

### Oxu

Dərslikdən “Uşaqlıq dostu ” mətninin 1-2-ci abzasları oxunur. Müəllim şagirdlərə birinci abzası hekayə qəhrəmanının gəmi kapitanı, metro stansiyası rəisi olmaq istəyinin səbəblərini göstərməklə genişləndirməyi tapşırır. Sonra ikinci abzasın sonunda uşağın səyahət nəticəsində arıqlayıb yox olacağı ilə bağlı fikrinin nə üçün əsassız olduğunu soruşur.

### Dinləmə

#### Cəsarətli eksperiment

Alen Bombar fransız həkimi, bioloqu və səyyahı olmuşdur. O hesab edirdi ki, gəminin qəzaya uğraması nəticəsində dənizdə kiçik bir qayıqda qalan insanlar aclıq ya susuzluqdan deyil, qorxudan həlak olurlar. Onlar xilas olacaqlarına inanmır və həyatları uğrunda mübarizədən tez əl çəkirlər. Bombarın fikrincə, dənizdə kifayət qədər qida var, sadəcə onu əldə etməyi bacarmaq lazımdır. Bunu sübut etmək üçün 1952-ci ildə 28 yaşlı gənc həkim balaca rezin qayıqda 65 günə Atlantik okeanını üzüb keçmişdi. Bu müddət ərzində o yalnız çiy balıqla qialanır, yağış suyunu və ya balıqlardan sıxıb çıxardığı şirəni içirdi. Eksperimentin sonunda cəsur səyahətçi 25 kq arıqlamış, səhhətində ciddi problemlər yaranmışdı. Lakin Bombar tezliklə sağlamlığını tamamilə bərpa etmiş, uzun ömür sürmüş, dünyasını 80 yaşında dəyişmişdi.

Beləliklə, Alen Bombar bütün dünyaya sübut etmişdi ki, açıq okeanda tamamilə tənha qalan insan təbiət qüvvələrinə qalib gələrək sağ qala bilər.

LAYİHƏ

– Dərslikdəki mətndə Alen Bombar haqqında deyilənlərə dinləmə mətnindən sonra hansı məlumatlar əlavə olundu?

*Müəllimin nəzərinə:* Milliyətcə fransız olması, həkim və bioloq olması, səyahətinin səbəbi və müddəti, hansı okeanı üzüb keçməsi, səyahət zamanı nə yediyi və içdiyi, səyahətinin sonunda gəldiyi nəticə və s. Şagidlər suallara cavab verməklə dinləmə mətnini nə dərəcədə qavradıqlarını nümayiş etdirmiş olurlar. Mətndəki məlumarlardan istifadə etməklə Bombarın doğum və ölüm tarixlərini də öyrənmək mümkündür. Lakin bu kifayət qədər çətin olduğu üçün müəllim şagirdlərə kömək məqsədi lə mətndəki məlumatları lövhədə yaza bilər: Bombar səyahətə 1952-ci ildə çıxmışdı. Bu zaman onun 28 yaşı vardı. O, 80 yaşında vəfat etmişdir.

### Oxu

Mətn 136-cı səhifənin sonuna qədər oxunur. 2-3-cü tapşırıqlar yerinə yetirilir

2-ci tapşırıq. 1 – B (Sualın cavabı mətndə olmasa da, şagirdlər bu idman alətinin armuda oxşadığı üçün belə adlandırıldığını təxmin edə bilərlər), 2 – A (Bu sualın cavabı mətndə var: İdmançılar var gücü ilə ağır dəri “armud”u yumruqlayır, bununla da zərbənin gücünü artırırdılar) , 3 – C (Mətndə məxmər ayını uşağa kimin bağışlaması haqqında heç bir işarə olmadığı üçün bu sualın cavabını təxmin etmək mümkün deyil), 4 – B (Şagirdlər uşaqla ata arasında olan dialoqdan təxmin edə bilərlər ki, ata oğluna boksçu armudunu baha olduğu üçün almadı).

Mətn sona qədər oxunur. Müəllim istiqamətləndirici suallar vasitəsilə şagirdləri əsərin qəhrəmanı haqqında fikirlərini söyləməyə yönləndirir.

– Məxmər ayı uşaqda hansı xatirələri oyatdı?
– Lap kiçik olanda uşağın ona münasibəti necə idi?
– Bəs indi o, ayıdan hansı məqsədlə istifadə etmək istəyirdi?
– Hekayənin sonunda uşağın gözləri niyə yaşla dolmuşdu?
– Uşaq boksçu olmaq fikrindən nə üçün daşındı?

Şagirdlər hekayənin mövzusunu və ideyasını müəyyənləşdirərək belə bir nəticəyə gələ bilərlər ki, həyatda hər hansı məqsədə çatmaq üçün dosta xəyanət etmək, onu incitmək olmaz. Müəllimin təklif etdiyi atalar sözləri arasından (A. Dostluq düzlükdədir. B. Dost dostun eybini üzünə deyər. C. Hər şeyin təzəsi, dostun köhnəsi. D. Örtülü bazar dostluğu pozar). mətnin ideyasına uyğun olanı seçilir: C variantı.

### Danışma

Dərslikdəki 1-ci tapşırıq yerinə yetirilir. Tapşırıq şagirdlərin istəyi ilə genişləndirilə bilər. Onlar böyüyəndə sahib olmaq istədikləri peşələr və nə üçün məhz həmin peşəni seçdikləri ətrafında fikir mübadiləsi apara bilərlər.

### Yazı

Şagirdlərə “Mənim ilk dostum” mövzusunda inşa yazmaq tapşırılır.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 93-ci səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər.

### Dil qaydaları

4-cü tapşırıq. Yox, ata, **mən** yeməli armud demirəm! **Sən** mənə boksçuların məşq elədiyi dəri armud al!

İş dəftərinin 93-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, təqdimat, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

# Dərs 62. FİKRƏTİN DOSTU (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Kompozisiyalı şəkil əsasında mətn qurub danışır. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Verilmiş mövzuya uyğun mətn qurub jest və mimikalardan istifadə etməklə nəql edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Obrazların nitqini onların emosional vəziyyətinə uyğun səsləndirməklə mətni oxuyur. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş situasiyaya uyğun kiçikhəcmli esse yazır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Mübtəda ilə xəbərin kəmiyyətə görə uzlaşmasını düzgün müəyyən edir. |

**Motivasiya**

Müəllim şagirdlərə kiçik hekayə danışır:

"Kamranın iti xəstələnmişdi. O, itin altına yumşaq və isti adyal döşədi. İtə süd verdi. Ona yaxşı qulluq etdi. Bir neçə gündən sonra it sağaldı. Günlərin bir günü Kamran gölə balıq tutmağa getdi. İt də onunla idi. Birdən Kamranın ayağı sürüşdü və suya düşdü. Kamran boğulurdu. İt tez özünü gölə atıb Kamranı çıxartdı. Həmin gündən Kamran və it yaxın dost oldular".

**Sual:** – *İnsanla heyvanın dostluğuna necə baxırsınız? Belə bir dostluq mümkündürmü?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

**Oxu** (rollu oyun)

Dərsliyin 138-139-cu səhifələrində verilmiş mətnin oxunması üçün 5 şagird (Fikrət, nənə, 2 uşaq, aparıcı) seçilir, onlar mətndəki obrazların nitqini və müəllif mətnini səsləndirirlər. Mətn *"Mən bostandan qayıdıb gələndə nə görsəm yaxşıdır?"* cümləsində dayandırılır və 139-cu səhifədəki 1-ci tapşırıq yerinə yetirilir. Sonra mətnin davamı sona qədər oxunur.

**Danışma**

Şagirdlər 4 qrupa bölünürlər. Hər qrupa aşağıdakı tapşırıq verilir:

**I qrup:** – *"Mənim dostum Məstan pişiyimdir" mövzusunda hekayə düşünün və təqdim edin.*
**II qrup:** – *"Mənim dostum Qızıl atımdır" mövzusunda hekayə düşünün və təqdim edin.*
**III qrup:** – *"Mənim dostum Tutudur (tutuquşu)" mövzusunda hekayə düşünün və təqdim edin.*
**IV qrup:** – *"Mənim dostum Toplan itimdir" mövzusunda hekayə düşünün və təqdim edin.*

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 94-cü səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Yazı**

Şagirdlərə oxuduqları əsərlərdə, baxdıqları filmlərdə insanlara kömək edən heyvanları xatırlamaq və onların haqqında kiçik mətn yazmaq tapşırılır.

**Dil qaydaları**

3-cü tapşırıq. 3-cü və 4-cü cümlələrdə xəbər mübtəda ilə uzlaşır. Hər iki cümlədə mübtəda cəmdə olduğu üçün xəbər də cəmdədir.

Motivasiya xarakterli 2-ci tapşırıq yerinə yetirildikdən sonra qayda oxunur və mənimsədilir.

4-cü tapşırıq yerinə yetirilir.

İş dəftərinin 94-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 92-ci səhifəsində də verilmişdir.)

### DOSTLUQ

Səbuhi və Rəşad bir kənddə yaşamış, bir sinifdə oxumuşdular. Onlar həm də qonşu idilər. Uşaqlıqdan bir yerdə böyümüş, həmişə dostluq etmişdilər. Aralarından su da keçmirdi.

Məktəbi bitirdikdən sonra da onlar arabir görüşür, qazandıqları uğurları bir-biri ilə bölüşürdülər. Ali təhsilini bitirdikdən sonra Rəşad doğma kəndinə qayıdıb məktəbdə dərs deməyə başladı. Çox keçməmiş onu məktəb direktoru vəzifəsinə təyin etdilər. Səbuhi isə rayon mərkəzində məsul bir vəzifədə işləyirdi. Bir dəfə Novruz bayramı ərəfəsində o, doğma kəndinə gəldi. Dostu evdə olmadığına görə iş yerinə getdi. Vizit kartını qapıçıya verdi ki, məktəbin direktoruna çatdırsın. Kartda onun vəzifəsi, adı və soyadı yazılmışdı.

Rəşad kartı alıb oxudu və qapıçıya dedi:

– De ki, işim var, onu qəbul edə bilmərəm.

Rəşadın cavabını eşidən Səbuhi gülümsədi:

– Bu mənim səhvimdir.

Sonra o, kartda vəzifəsini bildirən sözləri pozdu və qapıçıya verdi. Bu dəfə Rəşad:

– Hə, bu, Səbuhidir, – dedi və onu içəri dəvət etdi.

1. Mətndə belə məlumat yoxdur:
   A) Səbuhi ilə Rəşad yerlidir.
   B) Səbuhi ilə Rəşad sinif yoldaşıdır.
   C) Səbuhi ilə Rəşad tələbə yoldaşıdır.

2. Mətnin ideyasına uyğun kəlamı seç.
   A) Dostluq dövlətdən də, vəzifədən də üstündür.
   B) Ağac kökləri ilə yaşar, insan dostları ilə.
   C) Dostluq şüşə kimidir, sındırsan, düzəldə bilməzsən.

3. Səbuhi kəndə nə vaxt gəlmişdi?
   A) payızda    B) yazda    C) yayda

**Yazı** üzrə qiymətləndirmə (inşa)

Mövzu: “Məşhur adam olmaq xoşbəxtlikdir, faydalı olmaq isə hər kəsin borcudur” (Viktor Hüqo).

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** “Kosmonavtlar təyyarədən endi…” cümləsində nöqtələrin yerinə hansı şəkilçi əlavə edilməlidir?
   A) -niz    B) -lər    C) heç bir şəkilçi

**2.** Hansı cümlədə mübtəda ilə xəbər uzlaşmayıb?
   A) Biz çimərliyə getmədik.
   B) Hamı birağızdan qışqırdılar.
   C) Ana körpəsini yedizdirir.

**3.** “… səhər yeməyini yeməlisən” cümləsində nöqtələrin yerinə hansı söz yazılmalıdır?
   A) siz    B) o    C) sən

**4.** “Qardaşımla mən keçən yay kəndə …” cümləsində nöqtələrin yerinə hansı söz yazıla bilməz?
   A) getdik    B) getdim    C) gedəcəyik

**5.** Hansı cümlədə xəbərin sonuna şəxs şəkilçisi artırılmalıdır?
   A) Mən mağazadan maraqlı kitab aldı… .
   B) Ovçu ceyranı nişan aldı…
   C) Quşlar isti ölkələrə uçub getdi… .

LAYİHƏ

# Dərs 63. SƏXAVƏTLİ AĞAC (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətnin ideyasından bəhrələnərək eyni mövzuda mətn qurub təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür.<br>Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduqlarını və eşitdiklərini ümumiləşdirməklə təhlil xarakterli inşa yazır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Toplu isimlər (xalq, əhali) işlənən cümlələrdə mübtəda ilə xəbəri düzgün uzlaşdırır. |

**Motivasiya**

Müəllim lövhədə *"eqoist"* (yalnız öz mənafeyi haqqında düşünən) sözünü yazır və şagirdlərə müraciət edir: – *Kim bu sözün mənasını bilir?* Sözün mənasını bilən şagirdlər onu izah edirlər. Müəllim bu sözə əksmənalı söz tapmağı tapşırır.

*Müəllimin nəzərinə: Sinfin səviyyəsi yüksək olarsa, müəllim "altruist" sözünü səsləndirib onun mənasını açıqlaya bilər: "başqalarının naminə öz mənafeyini qurban verən". Əks halda "fədakar" sözü ilə də kifayətlənmək olar.*

Müəllim keçilmiş əsərlərdən bir neçəsini xatırladır:
– *"Tom özünü fəda edir" əsərində kimi eqoist, kimi fədakar adlandırmaq olar?*
– *"İki nar" hekayəsində hansı obrazı eqoist adlandırmaq olar?*
– *"Qaraca qız və Ağca xanım" hekayəsində kimi eqoist, kimi fədakar adlandırmaq olar?*
Şagirdlər fikirlərini deyir və əsaslandırırlar.

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 140-142-ci səhifələrindəki mətn 1-ci hissənin sonunadək oxunur. 1-ci tapşırıq yerinə yetirilir: B variantı. 2-ci tapşırığın sualı oxunur. Cavablar dinlənilir. Mətnin davamı ilə bağlı müəllim soruşur: – *Sizcə, bundan sonra oğlan alma ağacına hansı məqsədlə müraciət edəcək? Alma ağacı növbəti dəfə nəyi qurban verəcək?*

Mətnin 2-ci hissəsi oxunur. 3-cü tapşırığa uyğun hadisələrin davamı təxmin edilir. Mətnin 3-cü hissəsi oxunduqdan sonra bir daha sual verilir: – *Artıq alma ağacının heç nəyi qalmayıb. Sizcə, hekayə necə bitəcək?* (4-cü tapşırıq). Şagirdlər hər dəfə hekayənin davamını proqnozlaşdırırlar.

142-ci səhifədki 5-6-cı tapşırıqlar yerinə yetirilir.

5-ci tapşırıq. Qayğıkeş, fədakar, xeyirxah, vəfalı.

6-cı tapşırıq. Həyatda kiməsə lazım olduğunu bilmək ən böyük xoşbəxtlikdir.

İş dəftərinin 95-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilə bilər.

Müəllim əsərdəki obrazlara münasibət bildirməyi tapşırır:
– *Əsərdə kimi eqoist, kimi fədakar adlandırmaq olar?*
– *Oğlanın eqoizmi özünü nədə göstərirdi?*
– *Ağacın fədakarlığını necə qiymətləndirirsiniz?*
– *Sizcə, nə üçün alma ağacı hər dəfə bir şeydən məhrum olmasına baxmayaraq, özünü xoşbəxt hiss edirdi?*

LAYİHƏ

### Danışma

Əsərdəki ağac obrazını insan obrazı ilə əvəz edib təxəyyülünüzə uyğun elə bir mətn qurun ki, ideyası "Səxavətli ağac" hekayəsi ilə eyni olsun.

### Yazı

Tapşırıq: – *Mətnin sonluğuna çəkilmiş illüstrasiyaya görə cavab verin və fikirlərinizi yazın: "Kötüyün üstündə oturan qoca, görəsən, kötüyün dibindən çıxan pöhrəyə baxaraq nə düşünür?" və ya "Bəs sən kimisə sevindirib xoşbəxt etmisənmi? Bu zaman hansı hisləri keçirmisən?"*

### Dil qaydaları

7-ci tapşırıq. 1 – B, 2 – C, 3 – A

Motivasiya xarakterli bu tapşırıq yerinə yetirildikdən sonra qayda oxunur və mənimsədilir.

8-ci tapşırıq.

*Sürü çəmənlikdə otlayır.*
*At ilxısı düzənlikdən uzaqlaşırdı.*
*Ordu sərkərdənin əmrini icra etdi.*
*Xalq sənətkara həmişə hörmət edir.*

İş dəftərinin 95-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 64. İKİ QONŞU (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnə yeni epizod və obrazlar əlavə etməklə yaradıcı plan tutur və nəql edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Mübtəda ilə xəbərin kəmiyyətə görə uzlaşmasını düzgün müəyyən edir. |

### Motivasiya

**Müəllim:** – *"Dostsuz insan – qanadsız quş" atalar sözünü necə başa düşürsünüz?*

### Oxu

Dərslikdən (səh.143) mətn *"Həmin gün qonşular küçədə rastlaşdılar"* cümləsinə qədər oxunur. Müəllim şagirdlərə müraciət edir:

– *Sizcə, Səməd öz həyətini qardan nə vaxt təmizləyirdi?* Şagirdlər öz versiyalarını dedikdən sonra mətnin sonluğu oxunur və tapşırıqdakı sual oxunub cavablandırılır.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 96-cı səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**"Nağılı dəyiş" oyunu**

Şagirdlər 3 qrupa bölünürlər. Qruplara tapşırıqlar verilir:

**I qrup:** – *Mətni elə dəyişin ki, hadisələr yay (yaz) mövsümündə baş versin.*

**II qrup:** – *Mətnin məzmununu elə dəyişin ki, fantastika janrında mətn alınsın.*

**III qrup:** – *Mətnə bir neçə yeni epizod və obraz əlavə etməklə yenidən nəql edin.*

Müəllim detektiv və fantastika janrlarının xüsusiyyətlərini uşaqlara başa salır.

Qruplar əvvəlcə öz mətnlərinin planını tutub sinfə təqdim edir. Plan müzakirə olunur, başqa qruplar öz düzəliş və qeydlərini təklif edir. Bundan sonra qruplar mətni hazırlayıb təqdim edir.

### Dil qaydaları

2-ci tapşırıq yerinə yetirilir. 1-ci və 3-cü cümlələrdə.

İş dəftərinin 96-cı səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıq yerinə yetirilə bilər.

LAYİHƏ

**Qiymətləndirmə.** Müşahidə, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 65. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 144-cü səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 66. 5-ci BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

**Dinləmə və yazı üzrə qiymətləndirmə** (iş dəftərinin 97-ci səhifəsində də verilmişdir)

Bir insanı həyatı boyu üç köməkçi müşayiət edirdi: xoşbəxtlik, dövlət və dostluq. Həmin adam həyatda hər şeyə nail olandan sonra köməkçiləri ona dedilər:

– Sən artıq bütün arzularına çatmısan. İndi bizdən ikimiz səni tərk etməliyik. Yalnız birimiz səninlə qala bilərik.

İnsan fikirləşdi və dedi:

– Qoy mənimlə dostluq qalsın.

Bundan sonra o, uzanıb yatdı. Səhər yuxudan duranda insan hər üç köməkçisini yanında gördü və heyrətlə soruşdu:

– Nə üçün siz üçünüz də buradasınız?

– Çünki sən dostluğu seçdin. Biz isə bu illər ərzində əsl dost olmuşuq. Buna görə də səni qoyub gedə bilmədik.

1. Adam dostluğu seçdiyi halda nə üçün xoşbəxtlik və dövlət onu tərk etməmişdi?

______________________________________________

2. Dinlədiyin mətndə baş qəhrəman xoşbəxtliyi seçsəydi, nağıl necə davam edərdi?

______________________________________________

3. Hansı sözdə hərflərin sayı səslərin sayı ilə eynidir?

A) xoşbəxtlik B) insan C) dostluq

4. *“Yalnız birimiz səninlə qala bilərik”* cümləsində *yalnız* sözünü hansı sözlə əvəz etmək olar?

A) təkcə B) lakin C) sanki

5. Köməkçi nitq hissələrinin cümlədəki vəzifəsini müəyyən et.

A) çünki B) və C) qoy

| | | | |
|---|---|---|---|
| 1. Söz və cümlələri bir-birinə bağlayır. | A | B | C |
| 2. Cümlənin təsir gücünü artırır. | A | B | C |
| 3. Cümlələr arasında səbəb-nəticə əlaqəsi yaradır. | A | B | C |

**Oxu və dil qaydaları üzrə qiymətləndirmə** (İş dəftərinin 98-99-cu səhifələrində də verilmişdir.)

### CƏNNƏTMƏKAN

Bir dünyagörmüş ağsaqqal “Cənnətməkan” adlı yeri tapmaq üçün atına minib yola çıxdı. Yol uzun idi, at da, atlı da çox yorulmuş, həm də acmışdılar. Susuzluq hər ikisini əldən salmışdı. Nəhayət, onlar güllü-çiçəkli, barlı-bərəkətli bir yerə gəlib çıxdılar. Burada duran qapıçı həmin yerin Cənnətməkan olduğunu söylədi.

– Nə yaxşı, axır ki gəlib çatdıq. Çox susamışıq.

LAYİHƏ

– Sən içəri girib istədiyin qədər su içə bilərsən, amma atı çöldə saxla.
– Axı mənim atım da susayıb.
– Çox təssüf, ancaq buraya heyvanlar girə bilməz.

Ağsaqqalın qanı qaraldı, ancaq o, suyu təklikdə içmək istəməyib yoluna davam etdi. Nəhayət, kiçik bir kəndə gəlib çıxdılar. Kəndin girəcəyində, ağacın altında bir nəfər oturmuşdu. Yolçu ona salam verib dedi:

– Mən və atım susuzluqdan ölürük.
– Bax orada, daşların arasında bulaq var. Doyunca içə bilərsiniz.

Sudan doyunca içdikdən sonra yolçu geri qayıdıb həmin adama təşəkkür etdi və bu yerin adını soruşdu.

– Cənnətməkan, – deyə həmin adam cavab verdi.
– Necə yəni Cənnətməkan? Axı buradan xeyli aralı belə bir yer var.
– Xeyr, əsl Cənnətməkan buradır.
– Bəs niyə siz onlara bu addan istifadə etməyi qadağan etmirsiniz? – deyə yolçu təccübləndi, – axı bu yalan məlumat insanları çaşdıra bilər.
– Heç də yox; əslində, onlar bizə çox böyük xidmət göstərirlər. Ancaq özlərini düşünən, dostlarını isə darda qoyan adamlar orada qalırlar.

1. Mətnə görə əsl Cənnətməkan hara hesab edilir?
   A) Hər şeyin bol olduğu yer
   B) Gözəl təbiətli yer
   C) Yaxşı insanların yaşadığı yer

2. Səfər müddətində yolçu və onun atı daha çox nədən əziyyət çəkmişdilər?
   A) susuzluqdan B) yorğunluqdan C) aclıqdan

3. Baş qəhrəman haqqında verilən fikirlərdən biri yanlışdır:
   A) Atını çox sevirdi. B) Sədaqətli insan idi. C) Təcrübəsiz gənc idi.

4. Nəyə görə *"Cənnətməkan"* adlı ikinci bir yer yaradılmışdı?
   A) Çünki əsl Cənnətməkanda yer az idi.
   B) Cənnətməkana gələnləri sınaqdan çıxarmaq üçün.
   C) Əsl Cənnətməkana yolu göstərmək üçün.

5. Hansı rənglə verilmiş sözü *"yalnız"* sözü ilə əvəz etmək olar?
   A) B) C)

6. Altından xətt çəkilmiş sözlərdən hansı düzgün yazılıb?
   A) təssüf B) təccüb C) təşəkkür

7. *"Susuzluq"* sözündəki şəkilçiləri bu sözlərdən hansına artırmaq *olmaz?*
   A) yuxu B) uyğun C) yox

8. *"Darda qoymaq"* nə deməkdir?
   A) balaca yerdə saxlamaq
   B) çətin vəziyyətdə qoymaq
   C) ağacdan asmaqla cəzalandırmaq

9. *"Yol"* sözü hansı cümlədə mətndəki mənasında işlənib?
   A) Dağa qalxan sıldırımlı yol çox təhlükəli idi.
   B) Onun anası toyuğu yolub sonra yemək hazırlamağa başladı.
   C) Bu məsələni həll etmək üçün müxtəlif yollardan istifadə etmək lazımdır.

LAYİHƏ

## 6-cı bölmə

# ANA TƏBİƏT

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 67 | Təbiətin dostları | 1.2.3, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.3, 4.1.5 | 2 | 146-147 | 100 | 155 |
| 68 | Meşələrin dostluğu | 2.1.1, 2.2.2, 2.2.4, 2.2.5, 3.1.4, 4.1.4 | 2 | 148-149 | 101 | 156 |
| 69 | Suallar, cavablar | 1.1.1, 2.2.2, 2.2.4, 3.1.3 | 2 | 150 | | 158 |
| 70 | Çil toyuq | 1.1.2, 2.1.3, 2.2.2, 2.2.4, 3.1.3 | 4 | 151-152 | 102-103 | 159 |
| 71 | Gülgəz | 1.1.2, 1.2.1, 2.1.1, 2.1.3, 2.2.2, 2.2.4, 3.1.2, 3.1.4, 4.1.4, 4.1.6 | 6 | 153-157 | 104-105 | 162 |
| 72 | Heyvanlar | 2.2.1, 2.2.2, 4.1.5, 4.1.6 | 4 | 158-159 | 106-107 | 166 |
| 73 | Buğda üşüyürmü | 1.2.1, 2.1.3, 2.2.2, 2.2.4, 3.1.4 | 2 | 160-161 | 108 | 170 |
| 74 | Novruz bayramı | 1.2.1, 2.1.1, 2.2.1, 3.1.5 | 2 | 162 | | 171 |
| 75 | Qızıl balıq | 1.2.1, 2.2.2, 2.2.4, 4.1.4 | 6 | 163-165 | 109-111 | 172 |
| 76 | Sağsağan nə axtarırdı | 1.1.2, 2.2.4, 3.1.5, 4.1.1 | 2 | 166 | 112 | 175 |
| 77 | Yaz | 1.2.1, 2.1.1, 2.2.2, 2.2.4, 3.1.4, 4.1.6 | 2 | 167 | 113 | 177 |
| 78 | Alma ağacı | 1.2.1, 2.2.2, 2.2.4, 2.2.5. | 2 | 168-169 | 114 | 178 |
| 79 | Ümumiləşdirici təkrar | | 2 | 170 | | 180 |
| 80 | Kiçik summativ qiymətləndirmə | | 2 | | 115-117 | 180 |
| Yekun | | | 40 saat | | | |

LAYİHƏ

# Dərs 67. TƏBİƏTİN DOSTLARI (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müvafiq jest və mimikalardan istifadə edir. | Verilmiş mövzu ilə bağlı mətn hazırlayaraq obrazlı və emosional şəkildə təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Ekoloji problemlə (meşələrin qırılması) bağlı mühakimə xarakterli inşa yazır. |
| 4.1.3. Mətndəki yeni sözlərin və adların mənasını, yazılışını müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir. | Rəqəmlə ifadə olunan sıra saylarının düzgün yazılışını müəyyənləşdirir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə üzvlərinin ifadə vasitələrini müəyyənləşdirir. |

**Motivasiya**

Müəllim 2-ci sinifdə keçilmiş "Ana Təbiətin uşaqlara məktubu"nu xatırladır:

– *Bu məktubda Ana Təbiət uşaqlardan nəyi xahiş edirdi?*

Daha sonra lövhədə cədvəl çəkilir:

| TƏBİƏTİ QORUMAQ ÜÇÜN | | |
|---|---|---|
| VACİBDİR | YAXŞI OLARDI | OLMAZ |
| | | |

Şagirdlərin söylədikləri fikirlərə əsasən cədvəl doldurulur. Müəllim yönəldici suallarla şagirdləri daha çox fikir söyləməyə sövq edir.

– *Zavod və fabriklərin tullantıları təbiətə necə təsir göstərir?*

– *Meşələrin qırılması nəyə gətirib çıxara bilər?*

– *Yırtıcı heyvanları öldürmək lazımdırmı?..*

**Oxu** (proqnozlaşdırma)

Dərsliyin 146-147-ci səhifələrində verilmiş mətn *"... komissiya özü müəyyən edəcək"* cümləsinə qədər oxunur. *Müəllim "Görəsən, komissiya hansı işə görə birinciliyi müəyyən edəcək?"* sualı ilə şagirdlərə müraciət edir. Sualla bağlı şagirdlərin versiyaları dinlənilir. Mətn sona qədər oxunur və şagirdlərin versiyaları ilə müqayisə olunur.

Müəllimin tapşırığı ilə şagirdlər əsərin mövzusunu və ideyasını müəyyənləşdirirlər:

**Mövzu:** *"Təbiətin dostları" adı uğrunda siniflər arasındakı yarışma".*

**İdeya:** – *Kitabları səliqəli saxlamaqla meşələrin qayğısına qalmış oluruq.*

Dərslikdəki 2-3-cü tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 100-cü səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə etmək olar.

Dərslikdəki 4-cü tapşırıq ev tapşırığı kimi də verilə bilər.

**Söz ehtiyatı**

Dərslikdəki 1-ci tapşırıq yerinə yetirilir: 1 – *C*, 2 – *A*, 3 – *B*.

**Danışma** (məruzə)

Şagirdlər dörd qrupa bölünürlər və *"Əgər mən təbiət hadisəsi olsa idim, insanlara nə deyərdim"* mövzusunda məruzə hazırlayırlar.

**I qrup:** – *Əgər mən meşə olsa idim...*

LAYİHƏ

**II qrup:** – *Əgər mən dəniz olsa idim...*
**III qrup:** – *Əgər mən səma (hava, atmosfer) olsa idim...*
**IV qrup:** – *Əgər mən canlılar aləmi (heyvanlar, quşlar, həşəratlar) olsa idim...*

Müəllim bildirir ki, hər bir məruzəçi təbiət hadisəsi rolunda olduğundan çalışmalıdır ki, müvafiq təbiət hadisəsinin problemlərini qabartsın, eyni zamanda nitqində bədii ifadə vasitələrindən istifadə etməklə obrazlı və emosional danışsın, yəni dinləyicilərin hiss və duyğularına təsir etsin. Bütün bunlar qrup fəaliyyətinin qiymətləndirilməsində böyük rol oynayır.

Hər bir qrupun məruzəsi müzakirə olunur. Dinləyənlər öz qeydlərini və əlavələrini edirlər. Problemin açılışı, obrazlı və emosional nitq xüsusi qiymətləndirilir.

### Yazı

*“Biz meşələri qırıb kağız düzəldirik, sonra isə həmin kağızda təbiətin qorunması haqqında gözəl sözlər yazırıq”* mövzusunda inşa yazılır.

### Dil qaydaları

Dərsliyin 147-ci səhifəsindəki 5-ci tapşırıq yerinə yetirilir və şagirdlər “Yadda saxla!” rubrikasındakı nəzəri materialı mənimsəyirlər. 6-7-ci tapşırıqlar yerinə yetirilir.

7-ci tapşırıq. Hər iki söz saydır. “Birincidir” sözü cümlədə xəbər, “dördüncülər” sözü isə mübtəda vəzifəsində işlənib.

İş dəftərinin 100-cü səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilə bilər.

Müəllim şagirdlərə belə bir tapşırıq verir:– *Özünüz haqqında məlumat yazın. Məlumatda miqdar və sıra saylarının ədədlərlə ifadəsindən istifadə edin*.

Şagirdlər iş vərəqində verilmiş mətndəki boşluqları doldururlar.

Mən – ................................. (ad, soyad) .................... (təvəllüd: gün, ay, il) anadan olmuşam. .........-ci ildə ...... №-li məktəbin .... sinfinə daxil olmuşam. İndi ..... sinifdə oxuyuram.

Bizim sinif .... nömrəli otaqda dərs keçir. Otağımız məktəbin ..... mərtəbəsindədir. Sinfimizdə ...... şagird var. Onlardan ..... qız, ..... oğlandır.

İş dəftərinin 100-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 68. MEŞƏLƏRİN DOSTLUĞU (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi yeni sözləri kontekstə əsasən izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Bədii mətndə rast gəldiyi elmi məlumatları sistemləşdirərək təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək fikrini yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədəki köməkçi nitq hissələrini müəyyən edir. |

LAYİHƏ

### Motivasiya

**Müəllim:** – *Heç meşədə olmusunuz?*

Nə zamansa meşədə olmuş uşaqlar təəssüratlarını xatırlayıb söyləyirlər.

Yönəldici suallar verilir: – *Meşədə olanda hansı səsləri eşidirdiniz?* (yarpaqların xışıltısı, quşların səsi) *Sizcə, niyə meşədə quşlar çoxdur? Burada quşlar nə ilə qidalanır?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

Müəllim əsas motivasiya sualını səsləndirir:

– *Sizcə, meşə quşlara daha çox lazımdır, yoxsa quşlar meşəyə?*

### Oxu

Dərsliyin 148-149-cu səhifələrindəki mətn *“... doğma meşəsiz necə yaşayacaqlar”* cümləsinə qədər oxunur.

### Söz ehtiyatı

Dərslikdəki 1-ci tapşırıq yerinə yetirilir: *Sinə gərmək* – özünü mərdliklə qorumaq, müqavimət göstərmək; *ulu* – çox böyük, ən böyük; *xətər* – ziyan, zərər; *yamac* – dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya maili səthi; *tala* – meşədə ağacsız, çılpaq yer, sahə, açıqlıq; *qarət* – kiminsə var-dövlətini zorla əlindən alma, soyğun, talan.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 101-ci səhifəsindəki 1-ci tapşırıqdan istifadə oluna bilər.

Müəllim sualla müraciət edir:

– *Sizcə, insanlar quşları haraya və nə üçün aparırdılar?*

Şagirdlər öz variantlarını söyləyirlər və mətnin ardı *“Ağacdələn yerini rahatladı”* cümləsinə qədər oxunur. Müəllim şagirdlərə təklif edir ki, əvvəlki fərziyyələrinə düzəlişlər etsinlər.

Mətn sona qədər oxunur və fərziyyələrlə müqayisə olunur.

İş dəftərinin 101-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilə bilər.

**Əlavə tapşırıq:** – *Başqa meşəyə köçən quşlar özləri qayıtsa da, balaları qayıtmır. Səbəbini yaz.* (Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı)

Dərslikdən 2-4-cü tapşırıqlar yerinə yetirilir.

2-ci tapşırıq. … çünki həşəratlar onları yeyirmiş.

… çünki meşə quşları yalnız doğulub böyüdükləri yerdə yaşayırlar.

3-cü tapşırıq. Çünki ağacdələn onun qabığının altındakı cücüləri, həşəratları yeyirdi.

4-cü tapşırıq. Quşlar həşəratları yeyərək ağacları xilas edir. Quşlar öz balalarını dirçəlib sərbəst yaşaya bilənədək bəsləyir.

### Yazı

Müəllim şagirdlərə tapşırıq verir:

– *Mətndən çıxış edərək sualı cavablandır: “Meşələrin yaranması və inkişafı üçün nə lazımdır?”*

### Dil qaydaları

**Müəllim:** – *Azadlığa, qabığını, küləyə* sözlərini tərkibinə görə kök və şəkilçiyə ayırın. Sözün kökündə baş verən dəyişikliyi izah edin.

Şagirdlər dərsliyin 149-cu səhifəsində verilmiş 5-ci tapşırığı yerinə yetirirlər. (Cavab “B” variantıdır.)

– *Boşluqların yerinə qoyulan sözlər necə adlanır? (köməkçi nitq hissələri)*

İş dəftərinin 101-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

# Dərs 69. SUALLAR, CAVABLAR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi əsərdəki obraz və hadisələr haqqında müxtəlif fikirləri ümumiləşdirərək yekun nəticəyə gəlir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Hadisələrin ardıcıllığını müəyyən etməklə mətndəki məlumatları sistemləşdirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi şeiri nəsrə çevirərək məzmununu yazır. |

**Motivasiya**

Müəllim Bəxtiyar Vahabzadənin “Üşümürmü, görəsən” şeirini xatırladır (dərslik, səh. 97) və soruşur: – *Doğrudan da, heyvanlar, bitkilər qışın şaxtasına necə dözür?*

Şagirdlər öz fikirlərini söyləyirlər.

**Oxu**

**Şüurlu oxu**. Şagirdlər dərsliyin 150-ci səhifəsində verilmiş şeiri səssiz oxuyur və həmin səhifədəki tapşırığı yerinə yetirirlər (düzgün cavab: “C” variantı).

**Müəllim:** – *Atanın cavabları çox qısa, lakin dəqiqdir. Bu cür ifadələr necə adlanır?* (lakonik ifadələr)

**İfadəli oxu** (cütlərlə iş). Cütlərdəki şagirdlərdən biri uşaq, digəri ata rolunda çıxış edərək hər cüt şeirin bir bəndini deyir. Şeirin obrazların xarakterinə uyğun səsləndirilməsinə xüsusi diqqət yetirilir.

Şagirdlərə test vərəqi paylanır.

**TEST VƏRƏQİ**

**1.** Şeirdə atanın verdiyi cavabları genişləndirərək yaz.

1. Qışda qazlar, ördəklər ona görə üşümür ki, onların tükü ...
2. Payızlıq toxumu elə əkmək lazımdır ki, ...
3. Əgər ağacların kökü ...

**2.** *Şaxta, ayaz, ...* . Şeirdə işlənmiş hansı söz bu söz sırasını tamamlayır?

**3.** Hansı cümlədəki *kök* sözü şeirdəki mənasına uyğun işlənib?

A) Sözün kökü onun əsas məna bildirən hissəsidir.
B) Kök çoxlu vitaminlə zəngindir.
C) Hər bir bitkinin qidalanmasında onun kökü böyük rol oynayır.

**Danışma**

**Müəllim:** – *Əgər şeir davam etsə idi, uşaq atasına daha hansı sualları verə bilərdi?*

Daha maraqlı suallar fikirləşən və bu sualı nəzm formasında təqdim edən şagirdlərin işi xüsusi qeyd olunur.

**Dinləmə**

**SOYUQ GÜNDƏ**

Həyətə çıxdı Elman,
Hava soyuqdu yaman.
Üşüyüb evə qaçdı,
Tez sobaya yanaşdı.
Dayanıb oda yaxın,

Qızdırıb əl-ayağın,
Dedi: – Nənə, sobanı
Apar həyətdə yandır.
Quşlar əsir soyuqdan,
Üşüyürlər, amandır!

Qoy balaca sərçələr
Nə üşüsün, nə donsun.
Qızınmaqçün uçuşub
Bizim həyətə qonsun.

*Mir Sabir*

LAYİHƏ

**Sual:** – *Elman həyətdə nə ilə rastlaşmışdı?*
– *Elman quşların onların həyətinə qonmasını nə üçün istəyir?*
– *Nənəsi Elmanın arzusunu yerinə yetirəcəkmi?*
– *Elman sərçələrə hansı qayğını göstərsəydi, onlara daha çox faydası olardı?*

**Yazı**
Şagirdlər dinlədikləri şeiri nəsrə çevirərək yazırlar.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 70. ÇİL TOYUQ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndəki bədii ifadə vasitələrini müəyyənləşdirir və izah edir.<br>Mətndəki obrazlı ifadələrin mənasını kontekstə əsasən izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır.<br>Mətndə təsvir olunmuş hadisələrin elmi izahını verir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi dialoji mətni təhkiyə formasında yazır. |

**Motivasiya**
**Müəllim:** – *Toyuğun kürt düşməsi nə deməkdir? Toyuq neçə gün kürt yatır?*
*Təsəvvür edin ki, kürt toyuğun altına göyərçin yumurtaları qoyulub və bir müddətdən sonra yumurtalardan göyərçin balaları çıxıb. Sizcə, toyuğun buna münasibəti necə olar?*
Şagirdlər öz fikirlərini söyləyirlər.

**Oxu** (proqnozlaşdırma)
Dərsliyin 151-152-ci səhifələrində verilmiş mətn 3-cü abzasa qədər oxunur, mətnin sonundakı 2-ci tapşırığın bir hissəsi yerinə yetirilir:
– *Soyuducuya qoyulan yumurtadan bala çıxmaz.*
– *Yumurtadan təzəcə çıxmış quş balalarına kimsə toxuna bilməz, ana toyuq onun üstünə cumar.*
Mətnin davamı *"Qalanları himə bənd imiş kimi onun ardınca bir-bir suya atıldılar"* cümləsinə qədər oxunur. Müəllim *"Görəsən, hadisələrin davamı necə cərəyan edəcək?"* sualını verir, mətnin davamı ilə bağlı şagirdlərin versiyaları dinlənilir. Mətn sona qədər oxunur, şagirdlərin versiyaları ilə müqayisə olunur.
2-ci tapşırığın qalan hissəsi yerinə yetirilir:
– *Ördək balaları susuz yaşaya bilmirlər. Onlar həm suda, həm də quruda yaşayırlar.*
– *Ana toyuq anlamırdı ki, bunlar ördək balalarıdır. Onlara öz balaları kimi baxırdı. Özünü suya atır, elə bilir ki, balalar batacaq, onları xilas etmək istəyir, amma nəticədə özü məhv olur.*

**Söz ehtiyatı**
Dərslikdəki 1-ci tapşırıq yerinə yetirilir: Himə bənd olmaq – bir işə başlamaq üçün bir işarə, bəhanə gözləmək.
4-cü tapşırıq. Ördək balaları pərquya (pərqu – qu quşunun yumşaq tükü) bənzədilir.

LAYİHƏ

Dərsliyin 152-ci səhifəsində verilmiş “bənzətmə” ilə bağlı məlumat izah olunur. Şagirdlər elə cümlələr söyləyirlər ki, həmin cümlələrdə bənzətmə işlədilsin.

5-ci tapşırıq. Yarpaqların düşməsi yaralı quşun qanad çalmasına bənzədilir.

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 102-ci səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Danışma** (“Akvarium”)

*“Çil toyuğun ölümündə kimi (nəyi) günahkar hesab etmək olar?”* mövzusunda müzakirə keçirilir. (3-cü tapşırıq)

*Müəllimin nəzərinə: Müzakirədə bir neçə fikir səslənə bilər:*

*1. Günahkar ördək balaları idi.*
*2. Günahkar nənə idi.*
*3. Günahkar toyuğun özü idi.*
*Şagirdlər belə bir nəticəyə gələ bilərlər:*
*– Təbiətin öz qanunauyğunluqları var. Onların pozulması faciə ilə nəticələnə bilər.*

**Qruplarla iş.**
**I qrup:** – *Elə hekayə fikirləşib təqdim edin ki, inək dayçaya analıq edir.*
**II qrup:** – *Elə hekayə fikirləşib təqdim edin ki, at buzova analıq edir.*
**III qrup:** – *Elə hekayə fikirləşib təqdim edin ki, ördək cücələrə analıq edir.*
**IV qrup:** – *Elə hekayə fikirləşib təqdim edin ki, pişik siçan balasına analıq edir.*

**Dinləmə**

**PİŞİYİN QOHUMLARI**

Pişik haradansa eşitdi ki, pələng və bəbir pişiklər ailəsinə daxildir. O çox sevindi:
– Mən axmaq da heç bilmirdim ki, belə qohumlarım var! Bax indi özümü göstərərəm!
Bu sözlərlə pişik eşşəyin boynuna sıçradı.
– Bu nə deməkdir? – deyə eşşək təəccübləndi.
Pişik qışqırdı:
– Mən haraya desəm, oraya apar! Özün də çox danışma! Bilirsən mənim qohumlarım kimdir?
– Kimdir ki? – deyə eşşək maraqlandı.
– Pələng və bəbir. Bildin? İnanmırsan, qarğadan soruş.
Eşşək qarğadan soruşdu. O da təsdiq etdi:
– Hə, doğrudan da, pişik, pələng, bəbir, vaşaq, yaquar və hətta şir də pişiklər ailəsindəndir!
– İndi inandın? – deyə pişik daha da bərkdən qışqırdı. – Apar məni!
– Haraya aparım? – deyə eşşək sakitcə soruşdu. – Pələngin, ya bəbirin yanına?
– Yo-o-x! – Pişik lap astadan miyoldadı. – Məni onların, nədir ey adı... sssiçaaanların yanına apar!..
Eşşək də pişiyi siçanlar olan yerə apardı. Çünki şirin qohumu olsa da, pişik elə pişikdir.

*Sergey Mixalkov*

**Suallar:** *1. Pişiklər ailəsinə daxil olan heyvanları sadala.*
*2. Bəs canavar və çaqqal hansı ailəyə daxildir?*
*3. Səncə, pişik niyə qohumlarının yanına getmək istəmədi?*
*4. Pişik haqqında nə deyə bilərsən?*

**Yazı**

Tapşırıq: – *Dialoqdan istifadə etmədən dinlədiyiniz mətnin məzmununu yazın.*

İş dəftərinin 102-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 103-cü səhifəsində də verilmişdir.)

LAYİHƏ

## ŞAHİN VƏ XORUZ

Şahin sahibinə öyrəşmişdi, **1**, qolunun üstünə qonurdu. Xoruz isə sahibindən qaçır, **2** ona yaxınlaşanda qışqırırdı. Bunu görən şahin **3** xoruza dedi: "Siz xoruzlarda minnətdarlıq hissi yoxdur. Siz yalnız acanda sahibinizin yanına gedirsiniz. Biz şahinlər isə hamıdan sürətlə uça bilirik, amma insanlardan qaçmırıq, bizi çağıran kimi qollarına qonuruq. Çünki insanların bizi yemlədiyini unutmuruq".

Xoruz cavab verdi: "Siz insanlardan ona görə qaçmırsınız ki, heç vaxt qızardılmış şahin görməmisiniz. Biz ... qızardılmış xoruz çox görmüşük".

*Lev Tolstoy*

**1.** Şahindən fərqli olaraq xoruz insandan qaçır, çünki ...
A) o, ev quşudur.
B) o, yemək üçün yararlıdır.
C) insanlar onu incidirlər.

**2.** *"Çağıranda uçub gəlir"* cümləsi nömrələnmiş boşluqlardan hansına uyğun gəlir?
A) 1-ci B) 2-ci C) 3-cü

**3.** Sonuncu cümlədə nöqtələrin yerinə hansı söz uyğun gəlir?
A) də B) ki C) isə

**4.** Hansı söz altından xətt çəkilmiş hər iki sözü əvəz edə bilər?
A) lakin B) ancaq C) sanki

**5.** Mətnin məzmununa uyğun atalar sözünü seç.
A) Qorxan gözə çöp düşər.
B) Göz gördüyündən qorxar.
C) Qorxaq həmişə igidlikdən danışar.

**Yazı** üzrə qiymətləndirmə (imla)

## QANBAYIN BAĞALARI

**(130 söz)**

Qanbay heyvanları çox sevirdi. Məktəbdəki təbiət guşəsinə getdiyi zaman saatlarla gözlərini şəkillərə dikib qalırdı. Tez-tez zooparka gedirdi. Sirkdə ən çox sevdiyi nömrələr heyvanların çıxışı olurdu. Onların oyunları, yaşayışı, xasiyyəti Qanbayı çox maraqlandırırdı. Öz-özünə düşünürdü: "Bu ağıllı heyvanları haradan tapırlar?"

Atası onu başa saldı ki, bu ağıllı heyvanların öz müəllimləri var. Onlar bu işin ustalarıdır. Qanbay fikirləşdi ki, böyüyəndə o da heyvanların təlimi ilə məşğul olacaq.

Yayda Qanbay kəndə getmişdi. Bir gün bostanda qarpız, qovun tağlarının arasında iki bağa balası gördü. Şadlığından bilmədi nə eləsin. Bağaları götürüb ağzı çubuqla hörülmüş taxta qutuya qoydu. O gündən Qanbay yalnız bağaları necə öyrətmək haqqında düşünürdü. O, saatlarla bağalara baxır, onların xasiyyətini öyrənməyə, özünə alışdırmağa çalışırdı. İlk vaxtlar bağalar ondan qorxur, başlarını çanaqlarına çəkirdi. Bir gün onlar Qanbayın əlindən yarpaq yeyəndə onun sevinci yerə-göyə sığmadı.

*Abdulla Şaiqdən*

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Aşağıdakılardan biri səhvdir:
A) xeyli kitablar B) bir çox şagirdlər C) səkkiz ulduz

**2.** Neçə söz birləşməsi səhv yazılıb?
*altı materik, bir sıra məsələlər, çoxlu güllər, yeddi günlər, üç barmaq*
A) bir B) iki C) üç

LAYİHƏ

**3.** Hansı miqdar saylarına sıra sayı düzəldən şəkilçinin eyni variantı artırıla bilər?
A) 2, 5, 7 B) 3, 5, 6 C) 1, 4, 9

**4.** Hansı sualın cavabı sıra sayıdır?
A) Sinif yoldaşlarından neçəsi əlaçıdır?
B) Neçənci ildə anadan olmusan?
C) Dərsləriniz saat neçədə başlayır?

**5.** “Onuncu” sözünün rəqəmlə yazılışı hansı bənddə düzgün verilib?
A) 10-uncu B) 10-cu C) 10-cı

## Dərs 71. GÜLGƏZ (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi elmi-kütləvi mətni topladığı məlumatlarla zənginləşdirir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir.<br>Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi yeni sözləri kontekstə əsasən izah edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadənin mətnə uyğun mənasını müəyyənləşdirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 3.1.2. İxtisar və əlavələr etməklə mətni üzündən köçürür. | Mətnə əlavələr etməklə üzündən köçürür. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |
| 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir. | Cümlələrin quruluşuna görə növlərini müəyyən edir. |

**Motivasiya**

Müəllim aşağıdakı şeiri səsləndirir:

*Yaman sevirəm,*
*Babamı yaman.*

*Ayrılmaram mən*
*Ondan bircə an.*

*Sözü-söhbəti*
*Şəkərdir, şəkər.*

*Belə babadan*
*De, kim əl çəkər?*

*M.Namazov*

**Sual:** – *Görəsən, nəvə nə üçün babasının söhbətlərini “şəkər” adlandırır? Babalar nəvələrinə nələr danışırlar?*

Şagirdlər öz fikirlərini söyləyirlər.

Müəllim şagirdlərə təklif edir ki, hərəsi öz babası haqqında fikirlərini desin və ona münasibətini bildirsin.

Müəllim şaxələndirmə aparmaqla şagirdlərin dediklərini yazı taxtasında qeyd edir.

LAYİHƏ

**Oxu**

Dərslikdən “Gülgəz” mətni (səh. 153-157) müəyyən yerlərdə fasilələr verilməklə ayrı-ayrı şagirdlər tərəfindən səsli oxunur. Hər pauzada müəllim oxunmuş hissə ilə bağlı suallar verir.

**1-ci pauza** (“Peyvənd edəcəyik!” cümləsinə qədər). **Suallar:**

– *Puçur nədir?* (tumurcuq)

– *Peyvənd nədir? Onu hansı sözlə əvəz etmək olar? (Calaq – bir bitkinin budağının bir hissəsini – qələmini və ya tumurcuğunu başqa bitkiyə calamaq)*

**2-ci pauza** (“Puçurlarını da tökübsən, bunun harası göyərsin?” cümləsinə qədər). **Suallar:**

– *Sizcə, Alı baba düzmü deyir?*

**3-cü pauza** (“Yox, səbəb başqa idi” cümləsinə qədər). **Suallar:**

– *Gülgəzin babasına münasibətini necə qiymətləndirirsiniz?*

– *Müəllifin qoyduğu suala (Gülgəz Alı babanın sözünə niyə inanmadı?) siz necə cavab verərdiniz?*

**4-cü pauza** (“Yamanca kor qoydu babanı…” cümləsinə qədər). **Suallar:**

– *Babanın “Köhnə zamanın üzü qara olsun. Yamanca kor qoydu babanı...” sözlərini necə başa düşürsünüz?*

– *İndi deyə bilərsinizmi, niyə Gülgəz babasının badam çubuğu haqqında dediklərinə inanmadı? İnanmamaqda haqlı idimi?*

**Danışma** (müzakirə)

“Savad və bilik” mövzusunda diskussiya keçirilir. Müəllim diskussiyanın suallarını elan edir:

– *Savad və biliyi eyniləşdirmək olarmı?*

– *Savadsız insan bilikli ola bilərmi?*

– *Savadlı olmaq üçün nə etmək lazımdır?*

– *Bilikli olmaq üçün nə etmək lazımdır?*

Şagirdlər həyatdan misallar gətirməklə sualları cavablandırırlar.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 104-cü səhifəsindəki 1-ci tapşırıqdan istifadə etmək olar.

**Yazı**

Mətnin 1-ci hissəsində (səh.153-154) Gülgəzin babasına göstərdiyi qayğı ilə bağlı abzas dərslikdən köçürülür. Müəllim tapşırır ki, şagirdlər köçürdükləri mətnə babaya qayğı ilə bağlı daha bir abzas əlavə etsinlər.

Evdə “Mənim babam” mövzusunda inşa yazmaq tapşırılır. Şagirdlərə tapşırılır ki, babaları ilə bağlı mümkün qədər çox məlumat toplasınlar və yazıda ona münasibətlərini bildirsinlər.




**Oxu**

Müəllim mətnin 2-ci hissəsini oxutdurmazdan əvvəl BİBÖ cədvəli vasitəsilə şagirdlərin badam haqqında bilikləri yoxlanılır. Cədvəlin birinci iki sütunu doldurulur.

**Rollu oyun.** Dərslikdən “Gülgəz” mətninin 2-ci hissəsi (səh. 154-155) 4 şagird *(aparıcı, müəllim, baba, nəvə)* tərəfindən ifadəli oxunur.

**Söz ehtiyatı**

Dərsliyin 155-ci səhifəsindəki 2-6-cı tapşırıqlar , eləcə də 157-ci səhifədəki 9-cu tapşırıq yerinə yetirilir: Üz tutmaq ifadəsi mətndə “müraciət etmək” mənasında işlədilmişdir.

LAYİHƏ

Müəllimin nəzərinə: *"Botanika" sözünün izahı: bitkilər haqqında elm; nəbatat elmi.*
*"Qov" sözünün izahı: bəzi ağacların gövdəsindən şiş kimi çıxan pambığaoxşar yumşaq maddə. Tez alışdığından qədimdə çaxmaqla yandırılaraq kibrit kimi istifadə olunurdu.*
*"Karsız" sözünün izahı: gərəksiz, işə yaramayan.*
İş dəftərinin 104-cü səhifəsindəki 3-cü tapşırıqdan da istifadə etmək olar.

BİBÖ cədvəlinin 3-cü sütunu doldurulur.

Müəllim tapşırır ki, BİBÖ cədvəlinin 1-ci və 3-cü sütunlarındakı məlumatları ayrıca vərəqdə başlıqlar altında qruplaşdırsınlar. Şagirdlərlə birlikdə başlıqlar müəyyən olunur:
*1. Badam ağacının xarici görünüşü; 2. Meyvəsi; 3. Çiçəyi; 4. Yarpaqları; 5. Gövdəsi; 6. Kökü; 7. Faydası.*

Müəllim bildirir ki, indi badam haqqında əlavə məlumat verəcək. Şagirdlər məlumatları dinlədikcə müvafiq başlıq altında yerləşdirməlidirlər. Əgər məlumat heç bir başlığa uyğun gəlmirsə, onlar yeni başlıq yarada bilərlər.

**Dinləmə**

**BADAM**

Badam ağacının kökləri torpağın dərin qatlarına işləyir. Yarpaqları növbə ilə düzülür, çiçəkləri beşləçəkli, ağ, yaxud çəhrayı olur. Meyvəsi şirin və ya acı, hər iki halda yağla zəngin olur. Əsasən, calaq vurmaqla çoxaldılır. Calaqaltı olaraq şaftalı, gavalı və ya alçadan istifadə edilir. Ağac tutduqdan sonra 4-cü ilində məhsul verir. 7-8-ci ilində isə normal məhsul verir. Belə ki, bir hektar badam bağından 400 kq məhsul yığmaq mümkündür.

Badam ağacının meyvəsi yeyilməklə yanaşı, qənnadı sənayesində və təbabətdə istifadə olunur. Badam kəpəyi kosmetikada işlədilir.

BİBÖ cədvəlinin 3-cü sütununa və şagirdlərin tərtib etdiyi badam haqqında informasiya vərəqinə əlavələr edilir.

**Suallar:**
*– Alı babanın söylədikləri ilə dinlədiyiniz mətn arasında bir ziddiyyət varmı?*
*– İnformasiya vərəqinə hansı yeni başlıq əlavə etdiniz?*

**"Auksion".** Müəllim "auksion" üsulundan istifadə etməklə şagirdlərin badam haqqında biliklərini möhkəmləndirir.

**Dil qaydaları**

Tapşırıqlar: *– Mətnin 1-ci və 2-ci hissələrindən sual cümlələrini dəftərinizə köçürün.*
*– Köçürdüyünüz cümlələrdə sual əvəzliklərinin altından bir xətt çəkin və onların hansı nitq hissəsini əvəz etdiyini müəyyənləşdirin.*
*– Sual mənası yaradan köməkçi nitq hissələrinin altından iki xətt çəkin.*

Müəllimin nəzərinə:
*– Çubuğu neyləyirsən, bala? (Müəllim başa salır ki, burada "neyləyirsən" sözü danışıq formasında verilib. Ədəbi dilin normalarına görə, "nə edirsən" yazılmalıdır. Lakin bədii əsərlərdə buna yol verilir. "Nə edirsən" sual əvəzliyidir və o, feili əvəz edir)*
*– Puçurlarını da tökübsən, bunun harası göyərsin? ("Harası" sual əvəzliyidir, ismi əvəz edir)*
*– Bəs Gülgəz Alı babanın sözünə niyə inanmadı? ("Bəs" sual bildirən köməkçi nitq hissəsidir, "niyə" sual əvəzliyidir, müxtəlif nitq hissələrini əvəz edə bilər)*
*– Niyə savadsızsan, ay baba? ("niyə" sual əvəzliyidir)*
*– Müəllim, babam bu barədə Sizinlə danışmayıb ki? (bu cümlədə "ki" cümlənin təsir gücünü artıran köməkçi nitq hissəsidir, sual intonasiyası yaradır)*

LAYİHƏ

### Araşdırma

Şagirdlər dörd qrupa bölünürlər. Müəllim hər qrupun şagirdləri üçün evdə araşdırma layihəsinin mövzusunu müəyyən edir. *(pambıq, göbələk, əncir, zoğal)*

**Nümunə**

| Pambıq haqqında | |
|---|---|
| Böyüklərdən eşitdiklərim | Mənbələrdən öyrəndiklərim |
| | |

Şagirdlərə bildirilir ki, hər bir şagird evdə müvafiq mövzu ilə bağlı araşdırma aparmalı, gələn dərsdə isə əldə etdiyi nəticələri öz qrupu ilə bölüşməli və hər bir qrup kollektiv araşdırmanın nəticələrini təqdim etməlidir.

*Müəllimin nəzərinə: Bəzən böyüklər "Suallar, cavablar" şeirində olduğu kimi, uşaqların suallarına qısa cavabla kifayətlənməyə çalışırlar. Buna görə də uşaqlara məsləhət görmək lazımdır ki, hər bir bitki haqqında konkret sualların siyahısını (bir növ, sorğu anketi) tutsunlar və bu siyahı ilə böyüklərə müraciət etsinlər.*

**Müəllim:** – *Hər hansı elmi suala cavab tapmaq üçün kimə və ya haraya müraciət edirsiniz?*
Şagirdlər öz fikirlərini söyləyirlər: "müəllimə", "ailədəki böyüklərə", internetə", "kitablara" və s.
**Suallar:**
– *Heç aldığınız cavabı götür-qoy edirsinizmi? Onun düzgünlüyünü yoxlayırsınızmı?*
– *Əgər eyni suala iki mənbədən aldığınız cavablar bir-birinə ziddirsə, onda nə edirsiniz?*
Şagirdlər yenidən öz fikirlərini söyləyirlər. Müəllim onları aşağıdakı nəticəyə yönəldə bilər:
– *Hər bir informasiya mənbəyində yanlışlıq ola bilər. Ona görə də alınan məlumatı başqa mənbələr vasitəsilə yoxlamaq lazımdır. Əgər mənbələr arasında ziddiyyət olarsa, insan öz məntiqinə arxalanmalıdır, hansı məlumatın daha düzgün olduğunu təhlil və araşdırmalar vasitəsilə müəyyən etməlidir.*

### Oxu

Dərslikdən "Gülgəz" mətninin 3-cü hissəsi (səh.155-157) əvvəlcə *"Dərsin sonunda müəllim soruşdu"* cümləsinə qədər oxunur. Dərsliyin 157-ci səhifəsindəki 10-cu tapşırıq yerinə yetirilir ("Müəllim danışanda onun sözünü kəsməzlər"). Bundan sonra mətnin oxunması rollu oyun (müəllim, Gülgəz, baba) şəklində davam etdirilir.

Dərslikdəki 11-ci tapşırıq yerinə yetirilir.

Şagirdlər iş dəftərinin 104-cü səhifəsindəki 2-ci tapşırığı yerinə yetirərək plana əsasən mətnin məzmununu yazırlar.

### Araşdırma

Qruplar keçən dərsdə tapşırılmış araşdırma layihəsini təqdim edir. Bunun üçün əvvəlcə qrup daxilində şagirdlərin müvafiq bitki üzrə araşdırmalarının nəticələri ümumiləşdirilir və yekun məlumat qrup nümayəndəsi (və ya nümayəndələri) tərəfindən təqdim edilir.

Müəllim təqdimatları dərs şəklində həyata keçirməyi tapşıra bilər. Bunun üçün məruzəçi motivasiya sualı hazırlamalıdır. Müəllim bildirir ki, bu məqsədlə onlar BİBÖ cədvəlindən, açar-sözlərin – anlayışların izahından, tapmacadan və ya əqli hücumdan istifadə edə bilərlər. Məsələn: BİBÖ:

| PAMBIQ HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

LAYİHƏ

Tapmaca:

*Bir sürü atlar*
*Çəməndə otlar.*
*Vaxtı gələndə*
*Dərisi çatlar. (pambıq)*

Hər bir təqdimat zamanı müəllim müvafiq qrupdan soruşur:

– *Böyüklərdən eşitdiklərinizlə informasiya mənbələrindən əldə etdikləriniz arasında ziddiyyətli məlumatlar oldumu? Bu ziddiyyəti necə aradan qaldırdınız?*

– *Hansı mənbədən daha çox məlumat əldə edə bildiniz?*

Ən maraqlı dərs-təqdimat şagirdlər tərəfindən müəyyən edilir. Bunun üçün müəllim əvvəlcədən qiymətləndirmə meyarları hazırlayıb şagirdlərə paylaya bilər.

**Dil qaydaları**

Motivasiya xarakterli 12-ci tapşırıq yerinə yetirildikdən sonra qayda oxunur və mənimsədilir. Şagirdlər müstəqil olaraq mürəkkəb cümlələr söyləyir və həmin cümlələrdə baş üzvləri tapırlar.

13-cü tapşırıq. Cavab "B" variantıdır.

İş dəftərinin 105-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 72. HEYVANLAR (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Eyni mövzu ilə bağlı bədii və elmi-kütləvi mətnlərdə olan məlumatlar arasındakı uyğunsuzluğu müəyyən edir və yekun rəyə gələrək mövzu üzrə təqdimat hazırlayır. |
| 4.1.5.Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Söz sırası pozulmuş şeir misralarında mübtəda və xəbərin yerini müəyyən edir və nəsrə çevirərək sözlərin düzgün ardıcıllığını bərpa edir. |
| 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir. | Cümlələrin quruluşuna görə növlərini müəyyən edir. |

**Motivasiya**

Müəllim yazı taxtasından üç kart (kartoçka) asır:

yastıdaban    şələquyruq    palazqulaq

Şagirdlər kartların arxasında yazılan sözləri tapmalıdırlar *(ayı, tülkü, fil)*.

Əgər anlayışların adları tapılmazsa, hər sözə aid əlavə olaraq yeni xüsusiyyətlər yazılır. Anlayışların adları tapıldıqdan sonra kartlar açılır.

Lövhədə hər heyvana (ayı, tülkü, fil) aid BİBÖ cədvəli çəkilir:

LAYİHƏ

Nümunə

| AYI HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Cədvəllərin 1-ci və 2-ci sütunları doldurulur.

**Oxu**

Şagirdlər 3 qrupa bölünürlər. 1-ci qrupa “Tülkü”, 2-ci qrupa “Fil”, üçüncü qrupa isə “Ayı” şeirini (dərslik, səh. 158-159) oxumaq tapşırılır.

Şagirdlər şeirləri oxuduqdan sonra hər qrup müvafiq BİBÖ cədvəlinin 3-cü sütununda yeni məlumatları yazır.

Dərsliyin 159-cu səhifəsindəki tapşırıqlar yerinə yetirilir. (Əvvəlki siniflərdən məlumdur ki, tülkü itlərin təqibindən qaçarkən quyruğundan süpürgə kimi istifadə etməklə izi itirməyə çalışır)

Daha sonra qruplara aşağıdakı mətnlər paylanır.

**I qrup:**

**AYI**

Ayılar yırtıcı heyvanlardır. Onlar, əsasən, iribədənli, qısaayaqlı olurlar. Erkək ayılar dişilərə nisbətən iri olur. İrigövdəli olmalarına baxmayaraq, ağaclara rahat dırmaşır, suda məharətlə üzürlər.

Ayıların quyruqları çox qısadır. Tükləri uzun, rəngləri isə daha çox qonur və ya qara (ağ) olur. Ayılar həm bitki ilə, həm də ətlə qidalanırlar. Balıq, meyvə və bal onların ən sevimli yeməyidir.

Ayılar, əsasən, meşələrdəki böyük ağac oyuqlarında, ya da mağaralarda yaşayırlar. Soyuqlar düşəndə bol-bol qidalanıb qış yuxusuna gedirlər.

**II qrup:**

**TÜLKÜ**

Tülkü yırtıcı məməlilərin bir növüdür. Onun uzunsov sifəti, böyük, sivri qulaqları var.

Tülkünün bir çox növləri mövcuddur. Növündən asılı olaraq onların rəngi də müxtəlif olur. Şimalda, daim qarla örtülü soyuq yerlərdə yaşayan tülkülər ağ, isti yerlərdə yaşayanlar isə qonur, qara, kürən rəngdə olur. Adi və ya kürən tülkü daha geniş yayılıb. Onun bədəninin uzunluğu 90, quyruğu isə 60 santimetrə çatır. Tülkülər yalnız meşələrdə və dağlarda yox, həm də açıq yerlərdə, hətta isti səhralarda da yaşayır.

Tülkü özü qazdığı, ya da boş yuvalarda məskən salır. Yeməyini gəmiricilər, dovşanlar, quşlar, müxtəlif bitkilər, balıqlar, sürünənlər təşkil edir.

**III qrup:**

**FİL**

Fillər, əsasən, Afrika və Asiyada yaşayır, 70-80 il ömür sürürlər. İndi fil növlərindən ancaq Hindistan fili ilə Afrika fili qalmışdır. Afrika filinin hündürlüyü 3-4, bəzən 7 metrə çatır, ağırlığı isə 6-7 tondur. Asiya filinin boyu isə 6 metr, ağırlığı 3-4 ton olur. Fillər gün ərzində 220 kq ot yeyir, 200 litr su içirlər. Onlar xortumlarında 4 litr su saxlaya bilirlər. Filin xortumu bir topa iynəni yerdən götürə biləcək qədər həssasdır. O, xortumu ilə bir insanı 40 metr uzağa ata və bir ağacı kökündən qopara bilər. Fillərin qulaqlarının böyüklüyü heç də onların daha yaxşı eşitmələri ilə əlaqədar deyil. Qulaqlar yelpik vəzifəsini yerinə yetirir. Fillərin dişi çox qiymətlidir. Bu dişlərdən müxtəlif bəzək əşyaları hazırlanır.

Fillər sürü halında yaşayan heyvanlardır və gedəndə bir-birinin ardınca irəliləyirlər. Fillər insanlar kimi yaxşılığı və pisliyi unutmazlar. Hindistan filləri əhliləşdirilərək məişətdə və təsərrüfatda istifadə edilir. Ancaq Afrika fillərini əhliləşdirmək mümkün deyil. Fil saxlayan ailə uşağını asanlıqla filə etibar edib gedə bilir. Qədim dövrlərdə fillərdən təkcə məişətdə deyil, həm də müharibələrdə istifadə etmişlər.

LAYİHƏ

Şagirdlər verilmiş mətnləri oxuduqdan sonra hər qrup müvafiq BİBÖ cədvəlinin 3-cü sütununda yeni məlumatları yazır.

Şagirdlər oxuduqları şeirlərlə elmi mətnlər arasındakı uyğunsuzluğu müəyyən edirlər.

*Müəllimin nəzərinə: "Tülkü" şeirində tülkünün qulaqlarının kiçik, elmi mətndə (eləcə də şəkildə) isə kifayət qədər böyük olduğu bildirilir. "Fil" şeirində isə iki elmi səhv var. Əvvələ, fil cəmi 70-80 il yaşayır. İkincisi, Hindistan fillərindən fərqli olaraq Afrika filləri əhliləşmir.*

Mətnlə bağlı iş dəftərinin 106-cı səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Dil qaydaları**

Müəllim aşağıdakı misraları nəsrə çevirib cümlədə sözlərin ardıcıllığını bərpa etməyi tapşırır.

| | | |
|---|---|---|
| *Gözləri, qulaqları* | *Çox sevirlər armudu,* | *Onların düşmənidir* |
| *Xırda olur tülkünün.* | *Bir də balı ayılar,* | *İti sancan arılar.* |

**Sual:** – *"Ayı" şeirinin sonuncu misrasındakı "çaparaq" sözünü necə başa düşürsünüz? "Çapmaq" feili, adətən, hansı heyvanla bağlı işlədilir?*

*Müəllimin nəzərinə: Dilimizdə "çaparaq" sözünün iki mənası var və mənadan asılı olaraq bu sözdə vurğunun yeri fərqlidir. "Atı yeyin sürmək" mənasında işləndikdə vurğu ikinci hecaya düşür. "Qaça-qaça" mənasında vurğu sonuncu hecaya düşür.*

**Sual:** – *Şeirdə hansı misralar mürəkkəb cümlə şəklindədir? Həmin cümlələri dəftərə köçürün.* (Fil otyeyən dinc heyvandır, uzunca bir xortumu var. Onlar çoxlu yük daşıyır, ağır gedir, gec yorulur. İtlər qalxıb hürüşür, ayı qorxuya düşür və s.)

Tətbiqi çalışmalar üçün iş dəftərinin 106-cı səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 107-ci səhifəsində də verilmişdir.)

## ŞİR VƏ TÜLKÜ

Şir qocalmışdı, artıq ova çıxa bilmirdi. **1**. Belə getsə, acından öləcəyini görən şir hiyləyə ... **2**. Yuvasına girib özünü xəstəliyə vurdu. Bunu eşidən heyvanlar bir-bir ona baş çəkməyə gəldilər. Şir də onları tutub yeməyə başladı. **3**. O, içəri girmədi, şirin yuvasının ağzında durub hal-əhval tutdu:

– Necəsən, ay şir, özünü necə hiss edirsən?

– Çox pisəm, tülkü qardaş. İçəri niyə girmirsən?

Tülkü dedi:

– İçəri girmirəm, çünki bayaqdan izlərə baxıram, görürəm, girən çoxdur, çıxan isə yoxdur.

*Lev Tolstoy*

**1.** *"Tülkü bundan duyuq düşdü"* cümləsi nömrələnmiş boşluqlardan hansına yazılmalıdır?

A) 1 B) 2 C) 3

**2.** Nöqtələrin yerinə hansı ifadə yazılmalıdır?

A) ayaq açdı B) əl atdı C) üz verdi

**3.** Hansı rənglə verilmiş sözün kökündə *"k"* hərfi yoxdur?

A) B) C)

LAYİHƏ

**4.** Tülkü nə üçün şirin yuvasına girmədi?
A) Yuvanın ağzındakı izlər çox qorxulu idi.
B) Şirin hiyləsini başa düşmüşdü.
C) Şirin yuvasında tülküyə yer qalmamışdı.

**5.** Hansı cümlədə *“ağız”* sözü mətndəki mənasında işlənib?
A) Ana qazanın ağzını açıb xörəyin dadına baxdı.
B) Səlim dostunu evin ağzına qədər ötürdü.
C) Xəstə ağzını açıb ağrıyan dişini həkimə göstərdi.

**Yazı** üzrə qiymətləndirmə (ifadə)

## CEYRAN OVU

Babam tez-tez ceyran ovuna gedirdi. Bir gün o, ömründə ilk dəfə ovdan əliboş qayıtdı. O gündən babam bir daha ceyran ovuna getmədi. Bir dəfə biz bunun səbəbini soruşduq. O, qaşlarını çatıb dərindən nəfəs aldı və bizə belə bir əhvalat danışdı:

– Ova getmişdim. Birdən yaxında bir ceyran gördüm. O, boynunu burub mənə baxırdı. Qaçmadığını görüb təəccübləndim. Yaralı olduğunu zənn etdim.

Əlli ildən artıq idi ki, ceyran ovuna gedirdim. Saçımın sayı qədər ceyran ovlamışdım, amma yorulub yolda qalan və ya yaralı heyvana güllə atmamışdım. Mən ceyranı yoxlamaq üçün onu nişan aldım. Bu zaman onun qara gözlərində bir yalvarış gördüm. Mən qəsdən çaxmağı şaqqıldatdım. Onun gözəl qara gözlərində yaş parladı. “Bu nə sirdir?” – deyə ona yaxınlaşdım. Ceyran yaralı deyildi. Onun yanında yenicə doğulmuş bir cüt balası vardı. Gözlərim yaşardı. Bir də heç vaxt ceyrana güllə atmayacağıma and içdim.

*İlyas Əfəndiyevdən*

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı bənddə sadə cümlə verilib?
A) Yağış yağdı və hava təmizləndi.
B) Dənizdə tufan güclənir, lakin gəmi yoluna davam edirdi.
C) Yağış durmadan yağır, otları, çiçəkləri əzirdi.

**2.** *“Ayrılarmı könül candan?”* misrasında cümlə üzvlərinin düzgün sırası necə olmalıdır?
A) Candan ayrılarmı könül?
B) Könül candan ayrılarmı?
C) Könül ayrılarmı candan?

**3.** “Nadir bağçanın ətrafını çəpərlədi” və “Mal-qara körpə ağacları yeməsin” sadə cümlələrindən əmələ gələn mürəkkəb cümlə hansı bənddə düzgün verilmişdir?
A) Nadir bağçanın ətrafını çəpərlədi, mal-qara körpə ağacları yeməsin.
B) Nadir bağçanın ətrafını çəpərlədi ki, mal-qara körpə ağacları yeməsin
C) Nadir bağçanın ətrafını çəpərlədi və mal-qara körpə ağacları yeməsin.

**4.** “Biz tərəvəz yığırdıq, tərəvəzçilər isə yeşikləri maşınlara yükləyirdilər” cümləsinin baş üzvləri hansı bənddə düzgün verilib?
A) *tərəvəz, yığırdıq, maşınlara, yükləyirdilər*
B) *biz, yığırdıq, yeşikləri, yükləyirdilər*
C) *biz, yığırdıq, tərəvəzçilər, yükləyirdilər*

**5.** Hansı bənddə mürəkkəb cümlə verilib?
A) Mahir qardaşından aldığı məktubu anasına oxudu.
B) Kəndin ətrafındakı kolluqda yeni əkin sahəsi açıldı.
C) Yaz gəldi, tarlalarda iş canlandı.

LAYİHƏ

# Dərs 73. BUĞDA ÜŞÜYÜRMÜ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadələrin mətnə uyğun mənasını müəyyənləşdirir.<br>Bədii ifadə vasitələrini müəyyən edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir.<br>Mətndə təsvir olunmuş hadisələrin elmi izahını verir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətnin müəyyən hissəsini təxəyyülünə uyğun genişləndirməklə nəql edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Mətndən əldə etdiyi elmi məlumatlara əsaslanaraq öz fikirlərini yazır. |

**Motivasiya** ("mikrofon")

Müəllim markeri şərti mikrofon kimi qəbul edir və *"Siz tətillər zamanı kəndə (yaxud şəhərə) gedərkən hansı yeni məlumatlarla qayıdırsınız?"* sualı ilə "mikrofon"u şagirdlərdən birinə təqdim edir (şagirdlərə əvvəlcədən tapşırılır ki, suallara lakonik və konkret cavablar versinlər). Həmin şagird cavab verdikdən sonra mikrofonu digər yoldaşına ötürür. Bir neçə şagirdi dinlədikdən sonra müəllim siniflə birlikdə şagirdlərin fikirlərini ümumiləşdirir.

**Oxu**

Dərslikdən "Buğda üşüyürmü" mətni (səh. 160-161) müəyyən hissələrdə fasilələr verilməklə oxunur. Fasilələrdə müəllim suallarla şagirdlərə müraciət edir:

**1-ci fasilədə** ("Gedək" cümləsindən sonra):

– *Sizcə, Azər kəndə gələndə payızın daha hansı xüsusiyyətlərini müşahidə etdi? Fikrinizi əsaslandırın.*

**2-ci fasilədə** ("Sonra Azərin sual dolu baxışlarını görüb dedi" cümləsindən sonra):

– *Payızlıq taxıl nədir? Sizcə, adamların traktorun yanı ilə getməsində məqsəd nə idi? (Cavab: toxum səpirdilər)*

Şagirdlərdən bilən varsa, payızlıq taxılın nə olduğunu izah edir. Ola bilər ki, şagirdlərdən heç biri payızlıq taxılın nə olduğunu bilməsin. O zaman şagirdlər təxminlərinə görə bu ifadənin mənasını izah edə bilərlər.

**3-cü fasilədə** ("Çox sağ ol", – deyə ona təşəkkürünü bildirirdi" cümləsindən sonra şagirdlər payızlıq taxıl haqqında əvvəl bildiklərini mətndən aldıqları məlumatlarla müqayisə edirlər):

– *Mavi rənglə verilmiş abzası genişləndirərək nəql edin. Nüşabə şəhərdə indiyə kimi görmədiyi nələrlə qarşılaşa bilərdi?* (Dərslik, səh. 161, tap. 2)

Şagirdlər cütlərlə və ya qruplarla işləyib genişləndirilmiş mətn qura bilərlər. Bir neçə təqdimat dinlənilir və müzakirə olunur. Dinləyənlər öz əlavələrini edirlər.

Daha sonra mətn sona qədər oxunur və 161-ci səhifədəki 3-cü tapşırıq yerinə yetirilir.

**Yazı**

– *Bu mətndən kənd təsərrüfatı haqqında nələri öyrəndin? Fikirlərini yaz.*

**Danışma**

4-cü tapşırıq. "Yorğan kimi" bənzətmədir.

5-ci tapşırıq yerinə yetirildikdən sonra "Epitet"lə bağlı olan məlumat şagirdlərə çatdırılır. Şagirdlər elə cümlələr söyləyirlər ki, orada epitet işlənsin.

LAYİHƏ

6-cı tapşırıq. “Alma gözlüm”, “qız birçəklim” (atın yalından ayrılıb alnına tökülən tük dəstəsi) epitetdir.

Şagirdlər 4 qrupa bölünürlər. Qruplara aşağıdakı tapşırıqlar verilir:
**I qrup:** – *Üzüm necə yetişdirilir?*
**II qrup:** – *Pomidor necə yetişdirilir?*
**III qrup:** – *Pambıq necə yetişdirilir?*
**IV qrup:** – *Portağal necə yetişdirilir?*
**Müəllim:** – *Bunlardan hansı qışda da yetişir və qardan, soyuqdan onların “üşüməməsi” üçün hansı tədbirlər həyata keçirilir?*

İş dəftərinin 108-ci səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 74. NOVRUZ BAYRAMI (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Sözün mətndəki mənasını kontekstdən çıxış edərək müəyyənləşdirir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Şeiri ifadəli və emosional şəkildə oxuyur. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Tədbirlə bağlı elan yazır. |

**Motivasiya** (anlayışın çıxarılması)
Lövhədə aşağıdakı sxem çəkilir. **Müəllim:** – *Mərkəzdəki dairədə hansı söz yazılmalıdır?*
“Novruz bayramı” cavabı alındıqdan sonra bu sözlər dairədə yazılır və müəllim sual-cavab yolu ilə şagirdlərin Novruz haqqında biliklərinin diaqnostik qiymətləndirməsini keçirir.




**Söz ehtiyatı**
Şagirdlər “Novruz bayramı” şeirini (dərslik, səh. 162) əvvəlcə səssiz oxuyurlar. Həmin səhifədəki test sualı şifahi olaraq müzakirə edilir və düzgün cavab tapılır (“B” variantı). Şagirdlər şeirdə mənasını bilmədikləri yeni sözlərin siyahısını tuturlar. Şagirdlərdən biri öz siyahısını təqdim edir. Buradakı sözlər lövhədə yazılır. Digər şagirdlər bu siyahıya bilmədikləri başqa sözləri əlavə edirlər. Bundan sonra müəllim lövhədəki sözləri bir-bir göstərərək *“Kim bu sözün mənasını bilir?”* deyə soruşur. Şagirdlər sözlərin mənalarını izah etdikcə izahın doğruluğu şeirdəki kontekstə əsasən yoxlanılır.

LAYİHƏ

*<u>Müəllimin nəzərinə:</u> "Miz", "löyün", "badam", "nabat", "kam", "lopa" sözlərinin izahına xüsusi diqqət yetirmək lazımdır. "Löyün" sözü "görkəm, görünüş" mənasını versə də, şeirdə "növ" mənasında işlənmişdir.*

**Danışma**

Dərslikdəki şeirdə hər biri 4 + 2 misradan ibarət olan altı bənd var. Hər bənddə Novruz bayramının bir mərasimi öz əksini tapır. Beləliklə, şagirdlər 6 qrupa bölünürlər və hər qrup bir bənd üzərində araşdırma işi aparır.

<u>Qruplara tapşırıq:</u> – *Verilmiş şeir parçasında əks olunan Novruz mərasimi haqqında kiçik məruzə hazırlayın. Məruzənin planını tutun və təqdim edin.*

Məruzəni hazırlamaq üçün şagirdlərə vaxt verilir. Qruplar məruzəyə hazır olduqlarını bildirəndən sonra müəllim təqdimatın formatını elan edir.

Qrup lideri müvafiq bəndin ilk dörd misrasını oxuyur. Bunun ardınca bütün qrup xorla sonrakı iki misranı oxuyur. Daha sonra lider məruzənin mövzusunu və məruzəçini elan edir. Qrupun təyin etdiyi məruzəçi təqdimat edir.

**Yazı**

Novruz bayramının keçirilməsi haqqında elan yazın.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 75. QIZIL BALIQ (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Dinlədiklərini və oxuduqlarını ümumiləşdirərək müvafiq mövzuda məruzə hazırlayıb təqdim edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir.<br>Oxuduğu mətndən əldə etdiyi elmi məlumatlara şəxsi araşdırmalarını da əlavə etməklə məruzə şəklində təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir.<br>Oxuduğu əsərin süjet xəttini təxəyyülünə uyğun dəyişməklə yaradıcı şəkildə nəql edir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Bəzi köməkçi nitq hissələrinin cümlədəki rolunu müəyyənləşdirir. |

**Motivasiya**

*Bir quşum var,*
*Dərisi puldan,*
*Gözləri nurdan.*

Tapmacanın açması (balıq) tapılır.

**Müəllim:** – *Kim evdə akvariumda balıq saxlayır?*

Əgər sinifdə belə şagirdlər varsa, onlar akvarium balıqlarına necə qulluq etdikləri haqda danışırlar. Dinləyən şagirdlər onları maraqlandıran suallarla danışanlara müraciət edirlər.

Əgər sinifdə balıq saxlayan şagird yoxdursa, BİBÖ üsulundan istifadə edilir:

LAYİHƏ

| AKVARİUM BALIQLARI HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | BİLMƏK İSTƏYİRİK | ÖYRƏNDİK |
| | | |

**Oxu** (proqnozlaşdırma)

Dərslikdən "Qızıl balıq" mətni (səh. 163-165) *"Amma bir azdan bədbəxtlik baş verdi"* cümləsinə qədər oxunur.

– *Sizcə, nə baş verdi?*

Şagirdlər cavab variantlarını söyləyirlər. Mətnin davamı *"Lakin uşaqların sevinci uzun sürmədi"* cümləsinə qədər oxunur. Şagirdlərin fərziyyələri mətndə yazılanlarla müqayisə olunur. Müəllim mətnin davamı ilə bağlı proqnozları söyləməyi təklif edir:

– *Görəsən, uşaqların sevinci nə üçün uzun sürmədi?*

1-ci tapşırıq yernə yetirilir. B variantı.

Mətnin davamı sona qədər oxunur. 3-ci tapşırıqdakı sual cavablandırılır.

Əlavə suallar:

– *Nə vaxtsa sorğu kitabından istifadə etmisiniz? Nə üçün?*

– *Ala balığın ölümünə səbəb nə oldu?*

– *Balığın qəlsəmələrini insanın hansı orqanı ilə müqayisə etmək olar?*

– *Babanın yolladığı balıqların sağ qalması üçün onlar nə etməli idilər?*

4-cü tapşırıq ev tapşırığı kimi verilə bilər.

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 109-cu səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

**Söz ehtiyatı**

2-ci tapşırıq. Təşvişə düşmək – *narahat olmaq; burnunu sallamaq – narazı qalmaq, küsmək;* gözdən itmək – *görünməz olmaq, yox olmaq; baş çəkmək –yanına getmək , yoxlamaq.*

**Dinləmə**

**AKVARİUM BALIQLARI**

Şüşə qablarda çay və dəniz balıqlarını ilk dəfə çinlilər saxlamışlar. Ancaq akvariumda balıq saxlamaq elə də asan deyil. Bunun üçün müxtəlif şərtlərə əməl etmək lazımdır.

İlk növbədə akvariumu su ilə doldurmaq lazımdır. Lakin bu elə-belə kran suyu ola bilməz. Suyun tərkibi saxladığınız balığın növündən asılı olaraq şirin və ya duzlu, oksigenlə zəngin və ya kasad, təmiz və ya bulanıq ola bilər. Məsələn, dəniz balıqlarının şirin suda yaşaması mümkün deyil. Hər bir balıq müvafiq həyat şəraitinə uyğunlaşır. Balıqların yaşadığı, nəfəs aldığı, içdiyi su müəyyən şərtlərə cavab vermirsə, onlar ölə bilər.

Akvariumda saxlamaq üçün balıqları necə seçmək lazımdır? Əvvəla, çalışmaq lazımdır ki, balıqlar təxminən eyni ölçüdə olsun və eyni su hövzəsində yaşamış balıqlar olsun. İkincisi, balıqları yemləyərkən diqqətli olmaq lazımdır. Bəzi balıqlar xüsusi yemlərlə qidalanır. Adi balıq yemləri ilə qidalanan balıqlar da az deyil. Akvariumun suyunu dəyişərkən balıqları bir-bir tutub müvəqqəti olaraq başqa qaba köçürmək lazım gəlir. Bu zaman balıqları zədələmək olmaz. Ona görə də balıqları tutmaq üçün əl torundan istifadə etmək lazımdır. Bundan başqa, kran suyunu bir müddət saxlamaq üçün ayrıca vedrə də almalısınız.

**Sual:** – *Mətni dinlədikdən sonra balıqların akvariumda necə saxlanması haqqında əlavə hansı məlumatları öyrəndiniz?*

**Danışma**

Şagirdlər dərslikdən oxuduqları və dinləmə mətnindən aldıqları məlumatlar əsasında "Akvarium balıqlarına qulluq" mövzusunda məruzə hazırlayıb təqdim edirlər.

LAYİHƏ

### Dil qaydaları

Motivasiya xarakterli 5-ci tapşırıq yerinə yetirildikdən sonra qayda oxunur və mənimsədilir. Şagirdlər müstəqil olaraq mürəkkəb cümlələr söyləyir və həmin cümlələrin bir-biri ilə nə ilə bağlandığı tapılır.

6-cı tapşırıq. Cavab: 1 – amma; 2 – çünki; 3 – və.

İş dəftərinin 110-cu səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

### Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 111-ci səhifəsində də verilmişdir.)

#### DOVŞANLAR VƏ QURBAĞALAR

Bir dəfə dovşanlar yığışıb öz həyatlarından şikayət etməyə başdadılar: “Adamlar da, itlər də, qartallar da, başqa heyvanlar da bizi qırır. Qorxu içərisində yaşayıb əzab çəkməkdənsə, birdəfəlik ölmək yaxşıdır. Gəlin özümüzü göldə boğaq”.

Dovşanlar gölə tərəf qaşdılar. Dovşanlar 4-9 il yaşayır, ot və tərəvəzlə qidalanırlar. Qurbağalar tapbıltını eşidib suya tullandılar. Doşanlardan biri dedi: “Dayanın, dostar! Özümüzü boğmağa tələsməyək. Qurbağaların həyatı, görünür, bizimkindən də ağırdır: onlar hətda bizdən də qorxurlar”.

*Lev Tolstoy*

**1.** Nə üçün dovşanlar gölə atılmaqdan imtina etdilər?
A) Özlərindən də pis vəziyyətdə olanları görüb təsəlli tapdılar.
B) Qurbağalardan iyrəndilər.
C) Yadlarına düşdü ki, onlar üzə bilmirlər.

**2.** Qurbağalar nə üçün gölə tullandılar?
A) Ölmək istəyirdilər.
B) Dovşanlardan qorxdular.
C) Sudan kənarda qalsalar, ölə bilərdilər.

**3.** Səhv yazılmış sözləri düzgün yazmaqla və “yad” cümləni ixtisar etməklə mətni köçür.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

**Yazı** üzrə qiymətləndirmə (məktub)

**Mövzu:** “Valideynlərim xaricdə işləyirlər. Mən nənəmlə qalıram. Ayın sonunda yekun qiymətləndirmə üzrə çox aşağı nəticələr göstərdim. Elə həmin gün atam elektron poçtla mənə məktub göndərmişdi. O məndən qiymətlərimin necə olduğunu soruşurdu. Mən onu kədərləndirmək istəməzdim, amma ona bir cavab yazmalı idim”.

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı cümlədə nöqtələrin yerinə “çünki” sözünü yazmaq olar?
A) Meşəyə qaranlıq çökmüşdü … uşaqlar evə dönmək istəmirdilər.
B) Rüstəm zəng vurub xəbər verdi … məktəbimizə Bakıdan qonaqlar gələcək.
C) Tarlalarda çiyid tez cücərdi … səpindən sonra yağış yağmışdı.

LAYİHƏ

**2.** Hansı bənddəki cümlələrdən mürəkkəb cümlə düzəltmək *olmaz?*
A) Qar uçqunu başlandı. Alpinistlər böyük qayanın altında gizləndilər.
B) Dünəndən meşə yanırdı. Biz yayda düşərgəyə gedəcəyik.
C) Havalar isti idi. Durnalar uçub gəldilər.

**3.** "Musiqi çalındı, ..." cümləsinin sonuna hansı cümlə əlavə olunsa, mürəkkəb cümlə yaranar?
A) rəqqasələr səhnəyə çıxdılar.
B) rəqs musiqisi səsləndi.
C) müəllim uşaqlara dedi.

**4.** "O, sevincindən yerə-göyə sığmırdı, … bütün dünyanı ona vermişdilər" cümləsində nöqtələrin yerinə yazıla *bilməz:*
A) sanki B) elə bil C) çünki

**5.** Hansı mürəkkəb cümlənin tərkib hissələri arasında səbəb-nəticə əlaqəsi var?
A) Yağış kəsdi, gün çıxdı, uşaqlar həyətə düşdülər.
B) Tamaşanın başlanmasına az qalmışdı, lakin dostum gəlib çıxmamışdı.
C) Balıqçılar sahilə tələsirdilər, çünki külək güclənmişdi.

## Dərs 76. SAĞSAĞAN NƏ AXTARIRDI (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətndəki fikirləri genişləndirərək şərh edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Dinlədiyi əsərin qəhrəmanına məktub yazaraq onun hərəkətlərinə qiymət verir. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Sözün tələffüzünə əsaslanaraq onun səs tərkibi haqqında fikir yürüdür. |

### Motivasiya

**Müəllim:** – *Heyvan və quşlarla insanların həyat tərzində hansı oxşar cəhətlər var?*
Şagirdlər cavab variantlarını söyləyirlər. Məqsəd hər bir canlının özünə ev, yuva düzəltmək kimi xüsusiyyətini açıqlamaqdır. Bunun üçün müəllim "Hazır yuva" (dərslik, səh. 88) hekayəsini də xatırlada bilər.
**Sual:** – *Sizcə, ev, yuva canlıların həyatı üçün hansı əhəmiyyəti daşıyır?*
Şagirdlər "soyuqdan qorunmaq", "nəsil artırmaq" kimi nəticələrə gəlirlər.

### Oxu

Dərsliyin 166-cı səhifəsindəki mətn şagirdlər tərəfindən oxunur və həmin səhifədəki 1-ci tapşırıq yerinə yetirilir. Daha sonra şagirdlər mətnlə bağlı iş dəftərinin 112-ci səhifəsindəki tapşırıqlardan istifadə edə bilərlər.

### Dinləmə

**SAĞSAĞAN YUMURTASI**

Yazın daş göyərdən günləri idi. Güllərin, çiçəklərin qoxusu, quşların cəh-cəhi insanın ruhunu oxşayırdı. Uşaqlarla kəndin ayağındakı çəmənlikdə top-top oynayırdıq. Birdən Şamil "Ora bax" deyə yaxınlıqdakı qovaq ağacını göstərdi. Diqqətlə baxanda gördüm ki, ağacın hündür budaqları arasında bir yuva var. Bilmirəm kimdənsə eşitmişdik ki, sağsağan yuvasında qızıl olur və o sözü eşidəndən bütün quş yuvalarını ələn keçirirdik. Şamil "sağsağan yuvasıdır" dedi və biz bir göz qırpımında ağacın kəlləsinə dırmaşdıq. Yuvada üç yumurta vardı. Şamil onları götürüb qoynuna yığdı. Nə qədər elədimsə, inadından dönmədi. Ağacdan düşüb evimizə gedəndə acıqla mənə "ana uşağı" dedi.

LAYİHƏ

**Suallar:** – *"Yazın daş göyərdən günləri idi" cümləsini necə başa düşürsünüz?* (Yazın elə bir vaxtı idi ki, ətrafda hər şey yamyaşıl rəngə boyanmışdı)

– *Şamilin hərəkətinə münasibətinizi bildirin.*

– *Sizcə, hadisələr necə davam edəcək?*

– *"Ana uşağı" kimə deyirlər? Əsərin qəhrəmanını "ana uşağı" adlandırmaq olarmı?*

Şagirdlər öz versiyalarını dedikdən sonra müəllim mətnin davamını oxuyur.

Evdə anam nə qədər elədisə də, dilimə bir şey vurmadım. Arxa otağa keçib başımı kitab-dəftərlə qatmaq istədim. On beş-iyirmi dəqiqə keçmişdi ki, Şamilin səsini eşitdim, məni çağırırdı. Doğrusu, evdən çıxmaq istəmirdim. Axırda anam hirsləndi: "Əə, eşitmirsən, çıx gör nə istəyir". Sonra da deyinməyə başladı: "Bunlara bax, səhərdən axşama qədər o ağacın başında, bu ağacın başında, atdan düşüb eşşəyə minirlər, eşşəkdən düşüb ata minirlər. Göydə uçan quşlar da sizin əlinizdən zara gəlib". Bu sözləri eşidəndə ürəyim "gupp" elədi; bu quş məsələsi anamın ağlına haradan gəldi?

Könülsüz-könülsüz başımı pəncərədən çıxardım. Şamil ovcundakı yumurtaları mənə uzadıb:

– Aparaq yuvaya qoyaq, – dedi.

Bir andaca ona olan kinim əriyib getdi. Pəncərədən tullanıb onun yanına qaçdım. Yumurtaları yuvaya qoyub yerə enəndə elə sevinirdim ki, elə bil böyük qəhrəmanlıq eləmişdim.

Bizim evin yanına çatanda Şamil birdən bic-bic gülümsədi və "yumurtaları qaynatmışdım" dedi. Onun bu sözləri məni sarsıtdı.

Mətnin bu hissəsi şagirdlərin versiyaları ilə müqayisə olunur.

**Suallar:** – *Şamilin bu hərəkətini necə adlandırmaq olar? (qəddarlıq)*

– *Sizcə, hadisələr necə davam edəcək?*

Şagirdlər öz versiyalarını dedikdən sonra müəllim mətnin davamını oxuyur.

Aradan on-on beş gün keçdi. Axşamüstü uşaqlarla top-top oynayırdıq. Birdən kimsə əli ilə göstərib: "Bu niyə belə zarıyır?" – dedi. Hamımız dayanıb dinşəməyə başladıq. Sağsağan yuvasından inilti səsi gəlirdi. Hərə bir söz dedi: əqrəb çalıb, bala çıxarır, qızdırması var, canına bit düşüb… Səhəri gün sağsağanın fəryad səsi kəndin hər tərəfindən eşidilirdi.

**Suallar:** – *"Dinşəmək" sözünü necə başa düşürsünüz?*

– *Sağsağan niyə fəryad edirdi?*

Daha bir neçə gün keçdi. Bir gün günortaya yaxın qonşumuzda fəryad eşidildi. Səsindən tanıdım, Şamilin nənəsi Gülsənəm qarı idi. Çəpərdən tullanıb özümü onların həyətinə saldım. Şamil ərik ağacının altında arxası üstə uzanmışdı. Üst-başı qan idi. O, ağacdan yıxılıb əl-qolunu sındırmışdı. Qonşular köməyə gəldilər, Şamili ehmalca maşına qoyub xəstəxanaya apardılar. Hamı təəccüblənirdi, necə olub ki, səhərdən-axşamadək ağaclara dırmaşan Şamil bir ərik ağacından yıxılaraq özünü bu günə salıb.

*Əli Çərkəzoğlu*

Mətnin sonluğu şagirdlərin versiyaları ilə müqayisə olunur.

**Yazı**

Tapşırıq: – *Şamilə məktub yazıb onun hərəkətlərinə münasibətinizi bildirin.*

**Dil qaydaları**

Dərslikdəki 2-ci tapşırıq yerinə yetirilir.

İş dəftərinin 112-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 77. YAZ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Eyni cür yazılan müxtəlif mənalı sözlərin mənasını kontekstə görə izah edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və gəldiyi nəticəni təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki məlumatları genişləndirməklə verilmiş mövzu ilə bağlı kiçik təqdimat edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Fəsillərlə bağlı inşa yazır. |
| 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir. | Cümlələrin quruluşuna görə növlərini müəyyən edir. |

### Motivasiya

Müəllim şagirdlərə yaz fəslini əks etdirən tablonu (şəkil) nümayiş etdirir və soruşur:

– *Rəssam hansı fəsli tabloda əks etdirib? Fikrinizi əsaslandırın. Hansı fraqmentlər yazdan xəbər verir?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

### İfadəli oxu

Dərsliyin 167-ci səhifəsindəki “Yaz” şeiri şagirdlər tərəfindən ifadəli oxunur.

### Söz ehtiyatı

Dərslikdən 1-ci tapşırıq yerinə yetirilir: çoxlu adamların bir-birinə qarışaraq hərəkət etməsi.

2-ci tapşırıq yerinə yetirilir.

**Sual:** – *Şeirdəki daha hansı sözlər müxtəlif mənalarda işlənə bilər? Həmin sözləri seç və cümlə içərisində işlət.* (dağ, göy, sürü, saz)

– *Birinci iki misranın son sözlərini hansı sözlərlə əvəz etmək olar?* (şaxta, bahar)

– *Şeirdəki cümlələrin xəbərini tapın və onun mənasını izah edin.*

a) Yenə coşub Araz, Kür,
Sahilləri hey **sökür**.

b) Kənddə adam **qaynaşır**.

c) Bir yanda göy tarlalar
Dəniztək **dalğalanar**.

ç) Yaz xoş xəbərlə gəlmiş,
**Canlanır** hər yanda iş.

**Qruplarla iş.** Şagirdlər 4 qrupa ayrılırlar və onlara “Yaz” şeiri ilə bağlı tapşırıqlar verilir:

**I qrup**: – *Şeirdə verilmiş məlumatlardan istifadə etməklə “Yazda təbiət” mövzusunda təqdimat hazırlamalı və dərslikdəki şeirdən yazda təbiətin təsvir olunduğu misraları ifadəli oxumalı.*

**II qrup**: – *Şeirdə verilmiş məlumatlardan istifadə etməklə “Quşlar yazda” mövzusunda təqdimat hazırlamalı və dərslikdəki şeirdən quşların təsvir olunduğu misraları ifadəli oxumalı.*

**III qrup**: – *Şeirdə verilmiş məlumatlardan istifadə etməklə “Yazda əkinçilik” mövzusunda təqdimat hazırlamalı və dərslikdəki şeirdən yazda insanların əməyinin təsvir olunduğu misraları ifadəli oxumalı.*

**IV qrup**: – *Dərslikdən sonuncu misraları ifadəli oxumalı və bu misralarla şairin nə demək istədiyi haqqında təqdimat hazırlamalı (dərslik, səh.167, tap. 2).*

Şagirdlərə tapşırılır ki, təqdimat hazırlayarkən şeirdəki məlumatları öz bildikləri ilə genişləndirsinlər.

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 113-cü səhifəsindəki tapşırıqlardan istifadə etmək olar.

LAYİHƏ

**Dinləmə**

**TAP GÖRÜM**

İlçə adlı kişi çölə çıxıb dörd dəfə qollarını açdı. Hər açanda qollarından üç quş uçdu.

Birinci üç quş uçanda qarlar əriməyə, çaylar daşmağa başladı, ağaclar yaşıllaşdı, çəmənləri otlar və çiçəklər bürüdü.

İkinci üç quş uçanda havalar istiləşdi: taxıl, qovun, qarpız yetişdi.

Üçüncü üç quş uçanda alma, armud, heyva, nar, üzüm yetişdi, güclü və soyuq küləklər əsdi, yarpaqlar töküldü, göy üzünü tez-tez buludlar aldı, yağışlar yağdı.

Dördüncü üç quş uçanda qar yağdı, şiddətli şaxta oldu, boran-çovğun başladı.

İlçə kişinin quşları çox qəribə idi. Hər birinin dörd qanadı, hər qanadın yeddi lələyi var idi. Hər lələyin bir üzü ağ, o biri üzü qara idi.

*Vladimir Dal*

**Suallar:** – *Birincidən başlayaraq hər bir quşun hansı fəsli bildirdiyini söylə.*
– *Quşların qanadları nəyin rəmzidir?*
– *Qanadların lələkləri nəyin rəmzidir?*
– *Lələyin ağ, qara rəngləri nəyin rəmzidir?*

**Tapmaca**
*Bir ağacım var, on iki budağı,*
*Hər budağının otuz yarpağı,*
*Hər yarpağın bir üzü qara, bir üzü ağ.* (il, aylar, 30 gün, gecə-gündüz)

**Yazı**
"Ən çox sevdiyim fəsil" mövzusunda inşa yazmaq tapşırılır.
İş dəftərinin 113-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

**Dil qaydaları**
Şeirdən elə misralar seçilir ki, mürəkkəb cümlə düzəltmək mümkün olsun. Bu tapşırıq "Auksion" oyunu şəklində də keçirilə bilər.

İş dəftərinin 113-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 78. ALMA AĞACI (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir.<br>Atalar sözləri və məsəlləri uyğun olaraq yerində işlədir. |

LAYİHƏ

**Motivasiya**

**Müəllim:** – *Məhəmməd peyğəmbər demişdir: "Qiyamət günü başlasa belə, əlində bir budaq olan onu ləngimədən əksin". Ulu peyğəmbərin bu sözlərini necə başa düşürsünüz?*

Şagirdlər öz fikirlərini söylədikdən sonra müəllim soruşur:

– *Bəs siz ağac əkə bilirsinizmi? Bunun üçün hansı biliklərə malik olmaq lazımdır?*

Şagirdlər arasında bağçılıq işində müəyyən təcrübəsi olanlar bu haqda danışırlar.

**Oxu** (proqnozlaşdırma)

Dərslikdən (səh. 168-169) "Alma ağacı" mətni *"Qəribədir, – deyə Zakir təəccüblə dodaqlarını büzdü"* cümləsinə qədər oxunur.

**Sual:** – *Görəsən, Cəfərin əkdiyi ağac nə üçün quruyurdu? (Dərslik səh.169, tap. 1)*

Şagirdlərin cavab variantlarından sonra mətnin davamı sona qədər oxunur.

Şagirdlərin fərziyyələri mətndə yazılanlarla müqayisə olunur.

**Sual:** – *Sizcə, bundan sonra Cəfər öz əvvəlki xasiyyətindən (xarakterindən) əl çəkəcək?*

Dərsliyin 169-cu səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilir.

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 114-cü səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

"Ziqzaq". Şagirdlər beş ekspert qrupuna bölünürlər. Qruplara aşağıdakı mətnlər verilir.

**1-ci ekspert qrupu**

Ağacları payızda və ya yazda torpağın donu açıldığı vaxt əkmək olar.

İlk öncə ağac məhsuldar torpaqda əkilməlidir. Yeri qazıb üst qatını bir tərəfə, alt qatını başqa tərəfə topla. Qazdığın sahənin eni təxminən 1-1,5 metr, dərinliyi 50-80 sm olmalıdır.

**2-ci ekspert qrupu**

Qazdığın yerə bir az yumşalmış torpaq tökürsən. Üzərinə ehmalca ağacın yüngülcə təmizlənmiş köklərini qoyursan. Yaxşı olar ki, bunu iki nəfər etsin. Biri tingi lazımi hündürlükdə tutsun, digəri tingin ətrafını bellənmiş torpaqla doldursun. Köklərin arasında boş yerlərin qalmamasına, yanına bərk torpağın yapışmamasına nəzarət etməlisən. Ağacın köklərinin başladığı hissə qazdığın çuxurun hündürlüyündən bir az görünməlidir.

**3-cü ekspert qrupu**

Ayırdığın torpaq qatlarından daha məhsuldar olanı əvvəl doldurursan. Üzərindən isə alt qatı tökürsən. Torpağı tökə-tökə yüngülcə əllə basmaq lazımdır. Ən üst qatda isə bir az ayaqla basmaq olar. Əgər zədələnmiş budaqlar varsa, bir neçəsini kəsə bilərsən. Amma tingi tam formaya gətirməyə 1 ildən tez başlamaq olmaz. Əgər hava küləklidirsə, tingin yanına çubuq və ya taxta basdırıb dəsmalla sarıya bilərsən ki, külək tingi qırmasın.

**4-cü ekspert qrupu**

Tingi əkdikdən dərhal sonra sulamaq lazımdır. Bunun üçün əkilmiş tingin ətrafında kiçik dairə qazılır və ora bir-iki vedrə su tökülür. Bu onun üçün lazımdır ki, ağacın köklərinin torpaqla təması və rütubətin ötürülməsi bərpa olunsun. İstilərdə ağacı tez-tez, normal havada isə həftədə bir dəfədən az olmayaraq sulamaq lazımdır.

**5-ci ekspert qrupu**

Otaq bitkilərini çiliklər və yarpaqları ilə çoxaldırlar. Məsələn, limon bitkisini yarpaqları ilə çoxaldırlar. Otaq bitkilərini çoxaltmaq üçün kəsilmiş çilik və yarpağı dibçəyə sancın, üzərinə bərni çevirin və işığa qoyun. Bir neçə gündən sonra bərnini bitkinin üzərindən götürün. Limon bitkisini də bu yolla çoxaldın. Bəzən çilik və qələmləri çoxaltmaq üçün onu əvvəlcə suyun içərisinə qoyurlar. Bitkidə kök əmələ gəldikdən sonra onu dibçəyə əkirlər.

Hər bir ekspert qrupunda şagirdlər verilmiş mətni diqqətlə oxuyub ona başlıq düşünməlidirlər. Daha sonra hər qrupdan bir nəfər ayrılır və onlar yeni bir qrup yaradırlar. Bu qrupda hər şagird oxuduğu mətnin başlığını deyir və məzmununu nəql edir. Bu zaman ekspert qrupları öz mətnlərinə aid suallar hazırlayır.

Qarışıq qrupda bütün mətnlər dinlənildikdən sonra ekspert qrupları bir-bir (növbə ilə)

LAYİHƏ

suallarını səsləndirir. Onların suallarına qarışıq qrupun üzvləri cavab verirlər. Nəzarət etmək lazımdır ki, hər bir ekspert qrupunun sualına onun nümayəndəsi deyil, qarışıq qrupun digər üzvləri cavab versinlər. Beləliklə, şagirdlərin oxu, dinləmə və danışma bacarıqları yoxlanılır.

4-cü tapşırıq yerinə yetirilir və 169-cu səhifədə verilmiş məsəllər haqqında məlumat oxunur. Müəllim tərəfindən bəzi məsəllər deyilir və bu məsəlin yaranma tarixi haqqında məlumat şagirdlərə çatdırılır. (Mənbə: **"Atalar sözü və məsəllər"**. Bakı, "Altun kitab", 2015)

İş dəftərinin 114-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 79. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 170-ci səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 80. 6-cı BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

### Dinləmə və yazı üzrə qiymətləndirmə

### DELFİNLƏR

Delfinlər suda yaşayır və sürətlə üzə bilirlər. Delfinlər başqa balıqlar kimi suyun içində nəfəs ala bilmirlər. Bu səbəbdən onlar nəfəs almaq üçün nizamlı şəkildə suyun səthinə çıxırlar. Delfinlər bala doğmaqla nəsil artırır və öz balasını suda əmizdirirlər. Delfinin südü çox qatı və yağlı olur.

Siz, yəqin ki, sirklərdə və ya baxdığınız verilişlərdə əhliləşdirilmiş delfin görmüsünüz. Onların əhliləşdirilməsinə 8-9 ay vaxt lazım olur. Bu ağıllı heyvan insanları çox tez başa düşür. Hovuzlarda bəslənən delfinlər az bir zamanda qabdan səliqə ilə balıq götürüb yeməyi, yanan şamı üfürüb söndürməyi, voleybol oynamağı öyrənirlər.

Delfinlər balıqları ultrasəslə axtarıb tapırlar. Onlar ucadan qırıq-qırıq fit səsinə oxşar ultrasəslər buraxır və balıqlara toxunub qayıdan bu səsləri tutmaqla ovlarını tapırlar. Onlarda səmtbilmə qabiliyyəti çox yaxşı inkişaf edib.

Delfinlərdən birinə bədbəxtlik üz verdikdə sürüdəki başqa delfinlər onun həyəcan siqnallarını eşidir və köməyə gəlirlər. Delfinlər hətta suda batan adamları da xilas edirlər.

Dinləmə mətni üzrə tapşırıqlar (İş dəftərinin 115-ci səhifəsində də verilmişdir.)

1. Mətndə bu haqda məlumat yoxdur:
   A) delfinlərin çoxalması B) delfinlərin qorunması C) balıqların nəfəs alması

2. Delfinləri qısa müddətə əhliləşdirmək olur, çünki ...
   A) onlarda qavrama qabiliyyəti yüksəkdir. B) onlar insanların dilini bilir.
   C) onlar ultrasəslər buraxa bilirlər.

3. Delfinlər ovladıqları balıqları necə tapırlar?
   A) onların qoxusunu duyub təqib etməklə
   B) çıxardıqları ultrasəslərin köməyi ilə
   C) balıqların suda buraxdıqları izlərlə

4. Başqa hansı ultrasəs çıxaran heyvanı tanıyırsan?
   A) durnabalığı B) yarasa C) xərçəng

5. Delfinlərin məməli heyvan olduğunu göstərən əsas cəhət:
   A) İnsanlar tərəfindən asanlıqla əhliləşdirilir.
   B) Səmtbilmə qabiliyyəti yüksəkdir.
   C) Balasını süddə əmizdirir.

LAYİHƏ

6. Əhliləşdirilmiş delfinlər nələri edə bilir, onlar insanlara necə kömək edirlər?

______________________________________________________________

**Oxu və dil qaydaları üzrə qiymətləndirmə** (İş dəftərinin 116-117-ci səhifələrində də verilmişdir.)

## QUŞLAR

1) Dünyada 9800-dən çox quş növü var. 2) Quşların əsas xüsusiyyəti onların uça bilməsidir. 3) Ancaq pinqvin, dəvəquşu kimi quşlar uça bilmir. 4) Ana pinqvin yumurtlayır, yumurtanın üstündə ata pinqvin yatır.

Quşlar arasında kolibri yeganə quşdur ki, daldalı da uça bilir. O həmçinin ən kiçik quş sayılır. Yeni Zelandiyada yaşayan kivi isə qanadı olmayan yeganə quşdur. Quşlar arasında papua quşu zəhərli olması ilə digərlərindən fərqlənir. Zəhər onun lələklərində olur. Qağayı yeganə quşdur ki, dəniz suyunu içə bilir. Çünki qağayının boğazında təmizləyici süzgəc var.

Quşlar yumurta qoymaqla nəsil artırır. Onların arasında dünyada ən kiçik yumurta kolibri quşuna, ən böyük yumurta isə dəvəquşuya məxsusdur. Dəvəquşunun yumurtasının tam bişməsi üçün onu 2 saat qaynatmaq lazımdır.

1. Fikirlərdən biri dəvəquşuya aiddir:
   A) Qanadı olmayan yeganə quşdur.
   B) Dünyada ən sürətlə uçan quşdur.
   C) Yumurtası gec bişir.

2. Mətndə hansı suala cavab var?
   A) Papua lələyindəki zəhərdən hansı məqsədlə istifadə edir?
   B) Uça bilməyən quşlar hansılardır?
   C) Pinqvin harada yaşayır?

3. Mürəkkəb sözü seç.
   A) dəvəqușu
   B) pinqvin
   C) qağayı

4. 1-ci abzasda neçənci cümlə məzmununa görə sonuncu abzasa uyğun gəlir?
   A) 1 B) 2 C) 3 D) 4

5. Quşlara aid xüsusiyyətləri müəyyən et.
   A) kivi B) kolibri C) pinqvin

| | | | |
|---|---|---|---|
| 1. Həm önə, həm də daldalı uça bilir. | A | B | C |
| 2. Qanadları olduğu halda uça bilmir. | A | B | C |
| 3. Qanadları yoxdur. | A | B | C |

6. Biri yanlışdır:
   A) Papua dəniz suyunu içə bilən yeganə canlıdır.
   B) Qağayıların boğazında duzlu su təmizlənir.
   C) Yumurtanın üstündə ata pinqvin yatır.

7. 9800 sayından düzəldilmiş sıra sayı hansı bənddə düzgün yazılıb?
   A) 9800-üncü B) 9800-cü C) 9800-ci

8. Mavi rənglə verilmiş köməkçi nitq hissələrinin mətndəki funksiyasını müəyyən et.
   A) üçün B) ən C) ki

| | | | |
|---|---|---|---|
| 1. Özündən əvvəl gələn sözə yeni məna çaları verir. | A | B | C |
| 2. Cümlələrin bir-birinə bağlanmasına xidmət edir. | A | B | C |
| 3. Əlamətin yüksək dərəcədə olduğunu bildirir. | A | B | C |

LAYİHƏ

## 7-ci bölmə

# ƏXLAQİ DƏYƏRLƏR

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 81 | Məni itirməyin | 1.2.1, 2.2.5, 3.1.4, 4.1.6, 4.1.7 | 2 | 172-173 | 118 | 183 |
| 82 | Ən böyük dövlət | 1.2.1, 1.2.2, 2.2.5, 3.1.4, 4.1.7 | 2 | 174 | 119 | 184 |
| 83 | Buz | 1.1.1, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.3, 4.1.1, 4.1.5, 4.1.6 | 2 | 175-176 | | 186 |
| 84 | Çinar ağacı. Xan çinar | 1.2.1, 1.2.2, 2.2.1, 2.2.4, 2.2.5, 3.1.3 | 4 | 177-178 | 120-121 | 188 |
| 85 | Çiçək – yeddi rəng ləçək | 1.2.1, 2.2.2, 2.2.3, 2.2.4, 2.2.5, 3.1.1, 3.1.4, 4.1.1, 4.1.4 | 6 | 179-183 | 122 | 191 |
| 86 | Yaxşılığa əvəz | 1.1.1, 1.2.1, 2.1.1, 2.2.1, 3.1.3 | 2 | 184 | 123 | 194 |
| 87 | Körpə nəğmənin nağılı | 1.2.1, 2.2.2, 2.2.3, 2.2.5, 4.1.4 | 6 | 185-188 | 124-126 | 196 |
| 88 | Lalə və Məryəm | 1.2.1, 2.2.1, 2.2.5, 3.1.4, 4.1.1, 4.1.2 | 2 | 189-190 | 127 | 200 |
| 89 | Məftunun bağa getməsi | 2.2.1, 2.2.5, 3.1.4, 4.1.1, 4.1.4 | 4 | 191 | 128-129 | 201 |
| 90 | Zəhmət və Zinət | 1.2.1, 1.2.2, 2.1.1, 2.2.1, 2.2.3, 2.2.4, 2.2.5, 4.1.4, 4.1.5 | 4 | 192-196 | 130-131 | 203 |
| 91 | Xor | 1.2.1, 2.1.1, 2.2.1, 2.2.5, 3.1.4, 4.1.1, 4.1.4, 4.1.5 | 2 | 197 | 132 | 206 |
| 92 | Ümumiləşdirici təkrar | | 2 | 198 | | 208 |
| 93 | Kiçik summativ qiymətləndirmə | | 2 | | 133-135 | 208 |
| **Yekun** | | | 40 saat | | | |

LAYİHƏ

## Dərs 81. MƏNİ İTİRMƏYİN (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Dinlədiyi əsərdəki obraz və hadisələr haqqında fikirləri ümumiləşdirərək yekun nəticəyə gəlir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin ideyasını müəyyənləşdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu və dinlədiyi əsərin ideyası ilə bağlı inşa yazır. |
| 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir. | Mətndəki cümlələri quruluşca növlərinə görə fərqləndirir. |
| 4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir. | Cümlələri məqsəd və intonasiyaya görə növlərə ayırır.<br>Cümlənin məqsəd və intonasiyaya görə növlərinə aid cümlələr qurur. |

### Motivasiya

**Müəllim:** – *Heç belə bir ifadə eşitmisinizmi: “Vicdanının səsinə qulaq as” və ya “Vicdanı ona əzab verir”? Bu ifadələri hansı hallarda işlədirlər?*

Şagirdlər vicdan haqqında öz fikirlərini söyləyirlər. Müəllim həyatdan misallar gətirməklə *“vicdanlı olmaq”, “vicdanını itirmək”* kimi ifadələri izah etməyi tapşırır.

### Oxu

“Məni itirməyin” mətni (dərslik, səh. 172-173) abzaslarla oxunur. Bəzi abzaslardan sonra müəllim şagirdlərin qavrama və mənimsəməsini yoxlamaq məqsədilə suallar verir:

1. *İnsanlar fəlakətin gəlməsini nədən hiss etdilər?*
2. *Fəlakətin gəlişini hiss edən insanların ümid yerləri nə oldu?*
3. *Od və suyun birləşməsi səhnəsini təsvir edin.*
4. *Vicdanın gəlişi təbiətdəki varlıqlar tərəfindən necə qarşılandı?*
5. *Vicdan nəyi yadda saxlamağı tövsiyə etdi?*
6. *Su vicdana qulaq asandan sonra nə baş verdi?*
7. *Vicdanın sözlərindən sonra od nə etdi?*
8. *Üç yoldaş bir-birini itirsələr, necə tapacaqlar?*

*“Ağuşuna götürmək”, “əlbəyaxa olmaq”, “pənah gətirmək”* ifadələri izah olunur.

Dərsliyin 173-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

Şagirdlər mətni hissələrə bölüb başlıqlar verirlər. Daha sonra cütlərə bölünərək mətni nəql edirlər:

**1-ci cüt:** – *Göylərdən su ilə gələn bəla*
**2-ci cüt:** – *Göylərdən od ilə gələn bəla*
**3-cü cüt:** – *Vicdanın müraciəti*
**4-cü cüt:** – *Suyun ram edilməsi*
**5-ci cüt:** – *Odun ram edilməsi*
**6-cı cüt:** – *Üç yoldaş*

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 118-ci səhifəsindəki tapşırıqlardan istifadə oluna bilər.

### Dinləmə

**VİCDAN**

Yasəmən riyaziyyatdan dərsini hazırlamadığına görə qərara aldı ki, məktəbə getməsin. Amma dərs vaxtı onu kəndin küçələrində görməsinlər deyə yaxınlıqdakı çay kənarına getdi. Çantasını və anasının bişirdiyi toyuq budu ilə çörək olan bağlamanı bir kolun dibinə qoydu. Çayın kənarı ilə gəzib moruq yığmağa başladı. Birdən moruq kolunun kölgəliyində oturmuş balaca bir oğlanla qarşılaşdı. Balaca ona mehriban, sadəlövh nəzərlərlə baxırdı.

LAYİHƏ

Oğlanın əlində əlifba kitabını görən Yasəmən məsələnin nə yerdə olduğunu başa düşdü və onunla zarafat etmək istədi.

– Aha, dərsə getməmisən?! – o çox ciddi görkəm alıb dedi. – Bir tikə boyunla indidən valideynlərini də, məktəbi də aldadırsan?!

– Yox! – deyə balaca təəccüblə cavab verdi. – Mən dərsə gedirdim. Amma buralarda yekə bir it gəzir. O hürdü, mən də qaçıb gizlənmək istəyəndə yolu azdım.

Bu balaca oğlan elə gülməli və sadəlövh görünürdü ki, Yasəmən ona kömək etməyə bilməzdi. Uşağın əlindən tutub kəndə tərəf apardı və evlərinə yola saldı.

Yasəmənin çantası və yeməyi kolun dibində qaldı. Oğlanın yanında onları götürməyə utandı. Elə bu vaxt budaqların arasından it çıxdı, çantaya dəymədi, toyuq budunu isə yedi. Yasəmən qayıdıb kolun altında oturdu və ağladı. Yox! Toyuq buduna görə deyil. Sadəcə, onun başı üstündə şən quşcuğazlar çox gözəl oxuyurdu. Bir də ki... onu vicdanı incidirdi.

**Danışma** (müzakirə)

Müəllim şagirdlərin diqqətini mətnin sonuncu cümləsinə yönəldir: “Sizcə, nə üçün Yasəməni vicdanı incidirdi?” Müzakirədən sonra deyilmiş fikirlər ümumiləşdirilir.

**Yazı**

*“Vicdan susarsa...”* mövzusunda inşa yazmaq.

**Dil qaydaları**

Mətnin birinci abzasında ilk və son cümlələri quruluşuna görə təhli edin.

*Müəllimin nəzərinə: Birinci cümlə ilk baxışda mürəkkəb görünsə də, həmcins xəbərli sadə cümlədir. Son cümlə isə üç sadə cümlədən ibarət mürəkkəb cümlədir.*

Dil qaydasına motivasiya xarakteri daşıyan 4-cü tapşırıq yerinə yetirildikdən sonra dərslikdəki qayda oxunur. 5-ci tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 82. ƏN BÖYÜK DÖVLƏT (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Oxuduğu dialoji mətni genişləndirərək ssenari qurub təqdim edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Əsər qəhrəmanını səciyyələndirmək üçün müvafiq keyfiyyət bildirən sözlərdən istifadə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş situasiyaya uyğun kiçikhəcmli esse yazır. |
| 4.1.7. Cümlənin məqsəd və intonasiyasına görə növünü müəyyənləşdirir. | Cümlələri məqsəd və intonasiyaya görə növlərə ayırır. |

LAYİHƏ

**Motivasiya**

Müəllim 3-cü sinifdə keçilmiş "Köhnə dərs" hekayəsini xatırladır. Şagirdlər Rəhman müəllimlə Sadiqin dialoqunu yada salır və əsərin ideyasını müəyyən edirlər. *(Əgər insan sağlamdırsa, onun kasıblıqdan şikayət etməyə haqqı yoxdur)*

**Oxu** (rollu oyun)

"Ən böyük dövlət" mətni (dərslik, səh. 174) fasilələrlə oxunur. Müəllim fasilələrdə suallarla şagirdlərə müraciət edir.

İkinci abzasdan sonra:

– *Oğlana münasibətinizi bildirin.*

"Sən ki böyük dövlət sahibisən!" cümləsindən sonra:

– *Qoca nəyi nəzərdə tuturdu?*

Mətnin sonunda:

– *Nə üçün qoca qüvvət və sağlamlığı ən böyük dövlət sayırdı?*

Dərsliyin 174-cü səhifəsindəki tapşırıq yerinə yetirilir. Şagirdlər tapşırığa uyğun olaraq mətni genişləndirir və dialoji mətn (ssenari) qurub təqdim edirlər.

Mətnlə bağlı tətbiqi çalışmalar üçün iş dəftərinin 119-cu səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

"Əqli hücum". Müəllimin tapşırığı ilə şagirdlər əsərdəki gəncin xarakterini bir sözlə səciyyələndirməyə çalışırlar. Hərə keyfiyyət bildirən bir söz deyir. Bu proses "naşükür" sözü səslənənə qədər davam edir. Sonrakı fəaliyyəti müəllim bu sözün izahı üzərində qurur.

**Danışma** (müzakirə)

"Ən böyük dövlət nədir?" mövzusunda müzakirə keçirilir. Müəllim təklif edir ki, şagirdlər aşağıdakı tezislərdən birini seçib müdafiə etmək üçün arqumentlər hazırlasınlar:

1. Ən böyük dövlət ağıl və bilikdir.
2. Ən böyük dövlət sağlamlıqdır.
3. Ən böyük dövlət çoxlu pul, mal və mülkdür.
4. Ən böyük dövlət dostlardır.

**Yazı**

Müəllim aşağıdakı cümlələri diktə edir:

*"Həyatımın ən çətin anları idi. Yoxsulluq məni sıxırdı. Ayaqyalın, başaçıq küçə ilə gedir və taleyimə lənət oxuyurdum. Birdən əlil arabasında oturmuş bir dilənçi gördüm. Onun ayaqları yox idi..."*

Tapşırıq: – *Mətni davam etdirin. Əsər qəhrəmanının bundan sonrakı hərəkətlərini və düşüncələrini ən azı 5 cümlə ilə ifadə edin.*

İş dəftərinin 119-cu səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

## Dərs 83. BUZ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi və oxuduğu mətnlər arasında ideya yaxınlığını müəyyən edir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin planına yeni başlıqlar əlavə edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Əsəri başqa obrazın dilindən yaradıcı şəkildə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi mətndəki dialoji hissəni təhkiyə formasında ifadə etməklə məzmununu yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Deyilişi və yazılışı fərqlənən sözləri fonetik baxımdan təhlil edir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə qurarkən cümlə üzvlərinin ardıcıllığına riayət edir. |
| 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir. | Mətndəki cümlələri quruluşca növlərinə görə fərqləndirir. |

**Motivasiya** (anlayışın çıxarılması)

Müəllim lövhədən plakat asır və sxemin mərkəzində sual işarəsinin yerinə müvafiq sözü yazmağı tapşırır.




Şagirdlər müzakirələrdən sonra sual işarəsinin yerinə “məsuliyyətli” sözünü yazırlar.

**Oxu**

Dərslikdə verilmiş “Buz” hekayəsi (səh. 175-176) dörd hissəyə bölünüb “Ziqzaq” üsulu ilə oxunur.

**Suallar:** – *Sizcə, qar topası əsərin qəhrəmanına nəyi xatırlatdı?*

– *Əsərin qəhrəmanı tapşırığın öhdəsindən necə gələcək?*

– *Buz nəyə lazım idi?*

– *Ana niyə oğlunu məzəmmət etdi?*

– *Əsərin qəhrəmanı niyə həyəcan keçirirdi?*

– *Mətndən hansı abzaslar ixtisar edilsə, məzmuna xələl gəlməz?*

*A) 1-ci və 3-cü* *B) 2-ci və 4-cü* *C) 1-ci və 5-ci*

Sonra qrup nümayəndələri əsərin müvafiq hissəsini nəql edir və suallara cavab verirlər.

Dərsliyin 176-cı səhifəsindəki tapşırıqlar yerinə yetirilir.

<u>1-ci tapşırıq.</u> Cavab “B” variantıdır.

<u>3-cü tapşırıq.</u> 1– D, 2 – Y, 3 – D, 4 – Y, 5 – Y, 6 – D.

LAYİHƏ

## Dinləmə

### İKİ QARDAŞ

Əkrəm böyük oğlan idi. Məktəbə getməyinə bir il qalmışdı. Ancaq bir xasiyyətindən heç kimin xoşu gəlmirdi. Ona bir iş tapşıranda əvəzində nə isə istəyirdi.

Bir gün Əkrəmin anası bərk xəstələnmişdi. Əkrəmi çağırıb dedi:

– Oğul, qızdırmadan dil-dodağım quruyub… Get xalangildən alma gətir.

– Heç bahar vaxtı da alma olar? – deyə o, acıqlı halda soruşdu.

Əkrəm qapını bərk çırpıb könülsüz evdən çıxdı. Həyətdə oynayan uşaqları görüb onlara qoşuldu.

Bir azdan Adil məktəbdən gəldi. O, ikinci sinifdə oxuyurdu. Tez çantasını yerinə qoyub anasının yanına qaçdı.

– Anacan, necəsən? Başın ağrıyır?

– Neçə saatdır Əkrəmi xalangilə alma üçün yollamışam, hələ də xəbər yoxdur.

Adil qardaşını həyətdə görmüşdü:

– Əkrəm həyətdədir, narahat olma. Alma üçün özüm gedərəm.

Adil on dəqiqəyə almaları gətirdi. Qabığını soyub dilimlədi və anasına yedizdirdi. Elə bu vaxt Əkrəm evə qalxırdı. Pəncərədən qardaşının anasını necə yedizdirdiyini, arada dəsmalla ağzını sildiyini görəndə evə girməyə üzü gəlmədi.

*Bayram Həsənov*

Tapşırıq: – *Oxuduğunuz mətnlə dinləmə mətni arasındakı ideya yaxınlığını müəyyən edin.*

**Suallar:**

**1.** Əkrəmin neçə yaşı olardı?
A) 4 B) 5 C) 6

**2.** Hekayədəki hadisə ilin hansı fəslinə təsadüf edir?
A) qış B) yay C) yaz

**3.** *“Üzü gəlmədi”* söz birləşməsinə yaxınmənalı ifadəni tap.

**4.** Bunlardan hansını *dilimləmək* sözü ilə işlədə bilmərik?
A) alma B) qarpız C) üzüm

**5.** Bunlardan hansı *tərgitmək* sözünə yaxınmənalıdır?
A) əl çəkmək B) baş götürmək C) qol qoymaq

## Yazı

Şagirdlər dialoqları təhkiyə üsulunda ifadə etməklə dinlədikləri mətnin qısa məzmununu yazırlar.

## Dil qaydaları

6-9-cu tapşırıqlar yerinə yetirilir.

6-cı tapşırıq. “Zəif” sözü səhv yazılıb.

*Müəllimin nəzərinə: Dil qaydaları ilə bağlı 7-ci tapşırıq yerinə yetirildikdən sonra müəllim müvafiq qaydanı uşaqlara izah edə bilər. Bəzi ikihecalı sözlərə saitlə başlanan şəkilçi əlavə etdikdə ikinci hecadakı sait düşür; məsələn: sinif – sinfə, beyin – beynim. Bundan sonra əlavə tapşırıqlar vermək olar. Aşağıdakı sözlərə saitlə başlayan şəkilçi əlavə edib yazın: şəkil, nəsil.*

8-ci tapşırıq. Çox maraqlı oyun gedirdi (*oyun* – mübtəda, *gedirdi* – xəbər). Mən buzu yolun bir tərəfinə qoyub uşaqlara qoşuldum (*mən* – mübtəda, *qoşuldum* – xəbər).

9-cu tapşırıq. Mən bu qorxunc fikirdən uzaqlaşmaq istədim.

Müəllim aşağıdakı sualı verə bilər:

– *Mübtədanın “mən” olduğunu hansı sözlə müəyyənləşdirdiniz?*

LAYİHƏ

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 84. ÇİNAR AĞACI. XAN ÇİNAR (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1.Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və ya dinlədiyi mətnin ideyası ilə bağlı mühakimə xarakterli fikirlər irəli sürür. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək mətn qurur və təqdim edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu mətnlərdəki obrazları müqayisə edir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Dinlədiyi şeiri nəsrə çevirib yazır. |

### Motivasiya

**Müəllim:** – *Hansı ağacları tanıyırsınız?* (Şagirdlər ağac adlarını sadalayırlar)
– *Çinar ağacı haqqında nə bilirsiniz?*

Çinar ağacının hündür, böyük çətirli və uzunömürlü olduğu, 1000 ildən çox yaşadığı bildirilir. Şəki xanlarının sarayını görən şagirdlər varsa, sarayın qarşısındakı çinar ağacından danışılır. Çinarın şəkli göstərilir. Bu çinarın 1530-cu ildə əkildiyi şagirdlərə çatdırılır. Bildirilir ki, onun hündürlüyü 30 metrdən, gövdəsinin diametri 7 metrdən çoxdur. Onun əzəmətindən, ətrafa kölgə salmasından danışılır.

**Sual:** – *Bədii ədəbiyyatda müsbət qəhrəmanların hansı əlamətləri çinara bənzədilir?* (əzəmət, vüqar, əyilməzlik, uca qamət)

### Oxu

1-ci addım. Şagirdlər cütlərə bölünürlər. Hər cütdəki şagirdlərdən biri “Çinar ağacı” (dərslik, səh. 177-178), digəri “Xan çinar” (dərslik, səh. 178) mətnini səssiz oxuyur.

2-ci addım. Birincilərdən bir şagird mətni nəql edir, digərləri nəql zamanı buraxılmış vacib məqamları xatırlatmaqla mətni tamamlayırlar.

3-cü addım. Şagirdlər iş dəftərinin 120-ci səhifəsindəki tapşırıqdan istifadə edə bilərlər.

4-cü addım. “Xan çinar” mətnini oxuyanlar arasında ifadəli oxu üzrə müsabiqə keçirilir.

5-ci addım. Lövhədə Venn diaqramı çəkilir. Dərsliyin 178-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilir.

6-cı addım. Dərsliyin 178-ci səhifəsindəki 2-3-cü tapşırıqlar yerinə yetirilir.

1-ci çinar (“Çinar ağacı”) 2-ci çinar (“Xan çinar”)



Şagirdlər oxuduqları mətnlərdəki çinar obrazlarını müqayisə edirlər. Müəllim şagirdlərin diqqətini hər iki mətnin son cümləsinə yönəldir:

**1-ci mətn:** – Gördünüz?! Külək mənə heç nə eləyə bilmədi.

**2-ci mətn:** – Mən kökümlə bu torpağa bağlıyam.

LAYİHƏ

*Müəllimin nəzərinə: Müzakirə nəticəsində şagirdlər belə bir nəticəyə gəlirlər: “Hər iki çinar məğrurdur, hər ikisi boyu, qaməti ilə fəxr edir. Lakin birinci çinar bununla lovğalanır, ikinci çinar isə buna görə torpağa təşəkkür edir”.*

**Dinləmə**

**KUDU VƏ ÇİNAR**

Sizə deyim qəribə bir hekayət,
Ağıllılar ondan alsınlar ibrət.
Kudu dəni düşdü çinar altına,
Qorxutmadı onu yağış, qasırğa.
Qucaqlayıb çinarı tez boy atdı,
Çinardan da yuxarı baş ucaltdı.
Bilmədi ki, çinarın sayəsində
Yer tutmuşdur səmanın sayəsində.
*(kölgəsində)*

Tənə edib dedi: – Bəh, bəh, ey çinar!
Bu bağda sən görmüsən bir çox bahar.
Bir mənə bax, azca zaman içində
Qoydum geri səni dövran içində.
Bir neçə il qucaqlaşsaq belə biz,
Heç kim mənə çata bilməz, şübhəsiz.
Oynaq olar mənə yüksək fələklər,
Meyvə dərər budağımdan mələklər.
Çinar gülüb dedi: – Öyünmə sən də,
Hünər məlum olar xəzan əsəndə.

*Abbasqulu ağa Bakıxanov*

**Suallar:** – *“Kudu” sözünü hansı sözlə əvəz etmək olar? (qabaq)*
*– Bu şeirdəki kudu obrazını hansı çinar obrazı ilə müqayisə etmək olar?*

**Yazı**

*– Şeiri nəsrə çevirib yazın.*

**Danışma** (qruplarla iş)

**I qrup:** – *“Çinar ağacı” mətnindəki obrazları insan obrazları ilə əvəz etməklə mətn qurub təqdim edin.*

**II qrup:** – *“Xan çinar” mətnindəki obrazları insan obrazları ilə əvəz etməklə mətn qurub təqdim edin.*

**III qrup:** – *“Kudu və çinar” mətnindəki obrazları insan obrazları ilə əvəz etməklə mətn qurub təqdim edin.*

Müəllim hər üç qrupa tapşırır ki, qurduqları yeni mətnin ideyası oxuduqları və ya dinlədikləri müvafiq mətnin ideyası ilə eyni olmalıdır.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 121-ci səhifəsində də verilmişdir.)

**DAYAQ OLSA**

Qara ağdan seçilər,
Göz gözə dayaq olsa.
Ocaq sönməz dünyada,
Köz közə dayaq olsa.

Dünya firavan yaşar,
Həyat çağlayar, daşar.
Bülbüllər nəğmə qoşar,
1 ________ dayaq olsa.

Hər təpədən dağ olmaz,
Vüqarlı dağ dağılmaz.
Əyri artıb ağarmaz,
2 ________ dayaq olsa.

Namərd mərdə ad qoyar,
Naşını nadan duyar.
Dağı dağ üstə qoyar,
3 ________ dayaq olsa.

*Əvəz Mahmud Lələdağ*

**1.** Mavi boşluqların yerinə uyğun sözləri seç.

LAYİHƏ

A) 1 – düz düzə   2 – söz sözə   3 – diz dizə
B) 1 – söz sözə   2 – düz düzə   3 – diz dizə
C) 1 – diz dizə   2 – düz düzə   3 – söz sözə

**2.** *“Dağ”* sözü hansı cümlədə mətndəki mənasında işlənib?
A) Vətənimiz Qafqaz dağları ilə əhatə olunub.
B) Qız yağı dağ eləyib tavanı kənara qoydu.
C) Vətən həsrəti onun ürəyinə dağ çəkmişdi.

**3.** Hansı sözdə şəkilçi sözün kökündən əvvəl gəlir?
A) namərd   B) dayaq   C) vüqarlı

**4.** Şeirin məzmununa uyğun atalar sözünü seç.
A) Od olmayan yerdən tüstü çıxmaz.
B) Dağ nə qədər uca olsa, el üstündən yol salar.
C) El bir olsa, dağ oynadar yerindən.

**Yazı** üzrə qiymətləndirmə (imla)

**BALIQQULAĞI (116 söz)**

Nazilə yuxudan təzəcə oyanmışdı ki, anası ona şad xəbər verdi: onlar bu gün atası ilə birlikdə dəniz sahilinə gedəcəklər. Yay tətilinin ilk günlərindən bu arzu ilə yaşayan Nazilənin gözləri güldü.

Atası Naziləni sahilboyu gəzdirdi. Nazilə xeyli rəngli, irili-xırdalı balıqqulağı topladı. Gəzintidən sonra onlar maşına tərəf yollandılar. Qızın əlində çoxlu balıqqulağı görən atası bunları nə edəcəyini soruşdu. Nazilədən səs çıxmadı.

Aradan xeyli keçmişdi. Bir səhər Nazilə sevincək yuxudan oyandı. Axı həmin gün anasının ad günü idi. Axşamdan atası onunla alacaqları hədiyyə haqqında danışsa da, bir qərara gələ bilməmişdilər.

Bir azdan Nazilə səliqə ilə bükülmüş hədiyyəsini anasına təqdim etdi. Ana sevincək hədiyyəni açdı. Bu, rəngli balıqqulağılardan hazırlanmış gözəl bir gül rəsmi idi.

Ata və ana fərəhlə Naziləyə baxdılar.

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Mürəkkəb cümlələrdən birində bir mübtəda var:
A) Hələ qar əriməmişdi, ancaq novruzgülü çiçəkləmişdi.
B) Zəng çalındı, işıqlar söndü, tamaşa başlandı.
C) Xəbər verdilər ki, axşam şiddətli külək əsəcək.

**2.** Hansı cümlədə nöqtələrin yerinə “ki” bağlayıcısı yazmaq lazımdır?
A) Uşaqlar çalışdılar … məktəbimiz yarışda birincilik qazansın.
B) Bağın ətrafına çəpər çəkmək lazım idi … mal-qara körpə ağacları yeyirdi.
C) Musiqi çalındı … rəqqasələr səhnəyə çıxdılar.

**3.** Sözlərdən birinə saitlə başlanan şəkilçi artırdıqda *k-y* əvəzlənməsi baş vermir:
A) külək   B) lək   C) bilik

**4.** Cümlələrin birində *“oğul”* sözünün yazılışı səhvdir:
A) Onun oğulu çox ağıllı idi.   B) Oğlum məni sevindirdi.   C) Oğlunuz sizi gözləyir.

**5.** Hansı şəkilçini *“sinif”* sözünə artırsaq, ikinci hecada səs düşümü baş verər?
A) *-də*   B) *-lər*   C) *-imiz*

LAYİHƏ

# Dərs 85. ÇİÇƏK – YEDDİ RƏNG LƏÇƏK (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu kitab haqqında təəssüratlarını bölüşür.<br>Verilmiş qrafik informasiyanı (barqrafı, diaqramı) şifahi şəkildə şərh edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Təxəyyülünə uyğun davam etdirdiyi mətnin planını tutur. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin məzmununa yeni süjet xətti və obrazlar əlavə etməklə mətni genişləndirir və nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Əsər qəhrəmanının hərəkətlərinə münasibət bildirərək onun xarakteri haqqında fikir söyləyir. |
| 3.1.1. Yazısında orfoqrafiya normalarına riayət edir və əsas durğu işarələrindən yerində istifadə edir. | Cümlələrdə durğu işarələrinin yerini düzgün müəyyənləşdirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək esse yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Verilmiş sözlərin fonetik təhlili ilə bağlı fikirlər söyləyir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |

### Motivasiya

**Müəllim:** – *Arzularınızı yerinə yetirə bilən sehrli çubuğunuz olsa idi, nə edərdiniz?*
Şagirdlər cavab variantlarını söyləyirlər.

### Oxu

Şəkillər üzrə proqnozlaşdırma. Müəllim dərsliyin 179-182-ci səhifələrində “Çiçək – yeddi rəng ləçək” mətninə çəkilmiş illüstrasiyaları nəzərdən keçirməyi tapşırır.

**Sual:** – *Şəkillərə əsasən bu mətndə nədən danışıldığını deyə bilərsinizmi?*
Bir neçə şagirdin variantları dinlənilir və müzakirə olunur.
Mətnin 1-ci hissəsi (səh. 179-180) oxunur.
Müəllim lövhədən belə bir cədvəl çəkilmiş plakat asır:

| Hissələr | Jenyanın xarakteri | Əsaslandırma |
|---|---|---|
| 1-ci hissə | | |
| 2-ci hissə | | |
| 3-cü hissə | | |

*Müəllimin nəzərinə: Bu cədvəl mətnlə iş bitənədək (2 dərs – 4 saat müddətində) lövhədə qalır.*
**Sual:** – *Oxuduğunuz hissəyə əsasən Jenya haqqında nə deyə bilərsiniz? (səh. 180, tap. 2)*
**Cavab:** – *Jenya diqqətsiz və ehtiyatsız qızdır.*
**Əsaslandırma:** – *İtin bublikləri necə yediyini hiss etmədi, güldanı əlindən yerə saldı.*
Cədvəlin müvafiq xanaları doldurulur.

LAYİHƏ

Mətnin 2-ci hissəsi (səh. 180-181) oxunur.

**Sual:** – *2-ci hissəyə əsasən Jenya haqqında nə deyə bilərsiniz?*

**Cavab:** – *Jenya inadkardır, bir qədər paxıldır, düşünmədən hərəkət edəndir.*

**Əsaslandırma:** – *Mübahisə edib öz istəyinə çatmaq üçün hər şeyə əl atır, qızların oyuncaqlarını görüb paxıllıq edir, 4 qiymətli ləçəyi 2 arzuya və bu arzulardan imtinaya sərf edir.*

Cədvəlin müvafiq xanaları doldurulur.

Dərsliyin 181-ci səhifəsindəki 3-4-cü tapşırıqlar yerinə yetirilir. 3-cü tapşırığı yerinə yetirmək üçün müəllim BİBÖ cədvəlindən və qlobusdan istifadə edir.

*Müəllimin nəzərinə: Şimal qütbü haqqında şagirdlər 3-cü sinifdə “Həyat bilgisi” fənnindən tanışdırlar.*

| ŞİMAL QÜTBÜ HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Cədvəlin birinci iki sütunu doldurulduqdan sonra müəllim qlobusun ortasından keçən dəmir oxu göstərib “Yerin oxu” dedikdə məhz bu oxun nəzərdə tutulduğunu bildirir və aşağıdakı mətni oxuyur.

**Dinləmə**

## QÜTBLƏR

Yerin iki coğrafi qütbü var: Şimal və Cənub. Bütün səma cisimləri kimi Yer də öz oxu ətrafında fırlanır. Bu zaman qütb nöqtələri istisna olmaqla Yerin bütün nöqtələri fırlanaraq dairə cızır. Nəticədə gecə-gündüz yaranır.

Dünyanın istənilən nöqtəsində dayanıb kompasa baxsanız, onun əqrəbi şimala yönəlmiş olacaq. Əgər həmin istiqamətdə dayanmadan getsəniz, sonda Şimal qütbünə çatacaqsınız.

**Şimal qütbü** Yer oxunun Şimal yarımkürəsindən keçdiyi nöqtədir *(müəllim qlobusda nümayiş etdirir)*. Bu nöqtə Şimal Buzlu okeanının ortasında yerləşir. Orada quru sahəsi yoxdur. İlboyu Şimal qütbündə çoxillik qalın buz qatı olur. Şimal qütbündə vaxt gecə və gündüzə bölünmür. Burada günəş ilin bir yarısı heç görünmür. Buna qütb gecəsi deyirlər. İlin digər yarısında isə heç batmır. Buna isə qütb gündüzü deyirlər. Şimal coğrafi qütbündə orta temperatur göstəricisi qışda -40°, yayda isə təqribən 0° olur.

**Cənub coğrafi qütbü** isə Yer oxunun Cənub yarımkürəsindən keçdiyi nöqtədir. Cənub qütbü Antarktida materikindədir və ona birinci olaraq R.Amundsen çatmışdır.

Mətni dinlədikdən sonra şagirdlər BİBÖ cədvəlinin 3-cü sütununda qeydlər aparırlar.

Tapşırıq: – *Siz artıq bilirsiniz ki, Jenyanın çiçəyində cəmi bir ləçək qaldı. Görəsən, o, sonuncu ləçəyi necə istifadə edəcək? Mətni davam etdirin.*

Oxunan hissələrin və mətnin davamının geniş planı tutulur. Planlar təqdim olunur.

**Dil qaydaları**

**“Auksion”** (cütlərlə iş). Şagirdlər cütlərə bölünürlər. Cütlər nömrələnir. Müəllim lövhədə cədvəl çəkir.

| Cüt № | Ballar | Cüt № | Ballar | Cüt № | Ballar | Cüt № | Ballar |
|---|---|---|---|---|---|---|---|
| 1 | | 4 | | 7 | | 10 | |
| 2 | | 5 | | 8 | | 11 | |
| 3 | | 6 | | 9 | | 12 | |

Müəllim bildirir ki, indi mətndə işlənmiş bir neçə sözü növbə ilə səsləndirəcək. Cütlər bu sözlərin fonetik təhlili ilə bağlı fikirlər söyləməlidir. Hər bir söz haqqında söylənilən fikir 1 balla, sonuncu fikir isə 3 balla qiymətləndiriləcək.

Müəllim aşağıdakı sözləri növbə ilə səsləndirir:

*bağça, lövhə, nəzakət, təşəkkür, güldan, oğlanlar, oyuncaq, təsəvvür*

LAYİHƏ

Müəllim nəzarət edir ki, şagirdlər aşağıdakı göstəricilər üzrə sözləri təhlil etsinlər:
– *Söz neçə səsdən ibarətdir?*
– *Səslərdən neçəsi sait, neçəsi samitdir?*
– *Sözdəki sait və samit səslərin növləri*
– *Sözün səs və hərf tərkibi eynidir/eyni deyil?*
– *Səslərin sayı hərflərin sayından çoxdur/azdır/eynidir?*
– *Söz ahəng qanununa tabedir/tabe deyil?*

Mətnin davamını oxutdurmaq məqsədilə keçən dərsdə mətnin davamı ilə bağlı şagirdlərin variantlarından orijinal mətnə ən yaxın olanı seçilir və müzakirə olunur.

**Sual:** – *İnsanın əlində olan qeyri-adi imkanlardan yalnız özü üçün istifadə etməsi düzgündürmü? Mətnin birinci və ikinci hissələrində Jenyanın çiçəkdən istədiklərini necə qiymətləndirirsiniz?*

**Oxu**

Mətnin 3-cü hissəsi oxunur.

Dərsliyin 183-cü səhifəsindəki tapşırıqlar yerinə yetirilir. Eləcə də iş dəftərinin 122-ci səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə etmək olar.

Keçən dərsdə tərtib edilmiş "Jenyanın xarakteri" cədvəlinin 3-cü sətri doldurulur.

Mətnin planı tutulur. Əvvəlcə müəllim mətnin hər bir hissəsinə başlıq verməyi tapşırır. Daha sonra müəllim mətni yeddi hissəyə bölüb hissələri aşağıdakı kimi adlandırır:

*1. Jenya, it və bubliklər.*
*2. Xeyirxah qarı.*
*3. Sarı və qırmızı ləçəklər Jenyanın arzularını həyata keçirdi.*
*4. Şimal qütbünə getmək Jenya üçün problem deyil.*
*5. Jenyaya çoxlu oyuncaq lazım deyil.*
*6. Son ləçək Jenyanı düşünməyə vadar etdi.*
*7. Mavi ləçək – Jenya xoşbəxtdir.*

Müəllim təklif edir ki, şagirdlər cütlərə bölünərək həmin hissələrə fərqli başlıqlar düşünsünlər. Ən maraqlı və orijinal başlıqlar səsvermə yolu ilə seçilir və lövhədə yazılır. Daha sonra hər başlığa görə mətnin məzmunu genişləndirilmiş formada (yeni kiçik süjet xətləri əlavə etməklə) nəql olunur (hər şagird bir hissəni nəql etməklə).

**Danışma**

Müəllim iri kağız vərəqində səsvermə üçün 7 arzu bildirən cümlə yazır və onları nömrələyir.

| № | Arzu | Səs sayı |
|---|---|---|
| | ***Sehrli çubuğum olsa idi...*** | |
| 1 | *çoxlu pulumun olmasını istərdim.* | |
| 2 | *dərslərimə hazırlaşmadan hər şeyi bilmək istərdim.* | |
| 3 | *əlil uşaqların hamısını sağaldardım.* | |
| 4 | *valideynlərimə uzun ömür arzulayardım.* | |
| 5 | *yeni kompüter və oyun proqramları istəyərdim.* | |
| 6 | *işğal olunmuş torpaqların geri qaytarılmasını istərdim.* | |
| 7 | *dərs günlərinin həftədə 3 gün olmasını istərdim.* | |
| 8 | | |
| 9 | | |
| 10 | | |
| 11 | | |
| 12 | | |
| 13 | | |
| 14 | | |

LAYİHƏ

Şagirdlərə bildirilir ki, onlar bu siyahıya daha 7 arzu əlavə edə bilərlər. Bunun üçün hər bir şagirdin bildirdiyi arzunu ən azı üç başqa şagird dəstəkləməlidir.

Beləliklə, siyahıya yeni arzular əlavə olunur. Siyahı tamamlandıqdan sonra arzular səsə qoyulur. Şagirdlərə bildirilir ki, hər biri ən çoxu 3 arzuya səs verə bilər. Səslər hesablanır və ən çox səs toplamış 3 arzu müəyyən olunur.

Səsvermənin nəticələri daha əyani olsun deyə rəngli diaqram şəklində də göstərilə bilər.

Müzakirə. Şagirdlər "Düzmü seçim etdik?" sualına cavab vermək üçün müzakirə keçirirlər. Əgər birinci üçlükdə daha "eqoist" arzular (məsələn, 1, 2, 5, 7) yer alıbsa, bu, Jenyanın birinci altı arzusu ilə müqayisə olunur. Digər arzuların seçimi əsaslandırılır.

**Yazı**

10-cu tapşırıq. Cavab "B" variantıdır.

Yuxarıdakı tapşırıq yerinə yetirildikdən sonra "Qoşa nöqtə. Tire" haqqında verilən məlumat oxunur və mənimsədilir.

11-12-ci tapşırıqlar yerinə yetirilir.

*"Əgər Jenyanın çiçəyindən bir ləçək məndə olsaydı..."* mövzusunda esse yazılır.

İş dəftərinin 122-ci səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilə bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 86. YAXŞILIĞA ƏVƏZ (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi əsərdəki obraz və hadisələr haqqında müxtəlif fikirləri ümumiləşdirərək yekun nəticəyə gəlir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Kontekstə görə sözlərin mənalarını fərqləndirir və yaxınmənalı sözlərlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Şeiri oxuyarkən obrazların nitqini onların xarakterinə uyğun səsləndirir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Plan qurmaqla dinlədiyi mətnin məzmununu yazır. |

**Motivasiya**

**Müəllim:** – *Atalar sözünü izah edin: "Yaxşılıq edib bir şey umursansa, eləməsən yaxşıdır".* Şagirdlər həyatdan misallar gətirməklə atalar sözünü izah edirlər.

**Oxu** (rollu oyun)

"Yaxşılığa əvəz" şeiri (dərslik, səh. 184) 3 nəfər (aparıcı, dovşan və sincab) tərəfindən rollarla səsləndirilir. Müəllim hər obrazın nitqini onun xarakterinə uyğun səsləndirməyi tapşırır. Dovşanın sözlərini səsləndirən şagird öz rolunu şən əhvali-ruhiyyə ilə, oynaq tərzdə, sincabın sözlərini səsləndirən şagird isə ciddi və nəsihətamiz şəkildə ifa etməlidir.

LAYİHƏ

**Suallar:**
– *Dovşanın əhvalını göstərən misraları oxuyun.*
– *Nə üçün dovşan özünün çəpgöz olmasına inanmamağa çağırır?*
– *Dovşanın kök haqqında dediklərinə nə əlavə edə bilərsiniz?*
– *Şeirdə dovşan nələri sevdiyini söyləyir?*
– *Dovşanı qabaqda hansı təhlükə gözləyirdi?*
– *Dovşan dələyə minnətdarlığını necə bildirdi?*
– *Nə üçün dələ yaxşılığın əvəzini istəmədi?*

**Söz ehtiyatı**
Dərsliyin 184-cü səhifəsindəki tapşırıq yerinə yetirilir. Eləcə də iş dəftərinin 123-cü səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə etmək olar.

**Danışma** (debat)
**I qrup:** – *Hər bir insan istəyər ki, onun yaxşılığını qiymətləndirsinlər.*
**II qrup:** – *Yaxşılığın əvəzində yaxşılıq və ya tərif gözləmək insana yaraşmaz.*

**Dinləmə**

**TƏMƏNNASIZ YAXŞILIQ**

Qoca bir əkinçi tarlada işləyən zaman gördü ki, bir quzğun caynağına aldığı hacıleyləyi yuxarıdan buraxıb daşa çırpdı. Quzğun leyləyin üstünə bir də şığımaq istədi. Ancaq ona qədər qoca özünü hacıleyləyə çatdırdı. Quzğun qocanı görüb havada bir neçə dövrə vurdu və uçub getdi. Qoca baxdı ki, leyləyin qanadı və qıçı qırılıb. Axşam evə dönəndə hacıleyləyi də özü ilə gətirdi. Bir müddət onu müalicə etdi. Hacıleyləyin qanadı və qıçı sapsağlam oldu. Qoca əkinçi buna çox sevindi. O, hacıleyləyi gətirib çölə buraxdı.

Aradan xeyli keçdi. Qoca əkinçi şuma toxum səpirdi. Bir də gördü ki, budur ha, hacıleylək gəldi, onun başı üstündə çırpınıb qanad çaldı. Axırda da ağzından yerə bir neçə toxum salıb getdi. Qoca bildi ki, bu, xeyirliyədir. Toxumları səliqə ilə torpağa basdırdı. Vaxt-vədə gəlib çatdı. Bu toxumdan iri qarpızlar əmələ gəldi. Qoca qarpızlardan birini kəsdi. Baxdı ki, içindən qızıl tökülür. Sevincək qarpızları yığıb evə apardı.

Bu xəbər ölkənin padşahına çatdı. Hökmdar əkinçini hüzuruna çağırdı. Ondan bu məsələnin sirrini soruşdu.

Qoca əkinçi çarəsiz qalıb hacıleylək əhvalatını danışdı.

Şah əmr edib dedi:

– Sənə üç gün möhlət verirəm, hər necə olur-olsun, həmin hacıleyləyi mənə gətirərsən.

Ağır cəzadan qorxan qoca əkinçi tor düzəltdi, tələ qurdu, çox çətinliklə hacıleyləyi tutub şaha gətirdi. Şah əmr elədi ki, hacıleyləyin qanadının birini və bir qıçını sındırsınlar. Sonra şah quşa xüsusi bir yer ayırdı. Onu böyük bir qayğı ilə sağaltmağa başladı. Quşu sağaltdıqdan sonra onu öz əlləri üstə alıb havaya uçurdu. Hacıleylək bir an içərisində uçub görünməz oldu, çox-çox uzaqlara uçdu. Şah hər gün pəncərənin qabağında durub quşun yolunu gözləyirdi. Quş, həqiqətən, bir səhər geri qayıtdı və ağzında bir neçə toxum gətirdi.

Şahın adamları quşun güllü bağçaya atdığı toxumları bir-bir yerdən yığdılar. Şahın əmri ilə bağçanı tərtəmiz etdilər. Qızılgül kollarını çıxarıb bir kənara atdılar. Əvəzində torpağa quşun gətirdiyi toxumları əkdilər. Bir neçə gündən sonra bağçanı qaratikan kolu ağzına götürdü. Qaratikanı nə qədər qoparıb atdılar, kökünü kəsə bilmədilər.

Şah elə bildi ki, qoca əkinçi onu aldadıb, başqa hacıleyləyi gətirib. İstədi onu çağırıb boynunu vurdursun. Bu vaxt şahın müdrik veziri ona dedi:

– Şahım sağ olsun. Qocanın burada günahı yoxdur. Quş elə həmin quşdur. Amma qoca əkinçinin ona etdiyi yaxşılıq təmənnasız, səninki isə təmənnalı yaxşılıq idi. Bunu bilən quş hər kəsə öz payını çatdırıb.

Müəllim suallar verməklə dinləmə mətninin şagirdlər tərəfindən nə dərəcədə qavranıldığını yoxlayır. Şagirdlərin hekayədəki obrazlar haqqında fikirləri ümumiləşdirilir.

LAYİHƏ

### Yazı
Dinlənilmiş mətnin planı tərtib edilir və şagirdlər plan əsasında mətnin məzmununu yazırlar.

İş dəftərinin 123-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə etmək olar.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 87. KÖRPƏ NƏĞMƏNİN NAĞILI (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və ya dinlədiyi əsərlə bağlı fikirlərini müdafiə etmək üçün arqumentlər gətirir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Mətnlə bağlı sualları cavablandırmaqla oxuduğu bədii mətn parçasından çıxardığı nəticələri təqdim edir.<br>Hadisələrin ardıcıllığını müəyyən etməklə oxuduğu mətnin məzmunun tam qavradlığını nümayiş etdirir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin planına yeni başlıqlar əlavə edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Bəzi köməkçi nitq hissələrinin cümlədəki rolunu müəyyənləşdirir. |

### Motivasiya
"Çiçək hədiyyə et!" metodu ilə sinifdə əlverişli mühit yaradılır.

Müəllim şagirdlərdən birinə çiçək verir və bunu nə üçün etdiyini izah edir (şagirdə kompliment deyir). Həmin şagird də müvafiq izahatlarla çiçəyi başqa birisinə hədiyyə edir.
Sonda müəllim şagirdlərə aşağıdakı suallarla müraciət edir:
*– Biz bunu nə üçün edirik? Çiçəyi verəndə və qəbul edəndə hansı hisləri keçirirdiniz? Nəğmə oxuyanda, yaxud eşidəndə hansı hisləri keçirirsiniz? Bu zaman sizdə hansı əhvali-ruhiyyə yaranır? Çiçək və musiqi – bu iki varlığın insana göstərdiyi təsir arasında hansı oxşarlıq var?*
Şagirdlər öz hiss və duyğularını ifadə edirlər (saflıq, təmizlik, xoş duyğular).

### Oxu
Dərslikdən mətn (səh. 186-188) 3 qrup tərəfindən "Ziqzaq" üsulu ilə oxunur. Ekspertlər mətnin müvafiq hissəsini oxuduqdan sonra həmin hissəni öz qruplarında nəql edirlər. Hər bir şagird mətnin bütün hissələri ilə tanış olduqdan sonra müəllim lövhədə mətnin planını qeyri-ardıcıl şəkildə yazır:
*1. Ceyranı ölümdən xilas edən nəğmə*
*2. Nəğmə Anarın axtarışında*
*3. 164 №-li mənzil*
*4. Yaşlı nəğmə ilə tanışlıq*
*5. Dondurmadan imtina edən Anar*

LAYİHƏ

*6. Nəğmənin dünyaya gəlməsi*
*7. Pulunu itirən qız*

Sonra müəllim şagirdlərə bir-bir müraciət edərək *"1-ci yerdə hansı başlıq olmalıdır?", "2-ci yerdə hansı başlıq olmalıdır?"* – ... deyə soruşur. Beləliklə, başlıqların ardıcıllığı bərpa olunmaqla mətnin planı tutulur.

**Müəllim:** – *Hadisələrin davamını necə görürsünüz? Bununla bağlı plana daha iki başlıq əlavə edin.*

Qruplarla iş. Şagirdlər qruplarla işləyərək mətnin davamı ilə bağlı yeni başlıqlar təklif edirlər. Ən maraqlı başlıqlar müəyyən edildikdən sonra genişləndirilmiş mətn müvafiq qruplar tərəfindən nəql edilir. Yaxşı olar ki, hər şagird plandakı başlığa aid bir hissəni nəql etsin.

Dərsliyin 186-cı səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir.

1-ci tapşırıq. A variantı.

2-ci tapşırıq. 1– Y, 2 – D, 3 – Y, 4 – D, 5 – Y.

4-cü tapşırıq. 1– A , 2 – C (bu barədə mətndə heç bir məlumat yoxdur), 3 – B (bu barədə hekayədə məlumat yoxdur, amma mətnə çəkilən illüstrasiyada dondurma növbəsində dayanan dörd uşaq təsvir edilib, arıq oğlanı da saysaq, beş nəfər edir), 4 – C (bu barədə də mətndə heç bir məlumat yoxdur), 5 – B (Hekayənin birinci hissəsində yaşlı nəğmə körpə nəğməyə demişdi ki, onların evi xeyirxah insanların qəlbindədir. Arıq oğlan da məhz belə insan olduğu üçün təxmin etmək olar ki, körpə nəğmə onun qəlbində yaşatacaq).

7-ci tapşırıq. Cavab "B" variantı

8-ci tapşırıq. *Nəğmə gördü ki, ovçu ceyranı öldürmək istəyir, ceyran qorxudan tir-tir əsir. Ceyranı xilas etmək məqsədilə nəğmə ovçunun deyil, ceyranın qəlbinə girdi. Nəğmə xeyirxah insanların qəlbinə girirdi, ovçu isə bu xüsusiyyətdən uzaq idi.*

9-cu tapşırıq. *Mətnin "Nəğmənin ceyranı ölümdən xilas etməsi", "Nəğmənin Anarın yaşadığı evi axtarması və onun qəlbində özünə sığınacaq tapması" hissələri xoşbəxtlik haqqında olduğunu sübut edir.*

10-cu tapşırıq. Cavab "C" variantıdır.

11-ci tapşırıq. *Mətnin ideyasını aşağıdakı şəkildə ifadə etmək olar: "Xeyirxah insanlar olan yerdə xoşbəxtlik də olar".*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 124-125-ci səhifələrindəki tapşırıqlardan istifadə etmək olar.

**Dinləmə**

Bir küçədə məşhur bir milyonçu yaşayırdı. O, saysız-hesabsız var-dövlətindən kasıb uşaqların müalicəsi üçün hər il müəyyən məbləğdə pul ayırırdı.

Həmin küçədə yaşayan kasıb ailə isə yetim bir uşağı himayəsinə götürməyi qərara aldı. Qarı dedi:

– Biz son qəpik-quruşumuzu bu uşağa xərcləməli olacağıq. Şorbaya tökmək üçün duz almağa belə pulumuz qalmayacaq.

– Eybi yox, – deyə qoca cavab verdi. – Duzsuz yeyərik.

**Sual:** – Sizcə, kim daha səxavətlidir? Fikrinizi izah edin.

**Danışma** (debat)

– Səxavətli olmaq üçün mütləq imkanlı (varlı) olmaq lazımdır.
– Səxavətli olmaq üçün imkanlı (varlı) olmaq heç də vacib deyil.

**Dil qaydaları**

3-cü tapşırıq. "Və" bağlayıcıdır, sözləri bir-birinə bağlayır, "doğru" istiqamət bildirən qoşmadır.

6-cı tapşırıq. 1) "Səbəb" mənası yaradır. 2) Bir manata görə ağlayırsan?

Mətnin sonuncu abzasında işlənmiş köməkçi nitq hissələri seçilir və onların funksiyaları müəyyənləşdirilir.

LAYİHƏ

<u>*Müəllimin nəzərinə:*</u> *"Necə də" – cümlənin təsir gücünü artırır, "və" – sadə cümlələri bir-birinə bağlayır, "isə, da" – cümlə üzvləri arasında əlaqə yaradır.*

İş dəftərinin 125-ci səhifəsindəki 6-cı tapşırıq yerinə yetirilə bilər. Əlavə olaraq müəllim mətndən bir neçə sözü (məsələn: *akkord, ovçu, çörək, arıq*) fonetik təhlil etməyi tapşırır.

**Qiymətləndirmə.** Müşahidə, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 126-cı səhifəsində də verilmişdir.)

### ŞƏXSİYYƏT

Şagirdlər müəllimlərini gözləyirdilər. Sinif hay-küydən lərzəyə gəlirdi. Bir azdan müəllim gəldi. Şagirdləri sərt baxışlarla süzdükdən sonra masanın arxasına keçdi. <u>T...b...şiri</u> götürüb yazı taxtasına böyük "1" yazdı, üzünü şagirdlərə tutub: "Baxın, – dedi. – Bu, şəxsiyyətdir. İnsanın həyatda malik olduğu ən qiymətli şeydir". Sonra "1"-in yanına bir "0" yazdı: "Bu isə bacarıqdır. Bacarıq və şəxsiyyət 1-i 10 edər". Bir "0" da yazdıqdan sonra: "Bu isə təcrübədir. Əgər 10-sunuzsa, təcrübə ilə 100 olarsınız". Sıfırlar artdıqca növbə qabiliyyətə, istedada, zəhmətə də çatdı.

Müəllim hər dəfə "1"-in yanına yeni bir "0" yazanda axırıncı rəqəm ... dəfə artırdı. Sonra müəllim silgini götürüb "1"-i sildi. Yazı taxtasında yalnız bir-birinin arxasınca düzülmüş sıfırlar qaldı. Nəhayət, müəllim son sözünü dedi: "Baxın, bu ədəddə hər sıfırın öz yeri var idi. Ancaq "1"-i sildik və sıfırların heç bir qiyməti qalmadı.

**1.** Əgər ardıcıllıqla getsən, istedad neçə olacaq?
A) 1000 B) 10000 C) 100000

**2.** İkinci abzasda nöqtələrin yerinə hansı söz uyğun gəlir?

______________________________________________

**3.** Altından xətt çəkilmiş sözdə nöqtələrin yerinə uyğun saitləri seç.
A) a, ə B) a, a C) ə, a

**4.** Mətnin əsas ideyasını əks etdirən variantı seç.
A) Əgər şəxsiyyət olmasa, yerdə qalan digər keyfiyyətlərin heç bir əhəmiyyəti yoxdur.
B) İlk növbədə insanda istedad və qabiliyyət olmalıdır.
C) Şagirdlərin sinifdə səs salması onlarda şəxsiyyətin olmaması deməkdir.

***5.*** *"Qabiliyyət"* sözünün fonetik təhlili ilə bağlı səhvi seç.
A) Səslərin sayı hərflərin sayından çoxdur.
B) İncə saitlərin sayı qalın saitlərdən çoxdur.
C) Kar samitlərin sayı cingiltili samitlərdən azdır.

**Yazı** üzrə qiymətləndirmə (ifadə)

### FİL VƏ CANAVAR

Bir canavar vardı. O çox tənbəl idi, nə yuvasını təmir edir, nə də təmizləyirdi. Yuvası çirkli və köhnə idi, az qalırdı uçub dağılsın.

Bir dəfə canavarın yuvasının yanından bir fil keçirdi. O, yuvanın damına azca toxundu və dam əyildi. Fil canavara dedi:

– Bağışla məni, dostum! Mən bunu bilərəkdən etmədim! İndi onu düzəldərəm!

Fil yaxşı usta idi, işdən də qorxmurdu. Çəkic, mismar götürdü və damı təmir etdi. Dam əvvəlkindən də möhkəm oldu. Canavar isə fikirləşdi: "İşə bax! O məndən,

LAYİHƏ

deyəsən, qorxdu! Əvvəl üzr istədi, sonra özü damı təmir etdi. Onu məcbur edim, mənə təzə ev tiksin! İndi ki qorxur, demək, sözümdən çıxmayacaq!”

– Dayan! – deyə o, filə qışqırdı. – Bu nə deməkdir? Elə bilirsən yaxanı belə asanlıqla məndən qurtaracaqsan? Evimin damını uçurtdun, yalandan mismarla bərkitdin, indi də qaçmaq istəyirsən? Elə şey yoxdur, mənə yeni ev tik! Özü də yeyin tərpən, yoxsa dərsini elə verərəm, adın yadından çıxar!

Bu sözləri eşidən fil cavab vermədi, xortumunu canavarın qarnına dolayıb iylənmiş su ilə dolu çalaya atdı. Sonra canavarın yuvasının üstünə oturdu və onu əzdi. “Bu da sənə yeni ev!” deyərək çıxıb getdi.

Canavar özünə gələndə təəccüblə dedi:

– Heç nə başa düşmürəm! Əvvəl o məndən qorxurdu, üzr istəyirdi, sonra isə belə... Heç nə başa düşmürəm!

– Sən axmaqsan, – deyə bütün bunları görən qoca qarğa qarıldadı. – Sən, sadəcə, qorxaqlıq və yaxşı tərbiyə arasında fərq görmürsən!

Şagirdlərə tapşırılır ki, mətnin məzmununu dialoqdan istifadə etmədən (təhkiyə üsulu ilə) yazsınlar.

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** *“Futbol”* sözünün fonetik təhlili ilə bağlı səhvi tap.
A) İkihecalıdır.
B) Qalın, dodaqlanan saitlər işlənib.
C) “O” səsi fərqli tələffüz olunur.

**2.** Sözlərdən birinin tələffüzü yazılışından fərqlənir:
A) gülümsədi B) gülümsəyir C) gülümsəmə

**3.** Hansı cümlədə mübtəda yoxdur?
A) Qardaşım kompüter mühəndisidir.
B) Yer Günəş ətrafında fırlanır.
C) Qonağı gülər üzlə qarşılayarlar.

**4 və 5-ci testlər aşağıdakı şeirlə bağlıdır.**

*Dili qiymətdən salar*
*Ucuz söz, hiylə, böhtan.*
*Elə saxla dilini,*
*... dil səndən utansın,*
*... sən dilindən utan.*

**4.** *-dən* şəkilçisi hansı sözdə yazıldığı kimi oxunur?
A) qiymətdən B) səndən C) dilindən

**5.** Nöqtələrin yerinə yazılmalıdır:
A) həm B) nə C) gah

LAYİHƏ

## Dərs 88. LALƏ VƏ MƏRYƏM (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir.. | Kompozisiyalı şəkil əsasında mətn qurub danışır. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir | Oxuduğu əsərdəki obrazlar barədə fikir yürüdür. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş situasiyaya uyğun kiçikhəcmli esse yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Fonetik təhlil zamanı bəzi şəkilçilərin deyilişi ilə yazılışını fərqləndirir. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun tətbiq edir. | Mətndə yerindən asılı olmayaraq böyük hərflə yazılan sözləri müəyyən edir. |

**Motivasiya**

Müəllim şagirdlərə belə bir əhvalat danışır: – *Qonşunun pişiyi hər gün Diləranı görən kimi onun yanına qaçır və qarşısında quyruğunu bulayır. Şəbnəmi görəndə isə ondan uzaq durmağa çalışır, hətta qaçıb gizlənir. Sizcə, bu niyə belədir?*

Şagirdlərin cavabları içərisində “*Dilarə pişiyə tez-tez yemək verir, onu əzizləyir, sığallayır. Şəbnəm isə pişiyi görəndə kobud rəftar edir”* kimi cavablar səslənə bilər.

**Oxu** (rollu oyun)

Dərslikdən “Lalə və Məryəm” mətninin (səh. 189-190) iki abzası səssiz oxunur. Mətnin davamı 3 şagird (Lalə, Məryəm, ana) tərəfindən səhnələşdirilir. Mətnin sonuncu abzasları başqa bir şagird tərəfindən oxunur.

Şagirdlər mətnlə tanış olduqdan sonra müəllim sinfə müraciət edir: – *Lalənin heyvanlara münasibəti dəyişdi. Bəs sizin heyvanlara münasibətiniz dəyişdimi?* (Sinifdə elə şagirdlər ola bilər ki, onlar da heyvanlarla Lalə kimi çox kobud rəftar edirlər. Bu şagirdlərin fikirlərini dinləmək daha maraqlı olardı.)

Dərsliyin 190-cı səhifəsindəki 2-3-ci tapşırıqlar yerinə yetirilir. İş dəftərinin 127-ci səhifəsindəki 1-ci tapşırıqdan da istifadə oluna bilər.

Cütlərlə iş. Müəllim hər cütə üzərində ev heyvanlarının (və ya əhliləşdirilmiş çöl heyvanlarının) şəkli təsvir olunmuş kartlar paylayır. Cütlər onlara təqdim olunmuş kartdakı heyvana aid xüsusi ad fikirləşməli, ona necə qayğı göstərdikləri haqqında təqdimat etməlidir.

**Söz ehtiyatı**

1-ci tapşırıq. 1 – Ç, 2 – C, 3 – A, 4 – B.

**Yazı**

Müəllim şagirdlərə belə bir tapşırıq verir: – *Lalənin gördüyü yuxuları (heyvanları incitdiyi vaxt və onlarla dost olduqdan sonra) təsvir edin.* İş dəftərinin 127-ci səhifəsindəki 2-ci tapşırıqdan istifadə etmək olar. Əsərin ruhuna uyğun gələn və ideyanın daha geniş açılmasına xidmət edən maraqlı məqamlar müəllim və şagirdlər tərəfindən təqdir olunur. Bu prosesdə daha zəngin təxəyyülə malik şagirdlər aşkarlanır.

**Dil qaydaları**

4-cü tapşırıq yerinə yetirilir. (Cavab: Məryəm, Toplan, Məstan. “Lalə” sözü mətndə xüsusi isim kimi işlənsə də, gül adı bildirdikdə kiçik hərflə yazılır)

LAYİHƏ

"Yadda saxla!" rubrikasındakı nəzəri məlumat oxunur. Dərsliyin 190-cı səhifəsindəki 5-6-cı tapşırıqlar yerinə yetirilir.

6-cı tapşırıq. 1 – B, 2 – C, 3 – A

İş dəftərinin 127-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 89. MƏFTUNUN BAĞA GETMƏSİ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Əsərdəki obrazları səciyyələndirmək üçün müvafiq keyfiyyət bildirən sözlər seçir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Ahəng qanununa tabeliyinə görə sözləri fərqləndirir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir | Sözün leksik və qrammatik mənalarını fərqləndirir. |

### Motivasiya

Müəllim aşağıdakı şeiri oxuyur:

**MƏN DƏ, MƏN DƏ**

*Balaca Yavər*
*Gündə-gündə*
*Nə desən, deyər:*
*"Mən də, mən də".*

*– Çıxaq eşiyə.*
*– Mən də, mən də.*
*– Gedək meşəyə.*
*– Mən də, mən də.*
*– Marığa duraq.*
*– Mən də, mən də.*

*– Bir qarğa vuraq.*
*– Mən də, mən də.*
*– Başını kəsim.*
*– Mən də, mən də.*
*– Çaqqallar yesin.*
*– Mən də, mən də.*

*Ay səni, Yavər,*
*Düşünsən əgər,*
*Bu cür deməzsən,*
*Qarğa yeməzsən.*

*"Marığa durmaq"* (pusmaq, güdmək) sözünün mənası izah olunduqdan sonra sual verilir:

– *Yavər haqqında nə deyə bilərsiniz?*

Şagirdlər cavab variantlarını söyləyirlər.

### Oxu (rollu oyun)

Dərslikdəki şeirin rollarla oxunması üçün 2 şagird seçilir. Müəllim şagirdlərin hər obraza uyğun jest və mimikalardan düzgün istifadə etməsinə xüsusi diqqət yetirir.

Dərsliyin 191-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilir. İş dəftərinin 128-ci səhifəsindəki tapşırıqlar yerinə yetirilə bilər.

### Dil qaydaları

Dərslikdəki 1-ci tapşırıq yerinə yetirildikdən sonra müəllim əlavə tapşırıqlar verir:

*1. Şeirdə adları çəkilən meyvələrin adlarını aşağıdakı cədvəl üzrə qruplaşdırıb yazın. Daha hansı meyvələri bu sıralara əlavə edə bilərsiniz?*

| Adları ahəng qanununa tabe olan meyvə adları | Adları ahəng qanununa tabe olmayan meyvə adları |
|---|---|
| | |
| | |

LAYİHƏ

*2. Şeirdə rast gəldiyiniz şəxs əvəzliklərini sadalayın.*
*3. “Bəs bizə nə verirsən?” cümləsi ilə bağlı doğru və ya yanlış cavabları müəyyənləşdir.*
*A) Sual cümləsidir. B) Mübtəda yoxdur. C) Bəs – köməkçi nitq hissəsidir. D) Bizə – isimdir.*
*Bu cümləyə mübtəda əlavə etmək lazım gəlsə idi, hansı şəxs əvəzliyindən istifadə edərdin?*

**Yazı**
– *“Meyvələrin xeyri” mövzusunda inşa yazın.*

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

### Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 129-cu səhifəsində də verilmişdir.)

## SARMAŞIQ

Bir meşədə sarmaşıq
Su tapmırdı bir qaşıq.
________
Ac yatıb oyanırdı.

Mərhəmətli bir çinar
Sarmaşığa oldu yar.
________
Tez həddini aşdı o.

Gözü yeri görmədi,
________
Palıda yendirmədi,
Qovağı dindirmədi.

________
Xanimanı dağıldı.
Bizim lovğa sarmaşıq
Batdı çinar qarışıq.

*Əvəz Mahmud Lələdağ*

**1.** Misraları uyğun gələn boşluqlara yaz.
1. Bir gün çinar yıxıldı,
2. Qoza salam vermədi.
3. Alışırdı, yanırdı,
4. Çinara sarmaşdı o,

**2.** Hansı sözdə şəkilçi yoxdur?
A) sarmaşıq B) qaşıq C) qarışıq

**3.** Sarmaşığın lovğalığını göstərən cümlələri seçib yaz.
______________________________
______________________________

**Yazı** üzrə qiymətləndirmə (inşa)
Mövzu: “Ən çox sevdiyim əsər haqqında rəy”

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Sözlərdən biri cümlədəki yerindən asılı olmayaraq həmişə böyük hərflə yazılır:
A) Arzu B) Sevinc C) Savalan

**2.** *“Zəmzəm quyusu”* birləşməsində nə üçün ilk söz böyük yazılır?
A) birləşmənin birinci tərəfi olduğu üçün
B) coğrafi ad bildirdiyi üçün
C) şəxs adı bildirdiyi üçün

LAYİHƏ

**3.** Sözlərdən biri böyük hərflə yazılır:
A) alabaş B) şələquyruq C) palazqulaq

**4.** *“Beləliklə, kosmosa çıxarılan ilk canlı layka adında it oldu”* cümləsində hansı söz böyük hərflə yazılmalıdır?
A) kosmos B) layka C) canlı

**5.** Hansı cümlədə *“qəhrəman”* sözü həm böyük, həm də kiçik hərflə yazıla bilər?
A) Həmyerliləri qəhrəmanı hörmətlə qarşıladılar.
B) Xalqımız qəhrəman oğulları ilə fəxr edir.
C) Əmim oğlu qəhrəman kənddə yaşayır.

## Dərs 90. ZƏHMƏT VƏ ZİNƏT (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və dinlədiyi məlumatları həyatda gördükləri və eşitdikləri ilə əlaqələndirərək mühakimə xarakterli fikirlər irəli sürür. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Oxuduğu və dinlədiyi mətni ümumiləşdirərək mətn qurur və təqdim edir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Mətndə rast gəldiyi yeni sözlərlə həyatda gördüyü əşya və hadisələr arasındakı uyğunluğu müəyyən edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişdirmək və ya davam etdirmək məqsədi ilə yaradıcı plan tutur. | Mətnin planına yeni başlıqlar əlavə edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Əsərdəki obrazların müsbət və mənfi cəhətlərini sadalayır.<br>Oxuduğu əsərin mövzusunu və ideyasını müəyyənləşdirir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissəsinin yerini müəyyən edir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə qurarkən cümlə üzvlərinin ardıcıllığına riayət edir. |

### Motivasiya

Müəllim Musa Yaqubun şeirindən parçaları söyləyərək hər beytdən sonra suallar verir.

Gərək tər tökəsən hər qarışına,
O da ruzusunu tökə başına.

**Sual:** – *“O” dedikdə müəllif nəyi nəzərdə tutur?* (torpağı)

İndi ki xamı da, yorğunu da var,
O da bir canlıdır, bizdən haqq umar.

LAYİHƏ

**Sual:** – *Bu misralarda "xam", "yorğun" sözləri nəyə aiddir? "Xam torpaq", "yorğun torpaq" nə deməkdir?*

Bitirər sünbülü iki şah damar,

**Sual:** – *Sizcə, "iki şah damar" dedikdə şair nəyi nəzərdə tutur?*

Bir adı zəhmətdir, bir adı torpaq.

**Müəllim:** – *"İnsan axtardığını zəhmət qapısında tapar" atalar sözünü necə başa düşürsünüz?*

Şagirdlər fikirlərini söyləyir və ümumi nəticəyə gəlirlər: – *İnsan hər şeyə zəhmətlə nail olur.*

**Oxu**

**Açar sözlər.** "Çarıq" sözünün mənası izah olunur.

Dərsliyin 192-196-cı səhifələrində verilmiş "Zəhmət və Zinət" şeirinin 1-ci hissəsi oxunur (hər bəndi bir şagird oxumaqla). 192-ci səhifədəki 1-ci tapşırıq yerinə yetirilir.

Müəllim suallar verir:

– *Alış dayı Zinətə necə qayğı göstərirdi?*
– *Alış dayının çarıqlara münasibətini necə qiymətləndirirsiniz?*
– *Zəhmət Alış dayı üçün nələr edirdi?*
– *Nə üçün Zəhmət Zinətə yana-yana baxdı?*

Mətnin 2-ci hissəsi (səh. 193) rollu oyun (Zəhmət, Zinət, müəllif) şəklində oxunur. Bu hissədəki *"başqalıq"* sözünün mənası (ayrı-seçkilik) izah olunur.

İstisna etməklə doğrunu tapaq. Müəllim lövhədə test sualı yazır:

Zəhmət Alı kişini tərk etdi, çünki ...
A) işləməkdən yorulmuşdu.
B) o da Zinət kimi yaşamaq istəyirdi.
C) səyahət etmək istəyirdi.

**Müəllim:** – *Hansı cavabı ən səhv cavab hesab edirsiniz?*

Şagirdlər şeirdən sitatlar gətirməklə ən səhv cavabı müəyyən edirlər.

*Müəllimin nəzərinə: "A" və "B" variantlarını müəyyən qədər təsdiq edən misralar tapmaq olar. Lakin şeirdə Zəhmətin səyahət etmək arzusu ilə bağlı heç nə deyilmir. Ona görə də ən səhv cavab "C" ola bilər.*

**Müəllim:** – *Bəs hansı cavabı ən düzgün cavab hesab edirsiniz?*

Çox güman ki, şagirdlər "B" variantını seçəcəklər.

**Müəllim:** – *Gəlin ən səhv cavabı başqası ilə əvəz edək:*

*C) Zinətə paxıllıq edirdi.*

Eyni qaydada ən səhv cavab ("A" variantı) və ən doğru cavab ("C" variantı) seçilir.

*Müəllimin nəzərinə: Şeirdə Zəhmətin çox işləməsi haqqında misralar var, lakin onun işdən bezməsi haqqında heç nə deyilmir. Ona görə də ən səhv cavab "A" ola bilər. "Toz-torpaqda yatan Zəhmət baxdı ona yana-yana" misraları isə düzgün cavabın ("C") seçimi üçün əsas ola bilər.*

**Müəllim:** – *Gəlin yenə də ən səhv cavabı başqası ilə əvəz edək.*

Bu dəfə doğru cavabı şagirdlər deyə bilərlər və ya müəllim yaza bilər:

*A) özünə qarşı haqsızlığa dözmədi.*

Yenə də ən səhv cavab ("B" variantı) və ən doğru cavab ("A" variantı) seçilir.

Müəllim bildirir ki, bəzən test suallarında bir az doğru, daha doğru, tamamilə doğru cavab variantları olur. Bu cür suallara düzgün cavab vermək üçün çox diqqətli olmaq lazımdır.

Proqnozlaşdırma.

**Müəllim:** – *Sizcə, Zəhmət çıxıb getdikdən sonra Alış kişi ilə Zinətin taleyi necə olacaq?*

Şagirdlər bu suala cavab vermək üçün mətnin davamı ilə bağlı öz variantlarını təqdim edirlər.

Mətnin 3-cü hissəsi (səh.194-195) oxunur və şagirdlərin variantları ilə müqayisə olunur. Şagirdlər bu hissəni nəsrə çevirib nəql edirlər.

LAYİHƏ

**Müəllim:** – *Sizcə, Alış dayı Zəhməti tapacaq? Zəhmət onu bağışlayacaq?*

Mətnin 4-cü hissəsi (səh.195-196) oxunur və şagirdlərin variantları ilə müqayisə olunur.

Qruplarla iş. Şagirdlər 3 qrupa bölünür. Hər qrupa şeirdən çıxarılmış bir bənd verilir. 4-cü hissədə müəyyən bəndlər arasında müxtəlifrəngli dairələr verilmişdir. Şagirdlər bu bəndlərin hansı dairənin yerinə uyğun olduğunu tapmalıdırlar.

**I qrup:**

Mənəm səni şənləndirən,
Mənəm sənə həyat verən,
Sərvət verən, zinət verən,
Uçmağa qol-qanad verən.

**II qrup:**

Zəhmət sevimli həyatdır,
Sənsən mənim qəlbim, canım.
Zinət bizə qol-qanaddır,
Ey istəkli mehribanım!

**III qrup:**

Hər bir işə sevgi gərək,
Hey çalışır Zəhmət, Alış.
Yerin bağrını sökərək
Əkir, biçir qarış-qarış.

*Müəllimin nəzərinə:*

*I qrupun bəndi – mavi dairə*
*II qrupun bəndi – yaşıl dairə*
*III qrupun bəndi – narıncı dairə*

Dərsliyin 196-cı səhifəsindəki 3-5-ci tapşırıqlar yerinə yetirilir.

Müəllim 4-cü tapşırığı aşağıdakı sualla müşayiət edə bilər:

– *"İstəyirsən bal-çörək, al əlinə bel-kürək" atalar sözündə hansı sözü "zinət", hansını "zəhmət" sözü ilə əvəz etmək olar?*

**Müəllim**: – *Siz Zəhmətin yerinə olsa idiniz, Alış dayını bağışlayardınızmı?*

Şagirdlər öz fikirlərini söyləyir və əsaslandırırlar.

**Söz ehtiyatı**

2-ci tapşırıq yerinə yetirilir.

Aşağıdakı misraların izahı ilə bağlı iş aparılır:

*1. Çox axtardı, çox dolaşdı,*
*Gecələri etdi səhər.*

*2. Bilməyirsən haqqı-sayı,*
*Köksümdə sızlayır yaram.*

*3. Mən varlığam, sən yaraşıq,*
*Varlıq olur hər yerdə baş.*

*4. Baxdı coşqun təbiətə,*
*Gördü mahtab (aydın gecə)*
*aləm açmış.*

*5. Yedi, içdi bir az müddət*
*Təknələrə (xəmir yoğurmaq üçün iri mətbəx əşyası) təpik çaldı.*

*6. Hər gün töhmət alır eldən,*
*Ürəyini tənə əzir.*

*7. Dərdi-qəmi başdan aşmış,*
*Xəstə kimi sozalırdı. (rəngi ağarmaq, rəngi solmaq)*

Şagirdlər tətbiqi çalışmalar üçün iş dəftərinin 130-cu səhifəsindəki 1-3-cü tapşırıqlardan istifadə edə bilərlər. Daha sonra şagirdlər qruplara bölünür və yazdıqları tapşırıqları müzakirə edib yekun nəticəyə gəlir və təqdim edirlər.

Hər qrupun təqdimatı zamanı digər qruplar öz qeydlərini bildirir və təqdimatı qiymətləndirirlər.

Şagirdlər iş dəftərinin 131-ci səhifəsindəki 3-cü tapşırığı yerinə yetirirməklə mətnin məzmununu nəsrlə yazırlar.

**Danışma** (qruplarla iş)

**I qrup:** – *Zəhmət və Zinət obrazlarını insan obrazları ilə əvəz edin və oxuduğunuz əsərin süjetinə əlavələr etməklə mətn qurub təqdim edin.*

**II qrup:** – *Mətnin giriş hissəsini aşağıdakı kimi dəyişməklə davamını təxəyyülünüzə uyğun nəql edin: "Zəhmətə yazığı gələn Zinət təklif edir ki, yerlərini dəyişsinlər: Zinət işləsin, Zəhmət isə dəmir sandıqda kef çəksin..."*

**III qrup:** – *Mətnin giriş hissəsini aşağıdakı kimi dəyişməklə davamını təxəyyülünüzə uyğun nəql edin: "Zəhmətlə Zinət dalaşırlar. Onların yola getmədiyini görən Alış dayı çarıqlardan birini qovmaq qərarına gəlir..."*

Şagirdlərin təqdimatları dinlənilir. Ən orijinal və gözlənilməz sonluqlu mətnlər daha yüksək qiymətləndirilir.

LAYİHƏ

### Dinləmə
Müəllim aşağıdakı mətni oxuyur.

**İKİ KOTAN**

Dəmirçi bir parça dəmirdən iki kotan düzəltdi. Kotanın birini əkinçi alıb apardı. O biri isə dükanda qaldı. İki ildən sonra əkinçi onu da alıb tarlaya apardı. Kotanlar görüşdülər. Əkinçinin əvvəl aldığı kotan gümüş kimi parlayırdı. Dükanda qalmış kotan isə paslanmışdı.

Tapşırıq: – *Oxuduğunuz və dinlədiyiniz əsərlərin ideyası və əsas obrazlar arasındakı fərqli və oxşar cəhətləri izah edin.*

### Dil qaydaları
Dərslikdəki 5-ci tapşırıq yerinə yetirilir.
İş dəftərinin 131-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 91. XOR (2 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduğu və ya dinlədiyi əsərlə bağlı fikirlərini müdafiə etmək üçün arqumentlər gətirir. |
| 2.1.1. Rast gəldiyi yeni əşya və hadisələri, habelə onlara bənzər əşya və hadisələri adlandırır, təyinatına görə müqayisə edir. | Öyrəndiyi yeni sözlərin mənasını təxmin edir, lüğət vasitəsilə dəqiqləşdirir. Kontekstə görə sözlərin mənalarını fərqləndirir və yaxınmənalı sözlərlə əvəz edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Şeiri ifadəli və emosional şəkildə oxuyur. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətnin ideyasını atalar sözü ilə ifadə edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Ahəng qanununa tabeliyinə görə sözləri fərqləndirir. |
| 4.1.4. Sözləri qrammatik mənalarına görə (bağlayıcı, qoşma) fərqləndirir. | Cümlədə köməkçi nitq hissələrini digər nitq hissələrindən fərqləndirir. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Söz sırası pozulmuş nəzm nümunəsində mübtəda və xəbərin yerini müəyyən edir. |

### Motivasiya
Müəllim dərsə musiqi dərsində keçilmiş elə bir mahnı ilə başlayır ki, həmin mahnıda həm solo, həm də xor ifası səslənsin.
**1-ci sual:** – *Solo ifa ilə xorun ifası arasında hansı fərqlər var?*
Şagirdlər cavab variantlarını söyləyirlər.
**2-ci sual:** – *Solo ilə xor arasındakı fərqi çiçəklə gül dəstəsi arasındakı fərqlə müqayisə edin.*
Şagirdlər öz fikirlərini söyləyir və müzakirə edirlər.

### Söz ehtiyatı
Şagirdlər *"ümman"* (böyük dəniz, okean), *"amal"* (arzu, məqsəd) sözlərinin izahını təxmin edirlər (iş dəftərinin 132-ci səhifəsindəki 1-ci tapşırıqdan istifadə oluna bilər).

LAYİHƏ

Tapşırıq: – *“Ağ qızıl” nə deməkdir? Bu birləşmədəki sifəti əksmənalı sözlə əvəz edin və alınmış söz birləşməsinin mənasını izah edin.*

**Oxu**

Dərsliyin 197-ci səhifəsindəki “Xor” şeiri cütlərlə oxunur. Cütlükdəki şagirdlərdən biri şeirin bir bəndini ifadəli, intonasiya ilə oxuyur, digəri isə səslənən bəndin izahını (təhlilini) verir. Sonra onların yerini başqa cütlük tutur.

**Suallar:** – *“Bir mahnı ürəkdəki milyon dərdi təmizlər” misralarını necə başa düşürsünüz?*
– *Xor oxumaqla nəğməmiz dünyanı necə titrədə bilər?*
– *Nə üçün şair “Dostun mahnı oxusa, onun səsinə səs ver” söyləyir?*
Dərslikdən 1-2-ci tapşırıqlar yerinə yetirilir.
1-ci tapşırıq. Şagirdlər lüğətdən “xor” sözünün iki mənasını tapırlar:
*1. Hər hansı vokal əsəri bir vaxtda ifa edən oxuyanlar dəstəsi.*
*2. Alçaq nəzərlə baxmaq, qiymət verməmək, dəyərsiz saymaq.*
“Xor” sözü şeirdə “birlik” mənasında işlədilmişdir. Şair bu kəlməni insanların birliyini ifadə etmək üçün işlətmişdir.
2-ci tapşırıq. Şeirin ideyasını aşağıdakı atalar sözlərindən biri ilə ifadə etmək olar:
*“Birlik harada, dirilik orada!”*
*“El bir olsa, dağ oynadar yerindən”.*
*“Güc birlikdədir”.*
*“Ümman”* və *“amal”* sözləri ilə bağlı iş dəftərindəki tapşırıq tamamlanır. Şagirdlər əvvəlki və sonrakı izahlarını müqayisə edir, sözlərin mənalarını lüğət vasitəsilə dəqiqləşdirirlər.
İş dəftərinin 132-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilə bilər. Şagirdlər bu tapşırığı cütlükdə işləməklə də yerinə yetirə bilərlər. Sonda hər bir cütlük öz nəticələrini təqdim edir. Digər şagirdlər öz əlavə və qeydlərini söyləyirlər.

**Danışma** (“Akvarium”)

Şagirdlər “Fərd və kollektiv” mövzusunda müzakirə keçirirlər.
Müzakirə aşağıdakı şəkildə təşkil olunur:
**1-ci addım.** Müəllim sinfə müraciət edir: – *“Kollektivdə işləməklə daha yüksək nəticələr əldə etmək olar” fikrini dəstəkləyənlər sinif otağının sağ tərəfinə, “Mən fərdi şəkildə işləyəndə daha yüksək nəticələr əldə edirəm” deyənlər sol tərəfə toplaşsınlar.* Hər dəstədəki şagirdlərin sayı hesablanıb lövhədə yazılır.
**2-ci addım.** Kollektiv iş tərəfdarları mərkəzdə yer tutub müzakirə keçirir, öz mövqelərinin müdafiəsi üçün tezislər hazırlayırlar. Müəllim bir neçə dəfə müzakirəni saxlayıb müşahidəçi qrupa müraciət edir: – *Kim öz fikrini dəyişibsə, digər qrupa keçə bilər.* Könüllülər əks qrupa keçirlər.
**3-cü addım.** Qruplar yerlərini dəyişir və fərdi iş tərəfdarları müzakirə keçirirlər. Müəllim yenə də müzakirəni saxlayaraq müşahidəçi qrupa müraciət edir: – *Kim öz fikrini dəyişibsə, digər qrupa keçə bilər.*
**4-cü addım.** Qrupların hər biri daha bir dəfə yerlərini dəyişir və hər dəfə istənilən şagird bir qrupdan digərinə keçə bilir. Sonda qrupdakı şagirdlərin sayı hesablanır və sayı artmış qrup qalib hesab olunur. Dəyişiklik yoxdursa, müəllim heç-heçə elan edir.

*Müəllimin nəzərinə: Bu fəaliyyətin daha maraqlı olması üçün müzakirə keçirən qrupun şagirdləri müşahidəçi qrupdakı tərəddüd edən yoldaşlarına şəxsən müraciət edib müxtəlif arqumentlərlə onları inandıra və öz qruplarına dəvət edə bilərlər.*

**Dil qaydaları**

Şeirin 4-cü bəndi dil qaydaları baxımından araşdırılır.
**Sual və tapşırıqlar:** – *Bu bənddə ahəng qanununa tabe olmayan sözü tapın. (dünyanı)*
– *Bənddəki birinci cümlədə neçə mübtəda var? (dörd)*
– *Bu cümlədə ikincidərəcəli cümlə üzvünü tapın. (toplardan)*
– *Üçüncü və dördüncü misraları iki cümləyə ayırın.*

LAYİHƏ

– *Bu cümlələrdən hansında mübtəda yoxdur?* *(Xor oxuyaq)*
– *Həmin cümlənin mübtədası hansı söz ola bilər?* *(Biz)*
– *Bu benddəki omonimləri sadalayın.* *(top, dağ, qoy)*
– *Onlardan hansı köməkçi nitq hissəsi kimi işlənib?* *(qoy)*

İş dəftərinin 132-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Yazı**
Müəllim inşa mövzusunu lövhədə yazır: *"Tək əldən səs çıxmaz?"* və buradakı sual işarəsinə diqqət yetirməyi tapşırır. Şagirdlərə izah olunur ki, onlar atalar sözündə ifadə olunmuş fikrə şübhə ilə yanaşmalı, bununla bağlı mühakimə yürütməlidirlər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 92. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 198-ci səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 93. 7-ci BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

**Dinləmə və yazı üzrə qiymətləndirmə** (İş dəftərinin 133-cü səhifəsində də verilmişdir.)

### QOCA VƏ SƏYYAH

Yazın ortaları idi. Qoca balıq tutmaq üçün getdiyi çayın kənarından qiymətli bir daş tapmışdı. Ertəsi gün o, bir səyyahla qarşılaşdı. Səyyah çox ac idi. Qocadan yemək üçün bir şey istədi. Qoca ona yemək vermək üçün çantasını açanda səyyah qiymətli daşı gördü. Qocadan daşı ona verməyi xahiş etdi. Qoca tərəddüd etmədən daşı götürüb səyyaha verdi. Nəhayət, bəxti səyyahın üzünə gülmüşdü. Bunu düşünə-düşünə sevinclə qocadan ayrıldı. Ancaq bir neçə gün keçməmişdi ki, yenə qayıtdı və qocanı taparaq daşı ona qaytardı. Səyyah qocaya: "Mənə verdiyin daşın nə qədər qiymətli olduğunu bilirəm, – dedi, – ancaq səndə bu daşdan daha qiymətli bir şey var. Bu daşı sənin gözündə adiləşdirən şey... Onu mənə verə bilərsənmi?" – dedi.

1. Səyyah daşı qocaya qaytardı, çünki ...
   A) qocada o daşdan da qiymətli bir şey vardı.
   B) qocadan belə dəyərli hədiyyə qəbul edə bilməzdi.
   C) daş elə də qiymətli bir şey deyildi.
2. Mətnin məzmununu öz sözlərinlə yaz.
3. Səncə, qoca səyyaha necə cavab verəcək? Hekayəni sən necə davam etdirərdin?

**Oxu və dil qaydaları üzrə qiymətləndirmə** (İş dəftərinin 134-135-ci səhifələrində də verilmişdir.)

### KÖLƏ VƏ SULTAN MAHMUD

Sultan Mahmudun Ayaz adlı köləsi vardı. Sultan köləni gözəl xasiyyətinə görə çox sevirdi. Bu kölə tezliklə Sultanın etibarını elə qazanır ki, bütün sultanlığın xəzinəsi ona etibar edilir. Bu vəziyyəti görən saray sakinləri isə bir kölənin saray xəzinədarı olmasını heç cür

LAYİHƏ

qəbul edə bilmirlər. Nəticədə əyanlar kölənin əleyhinə danışmağa başlayır və onu Sultanın gözündən salmağa çalışırlar.

Bir gün Sultanın hüzurunda bir saray sakini digərinə deyir: "Kölə Ayazın tez-tez xəzinəyə getdiyini bilirsən? Əminəm ki, o, xəzinədən *qızılları* oğurlayır".

Sultan qulaqlarına inanmır, bunu öz gözləri ilə görmək istəyir. Divara kiçik deşik açdırır və baş verənləri seyr etməyə başlayır. Görür ki, kölə səssizcə xəzinəyə gəlir, qapını arxadan bağlayır və sandıqların birini açıb içindən boğça çıxarır. Kölə olduğu vaxtdan qalan cırıq-cındır paltarı geyərək aynanın qarşısına keçir. Öz-özünə "Əvvəllər bu paltarı geyindiyin günləri xatırlayırsan? Satışa çıxarılan kölə idin. Allah sənə Sultanın əli ilə, bəlkə də, heç layiq olmadığın nemətləri verdi. Heç zaman haradan gəldiyini, bir vaxtlar *yoxsulluq* çəkdiyini unutma! Çünki mal-mülk insanın hafizəsini zəiflədir, unutqanlığa səbəb olur. İndi çox şeyə nail olandan sonra sən də özündən zəiflərə yuxarıdan aşağı baxma", – deyib paltarını dəyişir və səssizcə qapıya yaxınlaşır. Xəzinədən çıxarkən birdən Sultanla üz-üzə gəlir. Sultan gözlərini Ayaza *zilləyib* dayanır, gözlərindən yaş axır, danışmaqda çətinlik çəkir. Sultan Mahmud: "Bu günə qədər qızıllarımın xəzinədarı idin, amma indi qəlbimin də xəzinədarısan", – deyir.

1. Mətndən çıxan nəticəni seç.
   A) Kasıb pul tapdı, qoymağa yer tapmadı.
   B) Keçmişini unutma, o, gələcəyin müəllimidir.
   C) Dosta sirrini vermə, dostunun da dostu var.

2. Omonim söz hansıdır?
   A) göz  B) yaş  C) qəlb

3. "Sultan qulaqlarına inanmır, bunu öz gözləri ilə görmək istəyir" cümləsi haqqında aşağıda deyilənlərdən hansı yanlışdır?
   A) Mürəkkəb cümlədir.
   B) Bu cümlədə bir mübtəda, iki xəbər var.
   C) Mübtəda əvəzliklə ifadə olunub.

4. Səhv yazılmış sözü seç.
   A) boğça  B) bağça  C) tağça

5. Saray adamları Ayazın üstünə şər atdılar, çünki ...
   A) ona paxıllıq edirdilər.  B) o, paxıl idi.  C) o, hökmdar olmaq istəyirdi.

6. Bu hadisələrdən biri mətndə öz əksini tapıb:
   A) Ayazın Sultanı xilas etməsi
   B) saray sakinlərinin pis əməllərinin üzə çıxması
   C) Sultanın döyüşdə qalib gəlməsi

7. Kölə haqqında verilənlərdən biri yanlışdır:
   A) sədaqətlidir  B) keçmişini unutmur  C) naşükürdür

8. Kölə nə üçün köhnə paltarlarını geyinirdi?
   A) Həmin paltarları ona hökmdar hədiyyə etmişdi.
   B) O paltarda özünü rahat hiss edirdi.
   C) O paltarı geyərək keçmişini xatırlayırdı.

9. Biri mətnin ideyasına uyğun deyil:
   A) Var-dövlət heç nəyi dəyişməməlidir.
   B) Həyatda əsas olan dostluq, sədaqətdir.
   C) Həyatda əsas olan hakimiyyətdir.

LAYİHƏ

## 8-ci bölmə

# KAİNATIN SİRLƏRİ

| Dərs № | Mövzu | Məzmun standartları | Saat sayı | Dərslik səh. | İş dəftəri səh. | MMV səh. |
|---|---|---|---|---|---|---|
| 94 | Qəza | 1.1.2, 1.2.1, 2.1.2, 2.2.2, 2.2.3, 2.2.4, 3.1.4, 4.1.2 | 4 | 200-202 | 136-137 | 211 |
| 95 | Aysel və Kənan | 1.2.1, 1.2.2, 1.2.3, 2.1.2, 2.1.3, 2.2.4, 2.2.5, 3.1.3 | 6 | 203-205 | 138 | 214 |
| 96 | Kainatın sirləri | 1.1.2, 1.2.1, 2.1.2, 2.2.1, 2.2.4, 2.2.5, 3.1.4 | 4 | 206-209 | 140 | 217 |
| 97 | Məktəbdə | 1.2.1, 2.2.2, 2.2.4, 3.1.4, 4.1.2 | 6 | 210-212 | 141 | 221 |
| 98 | Üzgüçülük hovuzunda | 1.2.1, 2.1.3, 2.2.5, 3.1.4 | 4 | 213-215 | 143 | 225 |
| 99 | Virtual əlaqə | 1.1.2, 1.2.1, 1.2.3, 2.1.2, 2.1.3, 2.2.4, 3.1.5, 4.1.5 | 4 | 216-217 | 144 | 227 |
| 100 | Həftəsonu | 1.1.1, 1.2.1, 1.2.3, 2.2.1, 4.1.1, 4.1.6 | 4 | 218-219 | 146 | 231 |
| 101 | Vida | 1.2.1, 2.1.2, 2.2.4, 3.1.5 | 4 | 220-222 | 147-148 | 235 |
| 102 | Ümumiləşdirici təkrar | | 2 | 223 | | 237 |
| 103 | Kiçik summativ qiymətləndirmə | | 2 | | | 237 |
| **Yekun** | | | **40 saat** | | | |

LAYİHƏ

# Dərs 94. QƏZA (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi elmi-kütləvi mətni topladığı məlumatlarla zənginləşdirir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Kompozisiyalı şəkil əsasında mətn qurub danışır. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Oxuduğu mətndəki yeni adların və terminlərin mənasını dəqiqləşdirib təqdim edir. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu bədii mətndəki elmi məlumatları seçib təqdim edir.<br>Mətndə verilmiş məlumatları şərh edir. |
| 2.2.3. Verilmiş mətni genişləndirmək, dəyişmək və ya davam etdirmək məqsədilə yaradıcı plan tutur. | Mətnə yeni epizod və obrazlar əlavə etməklə yaradıcı plan tutur. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə və ya dəyişdirməklə nəql edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş situasiyaya uyğun kiçikhəcmli esse yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun istifadə edir. | Səma cisimləri bildirən sözlərin böyük hərflə yazılışına dair qaydanı yazılı nitqində tətbiq edir. |

## Motivasiya

Müəllim lövhədə BİBÖ cədvəlini çəkir.

| KAİNAT HAQQINDA | | |
|---|---|---|
| BİLİRİK | İSTƏYİRİK BİLƏK | ÖYRƏNDİK |
| | | |

Şagirdlər cədvəlin birinci iki sütununda qeydlər aparırlar.

“Sehrli xalat” filmindən Azər və Zərifənin gələcəyə səyahətini göstərən kadrlar nümayiş etdirilir. Bu epizodda uşaqlar Kainat, Günəş sistemi, bu sistemə daxil olan planetlər haqqında biliklərini nümayiş etdirirlər.

Filmə baxdıqdan sonra şagirdlər BİBÖ-nün “Öyrəndik” sütununda qeydlər aparırlar. Müəllim deyir ki, filmə baxdıqdan sonra yeni ideyalar yaranıbsa, 2-ci sütunda da qeydlər aparmaq olar.

**Müəllim:** – *Bu filmdə uşaqlar hansı fənn üzrə dərs keçirdilər?*

Şagirdlərin təxminlərindən sonra müəllim astronomiya elmi haqqında qısa məlumat verir:

– *Astronomiya səma cisimlərini öyrənən elmdir.*

## Oxu

Dərslikdən “Qəza” mətni (səh. 200) *“…Günəş sistemində ən çox peyki olan Saturn planeti göründü”* cümləsinə qədər oxunur.

**Sual:** – *Mətnin bu hissəsində hansı planetlərlə tanış oldunuz? (Neptun, Uran, Saturn) Bu planetlər haqqında yadınızda qalan məlumatları söyləyin.*

Şagirdlər bir-birinin məlumatlarını tamamlamaqla yadda saxladıqlarını söyləyirlər. BİBÖ cədvəlinin 3-cü sütununda qeydlər aparılır.

LAYİHƏ

**Sual:** – *Əsərin qəhrəmanları haqqında nə deyə bilərsiniz? ("Bax indi biz Süd yolu qalaktikasında yerləşən Günəş sisteminə daxil oluruq"* cümləsi göstərir ki, əsərin qəhrəmanları başqa qalaktikadan gəlmiş yadplanetlilərdir).

Mətnin davamı "Yerdə olduğu kimi, marsda da il f\sillərə bölünür" cümləsinə qədər oxunur.

**Açar sözlər.** "İllüminator", "qalaktika", "orbit", *"teleskop", "diametr", "teleskop"* sözlərinin mənaları açıqlanır. 2-ci tapşırıq yerinə yetirilir. Şagirdlər kontekstdən çıxış edərək sözlərlə izahlar arasında uyğunluğu müəyyən edə bilərlər.

*Müəllimin nəzərinə: "İllüminator" və "qalaktika" sözlərinin mənaları mətnin özündə açıqlanır.*

*"Orbit" sözü ilə şagirdlər III sinifdə "Həyat bilgisi" dərslərində tanış olublar.*

*Teleskop – ulduzların, planetlərin hərəkətini izləmək üçün astronomik qurğudur. Bu qurğu hər iki tərəfində böyüdücü şüşə olan uzun borudan ibarətdir. Onun vasitəsilə uzaq məsafələrdə olan əşyaları yaxından görmək olur.*

**Sual:** – *Mətnin bu hissəsində hansı planetlərlə tanış oldunuz? (Yupiter, Merkuri, Mars, Venera) Bu planetlər haqqında yadınızda qalan məlumatları söyləyin.*

İş dəftərinin 136-cı səhifəsindəki 1-ci tapşırıqdan istifadə oluna bilər.

### Oxu

Mətnin "Gəmi" yer planetinə yaxınlaşıb onun ətrafında dolanmağa başladı" cümləsinə qədər oxunur. Müəllim şagirdlərə *"Nə üçün Yer planeti mavi rəngdə görünür?", "Bu hlanetdə həyat üçün lazım olan hər şey var" deyilərkən nələr nəzərdə tutulur?"* sualları ilə müraciət edir.

Şagirdlər "Həyat bilgisi" dərslərində öyrəndiklərindən çıxış edərək suallara cavab verə bilərlər. (Yer planetinin 70%-i su olduğu üçün mavi görünür. Burada həyat üçün lazım olan hava, su, torpaq, bitkilər, heyvanlar və s. var)

**Sual müsabiqəsi.** Şagirdlər dörd qrupa bölünürlər. Hər qrup mətndən əldə etdiyi məlumatlarla bağlı mümkün qədər çox sual hazırlayır. Suallar qruplar tərəfindən növbə ilə bir-bir səsləndirilməlidir, buna görə də qrupların ardıcıllığı püşkə əsasən müəyyən olunur. Müəllim bildirir ki, hər suala görə qrup 1 bal, düzgün cavaba görə 2 bal qazanacaq və qiymətləndirmə üçün lövhədə cədvəl çəkir (ballar şərti olaraq göstərilir).

| Qruplar | Verilən suallar | Düzgün cavablar | Cəmi |
|---|---|---|---|
| I qrup | | | |
| II qrup | | | |
| III qrup | | | |
| IV qrup | | | |

Müəllim müsabiqənin digər şərtlərini də elan edir:

– *Təkrarlanan, qeyri-müəyyən və anlaşılmaz suallar qəbul olunmur.*

– *Sualı səsləndirmək üçün qrupa 5 saniyə vaxt verilir.*

Sual səsləndikdən sonra əlini birinci qaldıran şagird cavab verir. Əgər bir neçə şagird eyni zamanda əlini qaldırarsa, kimin cavab verəcəyi müəllim tərəfindən müəyyən olunur.

### Dinləmə

**KAİNAT**

Kainat sonsuzdur və biz onun kiçik bir hissəsini görə bilirik. Ulduzlar, planetlər və başqa cisimlər Kainatın hissələridir. Kainat sonsuz sayda qalaktikalardan ibarətdir. *Qalaktika* – nəhəng ulduz yığınına deyilir. Temperaturdan asılı olaraq onların işığı göy, sarı, qırmızı və başqa rənglərə çala bilər. Ulduzun planetdən birinci fərqi odur ki, o, sadəcə, parıldamır, həm də özü işıq mənbəyidir. Planetlər isə özləri işıq vermir, güzgü kimi ulduzun işığını əks etdirir. Ulduzlarla müqayisədə planetlər soyuqdur. Kosmik fəzada ulduzların öz dəqiq yolları var. Planetlər isə öz ulduzlarına bağlı olub müxtəlif orbitlər üzrə onların başına fırlanır. Ulduzlar işıq mənbəyi olduğuna görə adi gözlə görünür. Onların ətrafına fırlanan

LAYİHƏ

planetləri isə görmək mümkün deyil. Ona görə də biz yalnız Günəş sisteminə daxil olan planetləri görə bilərik.

**Sual:** – *Dinlədiyiniz mətndə hansı yeni məlumatları aldınız?* (Bu mətndə ulduzla planet arasındakı fərq ətraflı izah olunur)

BİBÖ cədvəlinin 3-cü sütunu üçün məlumatların siyahısı tərtib olunur.

Müəllim şagirdlərə tapşırır ki, evdə müxtəlif mənbələrdən planetlər haqqında əlavə məlumatlar əldə etsinlər. Topladıqları məlumatları cədvəl formasında işləsinlər. İş dəftərinin 137-ci səhifəsindəki 4-cü tapşırıqdan istifadə oluna bilər.

Növbəti dərsin əvvəlində şagirdlər planetlərlə bağlı araşdırmalarını təqdim edirlər. Bunun üçün müəllim şagirdləri 8 qrupa bölüb hər qrupu bir planetin adı ilə adlandırır. Hər qrup daxilində şagirdlər müvafiq planetlə bağlı araşdırmalarını ümumiləşdirib təqdim edirlər. Təqdimat zamanı digər qrupun şagirdləri məruzəni öz yeni bilikləri ilə zənginləşdirirlər. Beləliklə, hər bir planet haqqında biliklər ümumiləşdirilir və yazılı şəkildə qeyd olunur. Müəllim bildirir ki, "Kainatın sirləri" bölməsinin sonunda şagirdlər "Kainat və biz" mövzusunda divar qəzeti hazırlamalıdırlar. O zaman bu qeydlər onlara lazım olacaq.

**(Şəklə görə təxminetmə)** Müəllim "Qəza" mətninə çəkilmiş illüstrasiyalara baxmağı tapşırır.

**Sual:** – *Sizcə, nəyə görə Lemi şəffaf kürə içində çəkilib? Bu kürə nədir? Kanın idarə etdiyi kosmik gəmidə nə baş verib?*

**Oxu**

"Qəza" mətninin qalan hissəsi oxunur (dərslik, səh. 201-202). 3-cü tapşırıq yerinə yetirilir.

Müəllim: – *Gördüyünüz kimi, mətn iki hissədən ibarətdir. Bu mətnin adı daha çox hansı hissəyə uyğun gəlir? Bəs 1-ci hissəni necə adlandırardınız?*

Şagirdlər öz variantlarını təqdim edirlər.

Qruplarla iş. Şagirdlər 4 qrupa bölünürlər. Hər qrup "Lemi insanlar arasında" mövzusunda hekayənin geniş planını tərtib edir. Müəllim bildirir ki, planda aşağıdakı məqamlar öz əksini tapmalıdır:

– *Leminin ilk insanla görüşü*
– *Leminin insanlarla ünsiyyət qurması*
– *Lemi ilə Yerdəki insanların fərqi*
– *Leminin başına gələn sərgüzəştlər (bir-iki macəra)*
– *Lemi doğma planetinə qayıda biləcəkmi?*

*Hər bir qrupun hekayəsi dinləyicilər tərəfindən qiymətləndirilir.*

**Yazı**

**Sual:** – *Leminin məlumat almadığı hansı planet qaldı?* (Yer) *Siz olsa idiniz, planetimiz haqqında Lemiyə hansı məlumatları verərdiniz? Fikirlərinizi yazın.*

*– Mətndə "Sıradan çıxmaq" ifadəsi hansı mənalarda işlədilir? Mətndəki mənasını qeyd edin. Hər mənanı bir cümlədə işlədin.*

**Dil qaydaları**

4-cü tapşırıq yerinə yetirilir. Dərsliyin 202-ci səhifəsində "Yadda saxla!" rubrikasında verilmiş nəzəri material mənimsədilir.

5-ci tapşırıq. Cavab "B" variantıdır.

İş dəftərinin 136-cı səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

LAYİHƏ

# Dərs 95. AYSEL VƏ KƏNAN (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş mövzu ətrafında araşdırmalarını məruzə şəklində təqdim edir. Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 1.2.2. Dialoji mətnlər qurur və təqdimatlar edir. | Nəsr əsərini dram əsərinə çevirərək səhnələşdirilmiş şəkildə təqdim edir. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Mətndəki obrazların nitqini səsləndirərəkən situasiyaya uyğun jest və mimikalardan istifadə edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Mətndə rast gəldiyi yeni söz və terminləri kontekstə əsasən izah edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | İfadənin həqiqi və məcazi mənaları arasındakı fərqi müəyyənləşdirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Mətndəki müəyyən epizodları genişləndirməklə nəql edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Mətnin məzmunu ilə bağlı fikir irəli sürür. Əsərdəki obrazları səciyyələndirmək üçün müvafiq keyfiyyət bildirən sözlər seçir. |
| 3.1.3. Verilmiş mətni genişləndirərək məzmununu yazır. | Oxuduğu mətnin bir hissəsinin müfəssəl məzmununu yazır. |

**Motivasiya**

**Müəllim:** – *Təsəvvür edin ki, başqa planetdən gəlmiş adamla rastlaşmısınız. Bu zaman nə edərsiniz?*

Cavab variantları səslənir. Uşaqlar bu səhnəni mümkün qədər geniş təsvir etməlidirlərər.

**Oxu**

“Aysel və Kənan” mətninin “Bu qeyri-adi vəziyyətdə ...” cümləsinədək olan hissəsi oxunur.

1-ci tapşırıq yerinə yetirilir.

*Müəllimin nəzərinə: Bu ifadə “heç nədən məlumatı olmamaq, xəbərsiz olmaq” mənasında işlənir. Lemi isə həmin ifadəni həqiqi mənada başa düşdü. Bu onun Azərbaycan dilində söz və ifadələrin məna çalarlarını yaxşı bilmədiyini göstərir.*

– *Lemi Yerdəki insanların dilini necə öyrənmişdi?*
– *Aysel Kənanı nə üçün kənara çəkdi?*
– *Kənan bacısına qulaq asdıqdan sonra niyə əllərini yellədi?*
– *Kənan nə vaxt Leminin başqa planetdən gəldiyinə inandı?*
– *Lemi Aysellə Kənana öz planeti haqqında danışanda nə üçün söz ehtiyatının az olduğunu hiss etdi? Axı o, rast gəldiyi adamların yaddaşındakı sözləri öz beyninə köçürmüşdü.*

*Müəllimin nəzərinə: Sonuncu sualın belə bir cavabı ola bilər: çox güman ki, Leminin rast gəldiyi ilk insanlar o qədər də savadlı olmadığından onların söz ehtiyatı da kasad olub. Odur ki Azərbaycan dilində mürəkkəb elmi mövzular haqqında danışanda Lemiyə bildiyi sözlər kifayət etməyib.*

Rollu oyun. Şagirdlər mətnin 1-ci hissəsi əsasında ssenari qurub səhnələşdirirlər. Bunun üçün 204-cü səhifədə təhkiyə formasında verilmiş abzaslar da dialoji mətnə çevrilir. Bu məqsədlə şagirdlər bir çox cümlələri təxəyyüllərinə uyğun genişləndirməlidirlər; məsələn:

LAYİHƏ

– *Lemi bütün başına gələnləri, bura necə gəlib düşdüyünü danışdı* (Aysellə görüşənə qədər onun hansı sərgüzəştləri olmuşdu?).

– *Aysel tez-tez onun sözünü kəsir, suallar verirdi* (Aysel ona hansı sualları verə bilərdi?).

– *Ayseli bir məsələ çox maraqlandırırdı: Lemi Azərbaycan dilini nə vaxt öyrənmişdi?*

– *Lemi başa saldı ki, o, diqqətini toplayıb qarşısındakı adamın yaddaşındakı sözləri beyninə köçürə bilir. Şəhərin kənarında Yerə düşdükdən sonra o, qoca bir qadına rast gəlmişdi. Qadın onu öz daxmasına aparmış, yedirtmiş, qayğısına qalmışdı. Bu qadınla iki gün ünsiyyətdə olduqdan sonra Lemi Azərbaycan dilində rahat danışmağa başlamışdı.*

– *Aysel qardaşını kənara çəkib onunla xeyli pıçıldaşdı* (Aysel Kənana nə dedi?).

– *Onlar qonağı hər bir şeylə tanış etdilər* (Aysellə Kənan yadplanetli qıza evdə nələri göstərdilər? Lemi bunlara necə reaksiya verdi?).

– *Lemi uşaqlara öz planeti haqqında danışmağa başladı* (Lemi öz planeti haqqında nə danışa bilərdi?).

Dərsliyin 204-cü səhifəsindəki <u>2-3-cü tapşırıqlar</u> yerinə yetirilir:

*Qarşısındakı adamın yaddaşını, kitabı vərəqlədikcə sözləri beyninə köçürməsi Lemini Yer planetinin uşaqlarından fərqləndirən cəhətlərindən idi.*

### Yazı

<u>Tapşırıq</u>: – *Leminin Yerdə rastlaşdığı ilk adamlarla görüşünü təsəvvür et və yaz.*

İş dəftərinin 138-ci səhifəsindəki 1-ci tapşırıq yerinə yetirilə bilər.

### Oxu

Mətnin davamını oxutdurmaq məqsədilə müəllim aşağıdakı sualı verir:

– *Özünüzü Aysellə Kənanın yerində təsəvvür edin. Siz yadplanetli qonağınız barədə valideynlərinizə xəbər verməlisiniz. Bunu necə edərdiniz?*

Şagirdlərin cavab variantları dinlənilir və müzakirə olunur.

“Aysel və Kənan” mətninin davamı (dərslik, səh. 204-205) oxunur.

### Söz ehtiyatı

*“Realist”* sözünün kontekstə görə mənası açıqlanır (yalnız real həyatda gördüklərinə inanan) və *“romantik”* (xəyallarla yaşayan) sözü ilə qarşılaşdırılır. *“Ekspertiza”* (hər hansı bir məsələnin mütəxəssislər – ekspertlər tərəfindən araşdırılması), *“ekspert”* (mübahisəli məsələlərin həlli üçün dəvət edilən mütəxəssis) sözlərinin mənaları izah olunur.

Dərsliyin 205-ci səhifəsindəki <u>5, 6-cı tapşırıqlar</u> yerinə yetirilir.

**Rollu oyun.** Kənan ilə anasının dialoqu səhnələşdirilir. Kənan rolunun ifaçısına tapşırılır ki, qəhrəmanın nitqini səsləndirərkən onun psixoloji vəziyyətini nəzərə alsın: Kənan anasını inandırmalıdır, lakin bunu necə edəcəyini bilmir, ananın laboratoriya və ekspertiza haqqında dedikləri onu fikrindən daşındırır.

**Təhlil.** Aysel və Kənan obrazları təhlil olunur, şagirdlər bu obrazlara münasibət bildirirlər.

**Proqnozlaşdırma**

**Sual:** – *Kənanın anası ilə söhbətindən görünür ki, böyüklər Leminin başqa planetdən gəlməyinə inanmayacaqlar. Belə bir vəziyyətdə Aysellə Kənan Lemiyə kömək etmək üçün nə edə bilərlər?*

Sinifdəki qızlar “Mən Ayselin yerinə olsaydım...”, oğlanlar “Mən Kənanın yerinə olsaydım...” deyə öz fikirlərini bildirirlər.

### Danışma (debat)

Şagirdlər debat keçirmək üçün iki qrupa bölünürlər. Müəllim soruşur: – *Kim özünü realist sayır? Kim özünü romantik və xəyalpərəst sayır?* Beləliklə, şagirdlər “Realistlər” və “Romantiklər” qruplarına bölünürlər.

**“Realistlər” qrupu:** – *İnsan həmişə realist olmalıdır.*

**“Romantiklər” qrupu:** – *Bəzən xəyallarla yaşamaq lazımdır.lar*

LAYİHƏ

**Yazı**

– “Gözləri güldü”, *“Gözləri böyüdü” ifadələrini necə başa düşürsən? “Göz” sözünün iştirakı ilə ifadələri xatırla, mənalarını izah et və cümlələrdə işlət.*

Ev tapşırığı kimi yadplanetlilər haqqında məlumat toplamaq və təqdimat hazırlamaq (dərslik, səh. 205, tap. 7) tapşırılır.

İş dəftərinin 138-ci səhifəsindəki 2-ci tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

### Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 139-cu səhifəsində də verilmişdir.)

## NƏSİRƏDDİN TUSİ

Məhəmməd Nəsirəddin Tusi səkkiz yüz il bundan əvvəl yaşamışdır. O, 58 yaşında ikən Marağa şəhərində rəsədxana yaratmış və ulduzları, planetləri buradan izləmişdi.

Dünyanın hər yerindən – Ərəbistan, İspaniya, Çin və başqa ölkələrdən bir çox alimlər Nəsirəddinin yanına gəlib onun kəşfləri **ilə** tanış olurdular.

Nəsirəddin gənclərin tərbiyəsi **ilə** bağlı kitab da yazmışdır. Bu kitabda deyilir ki, qızıl-gümüşün uşaqlara verdiyi ziyan əfi ilanın zəhərindən daha artıqdır. O yazırdı ki, yüksəkvəzifəli qohumlarla və yaxud yaxşı geyimlə lovğalanmağın faydası yoxdur. Nəsirəddin uşaqlara peşə, sənət seçmək haqqında faydalı məsləhətlər verib. O deyirdi ki, uşaqlara marağı **ilə** bacarığına uyğun sənət seçmək lazımdır.

**1.** Biri Nəsirəddin Tusiyə aid deyil:
A) Astronomiya ilə məşğul olmuşdur. B) 56 il yaşamışdır.
C) Uşaqlar üçün tərbiyəvi əhəmiyyəti olan kitab yazmışdır.

**2.** Biri Nəsirəddin Tusinin məsləhətlərindən deyil:
A) Var-dövlətlə öyünmək insana yaraşmaz.
B) Çalış həvəsin olan, qabiliyyətinə uyğun sənət seç.
C) Bədxərclik insanın həyatını korlayır.

**3.** Nəsirəddin Tusi neçənci illərdə yaşayıb?
A) 1201-1274 B) 1404-1471 C) 1014-1076

**4.** Hansı rənglə verilmiş “ilə”ni “*və*” ilə əvəz etmək olar?
A) B) C)

**5.** Hansı sözdə *-lar²* şəkilçisi yazıldığı kimi tələffüz olunur?
A) ulduzlar B) planetlər C) uşaqlar

**Yazı** üzrə qiymətləndirmə (imla)

## AY
**(140 söz)**

Min illər boyu insanlar Aya baxıb bu göylər qızının gözəlliyindən ilham almış və onu öyrənmişlər. Uzun zaman onlar ulduzları göyə bərkidilmiş hesab ediblər. Ancaq Ayın Yer ətrafında hərəkət etdiyi çoxdan məlum idi.

Ayın orbiti Yerinki ilə uyğun gəlmir, gah aşağı, gah yuxarı olur. Ay sahibkar Yerin itaətkar xidmətçisi deyil, daha çox kosmik yolda onun yoldaşıdır. Onlar müxtəlif boylu iki adam kimi yanaşı gedirlər. Hərdən biri tez gedir, o birisi ona çatmağa tələsir.

Kosmik uçuşlar başlanandan sonra insanlar birinci növbədə Yerə ən yaxın olan Ayı öyrənməyə başladılar. İndi Ay haqqında məlumatlar kifayət qədərdir. Məlumdur ki, Ayın

LAYİHƏ

üzərində gecə soyuq, gündüz isə istidir. Orada nə hava, nə də su var. Ay kraterləri onun üzərinə düşən meteoritlərin açdığı izdir. Aya baxan hər kəs onun üzərində ləkələr görəcək. Əvvəllər insanlar bu ləkələri müxtəlif əfsanələrlə bağlayırdılar. Əslində isə bu, Ayda olan çökəkliklərin və dağların mənzərəsidir.

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı söz yalnız səma cismini bildirir?
A) ulduz B) ay C) günəş

**2.** Hansı cümlədə "yer" sözü böyük hərflə yazılmalıdır?
A) Peyk yavaş-yavaş yerdən uzaqlaşdı.
B) O, əlindəki çantanı yerə qoydu.
C) Çağırılan yerə ar eləmə, çağırılmayan yeri dar eləmə.

**3.** "Qardaşım aslan(1) əkizlər(2) bürcündən, onunla eyni sinifdə oxuyan əkizlər(3) isə şir(4) bürcündəndirlər. Buna görə də hər üçü özünü şir (5) adlandırır" cümləsində hansı sözlər böyük hərflə yazılmalıdır?
A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 3, 5

**4.** Hansı cümlədə "ildırım" sözü böyük hərflə yazılmalıdır?
A) Yarışda iştirak edən atlardan finiş xəttinə birinci çatan ildırım oldu.
B) Dağlarda ildırım çaxdı, bir azdan güclü yağış yağmağa başladı.
C) O, ildırım sürəti ilə finiş xəttinə doğru qaçırdı.

**5.** *Hansı* cümlədə "ay" sözü kiçik hərflə yazılmalıdır?
A) Hazırda Yerin ətrafında təbii peyk olan Ayla yanaşı çoxlu süni peyklər də fırlanır.
B) 28 və ya 29 gündən ibarət olan fevral ilin ən qısa Ayıdır.
C) Amerika astronavtları Ay üzərinə ayaq basan ilk insanlar olmuşlar.

## Dərs 96. KAİNATIN SİRLƏRİ (4 SAAT)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətnə ixtisar və əlavələr etməklə məzmununu yaradıcı şəkildə şərh edir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Problemli situasiyadan çıxış yolu ilə bağlı tədbirlər planını təqdim edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir | Öyrəndiyi yeni terminlərin hansı sahəyə aid olduğunu müəyyən edir.<br>Öyrəndiyi yeni terminləri cümlələrdə işlədir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir. | Oxuduğu əsərdə qəhrəmanların hərəkətlərinə münasibət bildirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Əxlaqi dəyərlərlə bağlı mühakimə xarakterli esse yazır. |

LAYİHƏ

### Motivasiya

**Müəllim:** – *Kiməsə kömək etmək məqsədilə yalan danışmaq olarmı?*
Şagirdlərin cavab variantları dinlənilir və müzakirə olunur.

### Oxu

Dərslikdən "Kainatın sirləri" mətninin 206-cı səhifədə verilmiş hissəsi oxunur. Söz ehtiyatı ilə bağlı tapşırıq yerinə yetirilir:

2-ci tapşırıq : "Aidə xalanın ailəsi Almaniyaya köçüb", "Lemi Köln şəhərində onun nəvələri ilə bir məktəbdə oxuyur" cümlələri həmin hökmü təsdiq edir.

### Danışma (şagird şurasının yığıncağı)

Yığıncaqda müzakirə olunan məsələ: *"Aysel və Kənanın Lemiyə kömək etmək məqsədilə yaşlı qadına yalan söyləmələri".*

Rollar aşağıdakı kimi paylanır:
– Aysel və Kənanı müdafiə edən şagirdlər;
– Aysel və Kənanı ittiham edən şagirdlər;
– yığıncağın stenoqramını yazan və daxil olan təklifləri qeyd edən katib;
– hər bir qrupa çıxış etmək imkanı vermək üçün məruzələrin müddətinə nəzarət edən reqlamentə məsul şəxs.

Sinifdəki şagirdlərin sayına görə rollar 4  nəfərlik və ya daha az tərkibli qruplar arasında bölünür. Yığıncağı sədr aparır. Qruplar reqlamentə uyğun olaraq öz çıxışlarını edir.

Razılıq əldə olunduqda qətnamə üzrə səsvermə keçirilir. Əgər müxalifət dəyişiklik təklif edirsə, onların çıxışları dinlənilir. Hər bir düzəliş müzakirədən sonra ayrıca səsverməyə qoyulur. Qətnamə üzərində iş başa çatdıqda tərəflərdən hər birinə son söz üçün 2 dəqiqə vaxt verilir və bundan sonra səsvermə keçirilir.

### Yazı

– *"Müqəddəs məqsəd kiçik günaha haqq qazandırır?" mövzusunda esse yazın. Kiməsə kömək etmək məqsədilə yalan danışmısanmı? Hansı yalanı "müqəddəs yalan" hesab etmək olar? Bu barədə fikirlərini yaz.*

### Dinləmə

**Müəllim:** – *Kənan Lemi haqqında niyə məhz Rüstəmə danışdı?*
Şagirdlərin cavabları dinlənilir, sonra müəllim aşağıdakı mətni oxuyur:

#### RÜSTƏM

Səhər Aysel başının ağrıdığını bəhanə edib məktəbə getmədi.

Kənan fürsət tapıb bacısına pıçıldadı ki, o da dərsə girməyib evə tez qayıdacaq.

Onları yola salandan sonra Aysel qapını açıb Lemini çağırdı. Onu vanna otağına ötürüb səhər yeməyi hazırlamaq üçün mətbəxə keçdi.

Kənan məktəbin həyətində sinif yoldaşı Rüstəmi görüb çox sevindi.

– Eşitmirsən? Qışqırmaqdan boğazım cırıldı, bayaqdan səni çağırıram.

Adətən, yaşından böyük fikirlər yürüdən Rüstəmlə son vaxtlar çox yaxınlaşıb dostlaşmışdılar. Rüstəm idman formasını evdə qoyduğuna görə dərsə buraxılmadığını söylədi.

Kənan diqqətlə Rüstəmə baxdı:

– Bura bax, filosof, səndən oxumaq üçün kitab istəsəm, verərsən?

– Sənə verərəm! Nə kitabı lazımdır?

– Qalaktikalar, ulduzlar, planetlər haqqında...

– Əla mövzudur! Bu barədə bir neçə maraqlı kitabım var, – o, bir qədər susub əlavə etdi, – xeyir ola, ulduzlarla maraqlanırsan?

– Yadplanetlilər haqqında bir verilişə baxdım...

– Hansı verilişə? Dünən birinci kanaldan verilən sənədli filmi deyirsən, yəqin!

Kənan başı ilə təsdiq etdi.

LAYİHƏ

– Mən yüz faiz əminəm ki, yadplanetlilər mövcuddurlar, var, hətta bizim aramızda yaşayırlar. O verilişdə də bunu deyirdilər, hətta onlara rast gəlsən, özünü necə aparmaq barədə də məsləhətlər verdilər.

– Doğrudan? Özünü necə aparmaq lazımdır ki?

– Bəs sən verilişə baxmamısan?

– Yarımçıq açmışdım...

– Deməк, belə: əvvəla, onlara rast gəlsən, gözünü zilləyib düz üzlərinə baxmaq olmaz, çünki onlardan gələn enerji və şüalar bizim gözlərimizə zərər verə bilər. İkincisi, özünü sakit aparmalı və müqavimət göstərməməlisən. Bildirməlisən ki, sən onlara düşmən kimi baxmırsan, əksinə, dost olmaq istəyirsən. Üçüncüsü...

Hövsələsi daralan Kənan onun sözünü kəsdi:

– Bura bax, dostum, bu söhbəti sabah davam etdirərik. Amma kitabı gətirməyi unutma.

*1. Nə üçün Kənan sinif yoldaşları içərisində daha çox Rüstəmlə dostluq edirdi?*
*2. Səncə, Rüstəmdə hansı cəhət onu cəlb edirdi?*
*3. Rüstəmi niyə "filosof" adlandırırdılar?*
*4. Rüstəmin baxdığı sənədli film nədən bəhs edirdi?*
*5. Səncə, Kənan da həmin filmə baxmışdımı?*
*6. Dinlədiyiniz mətndə qəhrəmanların bəziləri yalan danışır, fikirləş və cavab ver: kim kimə hansı yalanı və nə səbəbə deyir?*

**Oxu**

Mətnin 2-ci hissəsinə keçməzdən əvvəl müəllim Amerika astronavtı Edqar Mitçeldən sitat gətirir: – *Edqar Mitçel öz xatirələrində yazır: "Birdən Ayın arxasından nəhəng bir kürə çıxdı. Gözəl, mavi mirvariyə bənzəyən bu kürə işıq saça-saça kosmosun sonsuz qaranlığında yuxarı qalxmağa başladı. Bir an içində anladım ki, bu bizim hamımızın evimiz olan Yer kürəsidir".*

**Sual:** – *İnsan xaricə gedəndə öz vətəni üçün darıxır. Təsəvvür edin ki, uzun müddətə kosmosa səyahət etmisiniz və doğma Yer planeti üçün darıxırsınız. Bu zaman keçirdiyiniz hisləri təsvir edin.*

Şagirdlərin fikirləri dinlənilir və müzakirə olunur.

Dərslikdən "Kainatın sirləri" mətninin arxası (səh. 207-209) (rollu oyun – Aysel, Kənan, Lemi, Rüstəm) oxunur.

**Sual:** – *Rüstəm nə üçün Leminin yaşadığı planeti "X planeti" adlandırır?*

Dərsliyin 208-209-cu səhifələrindəki 3-5-ci tapşırıqlar yerinə yetirilir. 3-cü tapşırıq: C variantı. Şagirdlər Yer planetinin gələcəyi ilə bağlı Leminin qaldırdığı problemlərə öz münasibətini bildirirlər (tap. 5). Ev tapşırığı olaraq bu problemlərin həlli ilə bağlı məruzələrini hazırlamaq tapşırılır.

Tətbiqi çalışmalar üçün iş dəftərinin 140-cı səhifəsindəki 1-2-ci tapşırıqlardan istifadə oluna bilər.

Söz ehtiyatı ilə bağlı 6-8-ci tapşırıqlar yerinə yetirilir. 6-cı tapşırıq: "Orbit" sözü ilə. Bu sözlə uşaqlar "Qəza" mətnindən tanışdırlar. (bax: səh. 201, tap.2). 7-ci tapşırıq: "Filosof sözünün birinci izahı Konfusiyə, ikinci izahı Rüstəmə aiddir. 8-ci tapşırıq: Mətndə fərqləndirilmiş sözlərin mənaları açıqlanır və uyğun cümlələrdə işlədilir.

*Ekologiya* – ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadə haqqında elm sahəsidir.

*Qlobal* – bütün Yer kürəsini bürüyə bilən (qlobal hadisələr).

Dərsliyin 209-cu səhifəsində terminlərlə bağlı 9-cu tapşırıq yerinə yetirilir. Verilmiş terminlər müvafiq fənn adı ilə uyğunlaşdırılır.

LAYİHƏ

**Dinləmə**

## ATMOSFER NƏDİR

Atmosfer Yeri əhatə edən hava təbəqəsidir. O, Yer kürəsi ilə birlikdə fırlanır. Atmosferin insanın yaşayışı üçün böyük əhəmiyyəti var. Belə ki, atmosfer gündüz Yer səthinin həddən artıq qızmasının, gecə isə tez soyumasının qarşısını alır. İnsan atmosfersiz 4 dəqiqədən artıq yaşaya bilməz. Atmosfer Yerdə suyun mövcudluğuna səbəb olur, məhz atmosferdə bulud yaranır və yağıntı düşür. Atmosfer olmasaydı, günəş şüaları səpələnməz, səs yayılmazdı. Kosmosdan gələn meteoritlər atmosferə daxil olduqda hava ilə sürtünərək alışıb-yanır və əksəriyyəti Yerə çatmır.

Atmosferdən yuxarıda yerləşən ozon qatı Yerdəki canlıları zərərli şüalardan qoruyur. Son illərdə ozon qatının deşilməsi müşahidə edilir. Buna səbəb hərbi təyyarələrin çox yüksəkdən uçması, atmosferdə kükürd qazının artması, məişətdə və sənayedə freon qazından istifadədir. Bu səbəbdən ozon qatı ildə 5-7% azalır.

**Suallar:**

*– Atmosfer nədir? Atmosferin əhəmiyyəti nədən ibarətdir? Ozon qatı harada yerləşir? Onun əhəmiyyəti nədir? Ozon qatının deşilməsinə səbəb nədir? Ekologiya nəyi öyrədir?*

**Tədqiqat sualı:** – *“Planetimizin sağlamlığını hansı təhlükə gözləyir? Bu təhlükənin qarşısını almaq üçün hansı işləri görməliyik?”*

**“Botaniklər” qrupu:** – *“Planetimizin yüngül sakinlərini” – bitkiləri hansı təhlükənin gözlədiyi haqqında danışacaq.*

**“Zooloqlar” qrupu:** – *“Kiçik dostlarımız” olan heyvanların vəziyyəti haqqında danışacaq.*

**“Coğrafiyaşünaslar” qrupu:** – *Ətraf mühiti – torpağı, suyu, havanı hansı təhlükənin gözlədiyi haqqında danışacaq.*

*Müəllimin nəzərinə: Tədqiqat işinə kömək məqsədilə şagirdlərə əlavə məlumatlar verilə bilər. Müəllim böyük vatman kağızında başlıq kimi “Dəhşətli fəlakətin əlamətləri” yazılmış cədvəli asır və hər qrupun gəldiyi son nəticəni qeyd edir. Cədvəldə bu ifadələr yazıla bilər:*

*1. Meşələrin qırılması*
*2. Heyvanların tələf olması*
*3. Suyun çirklənməsi*
*4. Havanın çirklənməsi*
*5. Zibil qalıqlarının yığılması*
*6. Ətraf mühitin zəhərlənməsi*

Ölkəmizdə təbiətin qorunması ilə bağlı müxtəlif mühafizə tədbirləri keçirilir. (Milli parklar, “Qırmızı kitab”, müvəqqəti qoruqlar, dövlət təbiət yasaqlıqları və s.)

Hamımızın yaşadığı bir planet var. Təbiət üçün sərhəd yoxdur. İnsanlar birgə səylərlə planeti və özlərini xilas edə bilərlər. Dövlətlər sazişlər – konvensiyalar bağlayır. Hazırda ətraf mühitin mühafizəsinin müxtəlif aspektlərinə dair 500-dən çox beynəlxalq saziş mövcuddur. Onların içərisində regional sazişlər, ətraf mühitin, atmosferin, Yerətrafı kosmik fəzanın mühafizəsinə həsr olunmuş müqavilələr vardır.

Aşağıda verilmiş beynəlxalq sazişləri seçib iş vərəqlərində yazın.

1. Dənizin tullantılarla və digər materiallarla çirklənməsinin qarşısının alınması haqqında konvensiya.
2. Vəhşi fauna və floranın yox olmaq təhlükəsində olan növlərinin beynəlxalq ticarəti haqqında konvensiya.
3. Quşların mühafizəsi haqqında beynəlxalq konvensiya.
4. Böyük ərazilərdə havanın çirklənməsi haqqında konvensiya.
5. Su quşlarının yaşama yerləri – beynəlxalq əhəmiyyətli sulu bataqlıqlar haqqında konvensiya.
6. Bitki mühafizəsi haqqında konvensiya.
7. Təhlükəli tullantıların sərhədlərarası daşınması və kənarlaşdırılmasına nəzarət haqqında

LAYİHƏ

konvensiya.

Dərsin sonuna yaxın müəllim təklif edir ki, sinifdə təbiətin mühafizəsi məsələlərini tədqiq edən təşkilat yaradılsın. Təşkilat üçün ad, deviz və emblem axtarılır. Müəllim öz variantını təklif edə bilər:

**Təşkilatın adı:** – *“Yerin balaca sakinləri”*
**Emblem:** – *Əlində Yer kürəsinin maketini tutmuş kiçik məktəbli şəkli*
**Deviz:** – *“Səhər yuxudan ayıldın, yuyundun, özünü qaydaya saldın, dərhal öz planetini də qaydaya sal”*

İş dəftərinin 140-cı səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 97. MƏKTƏBDƏ (6 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Oxuduqlarını həyat haqqında düşüncələri ilə əlaqələndirərək təqdimat edir.<br>Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.2.2. Bədii və elmi-kütləvi mətnlər haqqında kiçik təqdimatlar edir. | Oxuduğu mətndəki məlumatları mənimsəyir və nəticə çıxarır. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu əsərin məzmununa yeni süjet xətti və obrazlar əlavə etməklə mətni genişləndirir və nəql edir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Verilmiş mövzunu şəxsi həyatı ilə əlaqələndirərək inşa yazır. |
| 4.1.2. Sözlərin böyük hərflə yazılışına dair qaydaları (bəzi mürəkkəb adlar) məqamına uyğun tətbiq edir. | Səma cisimləri bildirən sözlərin böyük hərflə yazılışına dair qaydanı yazılı nitqində tətbiq edir. |

**Motivasiya**
Müəllim şagirdlərə aşağıdakı məsələni həll etməyi tapşırır:
– *Şagird biri 1 qəpikdən 5 dəftər və biri 2 qəpikdən 2 kitab aldı. Şagird cəmi nə qədər pul verdi?” (yaxud: – Dərzi hər gündə bərabər olmaqla 5 günə 235 köynək tikdi. Gündəlik iş normasını əvvəlki kimi saxlamaqla dərzi 1316 köynəyi neçə günə tikər?)*
Şagirdlər məsələni eşidən kimi məzmuna öz reaksiyalarını verirlər. Çox güman ki, “Belə şey ola bilməz”, “Heç 1 qəpiyə dəftər, 2 qəpiyə də kitab olar?” kimi ifadələr səslənəcək.

**Oxu** (proqnozlaşdırma, qruplarla iş)
Dərslikdən “Məktəbdə” mətninin (səh. 210-212) 1-ci abzası oxunur.
**Sual:** – *Sizcə, Lemi dərslərdə özünü necə göstərəcək?*
Suala cavab vermək üçün şagirdlər dörd qrupa bölünürlər.
**I qrup:** – *Lemi riyaziyyat dərsində*
**II qrup:** – *Lemi Azərbaycan dili dərsində*
**III qrup:** – *Lemi həyat bilgisi dərsində*
**IV qrup:** – *Lemi fiziki tərbiyə dərsində*

LAYİHƏ

Hər qrup verilmiş mövzuya uyğun mətn qurub danışır. Şagirdlər düşündükləri mətndə Leminin qeyri-adi bacarıqlarını nümayiş etdirməlidirlər.

"Ziqzaq". Qruplar dərslikdəki mətndən öz mövzularına uyğun hissəni oxuyub yeni qruplarda birləşir (yeni yaranmış qruplarda əvvəlki qruplardan hər birinin nümayəndəsi olmalıdır). Şagirdlər yeni qrup daxilində oxuduqları hissəni bir-birinə nəql edirlər. Beləliklə, bütün şagirdlər mətnin məzmunu ilə tanış olurlar.

Hər qrupdan bir nəfər mətni ardıcıllıqla nəql edir.

Dərsliyin 210-211-ci səhifələrindəki 1-4-cü tapşırıqların cavabları, təxminən, belə ola bilər:

1-ci tapşırıq: Yəqin ki, şagirdlər Leminin yaşadığı planet haqqında aşağıdakı fikirləri söyləyəcəklər: "Orada yol hərəkəti qaydalarına xüsusi diqqət yetirilir, tıxac yoxdur və s. Avtomobillər çox sürətlə hərəkət edir. İnsanlar uzun ömür sürürlər, yəqin ki, bu da ekoloji təmiz qidalar yeməleri, ekoloji tarazlığın pozulmaması ilə əlaqədardır və s." 2-ci tapşırıq: Aysel Lemiyə ətrafdakıları şübhələndirməmək üçün Yer planeti, insanların yaşayış tərzi haqqında əlavə məlumat verə, danışanda diqqətli olmağı tapşıra bilər. 3-cü tapşırıq: Lemi yurdu haqqında danışırkən "Mən öz planetim üçün çox darıxmışam" cümləsini işlədir. Aysel onu dümsükləməklə onun yadplanetli olmasının sirr kimi saxlandığını xatırlatmaq istəyirdi. 4-cü tapşırıq: Lemi öz yurdu haqqında elə gözəl, elə məhəbbətlə danışırdı ki, hamı ona heyranlıqla qulaq asırdı.

İş dəftərinin 141-ci səhifəsindəki 1-2-ci tapşırıqlar yerinə yetirilə bilər.

**Danışma** (cütlərlə iş)

Şagirdlər cütlərə bölünərək dərsliyin 212-ci səhifəsindəki 5-ci tapşırığı yerinə yetirirlər. Cütdəki şagirdlərdən biri *"Leminin planetində nədən xoşum gəldi"*, digəri *"Leminin planetində nədən xoşum gəlmədi"* mövzusunda çıxış hazırlayır. (Şagirdlər yəqin ki, ailə üzvlərinin bir yerdə yaşamamasını qeyd edəcəklər.)

Şagirdlərin çıxışları dinlənilir və müzakirə olunur.

**Yazı**

– *"Lemi informatika dərsində" mövzusunda mətn qurub yazın.*

**Danışma**

Müəllim növbəti dərsə aşağıdakı sualla başlayır:

– *Yaşadığınız cəmiyyətdə nəyi dəyişmək istərdiniz?*

Şagirdlərin fikirləri dinlənilir. Müəllim yönəldici suallarla sinifdə canlanma yaratmağa çalışır:
– *Ailə münasibətlərində nəyi isə dəyişmək istərdinizmi? Təhsil sistemində nəyi dəyişmək istərdiniz?..*

Şagirdlər 3 qrupa bölünürlər. Hər qrup verilmiş cədvəli dolduraraq onunla bağlı təqdimat hazırlayır. Müəllim bildirir ki, şagirdlər cədvəli doldurarkən Leminin planeti haqqında oxuduqlarına təxəyyülə uyğun əlavələr edə bilərlər. "Bizim cəmiyyətdə" sütunu üçün müəllim özü əlavə məlumatlar verə bilər.

**I qrup:**

| AİLƏ-NİKAH SİSTEMİ | | |
|---|---|---|
| Bizim cəmiyyətdə | Leminin planetində | İstərdim belə olsun |
| | | |

**II qrup:**

| TƏHSİL SİSTEMİ | | |
|---|---|---|
| Bizim cəmiyyətdə | Leminin planetində | İstərdim belə olsun |
| | | |

LAYİHƏ

**III qrup:**

| TƏBİƏTƏ MÜNASİBƏT | | |
|---|---|---|
| Bizim cəmiyyətdə | Leminin planetində | İstərdim belə olsun |
| | | |

Qrupların təqdimatı dinlənilir və müzakirə olunur.

**Debat**

**I qrup:** – *Ailə üzvlərinin bir yerdə yaşaması vacibdir.*
**II qrup:** – *Ailə üzvlərinin bir yerdə yaşaması vacib deyil.*

**Danışma** (təqdimat)

Müəllim şagirdlərin diqqətini mətndəki "Ginnesin rekordlar kitabı" ifadəsinə yönəldir və bu kitab haqqında təqdimat hazırlamağı tapşırır. Növbəti dərsdə təqdimatlar səsləndirilir və aşağıdakı dinləmə mətni ilə müqayisə edilir.

**Dinləmə**

"Ginnes" pivə zavodunun direktoru Hyu Biver 1951-ci il mayın 4-də tanışı ilə birlikdə ova çıxır. Ovda onların arasında qızılı cüllütün, yoxsa şotland tetraquşunun daha sürətlə uçması barədə mübahisə düşür. Həmin vaxt bu barədə soraq kitabı olmadığına görə kimin haqlı olduğunu müəyyənləşdirmək mümkün olmur. Bundan sonra ser Hyu qərara alır ki, belə bir soraq kitabı tərtib etdirsin. İdeyanı həyata keçirmək üçün o bu işi Londonda məlumat agentlikləri olan Norris və Ross Makuirter qardaşlarına tapşırır. Beləliklə, soraq kitabının ilk variantı hazırlanır və çapdan çıxır. Sonralar isə yalnız mətndən ibarət olan kitab şəkilli alboma çevrilir. Albomun özü də rekorda imza atır. Hazırda "Ginnesin rekordlar kitabı" 100 milyon tirajla, 24 dildə çap olunur.

**AZƏRBAYCANLA BAĞLI REKORDLAR**

1. Cəbrayıl rayonunda anadan olmuş, hazırda Belçikada yaşayan Fəxrəddin Vəliyev 2004-cü ildə adı "Ginnesin rekordlar kitabı"na düşmüş ilk azərbaycanlıdır. O, 5 dəqiqəyə 20 nəfərin siluetini çəkməklə bu şərəfə nail olub.
2. Lənkəran rayonunun Aşağı Nüvədi kənd sakini, 7 yaşlı Ələsgər Rəhim oğlu Həsənzadə "Ginnesin rekordlar kitabı"na düşən ən azyaşlı şəxsdir. O, sinəsini yerə vurmamaq şərti ilə 1 saat 45 dəqiqə ərzində barmaqlarının ucu ilə 3 min dəfə qalxıb enmişdir.
3. 2010-cu il sentyabırn 1-də Bakıda quraşdırılan bayraq dirəyi dünyanın ən uca bayraq dirəyi kimi "Ginnesin rekordlar kitabı"na düşüb.

**Yazı**

*"Mən hansı sahədə "Ginnesin rekordlar kitabı"na düşmək istərdim"* mövzusunda esse yazdırılır.

**Dil qaydaları**

7-ci tapşırıq yerinə yetirlir.
İş dəftərinin 141-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

**Məzmun xətləri üzrə qiymətləndirmə**

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 142-ci səhifəsində də verilmişdir.)

**DÖVLƏTLİ VƏ XİDMƏTÇİ**

Bir dövlətli adam alimin xidmətçisinə tez-tez istehza eləyib gülürdü. Xidmətçi əvvəllər buna əhəmiyyət vermirdi. ... bir gün onun səbri tükəndi və dövlətliyə dedi:

LAYİHƏ

– Bilmək istərdim ki, sənin hansı cəhətin məndən üstündür? Əgər əynindəki bahalı ... gözəl paltarlarınla fəxr edirsənsə, bunun sənə dəxli yoxdur. 1 Əgər səni gəzdirən atın yaxşı yeriməsi ilə fəxr edirsənsə, bunun da sənə dəxli yoxdur. 2 Əgər adlı-sanlı və varlı qohumlarınla fəxr edirsənsə, onlardan sənə nə?! 3 Əgər bunlardan ... məndən ayrı bir üstün cəhətin varsa, söylə.

Xidmətçinin bu sözlərindən sonra dövlətli

*Nəsirəddin Tusi. "Əxlaqi-Nasiri"*

**1.** Nöqtələrin yerinə uyğun gələn sözləri seç.
A) sanki, ilə, qeyri B) lakin, və, başqa C) təkcə, lakin, nəhayət

**2.** Boşluqların nömrələrini uyğun cümlələrin qarşısında yaz.
A) Yaxşı yerimək ata aiddir.
B) O ad-san onlara aiddir.
C) Çünki gözəllik paltara məxsusdur.

**3.** Mətnin sonuncu cümləsini tamamla.
A) alimin xidmətçisini işdən qovdurdu.
B) yamanca pərt oldu və ona cavab verə bilmədi.
C) heç də kefini pozmadı və əvvəlki hərəkətinə davam etdi.

**4.** Mətnə aid olan fikri seç:
A) Səbir edən muradına çatar.
B) Lovğalığın sonu xəcalətdir.
C) Kasıbın düşməni az olar, varlının dostu.

**Yazı** üzrə qiymətləndirmə (imla)

**"QUYRUQLU" ULDUZLAR**
**(99 söz)**

Bəzən səmada "quyruqlu" ulduzların sürətlə hərəkət etdiyini görürük. Belə ulduzlar kometa adlanır. Kometa Günəşə yaxınlaşdıqca onun baş hissəsi daha da işıqlanır, quyruğu isə uzanır. Kometalarda bir və ya bir neçə "quyruq" olur. Bu "quyruqlar" həmişə Günəşə əks istiqamətə yönəlir.

Keçmişdə kometaların görünməsi insanları vahiməyə salarmış, onların gözünə gah kəsilmiş baş, gah da qanlı xəncər görünərmiş. O zamanlar səmada parlaq kometanın görünməsi bəd əlamət sayılardı. Bəzən isə deyirlər ki, səmadan "quyruqlu" ulduz düşəndə arzu tutsan, həmin arzun gerçək olacaq.

Elm kometaların sirrini açdı. İndi kometalar daha heç kəsi qorxutmur, onlar zərərsizdir. Kometalar Günəşin ətrafına dolanan, Günəş sisteminə daxil olan səma cisimləridir.

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** Hansı cümlədə *"ay"* sözü böyük hərflə yazılmalıdır?
A) Dərslər ayın 15-də başlayacaq.
B) Yerin peyki aydır.
C) Pəncərədən ayın zəif işığı düşürdü.

**2.** Hansı cümlədə *"günəş"* sözü kiçik hərflə yazılmalıdır?
A) Yay vaxtı Günəş altında çox gəzmək olmaz.
B) Hərarət çox yüksək olduğundan kosmik gəmilər Günəşə yaxınlaşa bilmir.
C) Yer də başqa planetlər kimi Günəş ətrafında fırlanır.

**3.** Hansı cümlədə *"yer"* sözü böyük hərflə yazılmalıdır?
A) Günəş sistemindəki planetlər arasında yalnız yerdə həyat var.

LAYİHƏ

B) Qızın əlindəki almalar yerə düşdü.
C) Elə yerdə otur ki, heç kim narahat olmasın.

**4.** Neçə söz yalnız termin kimi işlənir?
*Tembr, kök, klaviatura, tərəf, nəqərat, say*
A) 5 B) 4 C) 3

**5.** Hansı cümlədə “ton” sözü təsviri incəsənət termini kimi işlənib?
A) Anbarda səkkiz ton taxıl qalmışdı.
B) Ştrixlənmə zamanı ən açıq ton kağızın ağ rəngidir.
C) Ceyhun danışarkən nitqini uyğun səs tonu ilə tənzimləyir.

## Dərs 98. ÜZGÜÇÜLÜK HOVUZUNDA (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Obrazlı ifadədə məcazi mənalı sözü müəyyənləşdirir.<br>Obrazlı ifadələri (frazeologizmləri) həqiqi mənalı qarşılıqları ilə əvəz edir. |
| 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir | Mətndəki hadisələrin səbəb-nəticə əlaqəsini müəyyən edir.<br>Baş qəhrəmanın hərəkətlərinə münasibət bildirməklə xarakterini səciyyələndirir. |
| 3.1.4. Mühakimə xarakterli kiçikhəcmli rəy, esse, inşa yazır. | Oxuduğu əsərin mövzusunu şəxsi həyatı ilə əlaqələndirərək mühakimə xarakterli inşa yazır. |

### Motivasiya

**Müəllim:** – *“Yaşılgözlü qız” əsərindən oxuduğunuz parçalara əsasən, bu əsərin qəhrəmanı Lemi Yerdəki insanlardan nə ilə fərqlənir?*

*– Qarşısındakı adamın fikirlərini oxuya bilir (Azərbaycan dilini necə öyrənməsini xatırlayın);*

*– daha yüksək fiziki, mənəvi və intellektual bacarıqları var (basketbol oynaması, kitabı vərəqləməklə məlumatları yaddaşına köçürməsi, yalan danışmaması).*

Şagirdlərin cavabları dinlənildikdən sonra:

– *Sizcə, yadplanetli bir qızda başqa hansı qeyri-adi xüsusiyyətlər ola bilər?*

Şagirdlər baxdıqları filmlərdən və ya oxuduqları kitablardan misallar gətirməklə və ya təxəyyüllərinə uyğun bu suala cavab verirlər.

Müəllim lövhədə iki söz yazır: *telepatiya, telekinez*. Şagirdlər bu sözlər haqqında bildiklərini deyirlər.

*Müəllimin nəzərinə: Şagirdlərin çoxu, yəqin ki, “telepatiya” sözünü eşidib və onun mənasını bilir. Lakin “telekinez” sözü onlar üçün yeni ola bilər. Bu tapşırıq diaqnostik qiymətləndirmə xarakteri daşıdığından və sözlərin mənaları dərsin gedişində açıldığından bu mərhələdə müəllim sözlərin izahını vermədən şagirdlərin bu sahədə biliyini yoxlamalıdır.*

### Oxu

Dərsliyin 213-215-ci səhifələrində verilmiş “Üzgüçülük hovuzunda” mətninin 1-ci hissəsi (səh. 213) oxunur.

**Sual:** – *Nə üçün ikinci xətdə üzən oğlan Lemi ona baxanda qəribə hərəkətlər edərək geri qalmağa başladı?*

LAYİHƏ

*– Oxuduğunuz hissədə Leminin hansı bacarıq və xüsusiyyətləri üzə çıxdı? (tap. 1)*
Şagirdlər Leminin mənəvi cəhətlərindən və başqasının şüuruna təsir etmək bacarığından danışırlar.
*– Sizcə, Lemi dostunun qalib gəlməsinə kömək etməməkdə haqlı idimi? Siz onun yerində olsa idiniz, kömək edərdinizmi?*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 143-cü səhifəsindəki 2-3-cü tapşırıqlardan istifadə oluna bilər.

**Dinləmə**

**TELEPATİYA VƏ TELEKİNEZ**

*Telepatiya* – yaxın və ya uzaq məsafədə olan insanın fikirlərini oxumaq qabiliyyətidir. Bu qabiliyyətə malik olan insanlar çox azdır və onları çox vaxt *ekstrasens* adlandırırlar. Məsələn, azərbaycanlı Tofiq Dadaşov dünyada məşhur ekstrasenslərdən biridir. O yalnız telepatiya deyil, həm də telekinez bacarığına da malik olmuşdur.

*Telekinez* – heç bir təmas (kontakt) olmadan uzaqdan-uzağa predmetlərə və şüura təsir göstərmək qabiliyyətidir. Geller adlı bir ingilisin telekinetik qabiliyyəti dünyanın bir çox ekspertləri tərəfindən təsdiq olunub. İndi elm bu qeyri-adi qabiliyyətin sirrini öyrənməklə məşğuldur.

Əvvəllər belə qabiliyyəti olan insanları fırıldaqçı adlandırırdılar. Bu cür tənqidlərə məruz qalanlardan biri də Ninel Kulagina idi. Ona qarşı belə münasibətlərdən bezən qadın məhkəməyə müraciət etməli olur. Məhkəmənin xahişi ilə mötəbər alimlərdən ibarət bir heyət Kulaginanın rəsmi ekspertizasını təşkil edir. Alimlərin müşahidəsi altında Kulagina baxışının gücü ilə şüşə altına qoyulmuş çarxı fırlatmış, 553 qram ağırlığında şüşə qrafini hərəkət etdirmişdi. Nəticədə elmi dairələrin rəsmi qənaəti əsasında məhkəmə onun qabiliyyətinin hələ elmə məlum olmayan bir qabiliyyət olduğunu rəsmi şəkildə təsdiqlədi.

Belə qabiliyyəti olan şəxslərdən biri də rusiyalı İqnatenkodur. O, telekinezə bənzər qabiliyyət olan “astral karate” ilə məşhurdur. Belə ki, heç bir kontakt olmadan uzaqdan-uzağa insanlara zərbə endirə bilir.

**Yazı**

Şagirdlər *“Məndə telekinez bacarığı olsa idi, nə edərdim?”* mövzusunda esse yazırlar. Hər bir şagird öz yazısında telekinezin nə olduğunu açıqlamalı, məhz hansı telekinez bacarığına malik olmaq istəyini bildirməlidir.
Mətnin davamını oxumazdan əvvəl müəllim şagirdlərə sualla müraciət edir:
*– Təsəvvür edin ki, qiymətli bir əşyanız oğurlanıb və siz bu işdə tanıdığınız bir adamdan şübhələnirsiniz. Bu vəziyyətdə nə edərsiniz?*
Şagirdlərin cavabları dinlənilir və müzakirə olunur.

**Oxu**

**I mərhələ.** Mətnin 2-ci hissəsi (səh. 213-214) oxunur. 2-ci tapşırıq yerinə yetirilir
**Suallar:** – *Mətnin bu hissəsində Leminin hansı bacarığı əks olunur?*
*– Lemi suyun altında neçə dəqiqə qalmışdı? Siz suyun altında nə qədər qala bilirsiniz?*
**II mərhələ.** Mətnin 3-cü hissəsinin 1-ci abzası oxunur (səh. 214).
**Suallar:** – *Sizcə, saatı kim və hansı məqsədlə oğurlamışdı?*
*–Uşaqlar bu vəziyyətdə nə edəcəklər?*
Şagirdlər cavab variantlarını söyləyirlər. Yaxşı olar ki, müəllim uşaqları aşağıdakı variantları genişləndirməyə yönəltsin:
1. Saatı Aysel gizlətmişdi. O istəmirdi ki, Lemi öz qardaşı ilə əlaqə saxlayıb gəldiyi planetə qayıtsın.
2. Saatı Rüstəm götürmüşdü. O istəyirdi ki, özü saat vasitəsilə yadplanetlilərlə əlaqə saxlayıb həmin planetə uçsun.
Şagirdlər bu variantları təxəyyüllərinə uyğun genişləndirir və mətn quraraq nəql edirlər.

LAYİHƏ

**III mərhələ.** Mətnin davamı "... İlqar onları görəndə özünü itirdi, amma saatı götürdüyünü boynuna almadı" cümləsinə qədər oxunur. Şagirdlər mətnin "Saat bu otaqda deyi", cümləsinə qədərki hissəsində Leminin telepatiya, "İlqar məni məcbur elədi ..." cümləsinədək olan hissəsində isə telekinez bacarığının üzə çıxdığını müəyyənləşdirirlər.

İş dəftərinin 143-cü səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilə bilər.

**IV mərhələ.** Mətnın davamı sona qədər oxunur.
Dərsliyin 215-ci səhifəsindəki <u>4-cü tapşırıq.</u> yerinə yetirilir.
*… , çünki buna haqqı yox idi.*
*… , çünki çempion ola bilməmişdi.*
*… , çünki nəfəs sistemindən düzgün istifadə etmirdilər.*
Söz ehtiyatı ilə bağlı <u>3,5,6-cı tapşırıqlar</u> yerinə yetirilir.

**Danışma** (debat)
*– Lemi artıq saatını geri aldığı halda Rüstəm İlqarı niyə vurdu? Sən bunu edərdinmi?*
Cavablar dinlənilir. Debatın mövzusu elan edilir.

**I qrup:** – *Rüstəm İlqarı vurmaqda haqlı idi.*
**Əsas arqument:** – *Cinayət cəzasız qalmamalıdır.*
**II qrup:** – *Rüstəm İlqarı vurmamalı idi.*
**Əsas arqument:** – *Nə olursa olsun, insanlar bir-birinə qarşı zor işlətməməlidirlər.*

İş dəftərinin 143-cü səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri, danışma, qrupların təqdimatı əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 99. VİRTUAL ƏLAQƏ (4 saat)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.2. Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir. | Dinlədiyi mətnə öz fikirlərini əlavə etməklə genişləndirir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Müəyyən mövzu ilə bağlı eşitdiyi, oxuduğu, araşdırdığı faktlar barədə məruzə hazırlayıb təqdim edir. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Mətndəki obrazların nitqini səsləndirərkən onların xarakterinə uyğun jest və mimikalardan istifadə edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Öyrəndiyi yeni terminlərin hansı sahəyə aid olduğunu müəyyən edir. |
| 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir. | Mətndə rast gəldiyi obrazlı ifadələri izah edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Konkret hadisə ilə bağlı dostuna internet vasitəsilə məktub yazır. |
| 4.1.5. Cümlənin düzgün qurulmasında baş və ikinci dərəcəli üzvlərin yerini müəyyən edir. | Cümlə üzvlərinin yerini müəyyən edir. |

LAYİHƏ

### Motivasiya

**Müəllim:** – *İnternet nə üçündür? İnternetden nə zaman istifadə edirsiniz? İndiki dövrdə internetin hansı imkanları var?*

Şagirdlər cavab variantlarını söyləyirlər. Əgər sinifdə internet varsa, müəllim şagirdlərə axtarış məqsədilə müəyyən tapşırıqlar verə bilər.

### Oxu

Dərsliyin 216-217-ci səhifələrində verilmiş “Virtual əlaqə” mətninin 1-ci hissəsi (səh. 216, “Bəs sonrakı rəqəmlər?..” cümləsinədək) oxunur. Rüstəmlə Kənanın telefon söhbəti səhnələşdirilir. Müəllim ifaçılara tapşırır ki, obrazların nitqini səsləndirərkən onların emosional vəziyyətini nəzərə alsınlar. Rüstəmin səsində sevinc, həyəcan, yuxudan yarımçıq durmuş Kənanın səsində isə əvvəlcə yorğunluq, sonra isə acıq, qəzəb hiss olunmalıdır. Bunun üçün şagirdlər müvafiq səs tembrindən, intonasiyadan, jest və mimikalardan istifadə etməlidirlər.

Müəllim suala aydınlıq gətirmək üçün aşağıdakı məlumatları şagirdlərə çatdırır:

*– Elmi-fantastik əsərlərdə, adətən, indiyə kimi görmədiyimiz və ya çox nadir olan, lakin elmi-nəzəri baxımdan mümkün olan məsələlərdən danışılır. “Yaşılgözlü qız” povesti də elmi-fantastik əsərdir. Yadplanetlilərin mövcud olması, telepatiya, telekinez hadisələri həyatda çox nadir olsa da, bu əsərdə inandırıcı səslənir. Lakin bəzən müəlliflər qeyri-mümkün görünən məsələlərə aydınlıq gətirmirlər. Onda əsərin həmin hissələri qeyri-inandırıcı görünür.*

**Sual:** – *Mətnin bu hissəsində nəyə inanmadınız?*

*Müəllimin nəzərinə: Əsərin bu hissəsində müəllif iki məqama aydınlıq gətirmir: 1. Kan Azərbaycan dilini haradan öyrəndi? (Məsələn, Leminin bu dili necə öyrənməyinə aydınlıq gətirilmişdi) 2. Kan öz planetində ola-ola Yerdəki internetə necə qoşula bilərdi? Əgər o, kosmik gəmidə Yerin orbitinə daxil olsa idi, çox güman ki, Lemi ilə əlaqə saxlayardı.*

Şagirdlər cütlərlə işləyərək mətni diqqətlə nəzərdən keçirir və cavab variantlarını hazırlayırlar. Şagirdlərin cavabları ümumiləşdirildikdən sonra müəllim belə bir tapşırıq verə bilər:

*– Əsərin müəllifinin adı Reyhan Yusifqızıdır. İnternetdə axtarış verməklə müəllifin e-mail ünvanını tapın və tənqidi qeydlərinizlə bağlı ona məktub göndərin.*

### Dinləmə

**İNTERNET**

“İnternet” sözü ingilis dilindəki “international” (beynəlxalq) və “network” (şəbəkə) sözlərinin birləşməsindən yaranıb. İnternet istifadəçiləri bir-birini internet ünvanı vasitəsilə tapırlar. İstənilən şəxs internetdə öz ünvanını yarada bilər. Adətən, bu ünvanda birinci söz şəxsin adını bildirir. Məsələn, *samir@yahoo.com, tural@hotmail.com* və s. Burada @ işarəsi kimi oxunur və ingilis dilindən tərcümədə bir şeyin yerini bildirən “da, də” (*at* – [ət]) şəkilçisinə uyğun gəlir.

Bundan başqa, internetdə öz səhifənizi də aça bilərsiniz ki, istənilən istifadəçi bu səhifəyə girib oradakı məlumatla tanış olsun. Belə səhifələrə sayt deyilir. Saytların adı WWW hərfləri ilə başlayır ki, bu da ingilis dilindəki *World Wide Web* (“Dünya hörümçək toru”) sözlərinin baş hərfləridir. *W* hərfinin adı ingilis dilində “dablyu”dur. Ona görə də saytların adı şifahi nitqdə “dablyu, dablyu, dablyu” ifadəsi ilə başlayır.

Hər gün yüz milyonlarla internet istifadəçisi bu şəbəkədəki müxtəlif saytlara daxil olaraq dünyanın istənilən yerinə məktub göndərir, multimedia jurnallarını oxuyur, istədiyi adamla söhbətləşir, məşhur muzeyləri seyr edir, ən zəngin kitabxanalarda araşdırmalar aparır, müxtəlif kliplərə baxır, internetdən götürdüyü faylları öz kompüterinə köçürür.

İnternet informasiya mübadiləsi üçün əvəzsiz vasitədir.

**Suallar:**

– *“İnternet” sözü hansı sözlərin birləşməsindən yaranıb?*

LAYİHƏ

*– İnternet istifadəçiləri bir-birini necə tapırlar?*
*– @ işarəsi azərbaycanca hansı şəkilçilərə uyğundur?*
*– Sayt nə üçün yaradılır və onun ünvanı hansı hərflərlə başlanır?*

**Yazı**

Tapşırıq: – *Axşam evə gəldikdən sonra məktəbdə baş vermiş hadisə ilə bağlı sinif yoldaşına internet vasitəsilə məktub yaz.*

**Araşdırma.** Şagirdlər dörd qrupa bölünürlər. Müəllim evdə araşdırma aparmaq üçün qruplara tapşırıqlar verir.

**I qrup:** – *İnernetin yaranması və inkişaf tarixi ilə bağlı araşdırma aparıb təqdim edin.*

**II qrup:** – *Valideynləriniz (və ya qohumlarınız) 1994-cü il istehsalı olan "Mercedes E230" markalı maşını satıb daha yenisini almaq istəyirlər. Bunun üçün onların 6000 manat pulları var. İnternetdə axtarış apararaq onlara 3 variant təklif edin.*

**III qrup:** – *Sizin ailə Bakının Əhmədli qəsəbəsində yerləşən ikiotaqlı mənzilini satıb şəhərin mərkəzinə yaxın yerdə üçotaqlı mənzil almaq istəyir. Bunun üçün ailə büdcəsində 25000 manat pul var. İnternetdə axtarış apararaq valideynlərinizə 3 variant təklif edin.*

**IV qrup:** – *Valideynləriniz bu dərs ilində yaxşı göstəricilərinizə görə sizə kompüter almaq istəyirlər və bunun üçün 700 manat pul ayırıblar. İnternetdə axtarış apararaq valideynlərinizə 2 variant təklif edin.*

Növbəti dərsin əvvəlində keçən dərsdə verilmiş araşdırma tapşırığının nəticələri yoxlanılır.

Müəllimin tapşırığı ilə şagirdlər "Virtual əlaqə" mətninin (dərslik, səh. 216) 1-ci hissəsinin son abzasını bir daha oxuyurlar.

**Müəllim:** – *Beləliklə, Rüstəm Kanla əlaqə yarada bilib. Sizcə, bundan sonra hadisələr necə davam edəcək? Məktubun sonundakı rəqəmlər nəyi göstərirdi?*

Şagirdlərin versiyaları dinlənilir.

**Oxu**

"Virtual əlaqə" mətninin 2-ci hissəsi (səh. 216-217) oxunur. "Sürpriz" və "okey" sözlərinin mənaları izah olunur və bildirilir ki, razılıq ("oldu") mənasında işlənən "okey" sözü "OK" kimi yazılır ("k" hərfinin adı ingilis dilində "key"dir).

Müəllim "okey" sözünün mənşəyi ilə bağlı aşağıdakıları bildirir:

*– Bəzi tədqiqatçıların fikrincə, bu söz ingilis dilində "all correct" [ol korekt] (hər şey öz qaydasındadır) ifadəsinin ilk səslərini bildirir. XIX əsrdə ingilis jurnalistləri məzəli olsun deyə bəzən sözləri tələffüzə uyğun yazırdılar. Onların tez-tez işlətdiyi bu ifadə də həmin dövrdə yaranıb.*

Mətnlə bağlı sual:

*– Sizcə, Rüstəmin cavab məktubundakı "1667667" rəqəmləri nəyi bildirir?*

Müəllim şagirdlərin diqqətini oxunmuş hissədəki İlqar obrazına yönəldir. Şagirdlər "Üzgüçülük hovuzunda" mətnindən bu obrazla bağlı epizodu yada salırlar.

**Sual:** – *Sizcə, nəyə görə müəllif birdən-birə mətnə İlqar obrazı ilə bağlı epizod salıb? Hadisələrin sonrakı inkişafında İlqarın rolu olacaqmı?*

Müəllimin tapşırığı ilə şagirdlər iki qrupda fəaliyyəti davam etdirirlər (hər qrup daha kiçik qruplara bölünüb eyni fəaliyyətlə məşğul ola bilər).

**I qrup:** – *Mətni elə davam etdirin ki, İlqar mənfi obraz kimi çıxış etsin.*

**II qrup:** – *Mətni elə davam etdirin ki, İlqar müsbət obraz kimi çıxış etsin.*

Qruplar mətnlərinin planını yazılı şəkildə hazırlayıb plan əsasında mətni nəql edirlər.

**Söz ehtiyatı**

2-ci tapşırıq. Oxunan hissədə rast gəlinən terminlər: planet, yadplanetli, kosmik fəza (astronomiya), kompüter, sayt, e-mail, monitor, internet (informatika).

3-cü tapşırıq. Üyüdüb-tökmək (dayanmadan danışmaq), car çəkmək (yüksək səslə etmək), divara dirəmək (çıxılmaz vəziyyətə salmaq), götür-qoy etmək (ətraflı fikirləşmək), evi başına götürmək (hər tərəfə yayılmaq).

LAYİHƏ

## Dil qaydaları

4-cü tapşırıq.

*Uşaqlar* mübtədadır, isimlə əvəz olunub.
*Yollandılar* xəbərdir, fellə əvəz olunub.
Hər ikisi baş üzvlərdir.
*Tələsik* ikincidərəcəli üzvdür, zərflə əvəz olunub.
*Evə* ikincidərəcəli üzvdür, isimlə əvəz olunub.
Mətndən daha bir neçə cümlə seçilir, tapşırıqdakı suallara cavab verilir.

İş dəftərinin 144-cü səhifəsindəki dil qaydası ilə bağlı tapşırıqdan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Məzmun xətləri üzrə qiymətləndirmə

**Oxu üzrə qiymətləndirmə** (İş dəftərinin 145-ci səhifəsində də verilmişdir.)

### KOSMİK GƏMİLƏRİN UÇUŞ BAZASI

Kosmik tədqiqatlar təzəcə başlandığı günlərdə Amerika prezidenti Con Kennedi kosmik gəmilərin uçuş bazasına gəlmişdi. O, burada bir çox məşhur alimlər və tədqiqatçılarla görüşdü. Bu insanların ən böyük arzusu kosmosu fəth etmək və nə vaxtsa Ayın səthində gəzmək idi. Onların hər biri lahiyənin həyata keçməsi üçün bütün gücünü səfərbərliyə almışdı. Bu insanlar  heç nədən çəkinmədən məqsədlərinə doğru inamla addımlayır və öz işlərinə görə qürur duyurdular.

Prezident öz gəlişi ilə layihənin dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu göstərmək istəyirdi. Dəhlizlə gedərkən o, bir əlində zibil qutusu, bir əlində isə xəkəndaz olan qaradərili bir xadimə ilə rastlaşdı. Prezident bu qadından nəzakətlə soruşdu:

– Bəs siz burada nə edirsiniz?

Xadimə qamətini düzəldərək prezidentə diqqətlə baxdı və böyük qürur hissi ilə cavab verdi:

– Burada hər kəsin etdiyini. Mən insanın Aya uçuşunu mümkün etmək üçün çalışıram. Mən burada məhz bununla məşğul oluram.

**1.** Mətnin ideyasını müəyyən et.
A) Dövlət başçısı hamı ilə nəzakətli olmalıdır.
B) Böyük məqsəd uğrunda görülən hər bir iş qiymətlidir.
C) Kosmik tədqiqatlar dövlət əhəmiyyətli işdir.

**2.** Mətndə hansı suala cavab var?
A) İlk kosmik uçuş nə vaxt həyata keçirildi?
B) Aya kosmik uçuş nə vaxt gerçəkləşdirildi?
C) Con Kennedi kosmik gəmilərin uçuş bazasına nə üçün gəlmişdi?

**3.** Mavi rənglə verilmiş sözlərdən hansı səhv yazılıb?
A) məşhur B) lahiyə C) fəth

**Yazı** üzrə qiymətləndirmə (əməli yazı)

Mövzu: *"Yaşılgözlü qız" əsərinin müəllifi ilə görüş haqqında elan tərtib et.*

LAYİHƏ

**Dil qaydaları** üzrə qiymətləndirmə

**1.** *“Gəmi Xəzərin sularını yara-yara gedir, ...”* cümləsinə hansı cümləni artırmaqla mürəkkəb cümlə yaratmaq olar?
A) Sərnişinlər vaqon pəncərələrindən Muğan çöllərinə tamaşa edirdilər.
B) Göyərtədə gəzişən sərnişinlər aydın səmada süzən qağayılara baxırdılar.
C) Külək tozanaq qaldırdığından sərnişinlər pəncərələri aça bilmirdilər.

**2.** Sözlərdən biri cümlədəki yerindən asılı olmayaraq həmişə böyük hərflə yazılır.
A) Təbriz
B) Sevinc
C) Arzu

**3.** Sözlərdən biri cümlənin ortasında işləndikdə kiçik hərflə yazılır:
A) Xəzər B) Çay C) Kür

**4.** Variantların birində cümlə üzvlərinin sırası pozulub:
A) Bu mavi dalğalı dənizi hər gün seyr etməkdən doymuram.
B) Dənizin suları buludlu havada qara görünür.
C) Qəzəblənmiş dalğalar çırpılırdı qayalara.

**5.** Hansı cümlədə *“bayram”* sözü böyük hərflə yazılmalıdır?
A) Uşaqlar bayram günlərini kənddə keçirdilər.
B) Bu bayramı biz nənəmgildə qeyd etdik.
C) Məncə, bayram çox xəyalpərəstdir.

## Dərs 100. HƏFTƏSONU (4 SAAT)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.1.1. Dinlədiyi eyni məsələlər barədə müxtəlif fikirləri ümumiləşdirməklə yekun rəy bildirir. | Dinlədiyi mətnlərdəki eyni faktlar üzrə müxtəlif fikirləri ümumiləşdirir. |
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Debat zamanı oxuduqlarından və eşidib-gördüklərindən misallar gətirməklə fikirlərini əsaslandırır. |
| 1.2.3. Nitqini canlı və obrazlı etmək məqsədi ilə məzmuna müafiq jest və mimikalardan istifadə edir. | Debat və müzakirələr zamanı nitqini təsirli etmək üçün jest və mimikalardan istifadə etməklə nəql edir. |
| 2.2.1. Müvafiq mətnləri düzgün, sürətli, intonasiya ilə (obrazların xarakterinə uyğun) oxuyur. | Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirir. |
| 4.1.1. Sadə fonetik təhlil aparır. | Sözlərin səs və hərf tərkibini fərqləndirir. |
| 4.1.6. Cümlə və onun növləri ilə əlaqədar kiçik təqdimatlar edir. | Mətndəki cümlələri quruluşca növlərinə görə fərqləndirir. |

**Motivasiya**
Müəllim qlobusun üstünə kiçik bir əşya (sancaq və ya pozan) qoyur:
– *Bilirsiniz ki, Yer kürə şəklindədir və daim öz oxu ətrafında fırlanır.*

LAYİHƏ

Bunu deyib müəllim qlobusu öz oxu ətrafında fırladır. Bu zaman onun üstündəki əşya düşür.

– *Gördüyünüz kimi, əşya düşdü. Deyə bilərsinizmi, nə üçün biz və digər canlılar Yerdən qopub açıq fəzaya düşmürük?*

Şagirdlər öz fikirlərini deyirlər. Sonda müəllim maqnitlə təcrübə apararaq cazibə qüvvəsinin mahiyyətini izah edir.

**Oxu**

Dərslikdən "Həftəsonu" mətninin 1-ci hissəsi (səh. 218) oxunur. Müəllim suallar vasitəsilə bu hissədə əks olunmuş elmi məlumatları nə dərəcədə qavradıqlarını soruşur (Yerdə və Ayda cazibə qüvvəsi, ulduz və planetlər, bürclər).

**Sual:** – *Uşaqlar gəzintidə Leminin planetini görə bildilərmi? Nə üçün?*

Müəllim lövhədə BİBÖ cədvəli çəkir.

Şagirdlər cədvəlin 1-ci və 2-ci sütunlarında bürclər haqqında qeydlər aparırlar.

**Dinləmə**

**BÜRCLƏR**

Kənardan – kosmosdan Yerə, Aya və planetlərə baxsaq, görərik ki, onların hər biri öz oxu ətrafında, eyni zamanda Günəş ətrafında fırlanır. Bu hərəkət min illər boyu dəyişməz qalır. Yerdən baxana isə elə gəlir ki, Günəş və Ay ulduzların arası ilə müəyyən bir dairə üzrə hərəkət edir. Bu dairəni *ekliptika* adlandırmışlar. Günəş və Ayın ekliptika üzrə cızdığı xəttə *Zodiak* adı verilmişdir.

Adama elə gəlir ki, ulduzlar nizamsız halda göy üzünə "səpələnib". Ancaq qədim insanlar ulduz qruplarında müəyyən fiqurlar görmüş, bu fiqurları heyvan və quşlara bənzətmişlər. Elə "Zodiak" sözü də yunan dilində "Heyvan əhatəsi" deməkdir. Ulduzların əmələ gətirdiyi fiqurlar *bürc* adlanır. Bir il ərzində Günəş və Ay öz yolunda 12 bürcdən keçir. Bu bürclərin adları bizə tanışdır: Qoç, Buğa, Əkizlər, Xərçəng, Şir, Qız, Tərəzi, Əqrəb, Oxatan, Oğlaq, Dolça və Balıqlar. Zodiak bürclərinin sayı ilin aylarının sayı qədərdir, lakin onlarla üst-üstə düşmür.

Min illər boyu insanlar bürclərlə insan taleləri arasında bağlılıq olduğuna inanmış, müşahidə aparmış və qeydlər etmişlər.

Dinləmə mətninin mənimsənilməsi ilə bağlı suallardan sonra müəllim soruşur: – *Kim belə bir sualla qarşılaşıb: "Sən Zodiak üzrə hansı bürcdənsən?" Kim hansı bürcdən olduğunu bilir?* Bir neçə şagirdin hansı bürcdən olduğu müəyyən edilir.

**Dil qaydaları**

Dərsliyin 219-cu səhifəsindəki 3-cü tapşırıq yerinə yetirilir:

intizarla [intizarnan]; gəlib [gəlip]; planetin [planetin]; ulduzlar [ulduzdar]; parıldadı [parıldadı].

Mətnin 1-ci hissəsində 3-cü abzasda verilmiş cümlələrdən iki mürəkkəb cümlə yaratmaq tapşırılır.

*1. Gün tez gəlib keçdi, axşam düşdü, hava sərinlədi.*

*2. Göyün üzü aydın və təmiz idi, Süd yolu, Böyük Ayı bürcü, Kiçik Ayı bürcü aydın görünürdü.*

Mətnin davamını oxutdurmaq məqsədilə müəllim aşağıdakı sualı verir:

– *Valideyniniz sizə hədiyyə alanda onun üzündən öpürsünüzmü?*

Daha sonra müəllim ayrı-ayrı şagirdlərə jest, mimika və nida səsləri ilə müxtəlif hissləri ifadə etməyi tapşırır:

– *Bir şeyə heyran olanda bunu necə ifadə edirsiniz?*

– *Təəccübünüzü necə bildirirsiniz?*

– *Yaxınlarınıza olan sevginizi necə büruzə verirsiniz?*

Şagirdlər müxtəlif hərəkətlərlə hiss və duyğularını ifadə edirlər.

**Oxu**

"Həftəsonu" mətninin 2-ci hissəsi (dərslik, səh. 218-219) rollu oyun şəklində oxunur.

Müəllim oxunun sonunda belə bir sual verir:

LAYİHƏ

*– Sizcə, mətnin sonunda Lemiyə verilən sualı Lemi uşaqlara versə idi, onlar necə cavab verərdilər?*

Ehtimal ki cavab təxminən belə ola bilər:

*– Lemi, biz səndən çox şeylər öyrəndik. Biz – Yer insanları öz səhvlərimizi düzəldəcəyik. İnanırıq ki, bizim planetimiz milyon illər yaşayacaq, çiçəklənəcək, onun gözəl, təmiz havası olacaq. Lemi, çox tez bir zamanda bizim planetimiz cənnətə çevriləcək.*

Tətbiqi çalışmalar üçün iş dəftərinin 146-cı səhifəsindəki 1-ci tapşırıqdan istifadə oluna bilər.

**Sual:** – *Leminin planetində yaşayanlarla Yerdə yaşayan insanların davranışları arasında hansı fərqlər var? Hansından daha çox xoşunuz gəlir?*

**Danışma** (debat)

**I qrup:** – *İnsan həmişə təmkinli və soyuqqanlı olmalıdır.*

**II qrup:** – *İnsan öz hiss və duyğularını gizlətməməlidir.*

Debatdan sonra sinifdəki şagirdlərdən kimin təmkinli, kimin emosional olması ilə bağlı şagirdlərin fikirləri öyrənilir.

**Dinləmə**

**Sual:** – *Deyə bilərsinizmi, Çin təqviminə görə bu il hansı heyvanın adını daşıyır?*

*Müəllimin nəzərinə:*

*2015-ci il – Qoyun*
*2016-cı il – Meymun*
*2017-ci il –Xoruz*
*2018-ci il – İt*
*2019-cu il – Qaban*

**ÇİN HOROSKOPU**

Çin imperatoru öz nökərini göndərdi ki, on iki ən gözəl heyvanı gətirsin. İmperator illəri onların adı ilə adlandırmaq istəyirdi. Nökər əvvəlcə siçovulu görüb onu imperatorun yanına dəvət etdi. Siçovul sevindi və şahla görüşə getmək üçün özünü qaydaya salmağa getdi.

Nökər fikirləşdi ki, öküz, pələng, dovşan, əjdaha, ilan, at, qoyun, meymun, xoruz və it də imperatorun xoşuna gələr. Bundan sonra bir heyvan qalırdı. Nökər pişiyin gözəlliyi haqqında çox eşitmişdi. Ona görə də uzun müddət onu axtardı. Lakin pişiyi heç yerdə tapmadığına görə siçovuldan xahiş etdi ki, dəvəti pişiyə çatdırsın. Siçovul pişiyi tapdı və xəbəri çatdırdı. Lakin pişik tənbəl idi və yatmağı sevirdi. Buna görə də o, siçovuldan xahiş etdi ki, onu lazım olan vaxt yuxudan oyatsın. Siçovul əvvəl razılaşdı, lakin öz yuvasına gəlib güzgüyə baxanda başa düşdü ki, pişik ondan qat-qat gözəldir və şahın yanında onu kölgədə qoyacaq. Buna görə də o, səhər pişiyi oyatmadı.

Ertəsi gün saat 6-da şirin-şirin yatan pişikdən başqa bütün dəvət edilmiş heyvanlar imperatorun yanında toplaşdılar. Heyvanların hamısı şahın xoşuna gəlməyə çalışırdı. Ən hiyləgəri siçovul oldu. O, öküzün belinə qalxaraq tütəkdə çalmağa başladı. Bu, şahın çox xoşuna gəldi və ona birinci yeri verdi. Öküz mərhəmətinə görə ikinci yeri tutdu. Pələngə üçüncü, gözəl kürkünə görə dovşana dördüncü, qeyri-adi görkəminə görə əjdahaya beşinci, müdrikliyinə görə ilana altıncı, ata yeddinci, qoyuna səkkizinci, cəldliyinə görə meymuna doqquzuncu, xoruza onuncu və itə on birinci yer verildi. Yalnız onda gördülər ki, sonuncu heyvan – pişik yoxdur.

Qulluqçu saraydan çıxıb ilin sonuncu simvolunu axtarmalı oldu. O, qarşısına çıxan birinci heyvanı – donuzu saraya dəvət etdi. Bu arada pişik oyandı və gördü ki, yuxuya qalıb, siçovul isə onu oyatmayıb. Pişik var gücü ilə saraya doğru qaçdı. Bu zaman nökər donuz ilə saraya gəldi və şah çirkin donuzu görüb ona on ikinci yeri verdi. Bu vaxt pişik gəlib çıxdı, lakin artıq gec idi. On iki ilin simvolu artıq təsdiq olunmuşdu. Pişik imperatorun çox

LAYİHƏ

| BÜRCLƏR | ÇİN HOROSKOPU | | | | |
|---|---|---|---|---|---|
| | 2004 Meymun | 2005 Xoruz | 2006 İt | 2007 Qaban | 2008 Siçan |
| **Qoç** (21 mart – 20 aprel) | Qorxmaz, agıllı və inadkardır. | Cəsur, ədalətlidir. Yalanı sevmir. | Əliaçıq, ədalətlidir. Cəlddir. | Yalanı sevmir. Enerjilidir. | Enerjili və düzgündür. Ünsiyyətcildir. |
| **Buğa** (21 aprel – 21 may) | Ünsiyyətcil, məqsədə çatmaqda inadkardır. | Xeyirxahdır, düzgünlüyü sevir. Müstəqildir. | Həssas, ağıllıdır. Rəhbərliyi bacarır. | Yaxşı biznesmendir. Gözəl yaşamağı sevir. | Rahatlığı, incəliyi sevir. |
| **Əkizlər** (22 may – 21 iyun) | İntellektual səviyyəli, agıllıdır. | Çox aktivdir. Xəyalpərəstdir. | Əsəbidir. Ünsiyyətcil və ətrafdan dəstək gözləyəndir. | Optimistdir. Elmlə məşgul olmağı sevir. | Müstəqildir. Hər bir vəziyyətdən çıxış yolu tapır. |
| **Xərçəng** (22 iyun – 22 iyul) | Hər vəziyyətdən çıxış yolu tapır. | Tez inciyəndir. Mühitə gec uyğunlaşır. | Həssas, emosionaldır. Kömək etməyi sevir. | Doğmalarını çox sevir və qoruyur. Sadiqdir. | Mehribandır. Bir az komplekslidir. |
| **Şir** (23 iyul – 23 avqust) | Səbirsiz, özünə hörmət edəndir. | Qürurludur. Ədalətli və xeyirxahdır. | Cəsur və döyüşkəndir. Kömək etməyi sevir. | Ürəyiaçıqdır. Komfortu sevir. | Aktiv, hiyləgərdir. Ciddiliyi sevir. |
| **Qız** (24 avqust – 23 sentyabr) | Ədalətli, alicənabdır. | İşgüzar, qənaətcildir. | Sülhsevər, ehtiyatlıdır. | Həssas, ədalətlidir. Diqqəti sevir. | Səliqəli və qənaətcildir. Fikirlərini bölüşməyi sevmir. |
| **Tərəzi** (24 sentyabr – 23 oktyabr) | Gözəl natiq, sülhsevərdir. | Mübahisə etməyi sevir. Lovğadır. | Ünsiyyətcil və mehribandır. | Çox götür-qoy edəndir. | Ağıllı və intellektualdır. Təkliyi sevmir. |
| **Əqrəb** (24 oktyabr – 22 noyabr) | Ehtiyatlıdır, hər şeyə maraq göstərir. | Emosionaldır. Zəhmətkeş və gözəl natiqdir. | Ünsiyyəti sevmir. Xırdaçıdır. | Hövsələlidir. Analiz edərək səhvləri tapır. | Güclü intuisiyası var. Yalanı sevmir. |
| **Oxatan** (23 noyabr – 21 dekabr) | İti ağıllıdır, səyahəti sevir. | Danışmağı çox sevir. Səyahəti xoşlayır. | Müstəqildir. Hərəkətdə olmağı sevir. | İntellektualdır. Düzgün qərar qəbul edir. Tərsdir. | Ünsiyyətcil və gözəl natiqdir. Çətinlikdən qorxmur. |
| **Oğlaq** (22 dekabr – 20 yanvar) | Qeyri-adi, mürəkkəb xasiyyətlidir. | Soyuqqanlı və ciddi, ədalətlidir. İntellektualdır. | Sakitdir. Kömək etməyi xoşlayır. | Zəhmətkeşdir. İncəsənəti çox sevir. | Səbirli, ədalətlidir. Zarafatı sevmir. |
| **Dolça** (21 yanvar – 18 fevral) | Bacarıqlı, bir az narahatdır. Sirr saxlayandır. | Fantaziyası güclüdür. Məsləhət verməyi sevir. | Zəhmətkeş, amma səbirsizdir. | Rahatlığı sevir. Özünə hörmət edir. | Ağıllı və xəyalpərəstdir. Güclü məntiqi var. |
| **Balıqlar** (19 fevral – 20 mart) | Mühitə tez uyğunlaşan, zəhmətkeşdir. | Xəyalpərəstdir. Vəziyyətdən çıxış yolu tapır. | Xeyirxah, ünsiyyətcil, sakitdir. | Sülhsevərdir. Dostluqda vəfalıdır. | Anlaşılmaz və qapalıdır. Ürəyiaçıqdır. |

LAYİHƏ

xoşuna gəlmişdi. Lakin artıq heç nəyi dəyişmək olmazdı, buna görə də o zamandan pişik ilə siçovul arasında barışmaz düşmənçilik var.

**Müəllim:** – *Astroloqların dediklərinə görə, insanın hansı ildə və hansı bürc altında doğulması onun xarakterini müəyyənləşdirir. Gəlin görək bu, doğrudanmı, belədir?*

Müəllim lövhədən "Çin horoskopu" plakatını asır (MMV, səh. 234). Bir neçə şagirdin cədvəldəki xanası tapılır və orada yazılanların onun xarakterinə uyğun gəlib-gəlmədiyi müəyyən olunur.

İş dəftərinin 146-cı səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilə bilər.

Cədvəllə əlaqədar aşağıdakı tapşırıqlar verilir.

1. Çin horoskopundan istifadə edərək ailə üzvünün və sinif yoldaşının xüsusiyyətlərini yaz.

| | ailə üzvü | sinif yoldaşı |
|---|---|---|
| Adı | | |
| Müşahidəmə əsasən | | |
| Çin horoskopuna əsasən | | |

2. Cədvələ əsasən hansı bürclər arasında oxşar xüsusiyyətlər olduğunu müəyyənləşdir.

3. 1991-ci il yanvarın 5-də doğulan insan haqqında verilənlərdən biri yanlışdır:
   A) Qoyun ilində doğulub.
   B) Oğlaq bürcündəndir.
   C) Ciddidir və məqsədinə çatmaq üçün mübarizə aparır.

4. Çin horoskopunda illər 12 ildən bir təkrarlanır. Buna əsasən 2005-ci il sentyabrın 8-də doğulan uşağın hansı ildən və bürcdən olduğunu və xüsusiyyətlərini yaz.

**Dil qaydaları**

Dərsliyin 219-cu səhifəsindəki 4-cü tapşırıq yerinə yetirlir.

İş dəftərinin 146-cı səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, danışma, qrupların təqdimatı, dil qaydaları üzrə sual və tapşırıqlar əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 101. VİDA (4 SAAT)

| Məzmun standartları | Təlim məqsədləri |
|---|---|
| 1.2.1. Müşahidə etdiyi, oxuduğu, eşitdiyi fakt və hadisələr haqqında kiçik təqdimatlar edir. | Verilmiş qrafik informasiyanı (barqrafı, diaqramı) şifahi şəkildə şərh edir. |
| 2.1.2. Mətndəki terminləri fərqləndirir. | Rast gəldiyi yeni terminlərin kiçik izahlı lüğətini tərtib edir. |
| 2.2.4. Mətnin məzmununu genişləndirir, dəyişdirir, yaradıcı şəkildə davam etdirir. | Oxuduğu mətni təxəyyülünə uyğun davam etdirir. |
| 3.1.5. Sinif səviyyəsinə uyğun olaraq müəyyən edilən əməli yazılar (məktub, elan, ərizə, dəvətnamə) yazır. | Oxuduğu əsərin qəhrəmanına məktub yazır.<br>Oxuduğu əsərin müəllifinə məktub yazır. |

**Motivasiya**

**Müəllim:** – *Sizcə, Lemi öz planetinə qayıda biləcəkmi?*

Şagirdlərin proqnozları dinlənilir.

LAYİHƏ

## Oxu

Dərsliyin 220-222-ci səhifələrində verilmiş “Vida” mətni fasilə verməklə oxunur. Fasilələrdə müəllim şagirdlərə suallarla müraciət edir.

**I fasilə:** – Rüstəm nəyə görə Lemi üçün kitab yığırdı?

**II fasilə:** – İlqar nəyə görə polisləri çağırmışdı?

– Sizcə, polislər Kənangilin həyatına nə məqsədlə gəlmişdilər?

Kənanın atasına danışdıqlarını elə nəql edin ki, ata buna inansın.

**III fasilə:** – Sizcə, ata niyə məhz indi tərəddüd etməyə başladı? Lemini yola salan uşaqların hislərini təsvir edin. Onlar daha çox sevinir, yoxsa kədərlənirdilər?

**IV fasilə:** – Kənanın atası “Biz zəifik” deyəndə nəyi nəzərdə tuturdu? Ata diqqətlə Leminin gözlərinə baxdı. O gözlərdən nələri oxumaq olardı?

Mətn sona qədər oxunur. Müəllim şagirdlərə əlavə tapşırıqlar verə bilər:

*Kənanın atasına danışdıqlarını elə nəql edin ki, ata buna inansın.*

*Lemini yola salan uşaqların hislərini təsvir edin. Onlar daha çox sevinir, yoxsa kədərlənirdilər?*

*Ata diqqətlə Leminin gözlərinə baxdı. O gözlərdən nələri oxumaq olardı?*

1-ci tapşırıq. C və D variantları.

2-ci tapşırıq. Siqnalın gəlməsi kosmik gəminin Yer planetinə yaxınlaşmasından xəbər veririrdi.

## Yazı

Dərsliyin 222-ci səhifəsindəki 4-cü tapşırıq yerinə yetirilir.

Tapşırıq: – *“Yaşılgözlü qız” əsərində kimi mənfi obraz hesab edirsən? Onun haqqında düşündüklərini yaz.*

*“Əsərin davamı ilə bağlı müəllifə məktub yazaraq arzu və məsləhətlərini bildir”* tapşırığını yerinə yetirmək üçün şagirdlər müzakirə keçirirlər. Bir neçə variant təklif oluna bilər.

*1. Rüstəm aviakonstruktor sənətinə yiyələnib kosmik gəmi düzəldir və uşaqlar Leminin planetinə uçurlar.*

*2. Yerdəki uşaqlar çətinliyə düşürlər və Lemi qardaşı ilə onların köməyinə gəlir.*

*3. Uşaqlar kosmik gəmidə Marsa səyahət edirlər. Gəmi qəzaya uğrayır. Lemi onların köməyinə gəlir.*

Şagirdlər bu fikirləri genişləndirərək müəllifə məktubda bunu qeyd edirlər.

## Dinləmə

**Müəllim:** – *Bu gün kosmik gəmidə kosmosa uçuşlar adi hadisəyə çevrilib. Lakin 100 il bundan qabaq insanlar kosmik fəzaya çıxışı ağıllarına belə gətirə bilməzdilər. Sizcə, kosmosa uçuşlar elmin inkişafına necə təsir göstərir?*

Şagirdlər bu haqda fikirlərini deyirlər.

**Əlavə suallar:**

– *Kosmonavt kimə deyilir? Kosmodrom nədir? Skafandr nədir?*

Müəllim lövhədə cədvəl nümunəsi çəkir.

| Tarix (nə zaman?) | Şəxs (kim?) | Hadisə (nə etdi?) |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |

LAYİHƏ

Şagirdlərə tapşırılır ki, cədvəli ayrıca bir vərəqdə çəksinlər, mətni dinlədikcə məlumatları müvafiq xanalarda qeyd etsinlər. Şagirdlərin bunu edə bilməsi üçün müəllim mətni aramla oxuyur.

### KOSMONAVTİKANIN TARİXİ

1957-ci ilin payız günlərindən birində Baykonur adlanan kosmodromda çoxlu adam

yığışmışdı. Həmin gün buradan ilk dəfə Yerin süni peyki kosmosa çıxarılırdı. Bundan təxminən 1 ay sonra Yerin ikinci süni peyki buraxıldı. Peykdə müxtəlif elmi cihazlarla yanaşı, Layka adlı it üçün quraşdırılmış kabinə də var idi. Bu it kosmosa "ayaq basmış" ilk canlı idi. Bu uçuşda əsas məqsəd kosmosa qalxma zamanı canlı orqanizmlərin qarşılaşdığı çətinlikləri öyrənmək idi.

Bundan sonra da dəfələrlə kosmosa süni peyklər qaldırıldı. Bütün bunlarla insan kosmosa çıxmağa hazırlaşırdı. Nəhayət, dünyada ilk dəfə 12 aprel 1961-ci il saat $09^{07}$ dəqiqədə insan kosmosa uçdu. İlk kosmonavt Yuri Alekseyeviç Qaqarin oldu. Bir anda bu xəbər bütün dünyaya yayıldı. "Vostok" adlandırılmış ilk kosmik gəminin kapitanı Yerin ətrafına dolandı. Cəmi 108 dəqiqə davam etmiş bu kosmik uçuşun həyata keçirildiyi gün Ümumdünya Aviasiya və Kosmonavtika Günü kimi qeyd edilir.

1963-cü ildə ilk kosmonavt qadın Valentina Tereşkovanın kosmik uçuşu baş tutdu.

1965-ci ildə xüsusi skafandr geyinmiş Aleksey Leonov ilk dəfə olaraq uçuş zamanı gəmidən açıq kosmik fəzaya çıxdı.

1969-cu ildə "Apollon-11" gəmisi Ayın səthinə endi. Gəminin kapitanı olan Amerika astronavtı Aya ayaq basmış ilk insan oldu. Bu zaman onun söylədiyi "İnsan üçün kiçik addım, lakin bütün bəşəriyyət üçün nəhəng sıçrayış" cümləsi tarixə düşdü.

Əvvəllər ilk təyyarələrdə havaya qalxan hər kəsə təyyarəçi deyildiyi kimi, indi bir dəfə kosmosda olmuş hər kəsə kosmonavt deyirik. Lakin vaxt gələcək, kosmosda kosmik gəmilərin sərnişinləri də olacaq. Onda biz yalnız kosmik gəmini idarə edənlərə kosmonavt deyəcəyik.

Mətn dinlənildikdən sonra bir neçə şagird öz cədvəli əsasında mətni nəql edir.
İş dəftərinin 148-ci səhifəsindəki 2-ci tapşırıq yerinə yetirilə bilər.
*Krossvordun cavabları: 1) Leonov, 2) Tereşkova, 3) Yupiter, 4) Layka, 5) skafandr, 6) Merkuri, 7) kosmos, 8) atmosfer, 9) Saturn, 10) Mars, 11) kosmodrom, 12) Venera, 13) Qaqarin*

**Söz ehtiyatı**

Şagirdlər bölmədə rast gəldikləri yeni sözlərin əlifba sırası ilə izahlı lüğətini tərtib edirlər. (Tapşırıq iş dəftərinin 147-ci səhifəsindəki cədvəldə yerinə yetirilə bilər.)
İş dəftərinin 148-ci səhifəsindəki dil qaydaları ilə bağlı tapşırıqlardan istifadə oluna bilər.

**Qiymətləndirmə.** Müşahidə, yazı işləri əsasında təlim məqsədinin nə dərəcədə reallaşdığı qiymətləndirilir.

## Dərs 102. ÜMUMİLƏŞDİRİCİ TƏKRAR (2 saat)

Bu dərsdə dərsliyin 223-cü səhifəsində verilmiş sual və tapşırıqlar yerinə yetirilir, müvafiq bölmədə tədris olunmuş materiallar təkrarlanır. Bununla yanaşı, müəllim həm özünün hazırladığı materiallardan, həm də müxtəlif qiymətləndirmə vasitələrindən istifadə edə bilər. Tapşırıqların seçimi zamanı bölmədə reallaşdırılmış standartları əsas götürmək lazımdır.

## Dərs 103. 8-ci BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (2 saat)

**Dinləmə və yazı üzrə qiymətləndirmə** (İş dəftərinin 149-cui səhifəsində də verilmişdir.)

**GÜNƏŞ VƏ AY**

Deyirlər, Günəş və Ay bacı-qardaş imiş. Onlar mehriban dolanır, həmişə dünyanı bir yerdə səyahət edirlər.
Bir gün Göy ana uşaqları – Günəş və Ayı yanına çağırıb deyir:
– Övladlarım, siz hər dəfə səfərə birlikdə çıxdığınıza görə mən tək qalıram. Artıq təklik mənə güc gəlir. Deyirəm, bu gündən biriniz burada – yanımda qalsın, o biriniz isə gedib dünyanı fırlanıb gəlsin. Ay, sən gündüzlər yanımda qal, qoy bacın Günəş gəzsin. O, axşam qayıdar,

LAYİHƏ

sonra sən səfərə çıxarsan.

Ay razılaşmır:

– Mənə gündüzlər sərf edir, – deyir.

Göy ana oğluna ha başa salır ki, Günəş qızdır, gecə qaranlıqda yola çıxsa, qorxub-eləyər, Ay tərsliyindən qalmır:

– Yox, mən səhərlər gedəcəyəm.

Göy ana da dözməyib bərk hirslənir, xəmirli əli ilə oğlunun üzünə şillə vurur...

Deyirlər, o vaxtdan Ayın üzünə ləkə düşüb. O da utandığından səfərə ancaq gecələr çıxır. Günəş isə səhər açılan kimi uzun sarı saçlarını açıb onun qabağını tuturmuş ki, qardaşının üzündəki ləkələri görməsinlər.

1. Göy ana övladlarına nə məsləhət görür?
   A) Hər zaman hörmət edin ki, hörmət görəsiniz.
   B) Aya bacısı Günəşə göz-qulaq olmağı tapşırır.
   C) Oğlu səfərə gecələr çıxsın, qızı isə gündüzlər.

2. Ana nə üçün Günəşin gecələr səfərə çıxmasını istəmir?
   A) O, qızdır və gecələr qorxar deyə
   B) Onun gündüzlər vaxtı olduğuna görə
   C) Gündüzlər ana qızı olmayanda darıxır deyə

3. Səncə, Ay nə üçün gündüzlər səfərə çıxmaq istəyir?

   ______________________________________________
   ______________________________________________
   ______________________________________________

4. Ana nə üçün oğluna şillə vurur?
   A) Onun sözündən çıxdığı üçün
   B) Bacısını incitdiyi üçün
   C) Səfərdən gec qayıtdığı üçün

5. Ayın üzündəki "ləkə" nədən yaranıb?
   A) Bacısı onun üzünü cızmışdı.
   B) Üzündə yaradan qalmış izdir.
   C) Anasının xəmirli əlinin izidir.

6. Nə üçün Günəş çıxanda Ay gözdən itir?

   ______________________________________________
   ______________________________________________
   ______________________________________________

**Oxu və dil qaydaları** üzrə qiymətləndirmə (İş dəftərinin 150-151-ci səhifələrində də verilmişdir.)

## MARAĞA RƏSƏDXANASI

1 Tusi Marağada tikiləcək rəsədxananın xərci haqqında Hülakü xana xəbər verir. Xan təəccüblə soruşur: "Ulduzlar haqqında elm belə faydalıdır ki, rəsədxanaya bu qədər pul xərcləyək?" Bu sualı eşidən alim məyus olur. O, tələb edir ki, iri bir çəlləyi şəhərin yanındakı təpəyə qaldıraraq oradan aşağı buraxsınlar. Çəllək uğultuyla aşağı yuvarlananda şəhər əhalisi arasında çaxnaşma düşür. Alim və hökmdar isə kənarda dayanıb sakitcə bu mənzərəni seyr edirlər.

LAYİHƏ

2 Dahi alim və filosof Nəsirəddin Tusinin <u>ən</u> böyük xidmətlərindən biri Marağa rəsədxanasının yaradılması olmuşdur. Onun tikilməsi barədə maraqlı bir əhvalat var.

3 Bu **yolla** Tusi Hülakü xanı rəsədxananın tikilməsi <u>üçün</u> lazımi xərcləri ödəməyə asanlıqla razı salır.

4 Səs-küy bitdikdə Xacə Nəsirəddin xana deyir:

– Biz bu səs-küyün səbəbini bildiyimiz üçün sakit idik. Camaat isə bunu bilmədiyinə görə narahat oldular. Yerdə sakit yaşamaq istəyirsənsə, ...

1. Abzasların düzgün sırasını seç.
   A) 2, 3, 1, 4 B) 4, 1, 3, 2 C) 2, 1, 4, 3

2. Hansı fikri mətnə aid etmək olmaz?
   A) Nəsirəddin Tusi böyük alim və filosof idi.
   B) Çəlləyin səsi Hülakü xanı qorxutmuşdu.
   C) Nəsirəddin Tusi Marağa rəsədxanasının yaradıcısı olmuşdur.

3. Mətndə hansı suala cavab yoxdur?
   A) Nəsirəddin Tusi neçənci əsrdə yaşamışdır?
   B) Rəsədxana hansı şəhərdə tikilməli idi?
   C) Tikintinin xərcini kim ödədi?

4. *"Çaxnaşma"* sözünü hansı sözlə əvəz etmək olar?
   A) zəlzələ B) vəlvələ C) qəhqəhə

5. *"Sonralar Marağa rəsədxanası məşhurluğuna görə Şərqin bütün rəsədxanalarını geridə qoymuşdu"* cümləsi hansı abzasın sonuna uyğun gəlir?
   A) 2 B) 3 C) 4

6. *"Yol" sözü* hansı cümlədə mətndəki mənasında işlənib?
   A) Kəndə çəkilən yeni yol dağın ətəyindən keçir.
   B) Ana oğlunu əsgərliyə yola saldı.
   C) Uşaqlar məsələnin asan həlli yolunu tapdılar.

7. Altından xətt çəkilmiş köməkçi nitq hissələrinin cümlədəki vəzifəsini müəyyənləşdir.
   A) ən B) üçün C) ki
   1. Ayrı-ayrı cümlələrin bağlanmasına xidmət edir. A B C
   2. Özündən sonra işlənən sözün mənasını qüvvətləndirir. A B C
   3. Özündən əvvəl gələn sözə yeni məna çaları verir. A B C

8. Hansı rənglə verilmiş cümlədə mübtəda ilə xəbər arasında uzlaşma pozulub?
   A) B) C)

9. 4-cü abzasın sonunda nöqtələrin yerinə hansı cümlə uyğun gəlir?
   A) Çoxlu pulun olmalıdır.
   B) Göydə baş verənlərdən xəbərin olmalıdır.
   C) Güclü hakimiyyətin olmalıdır.

LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

**AZƏRBAYCAN DİLİ 4**
Ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün
"Azərbaycan dili" (tədris dili kimi) fənni üzrə dərsliyinin
**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəlliflər: ***Rafiq İsmayılov***
***Solmaz Abdullayeva***
***Xanım Qasımova***

Redaktor: ***Nigar Həbibova***
Bədii tərtibat: ***Rəşad Nəbiyev***
Korrektor: ***Aqşin Məsimov***

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2019-011)**

*Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.*

Fiziki çap vərəqi 30. Formatı 57x82 1/8. Səhifə sayı 240.
Ofset çapı. Ofset kağızı. Tiraj 8782. Pulsuz. Bakı – 2019.

**«ASPOLİQRAF LTD» MMC**
Bakı, AZ 1052, F.Xoyski küç., 149
e-mail: aspoligraf.ltd@gmail.com

LAYİHƏ

PULSUZ

LAYİHƏ